# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ALTMIŞ YEDDİNCİ KİTAB

## YANVAR 2015 - MART 2015

AZƏRNƏŞR
BAKI - 2018

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən «Regionların transformasiyası: Avrasiya» mövzusunda sessiyada çıxışına, Davosda dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar, dövlət başçısının İsveçrə Konfederasiyasına, Almaniya Federativ Respublikasına, Bolqarıstan və Türkiyə respublikalarına rəsmi və işgüzar səfərləri, həmçinin Pakistan İslam Respublikası Prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə aid materiallar, Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans–Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasimdə çıxışı, Qarsda Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin açılışı mərasimindəki geniş nitqi yer almışdır.

Cilddə, həmçinin ölkə başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin açılışlarında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxış və danışıqlarına dair materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*21 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 21-də İsveçrəyə işgüzar səfərə gəlmişdir.*

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ MƏHƏMMƏD NƏHAVƏNDİAN İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda İran İslam Respublikasının Prezidenti Administrasiyasının rəhbəri Məhəmməd Nəhavəndian ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsindən məmnunluq ifadə olundu. Ötən il Davosda Azərbaycan və İran prezidentlərinin görüşündən keçən müddətdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurlu inkişafının məmnunluq doğurduğu qeyd edildi. Son dövrdə dövlət başçılarımızın görüşlərində ikitərəfli münasibətlərin inkişafına dair aparılan səmərəli müzakirələrin bu gün müsbət nəticələr verdiyi bildirildi. Eyni zamanda, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etdiyi və bir-birini dəstəklədiyi diqqətə çatdırıldı.*

*Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif sahələri, o cümlədən enerji, qarşılıqlı sərmayə qoyuluşu, neft, turizm, səhiyyə və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM SİMONETTA SOMMARUQA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi sahədə səmərəli əlaqələrin olduğu qeyd edildi və əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu diqqətə çatdırıldı. İsveçrə şirkətlərinin Azərbaycanda sərmayə qoyuluşu, enerji sahəsində əməkdaşlıq, eləcə də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bu ölkədəki fəaliyyətinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmi qeyd olundu, Azərbaycanın və İsveçrənin həyata keçirəcəyi birgə layihələrin qarşılıqlı faydalı olduğu bildirildi, mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi.*

*Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «AİRBUS GROUP INTERNATİONAL» ŞİRKƏTİNİN DİREKTORU JAN-PYER TALAMONİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Airbus Group International» şirkətinin direktoru Jan-Pyer Talamoni ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında kosmos sənayesi sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı «Azərbaycan Hava Yolları» QSC ilə «Airbus Group International» şirkəti arasında əməkdaşlığın genişləndirilməsinə dair məsələlər müzakirə edildi.*

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Azərbaycanın Avropanın enerji təminatında artan rolunun önəmi vurğulandı, bu sahədə «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı gələn ay Bakıda keçiriləcək «Cənub Qaz Dəhlizi»nin nazirlər səviyyəsində I Məşvərət Şurasına dair məsələlər müzakirə edildi, əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## «SWİSS RE GLOBAL PARTNERSHİPS» ŞİRKƏTİNİN SƏDRİ MARTİN PARKER İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Swiss Re Global Partnerships» şirkətinin sədri Martin Parker ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Swiss Re Global Partnerships» şirkəti arasında əməkdaşlığın genişləndirilməsindən məmnunluq ifadə olundu.*

*Prezident İlham Əliyev ilə ötənilki görüşdən keçən dövr ərzində şirkətin Azərbaycanın bir sıra dövlət qurumları – Maliyyə, Fövqəladə Hallar, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri ilə görüşləri nəticəsində hazırlanmış, ölkəmizdə baş verə biləcək təbii fəlakətlərin qarşısının alınması ilə bağlı sığortanın təşkilinə dair Anlaşma Memorandumu ətrafında müzakirələr aparıldı.*

*Dövlətimizin başçısına bu istiqamətdə verdiyi dəstəyə görə təşəkkürünü bildirən Martin Parker bu sahədə işlərin davam etdiriləcəyinə əminliyini vurğuladı.*

## «SBERBANK»IN SƏDRİ GERMAN QREF İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Rusiya Federasiyası «Sberbank»ının sədri German Qref ilə görüşmüşdür.*

*Görüşdə «Sberbank»ın sədri Azərbaycanda gedən inkişaf proseslərinin maraqla izlənildiyini bildirdi, ölkəmizin müvafiq maliyyə və bank strukturları ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Azərbaycan iqtisadiyyatının sürətli inkişafı nəticəsində investisiya qoyuluşu baxımından cəlbedici ölkəyə çevrildiyini deyən German Qref rəhbərlik etdiyi bankın Azərbaycanın müvafiq qurumları ilə bundan sonra da səmərəli əməkdaşlıq aparacağına ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda iqtisadi inkişaf proseslərindən danışdı, ölkəmizin bank, maliyyə, energetika sistemlərində mühüm islahatların, eləcə də investisiya sahəsində uğurlu siyasətin həyata keçirildiyini dedi. Dövlətimizin başçısı Azərbaycanda investisiya qoyuluşu üçün əlverişli şəraitin yaradılmasının önəmini qeyd edərək, Azərbaycanın da xarici ölkələrə fəal sərmayə yatırdığını vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın maliyyə qurumları ilə «Sberbank» arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## NİDERLANDIN «DAMEN SHİPYARDS GROUP» ŞİRKƏTİNİN SƏDRİ KOMMER DAMEN İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Niderlandın «Damen Shipyards Group» şirkətinin sədri Kommer Damen ilə görüşmüşdür.*

*Görüşdə «Damen Shipyards Group» şirkəti ilə Azərbaycanın müvafiq qurumları arasında artıq səmərəli əməkdaşlığın başlandığı vurğulandı.*

*Kommer Damen rəhbəri olduğu şirkətin Azərbaycanda hərbi, mülki və xidməti gəmilərin istehsalına maraq göstərdiyini bildirdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## İSRAİL DÖVLƏTİNİN SABİQ PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda İsrail Dövlətinin sabiq prezidenti Şimon Peres ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi.*

*Söhbət zamanı iqtisadi sahədə əməkdaşlığın və mədəniyyətlərarası dialoq istiqamətində əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## SOROS FONDUNUN TƏSİSÇİSİ CORC SOROS İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Soros Fondunun təsisçisi Corc Soros ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda gedən inkişaf prosesləri ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «REGİONLARIN TRANSFORMASİYASI: AVRASİYA» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən «Regionların transformasiyası: Avrasiya» mövzusunda sessiyada iştirak etmişdir.*

*Sessiyanın aparıcısı, iqtisadiyyat üzrə professor Viktor Halberştad iştirakçıları təqdim etdikdən sonra sözü dövlətimizin başçısına verdi.*

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Transformasiyadan danışarkən, hansı ki, Azərbaycan bu barədə çox narahatdır, bir az keçmişə, 1991-ci ilə – müstəqilliyimizin ilk illərinə qayıtmalıyıq. Biz o zaman müstəqil dövlət qurmaq öhdəliyi götürmüşdük. Eyni zamanda, bazar iqtisadiyyatı prinsipləri əsasında modern iqtisadiyyat qurmalı idik. Transformasiya bizim üçün siyasi sistemin transformasiyası idi, çünki müstəqillikdən əvvəl bizdə belə bir imkan yox idi. Həmçinin planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid olmalı idi. Mən belə hesab edirəm ki, 23 illik müstəqillik dövrü «açıq qapı» siyasətini yürüdən, sərmayələri cəlb edən və bugünkü əsas çağırışları aradan qaldıran ölkənin əldə etdiyi nailiyyətləri baxımından çox maraqlı dövr hesab edilə bilər.

İqtisadi cəhətdən Azərbaycan iqtisadiyyatının 85 faizini özəl sektor formalaşdırır. İqtisadiyyatın şaxələndirilməsi siyasəti də uğurla həyata keçirilir. Neft qiymətlərindən asılılığımız get-

gedə azalır. Beləliklə, iqtisadiyyatımızın böyük bir qismi qeyri-enerji sektoru tərəfindən təmin edilir. Həmçinin əsas beynəlxalq maliyyə təsisatlarının, xüsusən də Avropa Yenidənqurma və İnkişaf Bankı və digərlərinin yardımı ilə çox sayda böyük infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində mühüm işlər görmüşük. İndi isə Azərbaycan artıq donor ölkəyə çevrilib. Biz artıq özümüz Beynəlxalq Maliyyə Korporasiyası və digər beynəlxalq maliyyə təsisatları vasitəsilə bəzi layihələri maliyyələşdiririk.

Əlbəttə, başlanğıcda enerji təhlükəsizliyi məsələsi bizim üçün inkişaf vasitəsi kimi götürülmüşdür, çünki biz böyük enerji resurslarına malikik. Enerji resurslarımız regionda mühüm rol oynayır. Bu yaxınlarda digər yeni nəhəng meqalayihəyə başlamışıq. Bu, «Cənub Qaz Dəhlizi» adlanır. Bu layihə vasitəsilə qaz Azərbaycandan Avropaya nəql ediləcək. Bu ola bilsin ki, Avropanın ən iri infrastruktur layihələrindən biri olacaq. «Cənub Qaz Dəhlizi» layihəsi artıq həyata keçirilən layihədir. İqtisadiyyatın şaxələndirilməsi, demək olar ki, hər bir ölkə, xüsusən də zəngin neft və qaz ehtiyatlarına malik olan ölkə üçün ən mühüm elementlərdən biridir. Bu məsələdə də biz müəyyən uğurdan danışa bilərik.

Lakin gələcəkdə də görüləsi işlər çoxdur. Çünki biz müstəqillikdən sonra nəinki mənfidən müsbətə doğru dəyişən, o cümlədən əfsuslar ki, vəziyyətin gərginləşdiyi, get-gedə daha çox münaqişə, hədələr, eləcə də terror hücumu təhlükəsi yaranan regionda yaşayırıq. Əlbəttə, ölkə daxilində sabitlik onun hüdudlarından kənarda müəyyən dərəcədə proqnozlaşdırılan vəziyyət olduğu təqdirdə tam təmin edilə bilər. Bu səbəbdən, enerji və daşıma layihələrimiz daha geniş beynəlxalq və regional əməkdaşlığa yönəlib ki, hər bir ölkə bundan bəhrələnsin. Fikrimcə, hökumətimizin apardığı siyasət hər kəsin – hasilatçı, tranzit və istehlakçı ölkələrin imkanlarımızdan bəhrələnməsinə yönəlib. Bu bir növ Azərbaycanın nail olduğu vahid komanda işidir. Hazırda yerləşdiyimiz regionun imkanları

heç vaxt indiki qədər geniş olmayıb. Lakin regionumuzun hüdudlarından kənarda vəziyyət dəyişir.

Yeni çağırışlara gəldikdə, neftin qiymətinin aşağı düşməsi iqtisadiyyatımız üçün çağırışdır. Bununla belə, düşünürəm ki, hətta hər hansı mənfi bir hadisə baş verdikdə, biz müsbət məqamları tutmağa çalışmalıyıq. Bu bizi daha qənaətcil olmağa, xərcləri azaltmağa səfərbər edəcək və neftin aşağı qiymətləri ilə yaşamağı öyrədəcək. Bu, resurslarımız tükənəndə bizim üçün çox faydalı olar.

Əlbəttə, bizim üçün əsas çağırış münaqişənin həll olunmasıdır. Çünki biz 20 ildən artıqdır ki, Ermənistanın işğalından əziyyət çəkirik. 20 ildən çoxdur ki, aparılan danışıqlar hər hansı nəticə verməyib. Fikrimcə, keçmiş sovet məkanındakı və ümumiyyətlə, dünyadakı bütün münaqişələrə eyni prizmadan baxılmalıdır, eyni yanaşma, eləcə də eyni beynəlxalq hüquq normaları tətbiq edilməlidir. Əgər hər hansı münaqişə həll olunmursa və ya dondurulursa, onda digər münaqişələrə fürsət yaranır. Burada ötən dəfə olduğum vaxtdan görürük ki, bir çox şeylər dəyişib. Biz hətta təsəvvür edə bilmədiyimiz yeni təhlükələri görürük və onlar artıq regional deyil, qlobal hədələrdir. Sabitliyin pozulması, ola bilsin, yerli və ya regional görünən problemlərin vaxtında həll edilməməsi nəticəsində Avropada baş vermiş dəhşətli hücumların şahidi olduq.

Əlbəttə ki, bizim münaqişə, yəni Azərbaycan ilə Ermənistan arasında olan münaqişə regional xarakter daşıyır, lakin həm coğrafiya, həm də metodologiya baxımından daha böyük təsirə malikdir. Əgər siz bu münaqişəni beynəlxalq hüquq əsasında həll etməsəniz, bu kimi halları dünyanın digər yerlərində də görməyə hazır olun. Həmçinin o da doğrudur ki, beynəlxalq hüquq normaları bəzi ölkələrin maraqlarına uyğun olaraq interpretasiya edilməli deyil. Onlar yazıldığı kimi interpretasiya edilməlidir. BMT-nin Nizamnaməsində, ATƏT-in və digər beynəlxalq təşkilatların sənədlərində beynəlxalq hüquq normalarının prioritet xarakteri barədə çox aydın şəkildə təriflər verilib. Onların hamısına hörmətlə yanaşmaq lazımdır. Belə olan halda, biz ikili

standartlardan sığortalana bilərik və daha vacibi isə regionumuzda yeni münaqişələrin yaranması riskini azaldacağıq.

**Janar Aytjanova** (*Qazaxıstanın İqtisadi İnteqrasiya Məsələləri üzrə naziri)*: Qazaxıstan Azərbaycan kimi, neft və qaz sektoruna xarici sərmayələrin cəlb edilməsində uğur qazanıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əsas vəzifə milli iqtisadiyyatın şaxələndirilməsi və daha yaxşı investisiya mühitinin yaradılmasıdır. Bu, regionda çağırışların aradan qaldırılmasına dair Qazaxıstanın yanaşması və mövqeyidir.

**Suma Çakrabarti** (*Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti)*:Yekun məqamı qeyd edim. Bu, münasibətlərlə bağlıdır. Bu iki ölkənin liderləri beynəlxalq təsisatlarla sıx təmaslar qurmağa çalışırlar. Zənnimcə, fikir mübadiləsi, standartların, tənzimləyici normaların müəyyən edilməsi kimi məsələlər çox vacibdir.

**Joze Manuel Barrozu** (*Avropa Komissiyasının sabiq sədri)*: Bu səbəbdən, biz enerji təchizatı marşrutlarının şaxələndirilməsi təşəbbüsünə əvvəlcədən dəstək vermişik. 2012-ci ilin yanvarında mən prezident İlham Əliyevlə «Cənub Qaz Dəhlizi» ilə əlaqədar sənəd imzalamışıq.

*Joze Manuel Barrozu Azərbaycanın və Qazaxıstanın müasir müsəlman ölkələri kimi nümunə olduqlarını qeyd edərək bildirdi:*

– Fundamentalizmə və terrorçuluğa qarşı sədd olmaqda bu ölkələrə dəstəyin verilməsi çox vacibdir. Terrorçuluq Avropa və ümumiyyətlə, bütün dünya üçün əsas geosiyasi təhlükədir, böyük hədədir. Prezident İlham Əliyev bildirdi ki, bu xüsusən də gənc müstəqil dövlətlərə aiddir.

*Avropa Komissiyasının sabiq sədri Azərbaycanın və Qazaxıstanın müstəqilliklərini daha da möhkəmləndirmək üçün islahatları davam etdirmələrinin vacibliyini vurğulayaraq qeyd etdi:*

– Fikrimcə, hazırda qarşıda duran vəzifə islahatlardır, hər iki dövlətin həm siyasi, həm iqtisadi cəhətdən müasirləşməsidir.

Bu, suverenlik və dövlətçilik üçün vacibdir. Mən Avropa Komissiyası tərəfindən bunu dəstəkləmişəm.

**İ l h a m  Ə l i y e v:** Bəli, elədir ki, var. Mən də cənab Barrozunun dedikləri ilə tam razıyam. Onun şərhləri geniş bilgiyə mənsub olmasından və zəngin təcrübəsindən qaynaqlanır. O həmçinin regionu çox yaxşı tanıyır və regionun üzləşdiyi çağırışları anlayır. Hamımız ölkələrimizdə sabit, dinc inkişafı görmək istəyirik. İstəyirik ki, insanlar daha yaxşı yaşasınlar, onların lazımi xidmətlərə yaxşı çıxışı olsun, daha çox müdafiə edilsinlər və təhlükəsiz şəraitdə yaşasınlar.

Bu gün görünən bütün təhdidlərə gəldikdə isə, həmin potensial təhlükələr artıq əvvəlcədən mövcud olub. Söhbət ondan gedir ki, ölkələr həmin potensial təhdidləri necə aradan qaldırmağa çalışır, onların qarşısını almaq üçün nə edirlər. Əgər təhlükə görünürsə və sizə hücum olursa, bu, artıq gecdir. Siz ürəkdən çalışmalısınız və cəmiyyətdə, ilk növbədə ölkənizdə elə mühit yaratmalısınız ki, bu hədələr üçün əsaslar minimal olsun. Bu halda əsasən, iqtisadi inkişaf, işsizliyin və yoxsulluğun azaldılması, yaxşı idarəçilik və sosial ədalət nəzərdə tutulur. Bütün bunlar bizim üçün hər zaman prioritet xarakter daşıyan başlıca amillər olub.

İqtisadi islahatlara başlayanda, bu, asan deyildi, çünki öncə qeyd etdiyim kimi, biz sistemi tamamilə dəyişməli idik. Çox ağır vəziyyətdə idik. Həmin vaxt neft və qaz yataqlarının işlənilməsi aparılmırdı. Yoxsulluq baş alıb gedirdi. Bir sözlə, həmin iqtisadi sistemi dəyişmək çoxlu sosial gərginlik yaradırdı. Bu səbəbdən, bizdə sosial və iqtisadi siyasət paralel aparılırdı. Çünki radikal iqtisadi islahatlar bəzən sosial problemlər yaradır.

Bu gün terror təhlükəsi kimi aydın görünən hədələr əsasən təhsilin aşağı səviyyədə olmasından irəli gəlir. Biz təhsil sahəsinə böyük sərmayələr qoymuşuq. 10 il əvvəl prezident kimi, ictimaiyyət qarşısında ilk çıxışlarımdan birində söyləmişdim ki, biz «qara qızıl»ı insan kapitalına çevirməliyik.

Başqa sözlə, enerji resurslarından əldə olunan gəlirləri təhsil, müasir texnologiya, xidmətlər sahələrinə sərmayə kimi qoymalı idik. Bu səbəbdən, hazırda Azərbaycan kosmik sənayesi olan ölkədir. Fəxr edirik ki, bu gün 2 peykimiz var. Savadlılıq səviyyəsi 100 faizdir. Neftin qiymətindən asılı olmayaraq, bu gün gəlir əldə edən orta təbəqə var.

Radikalizm hamımız üçün təhlükədir. Cənab Barrozunun düzgün qeyd etdiyi kimi, ölkələrimizin geosiyasi mövqeyi radikalların Avropa qitəsinə daxil olmasına təbii maneədir. Ölkələrimizin Avropa üçün əhəmiyyəti, adətən, bəzilərinin fikirləşdiyi kimi, sırf neft və qazla ölçülmür, baxmayaraq ki, bu indiyə qədər heç vaxt olmadığı qədər vacibdir. Bizim dövlətlər müasir və dünyəvi müsəlman ölkəsi nümunəsidir. Bu onu göstərir ki, müsəlman ölkəsində də ənənəvi dinlərə hörmətlə yanaşan müasir, dünyəvi cəmiyyətin olması mümkündür və ümumi dəyərlərə söykənən cəmiyyət qurula bilər. Yadımdadır, cənab Barrozu ilə keçirdiyimiz mətbuat konfranslarından birində bildirmişdim ki, biz Avropa İttifaqına mümkün qədər yaxın olmaq istəyirik. Mən bunu təkrarlamaq istəyirəm. Bizim üçün bu, təkcə bazara və texnologiyalara çıxış demək deyil, bu, müasir, dünyəvi inkişafımızın davamına bir növ zəmanətdir. Eyni zamanda, regionumuzu qiymətləndirmək, tarixi təhlil etmək də vacibdir. Ölkələrimiz əsrlərboyu müstəqil olmayıb. Bu bir növ, psixoloji amildir. Bu səbəbdən, əhalinin əksər hissəsi müstəqilliyi milli mənafe kimi qəbul edir. Bu gün biz azadıq, öz bayrağımız var. Biz artıq BMT-nin üzvləriyik və öz taleyimizi özümüz təyin edirik. Bunu özümüz edirik. Bəzən siyasi inkişafa, siyasi islahatlara aid məsələlərə gəldikdə, müəyyən münasibətlər yaranır. Lakin biz buna sadiqik.

Siyasi islahatlar çox əhəmiyyətlidir. Çünki onlarsız heç bir ölkə davamlı inkişafa nail ola bilməz. Əgər dünyanın inkişaf etmiş ölkələrinə nəzər yetirsəniz görərsiniz ki, onların heç birində nə neft, nə də qaz var. Neft və qazı olan ölkələr isə bəzən bu resurslardan tam yararlana bilmir. Neft və qaz inkişaf üçün sadəcə, bir vasitədir.

Əlbəttə, təhlükəsizlik məsələlərinə gəldikdə, biz öz rolumuzu oynayırıq. Məsələn, regiondakı təhlükəsizlik, Əfqanıstandakı vəziyyət. Biz regionlar arasında dəmir yolu çəkirik. Bu, Bakı–Tbilisi–Qars dəmir yolu adlanır və o, qitələri birləşdirəcək. Bundan hər kəs bəhrələnəcək – Rusiya, Çin, Qazaxıstan, Azərbaycan, Türkiyə, Gürcüstan, Avropa. Bu layihədən hamı qazanacaq. Biz bu kimi layihələri daha çox həyata keçirməliyik. Yeganə məsələ ondan ibarətdir ki, aşağı neft qiymətləri ilə hökumətin gündəliyinə gəldikdə, hökumətin əlində olan böyük nağd vəsaitlərlə büdcə necə formalaşdırılmalıdır?! Razıyam ki, biz infrastruktura daha çox pul yatırmalıyıq. Lakin belə neft qiymətləri ilə biz infrastruktura çoxlu vəsaiti sərmayə kimi qoysaq, onda ehtiyatlarımız azala bilər. Bu halda, düzgün tarazlığı tapmalıyıq, çünki ehtiyatlar nəinki ölkə daxilində, o cümlədən investorlarda etimad yaradır.

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «DÜNYA İQTİSADİ LİDERLƏRİNİN QEYRİ-FORMAL TOPLANTISI: ENERJİ GEOSİYASƏTİ ÜZRƏ YENİ QLOBAL KONTEKST» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davos İqtisadi Forumu çərçivəsində keçirilən «Dünya iqtisadi liderlərinin qeyri-formal toplantısı: enerji geosiyasəti üzrə yeni qlobal kontekst» mövzusunda sessiyada iştirak etmişdir.*

*Yüksək səviyyəli rəsmi şəxslərin qatıldığı sessiyada dövlətimizin başçısı İlham Əliyev çıxış edərək, Azərbaycanın energetika sahəsində qazandığı nailiyyətlərdən, enerji sektorunda əldə olunan gəlirlərin iqtisadiyyatın şaxələndirilməsinə uğurla yönəldilməsindən, ölkəmizin qlobal enerji layihələrində fəal iştirakından, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın önəmli rolundan, «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətindən danışdı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Böyük Britaniyanın bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə «Cənub Qaz Dəhlizi»nin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyəti və Azərbaycanın bu sahədə rolu yüksək dəyərləndirildi.*

*Söhbət zamanı bp ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.*

## «BAKI–2015» İLK AVROPA OYUNLARININ TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAK

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Bakı–2015» ilk Avropa oyunlarının təqdimatı mərasimində iştirak etmişdir.*

*Bu il Bakıda keçiriləcək ilk Avropa oyunları ilə əlaqədar həm Sürix, həm də Davos şəhərlərinin müxtəlif yerlərində oyunlara həsr olunan reklam lövhələri vurulmuşdur. Bu da Davos İqtisadi Forumunda iştirak edən nümayəndələrdə ölkəmiz və onun zəngin mədəniyyəti, idman ənənələri barədə təsəvvür yaratmağa imkan verirdi.*

*Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə keçirilən təqdimat mərasiminə İsveçrənin ictimai-siyasi dairələrinin, beynəlxalq idman ictimaiyyətinin nümayəndələri, Dünya İqtisadi Forumunda iştirak edən xarici ölkələrin təmsilçiləri qatılmışdılar.*

*Qonaqlar əvvəlcə Azərbaycan heykəltəraşlarının «Bakı–2015»ə həsr olunmuş bürünc heykəllərindən ibarət sərgiyə baxdılar. «Biz birlikdə» adlanan bu sərgidə 20-dən çox heykəltəraşımızın idmanın müxtəlif növlərini təsvir edən əsərləri sərgilənirdi. Onların hər biri müxtəlif cərəyanları nümayiş etdirməklə ilk Avropa oyunlarının həyəcanını sənətin dili ilə dolğun əks etdirirdi.*

*Qonaqlara Heydər Əliyev Fondunun Azərbaycan haqqında müxtəlif nəşrləri, o cümlədən I Avropa oyunlarına həsr olunan bukletləri təqdim edildi.*

**İlham Əliyev:** Hörmətli xanımlar və cənablar, hörmətli dostlar!

Əvvəlcə, bu axşam bizimlə birlikdə olduğunuza görə minnətdaram. Sizin hamınızı qəbulumuzda və «Bakı–2015» I Avropa oyunlarının təqdimatında görməkdən çox məmnunam.

Bakıda ilk Avropa oyunlarının keçirilməsinə 5 aydan az vaxt qalır. Bu oyunlar əvvəllər heç vaxt keçirilməyib. Digər qitə oyunlarından fərqli olaraq, Avropa oyunları heç vaxt təşkil olunmamışdı. Biz bu oyunları Azərbaycanda keçirmək qərarına görə Avropa olimpiya ailəsinə olduqca minnətdarıq.

Qərar 2012-ci ilin sonlarında qəbul olunmuşdur. Bilirsiniz ki, Qış Olimpiya oyunlarından daha böyük olan Avropa oyunlarına hazırlıq üçün cəmi 2 il yarım vaxtımız var idi. 20 idman növü üzrə yarışacaq 6 mindən artıq atletin gəlməsini gözləyirik. Həmin idman növlərindən 16-sı olimpiya idman növüdür. 2 il yarım təbii ki, çox məhdud vaxt çərçivəsidir. Lakin Avropa Olimpiya Komitəsinin böyük dəstəyi ilə Təşkilat Komitəsi olaraq ürəkdən çalışırıq. Biz güclü tərəfdaşlıq qurmuşuq və bu gün oyunları mümkün qədər ən yüksək səviyyədə təşkil etmək məqsədilə 40-dan artıq ölkənin nümayəndələrinin çalışdığı beynəlxalq komandamız var.

Fikrimcə, bu oyunların Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərarın bir səbəbi də atletlərimizin nailiyyətləri ilə bağlıdır. Azərbaycan müstəqillik illəri ərzində özünü həm də idman ənənələri ilə seçilən ölkə kimi tanıdıb. Sonuncu London Olimpiya oyunlarındakı iştirakımız ölkəmiz üçün çox vacib olub. 10 medal qazandıq, onlardan 2-si qızıldır. Biz dünya ölkələri arasında 30-cu, Avropa ölkələri arasında isə 15-ci olduq.

Zənnimcə, səbəblərdən biri də bu idi. Digər səbəb isə Azərbaycanın sürətli inkişafı ilə bağlıdır. Müstəqillik illərində, xüsusən də son 10 il ərzində iqtisadiyyatımız 3 dəfədən çox artıb. Davos Dünya İqtisadi Forumu qlobal rəqabətlilik reytinqinə görə Azərbaycanı 38-ci yerdə qərarlaşdırıb. İqtisadi inkişaf və müasir infrastruktur oyunların Bakıda keçirilməsi barədə qərarın qəbulunda böyük rol oynadı.

Beləliklə, biz qonaqları və turistləri gözləyirik. İndi hazırlıq işlərinin son mərhələsindəyik. Əlbəttə ki, oyunlar bizə onsuz da həyata keçirilməli layihələri daha qısa müddət ərzində reallaşdırmaq imkanını yaratdı. Müasir idman infrastrukturunun yaradılması sahəsində çoxlu işlər aparılıb. Hazırda biz Xəzər

dənizinin sahilində Bakı İdman Şəhərciyini yaradırıq. Nəqliyyat infrastrukturumuzu yeniləşdiririk. Bu, əlbəttə, regionda ən yaxşı şəbəkələrdən biri olacaq. Bakıda yeni mehmanxanalar açılır. Eyni zamanda, Xəzərin sahilində uzunluğu 16 kilometr olan yeni gəzinti zonası yaradılır. Bu, qonaqlar, idmançılar və turistlər üçün gözəl məkan olacaq.

Ümidvarıq ki, bütün ölkələr bu oyunlara güclü atletlərini göndərəcəklər. Çünki Avropa oyunlarının standartları müəyyən dərəcədə məhz Bakıda müəyyənləşdiriləcək. Oyunların təşkil edilməsi forması, ola bilsin ki, digər şəhərlər üçün də örnək olacaq. Ümidvaram ki, növbəti Avropa oyunlarını öz ölkəsində qəbul etmək arzusunda olan bir çox namizədlər də olacaq.

Son illər ərzində Azərbaycanda idman infrastrukturunun inkişafı bizim üçün çox əhəmiyyətli məsələ olub. Fəxr edirik ki, 2015-ci il Avropa oyunlarından sonra 2016-cı ildə biz Dünya Şahmat Olimpiadasını keçirəcəyik və ilk dəfə olaraq, «Formula-1» yarışmaları regionumuza gələcək. Bu yarış şəhər daxilində baş tutacaq. 2017-ci ildə isə İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bu oyunlar müsəlman dünyasını bir araya gətirir. Bunun çox rəmzi mənası var. 2 il ərzində Bakı Avropa oyunlarını və İslam oyunlarını qəbul edəcək. Azərbaycan bütün dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı çoxmillətli və çoxkonfessiyalı, çoxmədəniyyətli ölkədir. Bu yaxınlarda Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında qəbul edilmiş qərarın tarixi əsasları var. Bu, dövlət siyasətimizin real təzahürüdür.

İdman yer üzünün insanlarını birləşdirir. Olimpiya oyunları zamanı bütün müharibələr dayandırılmalıdır. Bir-biri ilə müharibə şəraitində olan ölkələrin idmançıları yarışlar zamanı ədalətli şəkildə mübarizə aparırlar, əllərini sıxır və qalib gələni təbrik edirlər. Budur idman. Bu, olimpiya hərəkatını və bütün dünya xalqlarını birləşdirən nadir fürsətdir.

Beləliklə, ümid edirik ki, Avropa oyunları dostluq, tərəfdaşlıq oyunları olacaq. Qələbələr hamımız tərəfindən qeyd ediləcək və mən bu fürsətdən istifadə edərək, sizin hamınızı şəhərimizə dəvət

etmək istərdim. Bakıda qonağımız olun! Ümidvaram ki, sizi iyunun əvvəlində Bakıda görəcəyik və bu cür yüksək nailiyyəti bir yerdə seyr edəcəyik.

Hörmətli dostlar, bizimlə birlikdə olduğunuza görə bir daha minnətdaram, sizə xoş axşam arzulayıram.

**Patrik Hikki** (*Avropa Olimpiya Komitəsinin prezidenti*): Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Həmkarım, Monako şahzadəsi Albert!

Baş nazir, hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi burada görməkdən çox şadam!

Dünya idmanının yenilik xarakteri daşıyan təkrarolunmaz hadisəsi – Avropa oyunları haqqında qarşınızda çıxış etməkdən şərəf hissi duyuram. Bu oyunlar Avropa qitəsinin çox idman növlü ilk yarışması olacaq. Həmin yarışlar iyun ayında Azərbaycanın paytaxtı Bakı şəhərində keçiriləcək. Avropanın 50 ölkəsindən 6 mindən çox atlet yarışlara qatılacaq.Bu il Davosda keçirilən toplantının mövzusu qlobal səviyyəli məsələdir. Bu mövzu, həmçinin 2015-ci ildə idmanla da bağlıdır. Avropada idmana nəinki yeni prizmadan baxılır, o cümlədən Avropa oyunlarını keçirməklə idman hərəkatına əlavə məzmun verilir. Ənənəvi dəyərlərimizin qorunmasının vacibliyini vurğulayaraq, biz eyni zamanda, həmin yeni eranı da alqışlayırıq.

Avropa hər zaman ənənəvi Olimpiya oyunlarının beşiyi olub. Şimali Amerika, Okeaniya, Asiya və Afrikanın hamısını bir yerdə götürərək, 120 il ərzində Avropada daha çox idman yarışları keçirilib. İnkişaf edən dünyada vəziyyət sürətlə dəyişir. Son 20 il ərzində 10 Olimpiada keçirilib. Onlardan yalnız 3-ü Avropada baş tutub. Növbəti 4 Olimpiya oyunundan heç biri Avropada keçirilməyəcək. Lakin bununla belə, bu, qlobal iqtisadi çiçəklənmənin təzahürüdür və idmanın müsbət dəyişikliklərə səbəb olduğunu nümayiş etdirir. Bu çox yaxşı haldır. Lakin qlobal idman hərəkatı baxımından Avropa irəliyə doğru addımlarını davam etdirməlidir. Avropa oyunlarına gəldikdə, bunlar Olimpiya oyunlarının təkrarı olmayacaq. Bu oyunlar çox innovativ olacaq və

adi yarışmalarda olmayan müxtəlif idman növləri ilə seçiləcək. Onların sayəsində atletlər gələcək Olimpiya oyunları üçün nəticələri daha da yaxşılaşdıracaqlar. Sonra onlar 2016-cı ildə Rioya, 2020-ci ildə Tokioya gedəcəklər və ən yüksək idman nailiyyətlərinə daha yaxşı hazırlaşacaqlar.

İdman sahəsinə gəldikdə, əvvəlcə yarışmalarda olmayan yeni idman növləri əlavə ediləcək. Məsələn, üçlük basketbol, çimərlik voleybolu, karate və sair.

Bakıda ilk Avropa oyunları olduqca gözəl keçiriləcək. Azərbaycan qədim tarixə malik, yüksək templə inkişaf edən, zəngin təbii sərvətləri olan, onları lazımi şəkildə idarə edən ölkədir. Azərbaycan cəmi 23 il ərzində görünməmiş tərəqqi əldə edib. Avropa olimpiya ailəsinin bir hissəsi olmaq bu inkişafın sürətləndirilməsinə zəmin yaradıb. Zati-aliləri prezident İlham Əliyevin mövqeyi və uzaqgörənliyi, xüsusən də onun Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbəri kimi oynadığı rol sayəsində dünyanın bu guşəsində inkişaf təmin edilib.

İdman Azərbaycan cəmiyyətində xüsusi yer tutur. «Bakı–2015» idman tarixində yeni maraqlı səhifə olacaq. Prezident, həmçinin Bakıda keçiriləcək digər yarışları da qeyd etdi. Prezident İlham Əliyevin bir fikrini yüksək dəyərləndirirəm. O deyir: «Siz 2015-ci ildə Azərbaycanda Avropa oyunlarını, 2017-ci ildə isə İslam Həmrəyliyi oyunlarını seyr edə bilərsiniz. Bunlar 2 il ərzində bir ölkədə, bir şəhərdə keçiriləcək. Bu, Azərbaycanın bugünkü reallığını əks etdirir». Bu sözlərlə mən çiçəklənən ölkəni sizə xatırlatmaq istəyirəm. Bakıda keçiriləcək idman tədbirlərinin təqviminə gəldikdə, bunu bacarıqlı yerli kadrlar təşkil edəcək. «Bakı–2015» Azərbaycanın yeni nəsil idman mütəxəssislərini formalaşdırmağa yardım edir. Bundan əlavə, oyunlar Azərbaycan üçün gözəl sosial vasitə olacaq. Ölkə əhalisinin üçdə iki hissəsinin yaşı 35-dən aşağıdır və bu böyük təbəqə idmanın təşviq etdiyi amallar və cəmiyyət haqqında məlumatlar alacaq. Şübhə etmirəm ki, «Bakı–2015» oyunları Azərbaycanın parlaq idman gələcəyinə aparan yoldur. Bu həmçinin Avropa üçün 4 ildən sonra növbəti oyunlara bələdçi hadisədir və Avropa oyunları konsepsiyasının ən

gözəl nümunəsi ola bilər. Lakin 2019-cu ildəki oyunlar Bakıda bu yarışmanın tam təkrarı olmayacaq. Avropa Olimpiya Komitəsinin məqsədi Avropa oyunlarını hər şəhərə uyğun təşkil etməkdir, əksinə yox.

2019-cu ildəki Avropa oyunlarının keçirilməsi ilə bağlı qərar bu ilin may ayına qədər elan olunacaq. Seçilmiş şəhər «Bakı–2015» Təşkilat Komitəsi ilə əhatəli şəkildə təcrübə mübadiləsi aparacaq. Bu çox dəyərlidir, çünki Bakıda ən yaxşı praktiki modellər hazırlanıb. Adətən, Olimpiya oyunlarının keçirilməsi məqsədilə şəhərə 7 il müddət verilir. «Bakı–2015» yarışması üçün cəmi 30 ay vaxt verildi. Zati-aliləri cənab Prezidentin mövqeyi Azərbaycan və Avropa Olimpiya Komitəsi üçün tarixin yazılmasında misilsizdir. Şübhə etmirəm ki, ilk Avropa oyunları yaddaqalan tədbir olacaq.

Diqqətinizə görə sağ olun.

* * *

*Daha sonra mərasim iştirakçıları «Bakı–2015»-ə həsr olunan filmə baxdılar. Filmdə ilk Avropa oyunlarına hazırlıq işləri və digər tədbirlər barədə geniş məlumat verildi.*

*Qeyd edək ki, ilk Avropa oyunları Bakıda 21 idman obyektində keçiriləcək. Bu məqsədlə yeni arenalar inşa edilir, mövcud qurğular yenilənərək hazır vəziyyətə gətirilir. Açılış mərasiminin baş tutacağı 68 min nəfərlik Bakı Olimpiya stadionundan əlavə, Bakıda 7300 nəfərlik Olimpiya Şəhərciyi də oyunlara hazırlanır. İlk Avropa oyunlarının Bakıda keçirilməsi Azərbaycana beynəlxalq miqyasda göstərilən maraqdan irəli gəlir. Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk belə hadisəyə ev sahibliyi etməsi təbii ki, həm də ölkəmizin idman sahəsində son illərdə qazandığı uğurlardan qaynaqlanır. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra atletlərimiz olimpiadalarda 26, Avropa və dünya çempionatlarında isə 2000-dək medal qazanıblar. 2015-ci il iyunun 12-dən 28-dək keçiriləcək ilk Avropa oyunlarında 49 ölkədən 6000-dən artıq idmançı 20 idman növündə mübarizə aparacaq.*

## MONAKO ŞAHZADƏSİ II ALBERT İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Monako şahzadəsi II Albert ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Monako arasında iqtisadi əməkdaşlığın perspektivləri müzakirə olundu, mədəniyyət sahəsində əlaqələrin səviyyəsindən məmnunluq ifadə edildi.*

*Söhbət zamanı I Avropa oyunlarına hazırlıq məsələlərinə və beynəlxalq səviyyədə sərgilərin təşkili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvili ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin həyata keçirdiyi qlobal enerji layihələrinin önəmi vurğulandı.*

*Azərbaycan ilə Gürcüstanın iqtisadi əməkdaşlığının daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunun qeyd edildiyi görüşdə ikitərəfli münasibətlər, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «GAZ DE FRANCE SUEZ» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JAN-LUİ ŞOSSAD İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Gaz de France Suez» şirkətinin baş icraçı direktoru Jan-Lui Şossad ilə görüşmüşdür.*

*Görüşdə «Gaz de France Suez» şirkəti ilə Azərbaycanın müvafiq qurumları arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Söhbət zamanı Bakıda və ölkəmizin digər regionlarında əhalinin Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun təmiz içməli su ilə təmin olunması, Abşeron yarımadasında neftlə çirklənmiş ərazilərin təmizlənməsi, «Şahdəniz» yatağından çıxan qazın alınması və digər sahələrlə bağlı əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROUNA**

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Avstraliya Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan–Avstraliya münasibətləri yeni inkişaf mərhələsinə daxil olmuşdur. Ölkələrimiz arasında intensivləşən siyasi əlaqələr iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın genişlənməsi üçün yaxşı imkanlar açmışdır. Ümidvaram ki, Azərbaycan ilə Avstraliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *22 yanvar 2015-ci il*

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «ZORAKI EKSTREMİZMİN ÖHDƏSİNDƏN GƏLİNMƏSİ» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*Davos*

*23 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda dünyanın iqtisadi liderlərinin iştirakı ilə «Zorakı ekstremizmin öhdəsindən gəlinməsi» mövzusunda qeyri-formal İqtisadi Forumu çərçivəsində keçirilən sessiyada iştirak etmişdir.*

*Dövlətimizin başçısı çıxışında beynəlxalq aləmdə təzahür edən terror hallarına toxundu. Terrorizmin müxtəlif təzahürləri ilə mübarizədə Azərbaycanın üzləşdiyi problemlərdən danışdı. Ermənistan tərəfindən müxtəlif dövrlərdə ölkəmizə qarşı 30-dan çox terror aktının həyata keçirildiyini, nəticədə 2000-dən artıq soydaşımızın qətlə yetirildiyini deyən prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi dövrdə müzakirəyə çıxardığı iki məsələdən birinin terrorizm mövzusuna həsr olunduğunu vurğuladı.*

*Dövlətimizin başçısı onu da bildirdi ki, Azərbaycan hər zaman terrorizmə qarşı beynəlxalq mübarizədə aktiv iştirak edir və antiterror koalisiyasının fəal üzvüdür.*

## DÜNYA İQTİSADİ FORUMUNUN SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun sədri Klaus Şvab ilə görüşmüşdür.*

*Klaus Şvab Dünya İqtisadi Forumu ilə Azərbaycan arasındakı əməkdaşlığı yüksək qiymətləndirərək, prezident İlham Əliyevin Forumda iştirakının əhəmiyyətli olduğunu dedi.*

*Dövlətimizin başçısı Dünya İqtisadi Forumu ilə ölkəmiz arasındakı əməkdaşlıqdan məmnun qaldığını, əlaqələrimizin daha da genişləndirilməsində maraqlı olduğunu bildirdi. Azərbaycan Prezidenti bu Forumun bütün iştirakçı tərəflərə əməkdaşlığı daha da genişləndirmək üçün şərait yaratdığını vurğuladı.*

*Söhbət zamanı Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində qazandığı uğurlar və onun perspektivləri, ölkəmizdə qeyri-neft sektorunun inkişafı, qlobal böhran və onunla bağlı proseslər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına işgüzar səfəri başa çatmışdır.*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI
ƏLAHƏZRƏT
SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Yüksək nüfuz sahibinə malik, özünün bütün fəaliyyəti ilə xalqına hədsiz sədaqət nümunəsi göstərmiş kral Abdullah bin Əbdüləziz Al Səud müdrik və uzaqgörən siyasətçi kimi, beynəlxalq aləmdə və Səudiyyə Ərəbistanının tarixində silinməz iz qoymuşdur. O, müsəlman dünyası və xalqları arasında birlik və həmrəyliyin bərqərar olmasında böyük rol oynamışdır. Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və genişlənməsində kral Abdullah bin Əbdüləziz Al Səudun müstəsna xidmətləri olmuşdur.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə, qardaş Səudiyyə Ərəbistanı xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *23 yanvar 2015-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ KRAL ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*24 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfirliyində olmuşdur.*

*Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun vəfatı ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazmışdır.*

## QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SƏYYAR BİN ƏBDÜRRƏHMAN CƏSİM ƏL-MÜAVİDƏ İLƏ GÖRÜŞ

*24 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Səyyar bin Əbdürrəhman Cəsim əl-Muavidənin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Səyyar bin Əbdürrəhman Cəsim əl-Muavidə etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Diplomat Qətər Dövlətinin Əmiri əlahəzrət şeyx Təmim bin Həməd əl-Taninin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanda diplomatik fəaliyyətə başlamasından qürur hissi keçirdiyini deyən səfir ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qətər arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsinin önəmini qeyd etdi. Qətər Dövlətinin Əmiri əlahəzrət şeyx Təmim bin Həməd əl-Tani ilə keçənilki görüşünü və ikitərəfli əməkdaşlıq məsələlərinə dair aparılan səmərəli müzakirələri məmnunluqla xatırladan prezident İlham Əliyev münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli görüşlərin əhəmiyyətini vurğuladı. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın iqtisadi, turizm, birgə investisiya qoyuluşu və digər*

*sahələrdə genişləndirilməsi üçün də yaxşı imkanların mövcudluğunu* bildirdi.

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev Qətər Dövlətinin Əmiri əlahəzrət şeyx Təmim* bin *Həməd əl-*Taninin *salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını Qətər Dövlətinin başçısına çatdırmağı xahiş* etdi.

## HİNDİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ VİNOD KUMAR İLƏ GÖRÜŞ

*24 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev yanvarın 24-də* Hindistan *Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri* Vinod *Kumarı* diplomatik *fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə* Hindistan *arasında ikitərəfli əlaqələrin ötən dövr ərzində uğurla inkişaf* etdiyi *vurğulandı, əməkdaşlığımızın* iqtisadi, biznes *və digər sahələrdə genişləndirilməsi üçün qarşılıqlı marağın olduğu* bildirildi, *ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə* bundan sonra *da möhkəmləndiriləcəyinə əminlik ifadə* edildi.

# «AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK*

*Heydər Əliyev Mərkəzi*

*27 yanvar 2015-ci il*

*Heydər Əliyev Mərkəzində yanvarın 27-də «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.*

*Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş sərgidə 2004–2014-cü illər üzrə ölkənin sosial-iqtisadi inkişafının əsas göstəriciləri, iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, sahibkarlığın inkişafının dəstəklənməsi, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət, idman, informasiya-kommunikasiya texnologiyaları, sosial inkişaf, turizm və ekologiya sahələrində əldə edilən uğurlardan bəhs olunur.*

---

* «Азярбайъан Республикасы реэионларынын 2014–2018-ъи иллярдя сосиал-игтисади инкишафы Дювлят Програмы»нын иърасынын бириньи илинин йекунларына щяср олунмуш конфрансında Игтисадиййат вя Сянайе назири Şahin Mustafayev, Кянд Тясяррцфаты naziri Heydər Əsədov, «Мелиорасийа вя Су Тясяррцфаты» Ачыг Сящмдар Ъямиййятинин сядри Əhməd Əhmədzadə və «Азярсу» Ачыг Сящмдар Ъямиййятинин сядри Qorxmaz Hüceynov çıxış etmişlər.

*Sərgidə Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələr barədə də geniş məlumat verilir. Nümayiş olunan foto, cədvəl və diaqramlardan aydın görünür ki, müvafiq dövrdə regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan proqramların icrası nəticəsində ölkə iqtisadiyyatının dinamik inkişafı, o cümlədən regionlarda irimiqyaslı layihələrin həyata keçirilməsi uğurla təmin edilib.*

*2004–2014-cü illərdə Naxçıvan Muxtar Respublikası da əsaslı inkişaf yolu keçib. Son 10 ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 10,3 dəfə, sənaye məhsulunun ümumi həcmi 34,9 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,6 dəfə, əsas kapitala investisiyalar 11,5 dəfə, xarici ticarət dövriyyəsi 13,2 dəfə artıb. Bu dövrdə əhalinin gəlirləri 8,2 dəfə, orta aylıq əməkhaqqı isə 5,8 dəfə çoxalıb. Naxçıvanda təhsil, səhiyyə, mədəniyyət, infrastruktur və digər sahələrdə də əsaslı dəyişikliklər baş verib.*

*Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramı keçən il qəbul edilmişdir. Keçən il biz Heydər Əliyev Mərkəzinin bu salonunda ikinci Dövlət Proqramının yekunlarını müzakirə etmişdik və üçüncü proqramın qəbul olunması məsələsi o vaxt qoyulmuşdur. 1 il keçibdir və 1 il ərzində görülən işlər haqqında bu gün məlumat veriləcək, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

1 il ərzində dünyada müxtəlif hadisələr baş vermişdir, müxtəlif proseslər getmişdir. Dünyada gərginlik artır, həm Yaxın Şərqdə, həm Avropada qanlı toqquşmalar baş verir, müharibələr davam edir. Bir sözlə, dünyada siyasi böhran davam edir, maliyyə və iqtisadi böhranın yeni mərhələsi başlanmışdır.

Azərbaycanda isə keçən il ərzində bütün işlər müsbət istiqamətdə gedib. Azərbaycan inamla irəliyə gedir, dayanıqlı inkişaf təmin

edilir. Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır. Çünki Azərbaycanda xalqla iqtidar arasında birlik var, bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bizim atılan bütün addımlarımız Azərbaycanın inkişafına xidmət edir. Ölkəmizdə ictimai, siyasi vəziyyət sabitdir, iqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atılır. Yəni bu gün Azərbaycan nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir və dünyada bizə olan maraq artır. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim çoxsaylı görüşlər, orada səslənən fikirlər bunu bir daha göstərir və Azərbaycanın inkişaf modeli yüksək qiymətləndirilir.

Budur bizim bugünkü reallıqlarımız. Dünyada çağırışların sayının artmasına baxmayaraq, Azərbaycanın inamlı, uğurlu inkişafı davam edəcək. Yaxın Şərqdə siyasi və hərbi böhran yaşanır, Avropada vəziyyət gərginləşir, Ukraynadakı vəziyyət daha da kəskinləşir, neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür. Son 1 il ərzində bütün bu və digər amillər əslində mənfi tərəfə gedən amillərdir. Mən bu amillərin arasında bir dənə də müsbət amil görmürəm. Amma buna baxmayaraq, Azərbaycan inkişaf edir, insanların rifah halı yaxşılaşır. Regionlar sürətlə inkişaf edir. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir.

2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Yadımdadır, 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər xalq mənə etimad göstərərsə, ilk növbədə regionların inkişafı ilə məşğul olacağam və proqram qəbul ediləcəkdir. Belə də oldu, 2004-cü ilin fevralında regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramı qəbul olundu və 5 il ərzində uğurla icra edildi. O vaxt bəyan etmişdim ki, 600 min iş yeri yaradılacaqdır. Ancaq ondan daha çox iş yeri yaradıldı. Baxmayaraq ki, o vaxt bizim böyük maliyyə resurslarımız yox idi, valyuta ehtiyatlarımız çox məhdud idi, iqtisadiyyat çoxşaxəli deyildi və neftdən gələn gəlirlər hələ ki, qabaqda idi. Buna baxmayaraq, düşünülmüş siyasət nəticəsində və xalqın böyük dəstəyi ilə biz birinci proqramı uğurla başa vurduq və ikinci proqram qəbul

edildi. Əlbəttə ki, ikinci proqramı qəbul edərkən artıq Azərbaycan dəyişmişdi. 2009-cu ildə Azərbaycan ayaqda möhkəm dayanmışdı və bizim gəlirlərimiz gəlməyə başlamışdı. Ona görə hələ 2009-cu ildə ikinci proqramın icrası ilə bağlı demişdim ki, mən heç bir problem görmürəm. O proqram da artıqlaması ilə icra edildi.

Biz üçüncü proqramı da 2018-ci ilə qədər uğurla icra etməliyik. Baxmayaraq ki, bir daha demək istəyirəm, ətrafda gedən xoşagəlməz proseslər mənzərəni tam dəyişmişdir. İstisna edilmir ki, gələcək illərdə bölgədə gərginlik daha da artacaq. Çünki bu vaxta qədər görmədiyimiz təhlükələr meydana çıxır. İstisna olunmur ki, böhranla, iqtisadi, maliyyə böhranı ilə bağlı bizi qarşıda daha da böyük sınaqlar gözləyə bilər. Ancaq biz bütün bu çağırışlara hazır olmalıyıq və hazırıq. Çünki vaxtında bütün tədbirləri görmüşük, heç vaxt populist bəyanatlarla çıxış etməmişik, heç vaxt xaricdə yerləşən hansısa quruma xoşa gəlmək üçün addımlar atmamışıq. Ancaq praqmatik siyasət aparmışıq, Azərbaycan xalqının maraqlarını qorumuşuq və ölkəmizi inamla idarə etmişik. Ona görə əminəm ki, üçüncü proqramın icrası ilə də bağlı heç bir problem olmamalıdır. Proqramı icra etmək üçün bütün cəmiyyət səfərbər olmalıdır və inanıram ki, biz buna nail olacağıq.

Bu gün bu salonda bütün rayonların, şəhərlərin icra hakimiyyəti başçıları, tanınmış biznes strukturlarının rəhbərləri əyləşiblər. Bu proqramın icrası məsələsi böyük dərəcədə sizin fəaliyyətinizdən asılı olacaq. Əlbəttə, dövlət öz siyasətini aparır, bu il və gələn illərdə investisiya proqramı icra ediləcək. Bizim düşünülmüş siyasətimiz imkan verir ki, bütün məsələlər həll olunsun. Sahibkarlara kömək davam etdiriləcək, quruculuq-abadlıq, infrastruktur layihələrinin icrası təmin ediləcək, ancaq yerlərdə dövlət qurumlarının və biznes strukturlarının nümayəndələri birgə çalışmalıdırlar ki, işlər daha da sürətlə getsin.

Əgər biz 2004-cü ilə nəzər salsaq görərik ki, son 11 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bütün göstəricilər bunu təsdiq edir. Sadəcə olaraq, bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü

ildən bu günə qədər ümumi daxili məhsulumuz 3,4 dəfə artıb. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,7 dəfə artıb. 11 il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulub. 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. Görün biz nə qədər ehtiyat yığmışıq. Baxmayaraq ki, bizim son illərdəki investisiya proqramlarımız çox genişmiqyaslıdır, biz valyuta ehtiyatlarımızı ildən-ilə artırmışıq ki, ilk növbədə, bu bizə böyük inam verir, eyni zamanda, kredit reytinqlərimizi artırır və bununla bərabər, bu bir sığortadır, istənilən xoşagəlməz hadisəyə qarşı ciddi sığortadır. Bu gün bizim valyuta ehtiyatlarımız bizə xidmət edir. Bu sadəcə olaraq, mücərrəd anlayış deyil. Hər bir insan bunu öz gündəlik həyatında hiss edir. Çünki manatın məzənnəsi sabit olaraq qalır. Baxmayaraq ki, neftin qiyməti düşüb, böyük valyuta ehtiyatlarımız, düşünülmüş makroiqtisadi siyasət imkan verir ki, Azərbaycan vətəndaşları bu böhranı hiss etməsinlər.

Bu illər ərzində 1 milyon 360 min yeni iş yeri yaradılıb. Onlardan 1 milyonu daimi iş yeridir. Bu da daimi proses olmalıdır. Mən bu barədə dəfələrlə demişəm. Çünki əhalinin sayının artması tələb edir ki, iş yerlərinin açılması daimi proses olsun. İşsizliklə bağlı aparılan tədbirlər nəticəsində işsizlik 5 faizə düşüb, yoxsulluq da 5 faiz səviyyəsindədir. Dünyanın aparıcı kredit reytinq agentlikləri Azərbaycanın suveren reytinqlərini artırmışlar. Davos Dünya İqtisadi Forumu ölkəmizi iqtisadi sahədə rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Bax, budur əsas makroiqtisadi göstəricilərimiz. İnflyasiya da çox aşağı səviyyədədir, manat da ildən-ilə öz dəyərini artırır.

Ona görə bu statistik rəqəmlərə baxdıqda hər kəs görə bilər ki, biz nə qədər böyük yol keçmişik. Deyə bilərəm ki, heç kim bizə kömək etməmişdir. İndi dünyanın hətta inkişaf etmiş ölkələri xarici yardımdan bəhrələnmək istəyir. Xarici yardım olmadan o iqtisadiyyatlar çökür, defolt vəziyyətinə düşür. Qapı-qapı gəzirlər, yalvarırlar ki, onlara vəsait ayırsınlar. İndi yəqin ki, özlərini bir növ o qədər də rahat hiss etmirlər.

Amma Azərbaycan bütün nailiyyətlərə təkbaşına çatıbdır. Bəzi hallarda əsassız təzyiqlərə də məruz qalmışıq. Bəzi hallarda bizə qarşı kampaniyalar da aparılıbdır və aparılır. Bəlkə bəzilərinin xoşuna gəlmir ki, Azərbaycan bu qədər müstəqil ölkədir, Azərbaycanda hər şey yaxşıdır, Azərbaycan çiçəklənir, gündən-günə inkişaf edir. Bu bəzilərinin, necə deyərlər, gözünü deşir. Biz bunu da bilirik.

Əlbəttə, iqtisadi güc imkan verir ki, siyasi səhnədə də heç kimdən çəkinmədən sözümüzü deyək, milli maraqlarımızı qoruyaq. Ona görə ki, iqtisadi güc bizə, bax, bu imkanları yaradır. Xatırlayıram, hələ 2003-cü ildə demişdim ki, əgər biz iqtisadi müstəqilliyə nail olmasaq, bizim siyasi müstəqilliyimiz də yarımçıq olacaq. Bu gün biz ətrafdakı ölkələrin vəziyyətini görürük. Baxın, dilənçi Ermənistana nəzər yetirin. Ermənistan nəinki müstəmləkə deyil, bəlkə heç nökər adına da layiq deyil. Milli ləyaqət kriminal xunta tərəfindən tapdalanır və son hadisələr bunu bir daha göstərir. Görün nə qədər aciz durumdadırlar ki, hətta haqlı tələbləri də irəli sürə bilmirlər. Bu ölkə artıq sübut edib ki, müstəqil ölkə kimi yaşaya bilmir. Müstəmləkə kimi yaşaya bilər. O qədər xalqlar var ki, onların müstəqilliyi yoxdur. Əgər öz çirkin siyasətindən əl çəkməsə, onlardan biri də Ermənistan olacaq.

Məhz iqtisadi güc bizə bu imkanları yaratdı və bu gün biz müstəqilik. İqtisadi və siyasi cəhətdən heç kimdən asılı deyilik. Heç kim bizimlə diktat dili ilə danışa bilməz. Bəziləri bunu istəyir, ancaq alınmır və alınmayacaq. Biz öz sözümüzü təmkinlə, çox soyuqqanlı deyirik və heç kimin qabağında başıaşağı deyilik, ölkəmizi ləyaqətlə idarə edirik.

Ona görə iqtisadi amil, bax, bu imkanları yaradır. Eyni zamanda, ciddi iqtisadi islahatlar ciddi sosial siyasətlə də tamamlanmalıdır. Bu olmasa, cəmiyyətdə islahatlara o qədər də böyük dəstək olmayacaq. Ona görə biz sosial sahəni də prioritet kimi götürmüşük. Yaxşı başa düşürdük, sosial sahə ancaq o vaxt inkişaf edə bilər ki, güclü iqtisadiyyat olsun. Yoxsa, gəl xaricdən alınan kreditlər hesabına sosial sahəni inkişaf etdir.

Biz defolta düşən ölkələrin vəziyyətinə düşərdik. Burada rəhbərliyin məsuliyyətli davranışı da qeyd edilməlidir. Bəzi ölkələr ki, indi xarici yardımsız yaşaya bilmirlər, onların rəhbərliyi hakimiyyətə gəlmək naminə çoxlu vədlər vermişdi – maaşları 10 dəfə qaldıracağıq, pensiya yaşını aşağı salacağıq və s. İnsanlar da inanıb, onlara səs verib. Onlar da hakimiyyətə gələndən sonra gərək o sözləri yerinə yetirəydilər. Bunun üçün resurs yox idi. Ona görə nə etdilər? Getdilər xarici bazarlardan borc aldılar, özlərini asılı vəziyyətə saldılar. Ondan sonra borcun üstünə borc gəldi. Bir borcu qaytarır, o biri borcu götürür və beləliklə, piramida yaranır. Piramidanı təkcə dələduz şirkətlər yaratmır. Bəzi hallarda hökumətlər də yaradır. Bir gün bu piramida dağılmış və həmin ölkələr çox ağır vəziyyətə düşmüşlər. Ona görə siyasi məsuliyyət də çox böyük əhəmiyyət daşıyır.

Sosial sahəyə gəldikdə, sosial islahatların təməlində güclü iqtisadiyyatımız dayanır. Mən bu sahədə də bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü ildə Azərbaycanda orta aylıq əməkhaqqı 100 dollar idisə, hazırda bu, 565 dollardır. Orta aylıq pensiya 24 dollar idi, hazırda 221 dollardır. Azərbaycanda sosial infrastruktur layihələri son 11 ildə uğurla icra edildi. 2900 məktəb binası, 560 tibb ocağı tikilib və ya təmir edilib. Təkcə regionlarda 41 olimpiya idman mərkəzi və 30 gənclər mərkəzi yaradılıb. Bax, bu, sosial sahəyə, sosial infrastruktura qoyulan vəsaitin və ayrılan diqqətin təzahürüdür.

Bu illər ərzində sosial cəhətdən ən ağır vəziyyətdə olan soydaşlarımıza – məcburi köçkünlərə də biz daim qayğı ilə yanaşmışıq. Son 11 il ərzində 84 qəsəbə yaradılıb. Hazırda 210 min köçkün yeni, gözəl evlərə, mənzillərə köçürülüb. Bu məqsədlər üçün 2 milyard manat, yəni 2,6 milyard dollar vəsait ayrılıb. 11 il ərzində 210 min insanı yerləşdirmək asan məsələ deyil. Bu, şəhər boyda qəsəbələrdir. Bunu da biz edirik və edəcəyik. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlərimiz var. Bu il də onların problemlərinin həlli üçün həm dövlət

büdcəsində, həm Dövlət Neft Fondunda kifayət qədər böyük vəsait nəzərdə tutulur.

Biz bu illər ərzində bütün əsas tarixi, mədəni, dini abidələrimizi əsaslı şəkildə bərpa etmişik və yenilərini tikmişik. Teatrlar, muzeylər – bu sahəyə də nəinki Bakıda, hər bir yerdə, bütün bölgələrdə böyük diqqət göstərilir. Çünki bu bizim tariximizdir, mədəniyyətimizdir. Biz bunu gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu «qloballaşma» sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq, bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ, öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd. Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə, amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə döndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Yaşlı nəslin borcudur ki, bax, bu ənənələri yaşatsın və gəncləri milli ruhda böyütsün. Bizim tarixi, dini abidələrimiz, mədəniyyətimiz sadəcə olaraq, memarlıq abidələri deyil. Bu eyni zamanda, tərbiyə vasitəsidir. Azərbaycan belə inkişaf etməlidir. Bu gün Azərbaycan müasir, inkişaf edən, ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu belə olacaq. Ancaq bu həmişə belə olmalıdır. Ölkəmizin müstəqil həyatı üçün bu, əsas şərtdir.

Bu illər ərzində infrastruktur layihələrinə böyük diqqət göstərilib və görülən işlər göz qabağındadır. Düzdür, bəzi hallarda bu görülən işlər unudulur, bəzilərinə elə gəlir ki, həmişə belə olubdur.

Ancaq o köhnə görüntüləri televiziya ilə göstərəndə hər kəs yada salır ki, əvvəlki vəziyyət necə idi. Son illərdə həm Bakıda, həm bütün bölgələrdə infrastruktur layihələrinin icrası prioritet xarakter daşıyırdı. Çünki bu olmasa, heç bir regional inkişaf proqramı icra edilə bilməz. Bu necə icra edilsin, o müəssisə necə yaradılsın ki, o bölgədə, rayonda elektrik enerjisi, yol yoxdur?!

Ona görə ilk növbədə, infrastruktur layihələri – onu da mən 2003-cü ildə demişəm – elektrik təminatı və yollar olmalıdır. Ondan sonra prioritet olaraq qazlaşdırma, içməli su, meliorasiya. Biz, bax, bu ardıcıllıqla da gedirik və ilk növbədə, elektrik enerjisi qurğularının yaradılmasına böyük vəsait ayrıldı. Son 11 il ərzində 23 elektrik stansiyası tikilib ki, onların gücü 2400 meqavatdır. Müqayisə üçün deyə bilərəm ki, ölkəmizin ümumi enerji potensialı 6300 meqavatdır. 2400 meqavat son 11 ildə yaradılıb. Əgər yaranmasaydı, bu gün ölkəmizin üçdəbir hissəsi işıqsız qalacaqdı, heç bir inkişafdan söhbət gedə bilməzdi, heç bir müəssisə yaradılmazdı. Müəssisələrə gəldikdə, son 11 ildə 64 min müəssisə yaradılmış və elektrik enerjisi ilə təchizat təmin edilmişdir.

Bütün şəhərlərdə qazlaşdırma 100 faiz səviyyəsindədir. Bu da tarixi nailiyyətdir. Heç vaxt belə olmamışdır. Hətta sovet dövründə bəzi rayonlarda, ümumiyyətlə, təbii qaz çəkilişi aparılmamışdı. İndi bütün şəhərlərimizdə hər bir evdə 100 faiz təbii qaz var. Kəndlərdə də bu proses gedir. Hər rübdə bir dəfə mənə məlumat verilir. Hansı kəndlərdə qazlaşdırma işləri aparılıb. Biz böyük işlər görmüşük və qazlaşdırma Azərbaycanda minimum 90–95 faiz olmalıdır. Biz proqramın sonunda – 2018-ci ildə bu məqsədə də çatacağıq.

Son 11 il ərzində 10 min kilometr yol çəkilib. Magistral yollar, kənd yolları, 340 körpü və tunel tikilib. Bakı–Tbilisi–Qars kimi beynəlxalq strateji əhəmiyyət daşıyan layihə Azərbaycanın təşəbbüsü ilə başlanmışdır, indi tikintisi başa çatır. Bölgələrdə 6 aeroport tikilib, onlardan 4-ü beynəlxalq aeroportdur. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni terminal binası tikilib. İndi bölgələrdən beynəlxalq uçuşlar təşkil edilir. Bu aeroportların

bəziləri yenidən quruldu, bəziləri heç yox idi, tikildi. Bu işə başlayanda bəziləri hesab edirdilər ki, buna əlavə vəsait xərclənməsinə ehtiyac yoxdur. Amma görün indi nə qədər insan cənub, şimal-qərb bölgələrindən müxtəlif ölkələrə rahat gedir, daha Bakıya gəlməyə ehtiyac yoxdur.

Bu infrastruktur layihələrinin arasında, əlbəttə, içməli su layihələri də prioritet xarakter daşıyır və son illər ərzində bu sahəyə daha da böyük diqqət göstərilir. Bizim bütün şəhərlərimizdə Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su 24 saat təmin ediləcək. Artıq bir neçə şəhərdə bu layihələr başa çatıb. Mən də hər bir layihənin başa çatması tədbirlərində şəxsən iştirak edirəm və yerlərdən gələn məlumatlar da məni çox sevindirir. Bu da tarixi hadisədir. Çünki Azərbaycanın daxili su mənbələri məhduddur. Bizim əsas mənbələrimiz xaricdə formalaşan çaylardır. Ona görə bu çayların sularından səmərəli şəkildə istifadə etmək, orada təmizləyici qurğuların tikintisi, eyni zamanda, daxili mənbələrin aşkarlanması prosesi gedirdi. Oğuz–Qəbələ–Bakı su kəməri tikildi. Bu da simvolik xarakter daşıyır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin gəlirlərindən əldə edilmiş vəsait su kəmərinin tikintisinə qoyuldu. Bax, bizim siyasətimiz bundan ibarətdir. Hər kəs yaxşı bilir ki, o sahəyə qoyulan vəsait heç vaxt qayıtmayacaq. Yəni onlar sırf sosial xarakter daşıyan layihələrdir. Əgər elektriklə, yolların tikintisi ilə bağlı görülən müxtəlif işlər nəticəsində o vəsait uzun müddətdən sonra qayıdacaqsa, su təsərrüfatına qoyulan vəsait qayıtmayacaq. Su təsərrüfatına yüz milyonlarla, milyardlarla vəsait qoymuşuq. İndi Bakının su ilə təminatı 78 faizə çatıb, 2004-cü ildə 29 faiz idi. Yəni şəhərin 24 saat su ilə təchizatı nəzərdə tutulur. Ölkə üzrə 60 faizdən çoxdur, amma 11 il bundan əvvəl bəlkə 10–15 faiz idi.

İnfrastruktur layihələrinin arasında meliorasiya layihələri də böyük önəm daşıyır. Biz bu layihələrin icrasını təmin etmişik. 2 nəhəng meqalayihəni icra etmişik – Şəmkirçay və Taxtakörpü su anbarları, kanallar, elektrik stansiyaları. Bu da Azərbaycana bundan sonra xidmət edəcək. Yəni onilliklər, yüzilliklər bundan sonra bu anbarlar, çəkilən bu kanallar kənd təsərrüfatının

inkişafına xidmət edəcək. Eyni zamanda, suların idarə edilməsi məsələlərinin həllində də bu layihələrin böyük əhəmiyyəti var. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq biz bunu etmişik. Bir daha demək istəyirəm ki, infrastruktura, real sektora vəsait qoyulmalıdır. Qeyd etdiyim kimi, ehtiyatlar da yığılmalıdır. Bax, biz belə etmişik. Həm ehtiyatlarımızı artırmışıq, həm də investisiya qoymuşuq. Vaxtında real sektora, infrastruktura investisiya qoymayan ölkələr bu gün peşman olurlar. Onlar bu işə indi başlayırlar, amma artıq gecdir. İndi neftin qiyməti düşəndən sonra böyük investisiya qoymaq o qədər də asan məsələ deyil. Biz hər şeyi vaxtında etməli idik və etmişik. Ona görə deyəndə ki, bu gün Azərbaycan modeli var, biz səhv etmirik. Bu model var və bu model başqa tərəflər üçün də maraq doğurur. Mən hələ enerji layihələrini qeyd etmirəm. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, «Şahdəniz», TANAP, TAP, «Cənub Qaz Dəhlizi» – bu layihələr regionun, Avropanın enerji xəritəsini dəyişir. Bunların hər biri nadir tarixi layihədir. Bu layihələr son 9 il ərzində icra edilib. Bakı–Tbilisi–Ceyhan 2006-cı ildə istifadəyə verilib, dəhliz yaradılıb. O dəhliz indi xidmət göstərir, yeni layihələr ortaya çıxır. Yenə də Azərbaycan liderlik keyfiyyətlərini ortaya qoyur. Əgər biz liderliyi göstərməsəydik, heç vaxt «Cənub Qaz Dəhlizi» icra edilməyəcəkdi. Mən vaxtilə şəxsən Nabukko layihəsinin müzakirəsi ilə bağlı azı 10 beynəlxalq tədbirdə iştirak etmişəm. Orada müzakirədən başqa heç nə yox idi. Bəyanatlar, çıxışlar, qətnamələrin qəbul edilməsi, vəssalam. Ondan sonra hamı dağılır gedir, iş də qalır kənarda. Mən minimum 10 tədbirdə iştirak etmişəm. Hər dəfə də demişəm ki, burada liderlik olmalıdır. Bu layihəni necə icra etmək lazımdır? Bunun əsas elementləri nədən ibarətdir? Bu o qədər də çətin məsələ deyil. Amma elə mən deyirdim, mən eşidirdim. Daha sonra gördük ki, artıq bu layihə yerində sayır. Yenə də təşəbbüs göstərdik, TANAP layihəsini təklif etdik. Adı da biz qoyduq, təşəbbüskarı da biz olduq. 2012-ci ildə Türkiyə ilə bu layihəni imzaladıq. Ondan sonra «Cənub Qaz Dəhlizi» üçün yol açıldı. Bunu

etməsəydik nə olacaqdı?! Elə belə də qalacaqdı. Ya da ki, Bakı–Tbilisi–Qars. Bu məsələ 10 il bundan əvvəl müzakirə olunurdu və hələ də müzakirə kimi gedirdi. Əgər təşəbbüs göstərməsəydik, real təklifi, maliyyə resurslarını ortaya qoymasaydıq, elə indi də danışacaqdıq. Nazirlər indi də gedib orada-burada konfranslar keçirəcəkdilər. Biz isə boşboğazlıqla yox, real işlərlə məşğuluq, xalqa xidmət edirik və edəcəyik. Real işlər həyatda öz əksini tapır. Ona görə də bu gün Azərbaycan modeli var.

## YEKUN NİTQİ

Bu il görüləcək işlərlə bağlı müvafiq göstərişlər verildi. Dövlət İnvestisiya Proqramı qəbul edildi. Kifayət qədər genişhəcmli proqramdır. Əminəm ki, proqram icra ediləcək və beləliklə, 2015-ci il də Azərbaycanda uğurlu il kimi tarixdə qalacaq. Bütün planlarımızı həyata keçirmək üçün ilk növbədə, ölkədə makroiqtisadi vəziyyət sabit olmalıdır. Bu istiqamətdə böyük işlər aparılıb. Uzun illər makroiqtisadi vəziyyət diqqət mərkəzindədir. Bizim göstəricilərimiz də çox müsbətdir. Keçən il inflyasiya cəmi 1,4 faiz olub, iqtisadiyyat təxminən 3 faiz, qeyri-neft sektorumuz isə 7 faiz artıb.

Qeyd etdiyim kimi, manatın məzənnəsi sabitdir. Dünyada neftin qiymətinin düşməsi ilə bağlı manatın məzənnəsinə heç bir mənfi təsir olmadı. Əksinə, manat daha da güclənir. Hesab edirəm ki, biz bu məsələyə baxmalıyıq. Çünki o vaxt biz pul islahatını apararkən 1 manat 1 dollara bərabər idi. Ondan sonra manatın qiyməti qalxdıqca 1 manat 1,3 dollar oldu. Bir növ, manat avroya bağlı idi. 1 manat 1 avro. İndi isə 1 manat 1 avrodan daha da qiymətlidir və bahadır. Əlbəttə ki, sosial məsələlərin həlli üçün bu, müsbət amildir. Ancaq biz bütün məsələlərə kompleks şəkildə yanaşmalıyıq. İqtisadiyyat, ixrac potensialımız üçün bu o qədər də müsbət hal deyil. Ona görə manatın bundan sonra da avroya qarşı bahalaşması müsbət hal deyil. Hesab edirəm ki, 1 manat 1 avro səviyyəsində qalarsa, makroiqtisadi vəziyyət təmin ediləcək və bu da insanların

gündəlik həyatına ancaq müsbət təsir göstərəcək. Bizim ixracımız üçün heç bir problem yaranmamalıdır. Çünki Azərbaycan iqtisadiyyatı bundan sonra ixracyönümlü iqtisadiyyat kimi inkişaf etməlidir. Bir qədər sonra mən bu barədə öz fikirlərimi daha da geniş şəkildə deyəcəyəm. Ona görə ki, ixracın inkişafı, təşviqi indi gündəlikdə duran məsələlərdir. Manatın məzənnəsi isə burada önəmli rol oynayır. Hesab edirəm, müvafiq qurumlar, hökumət, Mərkəzi Bank bu məsələlərə diqqətlə yanaşmalıdır ki, manat həddindən artıq bahalaşmasın.

Maliyyə resurslarımız kifayət qədər böyükdür. Xarici borc ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biridir. Bu göstəriciyə görə bəlkə də biz dünyada birinci 10 ölkənin arasındayıq. Bütün işləri daxili resurslar hesabına görmüşük. Bax, bu göstərici onu əyani şəkildə təsdiq edir. Biz borclanmamışıq, lazım olan borcları götürməmişik. Halbuki götürə bilərdik. Hazırda Azərbaycanın kredit reytinqi, makroiqtisadi vəziyyəti, valyuta ehtiyatları o qədər müsbət mənzərə yaradır ki, biz xarici bazarlardan istənilən məbləğdə – 10 milyard, 20 milyard, 30 milyard dollar vəsait götürə bilərik, ancaq götürmürük. Çünki bayaq qeyd etdiyim kimi, bu məsələyə məsuliyyətlə yanaşırıq. Xarici borc daim aşağı səviyyədə olmalıdır. Biz əslində bu borcu bir gündə ödəyə bilərik. Çünki xarici borcumuz valyuta ehtiyatlarımıza nisbətdə təxminən 10 faizdən bir qədər çox təşkil edir. Ona görə xarici borc aşağı səviyyədədir. Bu, müsbət haldır. Müsbət hal kimi də qalmalıdır. Bu il də bizim büdcəmizdə xarici borcun qaytarılması üçün vəsait nəzərdə tutulur.

Bununla bərabər, qeyd etməliyəm ki, neftin qiymətinin düşməsi istər-istəməz bizim gəlirlərimizə təsir göstərir. Biz daha əvvəlki illərdə olduğu kimi, valyuta ehtiyatlarımızı artıra bilməyəcəyik. Bu reallıqdır, bunu hamı bilməlidir. Belə olan halda, əlbəttə ki, israfçılığa yol verilməməlidir. Əgər əvvəlki illərdə biz bəzi hallarda o qədər də böyük prioritet təşkil etməyən layihələri də

investisiya proqramına daxil edirdiksə, artıq o dövr bitdi. İnvestisiya proqramına ancaq prioritet məsələlər salınır. Eyni zamanda, ciddi nəzarət aparılmalıdır. Həm dövlət strukturları, həm dövlət şirkətləri artıq xərclərə yol verməməlidir. İsrafçılığa, ümumiyyətlə, yol vermək olmaz – nə həyatda, nə siyasətdə, nə də ki, iqtisadi məsələlərin həllində, o cümlədən indiki şəraitdə. Neftlə zəngin olan bütün ölkələr, böyük potensiala malik olan ölkələr öz büdcələrini ixtisar edirlər, özü də böyük dərəcədə. Xərcləri ixtisar edirlər. Bu da təbiidir. Hər adam yorğanına görə ayağını uzatmalıdır. Hökumətlər də, dövlətlər də eyni qayda ilə hərəkət etməlidir. Ona görə bir daha demək istəyirəm ki, bizim nəzarət orqanlarımız buna nəzarət etsin, yerlərdə israfçılığa yol verilməməlidir. Hər bir vəsaitdən böyük səmərə ilə istifadə edilməlidir ki, bizim ümumi makroiqtisadi vəziyyətimiz bundan sonra da yüksək səviyyədə olsun.

Bununla bərabər, prioritet xarakter daşıyan bütün layihələr icra ediləcək, o cümlədən infrastruktur layihələri, sosial layihələr. Bu il məktəblərin tikintisi və təmiri nəzərdə tutulur. Tibb ocaqlarının, idman qurğularının, xüsusilə uşaq bağçalarının tikintisi son illərdə Azərbaycanda geniş vüsət alıb. Bu proses davam etdirilməlidir. Çünki işsizliyin aradan qaldırılması nəticəsində indi ailədə hər iki valideyn işlə təmin olunur. Belə olan halda, uşaq bağçalarının sayının artırılmasına çox böyük ehtiyac var. Yəni bu məsələlər bir-biri ilə görürsünüz, nə qədər bağlıdır. İqtisadi inkişaf, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması diktə edir ki, bu məsələ də öz həllini tapsın. İqtisadi inkişaf və müsbət demoqrafik vəziyyət diktə edir ki, iş yerlərinin yaradılmasına diqqət daim yüksək səviyyədə olmalıdır. Çünki Azərbaycan üçün bu, daimi prosesdir. Bizdə demoqrafik vəziyyət müsbətdir, əhali artır, artıq əhalimiz 10 milyona yaxınlaşır. Ona görə hər il biz on minlərlə yeni iş yerlərini yaratmalıyıq ki, işsizlik aşağı səviyyədə olsun.

İnfrastruktur layihələrinin icrası davam etdiriləcək. Burada elektrik xətlərinin təmiri xüsusi əhəmiyyət daşıyır, çünki artıq yeni güclər yaranıb. Ötürücü xətlərə də vəsait ayrılıb. Bütün xətlər yenidən qurulmalıdır, təmir edilməlidir. İçməli su, kanalizasiya

layihələri burada qeyd olundu, «Azərsu», eyni zamanda, «Meliorasiya və Su Təsərrüfatı» Səhmdar Cəmiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən icra edilir. Yəni 3 qurum bu işlərlə məşğul olur. Çaylar boyunca yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırılır. Artezian quyularının qazılması bu il davam etdiriləcək. Bu məqsədlə də Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Bu il 300-dən çox artezian quyusu qazılacaqdır. Bu sahə daim diqqət mərkəzindədir.

Bütün şəhərlərdə ictimai yerlər, parklar, xiyabanlar, gəzinti yerləri yaradılır. Mən bunu alqışlayıram. Əslində bu işin təşəbbüskarı mən olmuşam. Bakıda, bütün rayonlarda həm şəhərlər gözəlləşir, eyni zamanda, insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün yeni, gözəl imkanlar yaradılır. Bu sahə də diqqətdən kənarda qalmamalıdır.

Qeyri-neft sektorunun inkişafı bizim üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır. Keçən il qeyri-neft sektorumuz 7 faiz, 2013-cü ildə isə 9 faiz artıb. Bizim ümumi daxili məhsulumuzun tərkibində qeyri-neft sektoru üstünlük təşkil edir. Getdikcə bu rəqəm daha da artacaq və artmalıdır. Biz, əlbəttə ki, bu məqsədlərə çatmaq üçün lazımi tədbirləri görürük. Burada sahibkarlığın inkişafı, əlbəttə ki, öz müsbət rolunu oynayır. Çünki qeyri-neft sektorumuz sahibkarlığın inkişafı hesabına yüksək dərəcədə inkişaf edir.

Son 11 il ərzində Sahibkarlara Kömək Milli Fondunun xətti ilə 2 milyard dollar məbləğində güzəştli kreditlər verilib. Bu kreditlər iqtisadiyyatın real sektoruna ayrılıb. Kreditlərin böyük əksəriyyəti kənd təsərrüfatı məsələlərinə, qalan hissə isə sənaye müəssisələrinin yaradılmasına yönəldilib. Bu il də vəsait nəzərdə tutulur və biz görürük ki, bu kreditlər doğrudan da gözəl nəticələrə gətirib çıxarır. Həm sahibkarlarda inam artır, çünki Azərbaycan dövləti bu layihələrdə, necə deyərlər, onlarla ortaqdır, həm də öz payını güzəştli şərtlərlə təqdim edir, vəsait ayırır. Eyni zamanda, sahibkarların uğurlu fəaliyyəti üçün İqtisadiyyat və Sənaye Nazirliyi müxtəlif metodik sənədlər də

tərtib edib ki, istənilən həcmli biznesi başlamaq istəyən üçün gözəl vəsait, yəni əyani vəsait olsun.

Bank sektoru son illərdə sürətlə inkişaf edir. Azərbaycanda indi bank sektorunda konsolidasiya gedir. Nizamnamə kapitalının artırılması nəticəsində bu çox müsbət təsir göstərir, ölkəni və əhalini hər hansı bir sürprizdən qoruyur. Çünki banklarımızın artıq kifayət qədər böyük nizamnamə kapitalı var. Bizim banklarımızın bir neçəsi artıq xarici bazarlara çıxır, xaricə investisiya qoyur. Mən prinsip etibarı ilə buna etiraz etmirəm. Ancaq hesab edirəm ki, ilk növbədə, o bankların ki böyük resursları var, ölkə iqtisadiyyatına vəsait ayırsınlar. Mən bir dəfə bu barədə demişəm, bir daha demək istəyirəm ki, üstünlük istehlak kreditlərinə yox, real sektora verilməlidir. Bank sektorunun əsas fəaliyyəti yeni müəssisələrin yaradılmasına, iş yerlərinin açılmasına yönəldilməlidir. Çünki Azərbaycan dövləti bank sektorunun formalaşmasında çox böyük rol oynamışdır. Azərbaycan dövləti və hökuməti həmişə bank sektoruna dəstək olub, eyni zamanda, onlara maliyyə resursları da verir, təmin edir, onlar üçün qazanc mənbəyi yaradır. Yəni bank sektoru bunu düzgün qiymətləndirməlidir və dövlətə minnətdar olmalıdır ki, bunlara bu qədər qayğı göstərilir. Dövlət də öz növbəsində, indi onlardan daha da fəal iş gözləyir. Hesab edirəm ki, ən azı ildə 2 dəfə bu barədə məlumat verilməlidir.

Azərbaycan bankları hansı həcmdə, hansı layihələrə, hansı rayonlarda, yaxud da Bakı şəhərində hansı vəsaiti ayırıblar? Bax, bu məlumat olmalıdır. Mən də, ictimaiyyət də görək ki, bank sektoru ancaq öz cibini güdmür, eyni zamanda, ölkənin inkişafı üçün də fəal çalışır. Mən bir dəfə bu barədə demişəm, bir daha demək istəyirəm ki, biz banklardan sosial məsuliyyət gözləyirik. Eyni zamanda, bu gün Azərbaycanda elə gözəl biznes mühiti yaranıb ki, ölkəmizə qoyulan vəsait özünü doğruldacaq və doğruldur.

Keçən il Azərbaycanda «Sənaye ili» elan edilmişdi. Bu bizim siyasətimizi göstərir. Çünki sənayeləşmə Azərbaycanda uğurla aparılır. Sənayeləşmə aparılmasaydı, biz həmişə neft amilindən asılı

vəziyyətdə olacaqdıq. Çoxsaylı sənaye müəssisələri yaradılıbdır. Mənim göstərişimlə indi hər bir rayonda sənaye zonası yaradılmalıdır. Artıq yaxın zamanlarda bu proses də başlayacaq. Burada yerli icra orqanlarının nümayəndələrinin də böyük dəstəyinə ehtiyac vardır. Çünki onlar bu işi yerlərdə təşkil etməlidirlər ki, bu zonalar müəyyən edilsin. Orada infrastruktur layihələri icra edilməlidir, kommunikasiyalar yaradılmalıdır. Əlbəttə ki, dövlət bu işi öz üzərinə götürür. Ancaq bütün təşkilati məsələlərin həllində də yerli icra orqanları fəal iştirak etməlidir.

Azərbaycanda texnoparklar yaradılır və bu proses sürətlə gedir. Sənaye klasterləri yaradılır, yaradılacaqdır. Böyük, nəhəng sənaye obyektləri tikiləcəkdir. Xüsusilə burada mən metallurgiya kompleksinin tikintisini qeyd etmək istəyirəm. Çünki bu bir növ bizim üçün yeni sənaye sahəsi olacaq ki, bunun da xammal, resurs bazası var, ixrac imkanları da kifayət qədər genişdir. Ona görə bu sahəyə dövlət investisiyaları qoyulur. O sahələr ki ölkəmiz üçün strateji əhəmiyyət daşıyır və o sahələr ki öz növbəsində, həm ixrac potensialımızı artıracaq, eyni zamanda, özəl sektorun fəaliyyətinə təkan verəcək, o sahələrə dövlət investisiyalar qoyur, qoymalıdır da. Çünki böyük metallurgiya kompleksinin işə düşməsi nəticəsində minlərlə şirkət, özəl şirkət yaranacaq ki, orada hazırlanan məhsullardan son məhsulu Azərbaycanda istehsal etsin və biz idxaldan asılılığımızı azaldaq.

Bakı, Sumqayıt, Gəncə bizim əsas sənaye şəhərlərimizdir. Eyni zamanda, Mingəçevir də böyük sənaye şəhərinə çevrilməlidir. Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Gəncə şəhəri isə əminəm ki, gələcəkdə Cənubi Qafqazın üçüncü böyük sənaye şəhərinə çevriləcəkdir. Bu məqsədlər üçün lazımi tədbirlər görülür.

Son vaxtlar sürətlə inkişaf edən sənaye sektorumuz imkan verir ki, biz özümüzü tikinti materialları ilə təmin edək. Tikinti materialları ilə də bağlı çox gözəl mənzərə yaranmışdır. İndi mən bəzi rəqəmləri səsləndirəcəyəm, ilk növbədə, ictimaiyyət, eyni zamanda, biznes qurumları da bilsinlər ki, hansı sahələrə onlar daha çox investisiya qoysunlar.

Azərbaycan bazarı böyüyür. Azərbaycan indi kiçik ölkə sayıla bilməz. Əhali təxminən 10 milyona yaxınlaşır. Biz əhalinin sayına görə orta səviyyəli ölkəyik. Ancaq bu qədər sürətli inkişafın getdiyi bir ölkədə, əlbəttə ki, daxili bazar tezliklə yerli məhsullarla artıq tam dolacaq. Ona görə gələcəkdə Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi ixrac potensialımız olacaq. İxrac potensialı yaratmaq olar və yaradırıq. İndi söyləyəcəyim rəqəmlər bunu göstərəcək. Ancaq biz gərək ixrac bazarları da əldə edək.

İndi bazarlar uğrunda mübarizə gedir. Böyük dövlətlər, böyük sənaye potensialına, əlaqələrə, təsir gücünə malik olan ölkələr bütün mövcud bazarları əldə ediblər. Onlar bir çox hallarda siyasi nüfuzdan istifadə edərək, digər ölkələrin bazarlarına öz məhsulları ilə çıxırlar və düz də edirlər. Biz də bunu edirik və etməliyik. Siyasi hakimiyyət biznesi dəstəkləməlidir. Azərbaycan dövləti də, biz də dəstəkləyirik. Sənaye məhsullarının istehsalında ilk növbədə, iş adamları yeni bazarlara çıxmalıdır. Mən bunu dəfələrlə demişəm, xaricdə fəaliyyət göstərən səfirlərlə görüşlərdə onlara da tapşırmışam, gedin, çalışdığınız ölkələrdə Azərbaycan biznesi üçün şərait yaradın ki, gəlsinlər, öz ixrac məhsulları ilə o bazarlara girsinlər.

Bizim ümumi daxili məhsulumuzda neft amili artıq üstünlük təşkil etmir. Amma ixrac potensialımızın əksəriyyəti təbii resurslarımızdır. Biz hazır məhsullarla xarici bazarlara çıxmalıyıq, indi çıxırıq və çıxacağıq. Ona görə söyləyəcəyim rəqəmlər iş adamlarına da bir tövsiyə olmalıdır ki, artıq bu sahələrdə biz özümüzü təmin etmişik. Bu sahələrə vəsait qoymaq istəyirsinizsə, siz artıq rəqabətqabliyyətli sənaye müəssisəsi yaratmalısınız ki, indi mövcud olan şirkətlərlə rəqabətdə udasınız. Yoxsa əgər biz hansısa bir məhsulla özümüzü 100 faizdən çox təmin ediriksə, indi buna bənzər başqa eyni sənaye müəssisəsinin yaranmasına nə ehtiyac var?! Ona görə burada tənzimləmə işlərini aparan İqtisadiyyat və Sənaye Nazirliyi ixrac bazarlarına çıxmağımız üçün daha da çox iş görməlidir.

Beləliklə, əsas tikinti materiallarının istehsalı üzrə son məlumat: sement istehsalı – Azərbaycanda istehlak 4,4 milyon ton,

daxili istehsal hazırda 3 milyon ton, amma ölkə üzrə istehsal gücü 5,2 milyon tondur. Yəni gələn il, bəlkə də bu il biz özümüzü sementlə tam şəkildə təmin edəcəyik və sement zavodları məhsullarını ixrac edəcək. Ona görə hazırda yeni Sement zavodunun tikintisinə ehtiyac yoxdur. Bentonit – istehlak 8 min ton, istehsal 85 min ton, ixrac etmişik 72 min ton, istehsal gücü 250 min ton, yəni 100 faizdən çoxdur. Gips – istehlak 58 min ton, daxili istehsal 193 min ton, potensial 300 min ton, yəni 3 dəfə çoxdur. Beton bloklar, borular – istehlak 100 min ton, 100 min ton da istehsal edirik, potensial 300 min ton, 100 faizdən çoxdur. Alçipan, yəni karton gips 12 milyon kubmetr istehlak edirik. Daxili istehsal 11 milyon, istehsal gücü 16 milyon, 100 faizdən çoxdur. Polietilen borular – daxili istehlak 22 min tondur, 18 min ton istehsal olunur. İstehsal gücü 300 min tondan çoxdur və artıq ixrac da edilir. Mərmər və qranit – Azərbaycanda istehlak 83 min tondur. İxrac edirik 30 ton, istehsal edirik 62 min ton və potensial 100 min tondan çoxdur. Əhəng – 20 min ton istehlak olunur, 14 min ton daxili istehsal və 40 min tondan çox istehsal gücü, bu da 100 faizdən çoxdur. Elektrik kabelləri – 10 min ton istehlak edirik, 5 min ton istehsal edirik, potensial 40 min tondan çoxdur. Poladdan uzun yayma məhsullar – 335 min ton istehlak edirik. Daxili istehsal 235 min ton, potensial 500 min ton, yəni burada biz özümüzü təmin etmirik. Metal konstruksiyalar – 114 min ton daxili istehsal, 200 min tondan çox istehsal gücü, 100 faizdən çoxdur. Seramik plitələr – 8 milyon kubmetr Azərbaycanda istehlak olunur və 4 milyon kubmetr bizim potensialımız var. Bax, budur əsas tikinti materialları. Demək olar ki, biz özümüzü əsas tikinti materialları ilə təmin etmişik və ona görə ixrac edirik. Gələcəkdə bu sahəyə qoyulan investisiyalar bu statistikanı nəzərə almalıdır.

Bu il «Kənd təsərrüfatı ili» elan edilib. Bu bizim üçün prioritetdir. Gələcəkdə kənd təsərrüfatı, sənaye inkişafı qeyri-neft sektorunun əsas istiqamətləridir, islahatlar aparılır. Bu gün bu barədə məlumat verildi, həm struktur islahatları aparılır, eyni zamanda, kənd təsərrüfatının səmərəliliyinin artırılması üçün

tədbirlər görülür. Ərzaq təhlükəsizliyi hər bir ölkə üçün böyük önəm daşıyır. Biz sovet dövründə özümüzü əsas ərzaq məhsulları ilə təmin edə bilməmişik. Ona görə yox ki, təmin edə bilmirdik. Ona görə ki, o vaxt – sovet dövründə bir bölgü var idi – Azərbaycanda neft, ağır sənaye, neft-kimya, pambıq, üzüm istehsalı və s. Ancaq o vaxt heyvandarlığın inkişaf etməsinə o qədər də imkan vermirdilər. Ona görə biz əsas ərzaq məhsullarını Rusiyadan, Ukraynadan gətirirdik. Yəni belə bölünürdü. Sovet xalq təsərrüfatı sistemi belə idi. Ona görə müstəqilliyin ilk dövrlərində biz idxaldan böyük dərəcədə asılı vəziyyətə düşmüşdük. Bu vəziyyəti dəyişmək üçün çox ciddi tədbirlər görüldü və son illər ərzində biz ərzaq təhlükəsizliyimizi, demək olar ki, təmin etmişik. Bu barədə də mən rəqəmləri bir qədər sonra səsləndirəcəyəm.

Müasir texnika, cins mal-qara alınır. Fermerlərə güzəştlər edilir. Onlar torpaq vergisindən başqa, bütün vergilərdən azaddırlar. Kənd təsərrüfatının inkişafında ən qabaqcıl təcrübə tətbiq edilməlidir. Taxılçılıqda iri fermer təsərrüfatları yaradılıbdır və biz bunun gözəl nəticələrini görürük. Bu iri fermer təsərrüfatlarında məhsuldarlıq orta məhsuldarlıqdan 2 dəfə çoxdur – 55 sentner. Bu il isə bizdə taxılda məhsuldarlıq 23 və ya 24 sentnerdir. Yəni bu proses davam etdiriləcək. Birinci mərhələdə 4800 hektar torpaq sahəsi əhatə edilib. İndi icra edilən layihələr çərçivəsində 30 min hektar torpaqda iri fermer təsərrüfatları fəaliyyət göstərəcək.

Bir daha demək istəyirəm ki, biz dünyanın ən qabaqcıl təcrübəsini, müasir texnikanı tətbiq etməliyik, bütün lazımi tədbirləri görməliyik, xidmət lazımi səviyyədə göstərilməlidir. Burada səslənən məsələlər də öz həllini tapmalıdır. Yem təminatı əsas məsələdir, toxum fondu yaradılmalıdır. Biz özümüzü indi yeni texnika ilə təmin edirik. Hesab edirəm ki, yaxın illərdə biz bu məsələni tam şəkildə həll edəcəyik.

İstifadəsiz qalan torpaqlar da kifayət qədər çoxdur. Vaxtilə kimsə onları ya zəbt edib, ya icarəyə götürüb. İcarəyə götürüb və elə də qoyub gedib. Deyir ki, mənim orada, burada torpağım var. Sənin torpağın varsa, get o torpaqda iş gör. Yəni hesab

edirəm ki, biz istifadəsiz torpaqların taleyi ilə bağlı tədbir görməliyik. Kim torpağı icarəyə götürüb istifadə etmirsə, gərək o icarə müqaviləsi ləğv edilsin. O müqavilə verilsin o torpaqda işləyənə. Yoxsa torpağı götürürlər, ondan sonra təyinatı dəyişdirirlər, daha sonra o torpaqlarda müxtəlif obyektlər tikilir və s. Bu yolverilməzdir. Yerli icra orqanlarının nümayəndələri nəzarət etməlidirlər. Onların rayonlarında əgər kimsə bu işlə məşğul olursa, buna qarşı tədbir görülməlidir.

Mərkəzi orqanlar da burada yeni təkliflərlə çıxış etməlidir ki, istifadəsiz torpaqlar olmasın. Onsuz da bizim o qədər də çox torpağımız yoxdur. İcazə verə bilmərik ki, istifadəsiz qalsın, yaxud da ki, torpaqdan səmərəli şəkildə istifadə edilməsin. Əksinə, mən keçən il demişəm, bir daha demək istəyirəm ki, hər bir rayonda ixtisaslaşma aparılmalıdır. Hansı rayonda nə əkilməlidir, hansı məhsul yetişdirilməlidir?! Budur bizim əsas işimiz.

Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir. Üstünlüyümüz ondan ibarətdir ki, bizim ətrafımızda böyük bazarlar var. O bazarlara bizim ənənəvi çıxışlarımız var. Azərbaycan məhsulları o bazarlarda tanınır və o bazarlarda Azərbaycan məhsulunun artımını gözləyirlər. Ona görə biz ənənəvi bazarlarda işləməliyik, daha fəal, daha da geniş əhatə dairəmiz olmalıdır və biz yeni bazarlara çıxmalıyıq – həm regional, həm beynəlxalq. Biz Avropa bazarlarına çıxmalıyıq. Bizdə indi emal müəssisələri dünya səviyyəsinə cavab verir, gözəl müəssisələrdir. Onların – əsas emal müəssisələrinin açılışlarında mən şəxsən olmuşam, yəni bilirəm onların vəziyyəti necədir. İstehsal olunan məhsullar da keyfiyyətlidir. Biz niyə Avropa bazarlarına çıxmayaq?! Biz nə vaxtsa Dünya Ticarət Təşkilatına üzv olacağıq. Biz, əlbəttə ki, buna hazır olanda. Hazır olmaq üçün gərək ixrac potensialımız çoxşaxəli olsun.

Ona görə kənd təsərrüfatı məhsullarının istehsalı, daxili tələbatın ödənilməsi və ixracı bir sistem olmalıdır. Kənd təsərrüfatı

intensiv metodlarla inkişaf etməlidir. Eyni zamanda, Taxtakörpü, Şəmkirçay su anbarlarının tikintisi nəticəsində on minlərlə hektar torpaq sahələri dövriyyəyə buraxılacaq. Artıq bu il işlər başlanılıb. Səhraya bənzəyən yerlər gül-çiçək, bostan, bağ olacaq. Budur bizim işimiz.

Artıq o yerlər müəyyən edilib. İndi Azərbaycanda aqroparklar tikilir. Şəmkirçay su anbarının açılışı günü aqroparkın təməl daşı qoyuldu. Nə üçün? Çünki Şəmkirçay su anbarı tikildi. Şəmkirçay su anbarı tikilməsəydi, orada aqroparkı heç kim tikməzdi. Çünki su olmayan yerdə hansı aqropark ola bilər?! Ona görə bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Aqroparkların tikintisi geniş vüsət almalıdır.

Biz özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməliyik və ixrac etməliyik. İndi mən rəqəmləri deyəcəyəm. Ümumiyyətlə, bir daha demək istəyirəm ki, ixrac olmadan Azərbaycan iqtisadiyyatı, həmçinin qeyri-neft sektoru inkişaf edə bilməz. Çünki biz daxili tələbatı artıq ödəyirik. İxrac, bir daha demək istəyirəm ki, düşünülmüş siyasət nəticəsində mümkündür.

«Yaşıl market»lər Azərbaycanda yaranmaqdadır. Bu da bir yenilik olacaq. Bakıda yaranır. Gələcəkdə bütün şəhərlərdə yaranmalıdır.

Torpaqların elektron uçot sistemi məsələsi var – bu məsələ ilə bağlı mən öz fikirlərimi keçən il demişəm. Bu, torpaqlardan səmərəli istifadə etmək üçün əsas şərtdir. Biz bilməliyik ki, harada, nə qədər, hansı keyfiyyətə və münbitliyə malik olan torpaq sahələrimiz var. Bütün bu məsələlər dünyanın inkişaf etmiş ölkələrində çoxdan həll olunub. Bizim indi belə gözəl imkanımız var. «Azərsky» ikinci peykimizdir. Bu peykin üstünlüyü ondadır ki, o, Yer səthini böyük dəqiqliklə müşahidə edir. Yəni Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi bu imkanlardan istifadə etməlidir. Bu sizə əlavə bir dəstək olacaq. O peykdən bütün sahələri müşahidə etmək mümkündür ki, harada hansı torpaq var, bu torpaq kimə məxsusdur, bu torpağın ölçüləri nədir, orada nə əkilir və nə əkilməlidir. Bu tövsiyələr verilməlidir. Elektron uçot sistemi budur. Yoxsa indi biz kortəbii, arayışda,

kağızda, xəritə ilə işləyirik. İş belə getməyəcək. Bu işdə müasir yanaşma olmalıdır. Özü də bir daha demək istəyirəm ki, bütün şəraiti yaradırıq, vəsait ayırırıq. Dəfələrlə torpaqların elektron uçotu haqqında demişəm. Mən nəticə gözləyirəm. Gələn müşavirədə torpaqların elektron uçotu ilə bağlı mənə məruzə edilməlidir.

Ümumiyyətlə, «elektron kənd təsərrüfatı» layihəsi lazımi səviyyədə getmir. Ona görə ciddi tədbir görün. Yerlərdə icra başçıları, şöbələr bütün məlumatları dəqiqliklə verməlidir. Bu təhlil bir yerdə aparılmalıdır. «Azərsky»dan müşahidə aparılarkən bu məlumatlar təsdiq edilməlidir. Ondan sonra düyməni basıb biz biləcəyik ki, harada nəyimiz var, nə əkilməlidir və haradan istifadə olunmur. Çünki mən bilirəm ki, istifadəsiz torpaqlar çoxdur. Amma dəqiqliklə kim mənə deyə bilər ki, haradan istifadə olunur, haradan yox?! İndi yerlərdən istənilən arayış da verilə bilər. Amma nəzarət mexanizmi olmalıdır. İnsanlar o yerlərə ezam edilməlidir, müşahidə aparılmalıdır, müşahidə də yuxarıdan təsdiqlənməlidir.

İndi peykimizin olduğu bir vaxtda nəyisə gizlətmək, yaxud da ki, əksinə, nəyisə artırmaq, rəqəmləri şişirtmək çətin olacaq. Buna da son qoyulmalıdır və son qoyulur. Kənd təsərrüfatı məhsullarının bəzilərinin istehsalının aşağı düşməsi təkcə quraqlıqla bağlı deyil. İndi Kənd Təsərrüfatı naziri bəlkə də demək istəmirdi. Dedi ki, quraqlıqla bağlıdır. Təkcə quraqlıqla bağlı deyil. Çünki əvvəllər qiymətlər şişirdilirdi. Nəyə görə? Subsidiyalara görə. Məgər burada oturanlar bilmir subsidiyalarda hansı pozuntular baş verirdi? Yaxşı bilir və bəziləri bu pozuntuların iştirakçılarıdır. Ona görə buna son qoyulmalıdır. Dövlət bu pulu fermerlərə verir, məmurlara yox. Ona görə indi statistik göstəricilər daha da realdır.

Nəticə çıxarın. Bir daha demək istəyirəm ki, bütün işlərdə şəffaflıq olmalıdır. Bütün sahələrdə səmərəli iş aparılmalıdır. Ancaq o təqdirdə Azərbaycanın uğurlu inkişafı təmin oluna bilər.

Qeyd etdiyim kimi, təşviq sistemi yaradılmalıdır. Bir çox ölkələrdə belə sistem var. Əvvəllər biz buna o qədər də meyilli deyildik, çünki bizim ixrac potensialımız da yox idi, ancaq idxaldan asılılığı azaltmaqla məşğul idik. İndi isə ixrac potensialımız var, ona görə təşviq sistemi yaradılmalıdır. Mən İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırıram ki, bu mexanizmi işləsin. Yaxın vaxtlarda biz bunu müzakirə edəcəyik. Bu, sahibkarlara imkan verəcək ki, daha da maraqlı olsunlar və öz məhsullarını xaricə satsınlar. Beləliklə, onlar üçün əlavə güzəştlər olacaq.

Ərzaq təhlükəsizliyi ilə bağlı görülən işlərin statistik əksi bu arayışdadır. Mən indi bəzi rəqəmləri səsləndirəcəyəm. Mal əti – özümüzü təminetmə səviyyəsi 87 faiz, qoyun əti – 97 faiz, quş əti – 98 faiz, yumurta – 100 faiz, süd və süd məhsulları – 76 faiz, taxıl – 60 faiz, üzüm – 98 faiz, kartof – 90 faiz, bostan məhsulları – 100 faiz, meyvə və giləmeyvə – 120 faiz, tərəvəz – 103 faiz, duz – 87 faiz, şəkər və şəkərdən hazırlanan məhsullar – 170 faiz. Ancaq burada nəzərə alınmalıdır ki, şəkər tozunun istehsalının maya dəyərində 64 faiz xam şəkər idxal olunur, 36 faiz dəyər Azərbaycanda formalaşır. Bitki yağları və marqarin – 77 faiz, kərə yağı – 52 faiz, makaron məmulatları – 58 faiz. Bu cədvəldə göstərilir ki, bizim gələcək fəaliyyətimiz hansı istiqamətlərdə daha da ciddi olmalıdır. Biz bütün bu pozisiyalar üzrə 100 faiz səviyyəsinə çatmalıyıq. Burada ən ağır pozisiya, əlbəttə ki, taxıldır. Ancaq hesab edirəm ki, iri fermer təsərrüfatlarının yaradılması nəticəsində biz bu məqsədə də çatacağıq.

Mən hesab edirəm ki, üçüncü proqramın başa çatması nəticəsində biz bütün bu rəqəmləri 100 faizdən artıq səviyyədə görməliyik və görəcəyik.

Regionlarda, ümumiyyətlə, ekoloji vəziyyət yaxşıdır. Biz ekoloji tədbirlərin görülməsi üçün diqqəti daha çox Bakıya yönəldirik, bu da təbiidir. Bölgələrdə yaxşıdır, amma bu, daim diqqət mərkəzində olmalıdır.

Azərbaycanda turizmin inkişafı sürətlə gedir, yeni hotellər, istirahət zonaları, beynəlxalq səviyyəli istirahət zonaları açılır. Bizdə turizm potensialı şimal, şimal-qərb, cənub və qərb

bölgələrində, əlbəttə, Bakı şəhərində inkişaf edir. Biz vaxtilə fəaliyyət göstərən, sonra isə köhnəlmiş turizm yerlərimizi bərpa edirik. Misal üçün, indi Naftalan öz şöhrətini özünə qaytarır. Naftalan Sovet İttifaqı zamanında bir mərkəz idi. İndi beynəlxalq mərkəzdir. Burada 3 gözəl hotel fəaliyyət göstərir. Mən üçünün də açılışında olmuşam. Yeni hotellər tikilir və gözəl bir turizm mərkəzidir. «Qalaaltı» müalicəvi su kurortunda da artıq böyük işlər görülür. Yəqin ki, bu il açılacaqdır. Qusar rayonunda yerləşən «Şahdağ» xizək kurortu da indi dünya səviyyəli turizm mərkəzidir. Digər bölgələrdə, cənub və qərb bölgələrində turizm imkanları genişlənir.

Bölgələrdə xidmətlər göstərilir. «ASAN xidmət» mərkəzlərinin sayı artıq 7-yə çatıb. 3 mərkəz də bu il açılacaq. Beləliklə, bölgələrdə 6, Bakıda 4 mərkəz fəaliyyət göstərəcək. Gələcəkdə onların sayını artıracağıq. 10 avtobusla səyyar xidmət də göstərilir və bütün bölgələrdən «ASAN xidmət»lə bağlı çox müsbət məlumatlar gəlir. Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə «ASAN xidmət» bir dönüş yaratdı. Ona görə biz bu sistemi bütün sahələrdə tətbiq etməliyik.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə böyük uğurlar var. Beynəlxalq qurumlar da bunu qeyd edir, əhali də bunu yüksək qiymətləndirir. Cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli islahatlar aparılır ki, biz bu bəlanı, bu yaranı aradan götürək.

Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş–məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz, bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq. Məmurlar, dövlət qurumlarının nümayəndələri xalqla bir yerdə olmalıdırlar, onların qayğıları ilə yaşamalıdırlar, kobudluğa, yekəxanalığa yol verilməməlidir. Bəzi hallarda yekəxanalıq müşahidə olunur, bəzi hallarda məmurlar

özlərini çox təkəbbürlü aparırlar. Buna yol vermək olmaz. Siyasi mədəniyyət olmalıdır və insanlara hörmətlə yanaşmaq lazımdır. Deyə bilərəm ki, əksər hallarda biz müsbət mənzərə görürük. Ancaq mənfi mənzərə ilə üzləşəndə tədbir də görülür, məmurlar cəzalandırılır. Etimadı doğrultmayan məmurlar bundan sonra da cəzalandırılacaqlar. Hər dəfə icra başçılarını işə təyin edərkən mən onlara öz sözlərimi deyirəm: gedin təmiz işləyin, xalqla bir yerdə olun, rüşvətxorluqla məşğul olmayın, dövlətə, müstəqilliyə sadiq olun. Budur mənim əsas tələblərim. Hər yerdə belə olmalıdır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycanın inkişafı və ictimai-siyasi vəziyyətin müsbət istiqamətdə inkişafı bütün dünyada gedən böhranlardan asılı olmayaraq, bizim böyük sərvətimizdir. Müstəqil Azərbaycan bu gün nadir inkişaf dövrünü yaşayır. Azərbaycanda sürətli inkişaf prosesi gedir, düşünülmüş siyasət, müstəqil siyasət aparılır. Budur bizim uğurlarımızın təməlində dayanan əsas amillər. İqtisadi, siyasi islahatlar aparılır, bütün azadlıqlar təmin edilir, demokratiyanın inkişafı sürətlə gedir və xalqla iqtidar arasındakı birlik uğurlu inkişafımızın əsas amilidir.

Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model doğrudan da bir nümunə kimi, hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar, müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli dini tolerantlıq, dözümlülük, sosial siyasət və görülən işlər göz qabağındadır. Bunu dost görür sevinir, düşmən gəlib görəndə kefi pozulur. Biz bundan sonra da elə işləməliyik ki, xalqımız, dostlarımız sevinsin, düşmənin pis niyyəti gözündə qalsın. Əminəm ki, belə də olacaq, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir. Sağ olun.

# İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ MƏSƏLƏLƏR VƏ MALİYYƏ NAZİRİ ƏLİ TAYEBNİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə naziri Əli Tayebnianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı nazir Əli Tayebnianın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və gələcək əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəmli olacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı. İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycana səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı səfər çərçivəsində hər iki ölkənin iş adamlarının iştirakı ilə keçirilən biznes-forumun əhəmiyyətini qeyd etdi və forumda səslənən fikirləri iqtisadi sahədə əməkdaşlıq üçün mövcud olan qarşılıqlı marağın ifadəsi kimi dəyərləndirdi.*

*Nazir Əli Tayebnia İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan və İran prezidentlərinin səyləri sayəsində ikitərəfli münasibətlərimizin inkişafının yeni mərhələyə qədəm qoyduğunu vurğuladı. İranlı nazir azərbaycanlı həmkarları ilə birlikdə ikitərəfli əlaqələrimizin müxtəlif sahələrdə daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəklərini dedi.*

*Dövlətimizin başçısı prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## QUSAR RAYONUNA SƏFƏR

*29 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 29-da Qusar rayonunda «Şahdağ» qış-yay turizm kompleksinə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı həmin gün «Park Chalet Shahdağ» hotelinin, həmçinin kompleksin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışlarında iştirak etmişlər.*

*«Şahdağ» qış-yay turizm kompleksi dünyada bu tip komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli parkının ərazisində yerləşən kompleksin tikintisinin hazırlıq işlərinə 2006-cı ildən başlanılıb. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlib. Bu kompleksin təməli 2009-cu ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə qoyulub. O vaxtdan görülən işlər nəticəsində «Şahdağ» qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilib, körpülər tikilib, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilib. Dəniz səviyyəsindən 1300–2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır.*

*Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan «Şahdağ» qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən hotellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu hotellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu*

*gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Prezident İlham Əliyevin rəhbərliyi altında bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bununla bağlı bölgələrdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Təsadüfi deyil ki, son bir neçə ildə beşulduzlu hotellərin açılması ilə dünyanın ən məşhur hotel brendləri Azərbaycana gəlib. Paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nümunəsinə çevrilib. Bu çərçivədə «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən hotellərdəki yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir.*

*«Şahdağ» qış-yay turizm kompleksi Azərbaycanda ilk dağ-xizək kurortudur. Kompleksin inşası bir neçə mərhələdə aparılır. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan prezident İlham Əliyev dəfələrlə əraziyə gələrək, tikintinin gedişi ilə tanış olub, bir neçə obyektin və hotelin açılışında iştirak edib. Layihənin həyata keçirilməsi Mədəniyyət və Turizm Nazirliyinə həvalə olunub. Tikintiyə nəzarəti isə nazirliyin tabeliyində olan «Şahdağ» qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir.*

*Prezident İlham Əliyev hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Park Chalet Shahdağ» hoteli Bakıdan 210 kilometr şimal qərbdə yeganə «alp» üslublu dəbdəbəli məkandır. Əzəmətli dağlarla əhatə olunan hotelin 164 eleqant qonaq otağı var.*

*«Park Chalet» hotelinin baş meneceri Stüart De San Nikolas bildirdi ki, bu hotel yeni yaradılan «Absheron Hotel Group» şirkətinin ikinci hotelidir. İlk hotel olan «Pik Palace Shahdağ»ın açılışı 2013-cü ilin dekabrında prezident İlham Əliyev tərəfindən həyata keçirilib. «Park Chalet» hotelinin dizaynı ənənəvi Avropa üslubundan ilhamlanaraq, ABŞ-da «Aspen» xizək stilli hotellərin üslubunu da özündə əks etdirir. «Park Chalet» hoteli «Marriott» brendinin xüsusi portfeli sayılan eksklüziv və müstəqil lüks hotel və kurortların cəmləşdiyi «Autograph Collec-*

*tion»un rəsmi üzvüdür. «Park Chalet»in bu qrupa daxil olması təsadüfi deyil. Belə ki, bu qrupa namizəd hotellər beynəlxalq standartlara cavab verməsi, yerləşdiyi ərazi, orijinallığı və digər spesifik xüsusiyyətləri ilə seçilən hotellərdir.*

*Dövlətimizin başçısı və xanımı hotelin nömrələrində yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, hoteldə müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nəticəsidir. Bu çərçivədə «Park Chalet» hotelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir. Hoteldə müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq. Hoteldəki restoranlar, barlar və istirahət guşələri dağlarda zövqlə nahar etmək üçün nadir vəhdət yaradır. Bu hoteldə qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Burada quraşdırılan müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır. «Park Chalet» hotelində tam təchizatlı fitnes və SPA mərkəzləri, 20 metrlik qapalı hovuz qonaqlarını gözləyir. Dəbdəbəli SPA mərkəzində çalışan təcrübəli terapevtlər müxtəlif aromaterapiya, masajlar və prosedurlar, o cümlədən kosmetik qulluq və müalicə təqdim edirlər. 130 nəfərədək qonağı qəbul etmək iqtidarında olan çoxfunksiyalı və banket üslubundakı konfrans zalı günəş işığı ilə işıqlanır və möhtəşəm dağ mənzərəsi ilə əhatə olunub. Konfrans zalı, həmçinin 3 ayrı hissələrə bölünə bilir və bu da müxtəlifməzmunlu və həcmli tədbirlərin həyata keçirilməsi üçün əlverişlidir. Hotelin biznes mərkəzi həftədə 7 gün 24 saat fəaliyyətdədir.*

*Hotellə tanışlıqdan sonra prezident İlham Əliyev kollektivlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi salamlayıram. Bu gözəl hotelin açılışı münasibətilə sizi təbrik edirəm. Şadam ki, hər il Şahdağda bir-birindən gözəl yeni hotellər açılır. Bu hotel – «Park Chalet» hoteli sayca 5-ci hoteldir. Burada bütün lazımi şərait yaradılıb, hotel ən yüksək standartlara cavab verir. Həm xarici görünüşü, həm daxili tərtibatı, bütün xidmət sahələri ən yüksək səviyyədədir. Bu məni çox sevindirir. Çünki «Şahdağ» kurort mərkəzi bir neçə ildir ki, yaradılır. İlk dəfə 6 il bundan əvvəl burada olarkən Azərbaycanda dağ xizəyi kurortunun yaradılması haqqında qərar qəbul etdim və 2009-cu ildə təməl daşı qoyuldu. O zaman bu ərazilər boş idi. Bu gözəl dağlar arasında gözəl turizm mərkəzi yaradıldı. Bu gün dünya səviyyəli turizm mərkəzidir. Bütün infrastruktur layihələri icra edildi, yollar, elektrik, qaz, su xətləri çəkildi. İlk növbədə, infrastruktur yaradılmalı idi. O layihələr icra edilməsəydi, burada hotelin tikintisi mümkün olmazdı.

Ondan sonra birinci hotel – «Şahdağ» hoteli tikildi. Daha sonra «Qaya», «Zirvə», «Pik Palace» və indi «Park Chalet». Yəni qısa müddətdə, təxminən 3-4 il ərzində Azərbaycanda dünya səviyyəli beynəlxalq turizm mərkəzi yaradıldı. Hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki, adətən, belə turizm mərkəzlərinin yaradılması onilliklər tələb edir. Biz isə bunu 4-5 il ərzində yarada bildik. Burada həm dövlət vəsaitindən istifadə edilib, – çünki bütün infrastruktur layihələri, elə birinci hotel – «Şahdağ» hoteli dövlət büdcəsi hesabına tikilib, həm də özəl sektor fəaliyyət göstərir. Belə də olmalıdır. Azərbaycanda turizm yerlərinin yaradılması bu istiqamətdə inkişaf edir: dövlət infrastruktur yaradır, yollar çəkir, bütün kommunikasiyalar təmin edilir, özəl sektor isə öz növbəsində, investisiyaları təşkil edir.

Bu zona, ümumiyyətlə, çox böyük inkişaf dövrünü yaşayır. Bu hotellərdə – «Şahdağ» kurort mərkəzində işləyənlərin 80 faizi yerli vətəndaşlardır, Qusar rayonunun sakinləridir. Yadımdadır, təməl daşını qoyanda demişdim ki, bu mərkəz eyni zamanda, iş yerlərinin yaradılmasına xidmət göstərəcək. Çünki turizm sektoru çoxsaylı iş yerlərinin açılmasına gətirib çıxarır. Nəzərə alsaq ki, biz hələ birinci mərhələdəyik, demək olar, bizim bütün planlarımız hotellərin tikintisi ilə artıq reallaşıb. Ancaq «Şahdağ» turizm

mərkəzinin əsas fəaliyyət dövrü bundan sonra başlayacaq. Çünki hazırda buraya gələn qonaqların əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu da çox müsbət haldır ki, belə gözəl şərait olan yerdə Azərbaycan vətəndaşlarının indi dincəlmək üçün xaricə getmələrinə ehtiyac yoxdur. Ancaq ümid edirəm ki, gələcəkdə xarici qonaqların sayı da çoxalacaq. Beləliklə, burada – Qusar rayonunda inkişaf daha da sürətlə gedəcək.

Qusar rayonunun inkişafı daim diqqət mərkəzindədir, abadlıq-quruculuq, infrastruktur işləri görülüb, gözəl xəstəxana tikilib. Məktəblər inşa olunur, yollar çəkilir. Bu mərkəz Azərbaycanda ən böyük turizm mərkəzidir və dövlət xətti ilə turizm infrastrukturuna qoyulan ən böyük vəsait Qusar rayonuna yatırılıb.

Bu mərkəzin gözəl gələcəyi var. Xarici qonaqlar artıq buranı tanıyırlar. İnternet saytları da var. Bu il Azərbaycanda keçiriləcək Avropa oyunlarının qonaqları əminəm ki, bura da gələcəklər. Baxmayaraq ki, bu oyunlar yay mövsümündə olacaq, bu mərkəz hər mövsümdə uğurla fəaliyyət göstərəcək.

Hazırda buraya şənbə–bazar günlərində daha çox qonaq gəlir. Amma vaxt gələcək ki, bütün həftə boyu onların sayı çoxalacaq və yay mövsümündə də bu mərkəz kifayət qədər səmərəli işləyəcək.

Turizm Azərbaycanda inkişaf edir. Bir neçə turizm mərkəzi yaradılıbdır. Onlardan biri «Şahdağ»dır. Eyni zamanda, indi «Naftalan» turizm mərkəzi fəaliyyət göstərir. «Qalaaltı» turizm mərkəzi bu yaxınlarda açılacaqdır. Cənub bölgəsində – Lənkəran–Astara zonasında, Lerikdə gözəl turizm imkanları var. Qəbələ turizm mərkəzinə çevrilibdir, orada beşulduzlu bir neçə hotel fəaliyyət göstərir. Qərb bölgəsində Gəncə və onun ətrafında yerləşən rayonlar da, əlbəttə ki, turizm üçün çox gözəl yerlərdir. Azərbaycanın təbiəti elədir ki, hər yerdə gözəl, səfalı məkanlar, dağlar, meşələr, çaylar çoxdur. Bu bizim böyük sərvətimizdir. Biz bu sərvətdən səmərəli şəkildə istifadə etməliyik. Belə gözəl, müasir hotellər tikilir və Azərbaycan vətəndaşlarına xidmət edir.

Əlbəttə, Azərbaycanın ən böyük turizm mərkəzi Bakıdır. Bakıda indi dünyanın bütün aparıcı hotelləri fəaliyyət göstərir. Qısa müddət ərzində Bakıda beşulduzlu 6 hotel tikilib. Hesab edirəm ki, bu da

rekord göstəricidir, 5-6 il ərzində bir şəhərdə beşulduzlu 6 beynəlxalq hotel inşa olunub. Bakıya gələn hər bir qonaq paytaxtımıza aşiq olur. Çünki Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Mən isə istəyirəm ki, Azərbaycanın bütün şəhərləri gözəl olsun. Bütün şəhərlərdə gözəl şərait olsun, insanlar rahat yaşasınlar. Bu gün biz bunu təmin edirik. Azərbaycan inkişaf edir. Heç bir böhran bizə təsir edə bilməz. Biz inamla inkişaf edirik və regionlarımız da inkişaf edir.

2 gün bundan əvvəl regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda bir daha bütün rəqəmlər səsləndi və Azərbaycanın regionlarının inkişafı bundan sonra da uğurla təmin ediləcək.

Çox şadam ki, mənim təşəbbüsüm qısa müddət ərzində reallaşır. Bu yerlərdə gözəl hotellər, binalar, istirahət zonaları yaradılır.

Sizə uğurlar arzulayıram və əminəm ki, yaxşı işləyəcəksiniz, qonaqlara yaxşı xidmət göstərəcəksiniz. Sağ olun.

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, hoteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Bu əməkdaşlar qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kursları keçiblər.*

**İlham Əliyev:** Burada işləyənlərin 80 faizi yerli kadrlardır.

**Hotelin əməkdaşı:** Bəli, o uşaqlar hamısı yerlilərdir. Bu gəncləri texnikumdan, kollecdən, haradan imkan var cəlb edirik. Mən Bakıdanam.

**İlham Əliyev:** Çox yaxşı. Mən o vaxt elə də demişdim. Demişdim ki, burada çoxlu iş yeri yaradılacaq, başqa rayonlardan da buraya işləməyə gələcəklər.

**Hotelin əməkdaşı:** Gəlirlər, Qubadan da var. Statistika aparılır.

**İlham Əliyev:** Qubadan, Xaçmazdan gəlirlər. Sizə uğurlar arzulayıram, sağ olun.

**Hotelin əməkdaşları:** Təşəkkür edirik. Çox sağ olun.

## «Şahdağ» qış-yay turizm kompleksinin 1 saylı kanat yolunun və xizək enişinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 29-da «Şahdağ» qış-yay turizm kompleksinin 1 saylı kanat yolunun və xizək enişinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksdə inşası nəzərdə tutulan 9 kanat yolundan 7-si artıq hazırdır. Bundan başqa, ümumi uzunluğu 5860 metr olan 4 «xalça cığırı» və ümumi uzunluğu 12 min 430 metr olan 11 dağ xizək enişi inşa olunub. Həmçinin sahəsi 41,5 hektar olan enişlərin süni qarlaşdırma sistemi yaradılıb. Burada qonaqlar və turistlər üçün müxtəlif istirahət guşələri də tikilib.*

*Dövlətimizin başçısı 1 saylı kanat yolunu işə saldı.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kanat yolunu sınaqdan keçirdilər.*

*Qeyd edək ki, kanat yollarının çəkilişi qış turizm kompleksinin əsas infrastrukturlarından sayılır və bu işi böyük təcrübəsi olan Avstriya şirkəti həyata keçirir. Beləliklə, «Şahdağ» qış-yay turizm kompleksi qonaqlara ilboyu sonsuz həyəcanlı idman və əyləncə növləri təklif edir. Qonaqların burada bənzərsiz təbiət gözəlliyinin mərkəzində, dağ havasının təravətində müxtəlif əyləncə növlərinin əhatəsində olmaq şansı var. Burada xizəklə sürüşmək üçün 19-dan çox yamacın yaradılması planlaşdırılıb. Xizəksürmə məktəbi müxtəlif kurslar da təklif edir. Kompleksdə hər yaş kateqoriyasından olan insanlara müxtəlif yay əyləncələri də təklif ediləcək. Bölgəni yenidən kəşf etmək istəyənlər, macəra axtarışında olanlar üçün gələcəkdə raftinq, paraşütlə tullanma, qayaya dırmanma, velosipedlə gəzinti, göldə üzgüçülük və başqa idman əyləncələri də təşkil olunacaq. Bundan əlavə, burada böyük qolf sahəsinin, maraqlı aqvaparkların və hovuzların da tikilməsi planlaşdırılıb.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının sabiq prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Jelyu Jelevin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə, bütün Bolqarıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *31 yanvar 2015-ci il*

## YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSİS TSİPRASA

Hörmətli cənab Baş nazir!

Başçılıq etdiyiniz koalisiyanın ölkənizdə keçirilən parlament seçkilərində qələbəsi və Yunanıstan Respublikasının Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Yunanıstan əlaqələrinin genişlənməsi, xalqlarımız arasındakı dostluq münasibətlərinin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Yunanıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *2 fevral 2015-ci il*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–İtaliya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasındakı yüksək səviyyəli siyasi təmaslar, iqtisadi sahədə daim genişlənən qarşılıqlı faydalı əməkdaşlığımız, çoxşaxəli mədəni əlaqələrimiz Azərbaycan–İtaliya münasibətlərinin səciyyəvi cəhətlərindəndir.

İnanıram ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *2 fevral 2015-ci il*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA**

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasında münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *2 fevral 2015-ci il*

**AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*2 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda gedən sürətli inkişaf proseslərindən məmnunluq ifadə olundu, ölkədə müasir infrastruktur və yeni sənaye sahələrinin yaradılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən işlərin önəmi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli əlaqələrin inkişafından danışıldı, Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparılması baxımından əhəmiyyəti qeyd olundu.*

## I AVROPA OYUNLARI ÜÇÜN YARADILAN AVTOBUS DEPOSU VƏ TƏLİM MƏRKƏZİNDƏ GÖRÜLƏN İŞLƏRLƏ, ZIĞ GÖLÜNÜN KOMPLEKS BƏRPASI LAYİHƏSİ İLƏ TANIŞLIQ

*3 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva fevralın 3-də «BakuBus» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) ilk Avropa oyunları üçün yaradılan avtobus deposu və təlim mərkəzində görülən işlərlə tanış olmuşlar.*

*Maliyyə naziri Samir Şərifov dövlətimizin başçısına burada aparılan işlər barədə məlumat verdi.*

*Əvvəllər bu ərazidən neftlə çirklənmiş torpaqların və məişət tullantılarının atılma məntəqəsi kimi istifadə olunub. Ötən ilin sentyabrından 16 hektar ərazidə abadlıq və yenidənqurma işləri aparılıb, torpaq qatı təmizlənib. Ərazinin 6 hektarında sürücülər üçün təlim mərkəzi yaradılıb. Burada praktiki təlimlər üçün beynəlxalq standartlara cavab verən yollar salınıb. Bu yollarda xüsusi döngələr və maneələrin yaradılması, müxtəlif yol şəraitini imitasiya edən avadanlığın quraşdırılması nəzərdə tutulur. Mərkəzdə minik və yük avtomobilləri, iritutumlu avtobuslar və motosiklet sürücüləri üçün peşəkar mütəxəssislər tərəfindən təlimlərin keçirilməsi planlaşdırılır. Yol hərəkəti təhlükəsizliyi üzrə təlim-tədris mərkəzi sürücülər üçün fərdi uyğunlaşdırılmış təlim proqramı təklif edir. Bunun da nəticəsində yolda hərəkət zamanı sürücülərin məsuliyyəti, diqqəti və təcrübələri artır. Bu məqsədlə tədris zamanı 5 təlim modulundan istifadə olunur. Burada 9 hektar ərazidə 1 inzibati və 4 xidməti bina inşa edilir. İnzibati binada ümumi idarəetmə, mühasibatlıq, nəqliyyatın idarəetmə mərkəzi, treninq sinifləri, yeməkxana və digər inzibati otaqlar olacaq. Mərkəzdə,*

həmçinin sürücülərin tibbi yoxlama otağının, daxili dispetçer xidmətinin, işdən sonra avtobusları qəbuletmə və yoxlama məntəqəsinin yaradılması da nəzərdə tutulur. Layihəyə uyğun olaraq inşa edilən yanacaqdoldurma məntəqəsi, həmçinin təmir və texniki baxış binası da müasir səviyyədə qurulur. Burada bütün növ təmir və texniki baxışın həyata keçirilməsi mümkün olacaq. Binada 12 avtobusa eyni zamanda təmir və xidmət göstəriləcək. Burada işləyəcək ustalara avtobus istehsalçıları tərəfindən xüsusi treninqlər və peşəartırma kursları təşkil ediləcək. Binada növbəli iş rejimində çalışan usta və əməkdaşlar üçün istirahət otaqları da yaradılacaq. Ekoloji məsələlərə xüsusi diqqət yetiriləcək. Avtoyuma məntəqəsində işlənmiş suyun və ümumilikdə, ərazidə yağış sularının 85 faizi xüsusi qurğuda təmizlənərək təkrar istifadə ediləcək. Layihə fevralın sonunadək yekunlaşdırılacaq.

Ümumilikdə, «BakuBus» MMC-də 900-ə yaxın iş yerinin açılması nəzərdə tutulur. İşçilərin 650 nəfərini sürücülər təşkil edəcək. Avtobus parkı fəaliyyətini beynəlxalq təcrübəyə əsasən quracaq. Sürücülərə xüsusi geyim formaları veriləcək, avtobuslar şəhərə çıxmazdan əvvəl texniki baxışdan keçiriləcək.

Sonra İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev prezident İlham Əliyevə Zığ gölünün kompleks bərpası layihəsi çərçivəsində görülən işlər barədə məlumat verdi.

Layihə dövlətimizin başçısının «Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında» 2014-cü ildə imzaladığı sərəncama əsasən həyata keçirilir. Burada işlərin görülməsi İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilib. Qısa müddətdə gölün mühafizəsi təmin olunub, buraya məişət tullantılarının atılmasının qarşısı alınıb. Layihə çərçivəsində çirklənmə mənbələrinin, istismara yararsız neft quyularının və digər qurğuların ləğv edilməsi, gölün səviyyəsini saxlamaq üçün çirkab suların təmizlənərək buraya axıdılması, dib çöküntülərinin zərərsizləşdirilməsi işlərinin aparılması nəzərdə tutulur. Beləliklə, gölün ərazisi təbii məcrasına uyğunlaşdırılacaq. Hazırda gölün müfəssəl layihəsinin hazırlanması üçün beynəlxalq

*məsləhətçi şirkətlərin işə cəlb olunması ilə bağlı tədbirlər görülür. Gölün istifadəsi və mühafizəsi sahəsində idarəetmənin həyata keçirilməsi ilə əlaqədar təşkilati-təsərrüfat işlərinin görülməsi, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi «Təmiz Şəhər» ASC-yə həvalə edilib.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilk Avropa oyunlarında iştirak edəcək yüksək səviyyəli qonaqların daşınması üçün alınan «Mercedes» markalı mikroavtobuslara baxdılar.*

*Avtobuslarda sərnişinlərin rahatlığını təmin etmək üçün hərtərəfli şərait var.*

*Prezident İlham Əliyevə «BakuBus» MMC-nin «İVECO» markalı yeni avtobusları barədə də məlumat verildi. İlkin mərhələdə Fransa istehsalı olan 302 avtobus alınıb. Yeni avtobuslarda gedişhaqqı kartla ödəniləcək. Bu kartdan həm də metroda istifadə olunacaq. Avtobuslardakı bütün materiallar yanğına, donmaya və buxarlanmaya davamlıdır. Təhlükəsizliyin təmin edilməsi məqsədi ilə avtobusların salonlarında kameralar quraşdırılıb, qapılar xüsusi sistemlə təchiz edilib. Bu nəqliyyat vasitələrində uşaq və əlillər üçün xüsusi oturacaqlar qoyulub. Avtobusların daha bir üstünlüyü isə onların sıxılmış təbii qazla işləməsidir. Bu da ekoloji baxımdan əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıq və göstərişlərini verdi.*

## BAKI İDMAN SARAYINDA YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva fevralın 3-də Bakı İdman Sarayında həyata keçirilən əsaslı yenidənqurma işlərinin gedişi ilə tanış olmuşlar.*

Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Qeyd olundu ki, bina 1974-cü ildə inşa edilib və hazırda müasir tələblərə uyğun yenidən qurulur. Ötən ilin yanvarında başlanan təmir işlərindən sonra binada Olimpiya və Paralimpiya oyunlarının keçirilməsi üçün bütün şərait yaradılacaq, ilk Avropa oyunlarının badminton və stolüstü tennis yarışlarının burada keçirilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı və xanımı əsas idman zalında aparılan təmir işləri ilə də maraqlandılar.

Bildirildi ki, tamaşaçı yerlərinin sayının artırılması üçün zalda əlavə olaraq ikitərəfli tribuna inşa edilib. Zalda oturacaqların sayı təmirdən əvvəl 1100 idisə, yenidənqurmadan sonra bu rəqəm 1736-ya çatdırılıb. Badminton və stolüstü tennis yarışlarının keçirildiyi yerlərlə bağlı beynəlxalq federasiyaların tələbləri nəzərə alınaraq burada xüsusi idarəetmə sistemi, hava axınını üfüqi istiqamətdə bərabər şəkildə tənzimləyən havalandırma sistemi qurulub.

Əsas idman zalında artıq döşəmə işləri həyata keçirilir. Döşəməyə xüsusi taxta örtük salınır. Məhdud fiziki imkanlı tamaşaçıların və gələcəkdə paralimpiyaçıların binanın bütün sahələrindən tam istifadə edə bilmələri nəzərə alınaraq, daxildə 6 lift şaxtası inşa edilib və müasir liftlərin quraşdırılması

*nəzərdə* tutulub. *Bakı İdman Sarayında idmançılar və* tama-*şaçılar üçün* kafe *də fəaliyyət göstərəcək.* Bundan *başqa,* burada *püşkatma və mətbuat zallarında, VIP* otaqlarda, Avropa *oyunları Təşkilat Komitəsinin iş kabinetlərində və digər yardımçı* otaqlarda da *yüksək* standartlar *nəzərə alınacaq.*

*Qeyd edək ki, ilk* Avropa *oyunlarının həyəcanı yaxınlaşdıqca ölkəmizdə* bu idman *yarışlarına* maraq daha da *artır. Bütün* bunlar bir daha *təsdiqləyir ki,* Avropa Olimpiya *Komitəsinin I* Avropa *oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı beynəl-*xalq idman *ictimaiyyətinin ölkəmizin* olimpiya *hərəkatında oy-nadığı* rola, *idmanın inkişafına göstərdiyi yüksək dəstəyə ve-rilən önəmin ifadəsidir. Təsadüfi* deyil ki, *Bakının 2015-ci il I* Avropa *oyunlarının keçirilməsi üçün böyük* potensiala malik ol-*masını beynəlxalq* idman *təşkilatları təsdiqləyib. Güclü* idman infrastrukturu olan *Azərbaycan* eyni zamanda, *beynəlxalq yarışları keçirmək təcrübəsinə də* malikdir. *Ölkəmiz I* Avropa *oyunlarını* da *yüksək səviyyədə keçirəcəkdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Bakı İdman Sarayında işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılmasına* dair *müvafiq tapşırıq və tövsiyələrini* verdi.

## XƏTAİ RAYONU ƏRAZİSİNDƏ YENİ YARADILAN FƏVVARƏLƏR VƏ ŞƏLALƏLƏR KOMPLEKSİ İLƏ TANIŞLIQ

*4 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakının Xətai rayonu ərazisində yeni yaradılan fəvvarələr və şəlalələr kompleksi ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Uzunluğu 150 metr olan kompleks ən müasir tələblər səviyyəsində qurulub. Fəvvarələr və şəlalələr kompleksinin altında müasir texniki infrastruktur və idarəetmə mərkəzi yaradılıb. Müxtəlif rəngli 700-dən artıq işıq effekti fəvvarələrə xüsusi yaraşıq verəcək.*

*Qeyd edək ki, prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son illər Bakı şəhərində park və xiyabanların əsaslı şəkildə qurulması və yeni parkların, yaşıllıq zolaqlarının salınması, müasir tələblərə cavab verən istirahət guşələrinin yaradılması istiqamətində tədbirlər ardıcıl olaraq davam etdirilir. Salınan yeni parklar və yaşıllıq zolaqları, əhaliyə xidmət göstərən iaşə obyektləri, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Xətai rayonu ərazisində yeni yaradılan fəvvarələr və şəlalələr kompleksi də paytaxtda və respublikamızın digər bölgələrində həyata keçirilən abadlıq və quruculuq işlərinin davamıdır. Kompleksdə müasir işıqlandırma sistemi qurulub, yeni yaşıllıq zolağı salınıb, abadlıq işləri aparılıb, əraziyə keyfiyyətli plitələr döşənib.*

*Fəvvarələr və şəlalələr kompleksində yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tövsiyələrini verdi.*

# POLAD BÜLBÜLOĞLUNUN 70 İLLİK YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLƏN BİR QRUP TANINMIŞ MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMİ İLƏ GÖRÜŞ

*4 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 4-də Xalq artisti, Azərbaycanın Rusiyadakı Fövqəladə və Səlahiyyətli səfiri Polad Bülbüloğlunun 70 illik yubiley mərasimində iştirak etmək üçün Bakıya gələn bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüşmüşlər.*

**İ l h a m Ə l i y e v:** Sizin hamınızı görməyimə şadam. Azərbaycana xoş gəlmisiniz! Əksəriyyətinizlə çoxdan tanışam, bəzi qonaqları ilk dəfədir görürəm. Ümidvaram ki, Bakı sizdə xoş xatirələr doğuracaq. Siz buraya bizim əziz Polad Bülbüloğlunun yubiley tədbirlərində iştirak etmək üçün onun yaxın dostları kimi gəlmisiniz. Bu çox dəyərlidir. Ona görə ki, onilliklərlə davam edən dostluğunuz həmişə hamıya gözəl nümunədir. Bu, xoş münasibətləri qurmaq, qiymətləndirmək və dostluğu ömürboyu davam etdirmək nümunəsidir. Mən çox şadam ki, Polad Bülbüloğlu öz yubileyini Vətənində, dostları və yaxınlarının əhatəsində qeyd edir. Bu da bizim üçün, Bakı üçün xüsusi ab-hava yaradır. Düşünürəm ki, belə bir yubiley günündə bizim görüşümüz böyük əhəmiyyət kəsb edir.

Qeyd etdiyim kimi, mən burada iştirak edənlərin əksəriyyətini tanıyıram, bəzilərini isə ilk dəfədir görürəm. Amma düşünürəm ki, bizim münasibətlərimiz həm ənənəvi, həm də yeni tanışlıqla davam edəcək. Hər dəfə Rusiyadan bizə mədəniyyət və yaradıcılıq kollektivlərindən ibarət nümayəndə heyəti gələndə mühüm məsələləri, qarşılıqlı fəaliyyəti, o cümlədən də

humanitar mövzuları müzakirə etmək üçün yaxşı imkanlar yaranır. Amma bu gün bizim mövzumuz bir qədər başqadır. Biləndə ki, Rusiyadan çoxlu qonaqlarımız gələcək, mənə çox xoş oldu.

Bizi Polad Bülbüloğlu ilə 40 ildən artıqdır ki, dostluq əlaqələri birləşdirir. Demək olar ki, 40 ildir bir-birimizi tanıyırıq. O vaxtlar mən yeniyetmə idim, Polad Bülbüloğlu isə məşhur müğənni və bəstəkar idi. Mənim valideynlərim Polada səmimi münasibət bəsləyirdilər. Mən də həmişə ona belə münasibət bəsləmişəm. Sonradan Moskvada təhsil aldığım illərdə onunla mütəmadi ünsiyyətdə olmuşuq. Bu dostluğu uzun illərdir ki, davam etdiririk. Dünən söhbətimizdə qeyd etdiyimiz kimi, növbəti yubileyə qədər də tez-tez görüşəcəyik. Bu gün ona «Şərəf» ordeni təqdim edilir. Bu mənim Polad Bülbüloğluna təqdim etdiyim ilk mükafat deyil, 10 il əvvəl ona «İstiqlal» ordeni təqdim edilmişdi.

Polad Bülbüloğlunun yaradıcılığı hamıya yaxşı məlumdur. Bildirmək istəyirəm ki, onun yaradıcılığının milli köklərə yaxınlığı, eyni zamanda, keçmiş Sovet İttifaqı respublikalarında rəğbətlə qarşılanması məni daim heyrətə gətirirdi. Ona görə də hesab edirəm ki, Polad Bülbüloğlunun yaradıcılığı xalq yaradıcılığıdır. Onun yaradıcılığının kökləri Azərbaycan tarixinin ən dərin izlərinə gedib çıxır. O, böyük sənətkarımız, Azərbaycan xalqının fəxri olan, xalqımızın tarixində görkəmli ifaçı və vətəndaş kimi qalan müğənni Bülbülün ailəsində anadan olub. Təbii ki, bu onun yaradıcılığına təsir göstərib. Onun mahnıları keçmiş Sovet İttifaqı məkanında hitə çevrilib. Əvvəllər belə termin işlədilmirdi, amma indi bu termini işlətmək olar, bu mahnılar indiyə kimi yaşayır. Xüsusi qeyd etmək istəyirəm ki, o ancaq özünün bəstələdiyi mahnıları oxuması ilə unikaldır. Bu da bir daha onun istedadının dərinliyini əks etdirir. O, həyatı boyu sevimli işi ilə məşğul olur. Əsas da elə budur: həm musiqiçi, həm ifaçı, həm də yaradıcı insan bu gün Azərbaycanın Rusiyadakı səfiridir. Şadam ki, o bu sahədəki fəaliyyətinə də yaradıcı yanaşır və ölkələrimiz ara-

sında ikitərəfli münasibətlərin inkişafı üçün çox işlər görür. Azərbaycan dövləti, Azərbaycan xalqı adından onu yubiley münasibətilə bir daha təbrik etmək və yüksək mükafatı təqdim etmək istəyirəm.

*Prezident İlham Əliyev Azərbaycan Respublikasının ən yüksək mükafatlarından biri olan «Şərəf» ordenini Polad Bülbüloğluna təqdim etdi.*

* * *

**İ o s i f  K o b z o n** (*SSRİ Xalq artisti* ): Hörmətli İlham Heydər oğlu! Bu bizim üçün nəinki Poladın bayramı, bu həm də böyük dostluq bayramıdır. Siz Poladı səciyyələndirərək, hamısını dediniz. Mən onu uzun illərdir ki, ifaçı kimi tanıyıram.

*Qonaq burada müxtəlif ölkələrin – Rusiya, Moldova, Özbəkistan, Qazaxıstan, Gürcüstan və Tacikistanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirak etməsindən böyük məmnuniyyət hissi keçirdiklərini vurğulayaraq bildirdi:*

– Dünən biz Poladın çox gözəl baletinə tamaşa etdik. Artıq ikinci dəfədir ki, onun baletinə baxıram. Məndə belə bir duyğu yaranıb ki, bu musiqi dərin milli köklərə söykənir. Bunu Sizin unudulmaz atanız da həmişə qeyd edirdi. Polad Azərbaycandan qidalanır. Onun üçün Azərbaycan mənbədir, anadır, həmişə ehtiram göstərdiyi xalqdır. Polad da xalqını Rusiyada layiqincə təmsil edir. Həqiqətən də o, hərtərəfli istedadlı insandır. Həqiqətən də Polad respublikanın sərvətidir. Bizdə «Respublikanın sərvəti» adlı veriliş var. Polad isə deyərdim ki, respublikasının milli sərvətidir. Çox şadam ki, Siz, böyük Azərbaycanın prezidenti kimi, Polada belə dəyərli münasibət bəsləyirsiniz. Mən gənc dostumu təbrik edirəm.

Sağ olun ki, Siz gözəl xanımınızla bu tədbirə gəldiniz. Sizin xanımınız və onun xeyirxahlığı haqqında da bizim çox gözəl məlumatımız var. Sağ olun ki, mədəniyyətə bu cür gözəl münasibət bəsləyirsiniz. Hər dəfə Bakıya gələndə şəhərin göz qabağında belə dəyişməsi bizi heyran edir. Söhbət təkcə gözəl, uca binalardan getmir. Söhbət həm də küçələrin təmizliyi,

həmçinin sakinlərin gözlərindən yağan saflıq, onların Azərbaycanın qonaqlarına olan səmimi münasibətindən gedir.

Biz dostumuz Polada və Azərbaycana görə çox xoşbəxt və məmnunuq. Mədəniyyətə, xalqa göstərdiyiniz ehtirama görə Sizə minnətdarıq. Bildiyimizə görə, burada belə bir deyim var ki, neft kapitalı insan kapitalına çevrilib. Buna görə biz çox sevinirik. Hamınız sağ olun. Azərbaycan Prezidentinə minnətdarıq.

*Sonra Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy çıxış etdi.*

**Mixail Şvıdkoy:** Dünən gecə Rusiya prezidenti Vladimir Putin Polad Bülbüloğlunun «Şərəf» ordeni ilə təltif edilməsi barədə fərman imzalayıb. Burada keçmiş postsovet məkanını təmsil edən bir çox nümayəndələr ola bilərdi. Bir çox millətlərin Poladı sevən nümayəndələri gəlmək istəyirdi – belaruslar da, ukraynalılar da, Baltikyanı ölkələrin nümayəndələri də. Düşünürəm ki, Polada belə münasibət onun insanlara olan doğmalığından irəli gəlir. Onda insanlara doğmalıq və səmimiyyət duyğuları var.

*Rusiyanın Əməkdar artisti Bari Alibasov Bakı haqqında təəssüratlarını bölüşdü və paytaxtımızın ötən illər ərzində sürətli inkişaf yolu keçdiyinin şahidi olduğunu vurğuladı.*

*Sonra Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

**Yevgeni Doqa** (*bəstəkar, SSRİ Xalq artisti*): Əgər Siz prezident kimi, bu gün bizi buraya toplayan bəstəkara, mədəniyyət xadiminə, siyasətçiyə belə münasibət bəsləyirsinizsə, deməli, incəsənət sayəsində ətrafınıza bütün dünyanı toplaya bilirsiniz. Bütün bunlar müdrik xalqın zəkasının və ziyalılığının təzahürüdür. Bəli, Sizin çox gözəl şəhəriniz var. Amma bu şəhərə belə mənəvi nəfəs verən sakinlərsiz o, boş görünərdi. Bu son dərəcə heyrətamizdir. Müdrik rəhbərlərin bu xüsusiyyəti göstərir ki, ilk növbədə, mənəviyyat olmalıdır.

*Yevgeni Doqa Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

*Rusiyanın Xalq artisti Lyudmila Ryumina rəhbərlik etdiyi Moskva Mədəniyyət Folklor Mərkəzinin kollektivi adından dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

*TÜRKSOY-un baş katibi Düsen Kaseinov dövlətimizin başçısına tədbirin yüksək səviyyədə keçirilməsinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi, vaxtı ilə TÜRKSOY təşkilatına ulu öndər Heydər Əliyevin göstərdiyi diqqəti dərin ehtiramla xatırlatdı, Polad Bülbüloğlunun TÜRKSOY-un ilk sədri kimi, əməyini yüksək qiymətləndirdi.*

*Tacikistanın Xalq artisti Curabek Murodov prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirdiyini bildirərək, ölkəmizdə mədəniyyətə və incəsənət xadimlərinə dövlət səviyyəsində göstərilən qayğını yüksək dəyərləndirdi.*

**Andrey Dementyev** (*SSRİ Dövlət mükafatı laureatı*): Poladı mən uzun müddətdir tanıyıram. Onun yeniyetmə çağlarını da çox yaxşı xatırlayıram. Qara bığları, gur saçları olan gözəl oğlan idi. Çox gözəl də mahnı oxuyardı. Demək istəyirəm ki, Tanrı ona belə bir gözəl torpaqda doğulmağı, burada tərbiyə almağı nəsib edib. Burada ona bütün bəşəriyyətə məhəbbət, qarşılıqlı hörmət hissləri aşılanıb. Bu çox gözəldir. Mən bütün dünyanı gəzmişəm. Bakı isə mənim üçün ən füsunkar şəhərlərdən biridir. Söhbət təkcə gözəl binalar və təmizlikdən getmir. Burada həm də çox gözəl bədii zövq var. Hara gediriksə orada insanların öz incəsənətinə və şəhərinə vurğunluğunun şahidi oluruq. Bu da heyrətamizdir, qiymətlidir. Demək istəyirəm ki, bizim dostumuz Polad Bülbüloğlu görkəmli şəxsiyyətdir, çünki onu hər yerdə tanıyırlar.

*Andrey Dementyev Polad Bülbüloğlunun sənətinin uzun illərdir musiqisevərlər tərəfindən böyük rəğbətlə qarşılandığını bildirərək, onun müxtəlif janrlarda rəngarəng musiqi əsərləri yaratdığını vurğuladı, balet janrında da uğur qazandığını bildirdi. Andrey Dementyev Polad Bülbüloğlunun müəllifi olduğu balet barədə təəssüratlarını bölüşərək dedi:*

– Dünən baletə tamaşa etdik. Bu, əsl sənət əsəri idi. Elə bir əsər idi ki, heç də bütün sənətkarlar bununla təmasda ola və bu janrda öz sözlərini deyə bilmirlər. Polad isə balet sənətində də sözünü deyə bildi. Gözəl musiqi idi. Gənc balet artistlərindən ibarət truppa çox gözəl çıxış etdi. Baxmayaraq ki, balet, necə deyərlər, beynəlxalq incəsənətdir, dünən axşam hər bir səs, hər bir hərəkətdə mən Azərbaycanı, milli incəsənəti hiss etdim. Bunun hamısı təqdirəlayiqdir.

*Andrey Dementyev yubilyara həsr olunan şeirini oxudu.*

*Dövlətimizin başçısı Azərbaycanda həmişə sənətə və sənət adamlarına hörmətlə yanaşıldığını bildirdi, yubiley tədbirində iştirak edən mədəniyyət və incəsənət xadimlərini ölkəmizdə görməkdən şad olduğunu vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Bakı həmişə dostlarını qəbul edən, ağuşunu onlara geniş açan, qonaqpərvərliyi ilə seçilən şəhər olub. Bu hansısa təzahürün nümayişi olmayıb, sadəcə, bu, cəmiyyətin öz istəyindən yaranan müsbət duyğulardır. Bunu həm şəhərin, həm də insanların görünüşündən hiss etmək olar. Xüsusilə də belə bir mötəbər beynəlxalq, mədəni birliyin görkəmli nümayəndə heyəti təşrif buyuranda böyük məmnunluq duyulur. Buna görə də həmişə şadıq, tez-tez gəlin. Sizi görməyimizə şad olarıq. Bizdə hər il sizin də iştirak etdiyiniz Beynəlxalq Humanitar Forum, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Biz həm də tez-tez multikulturalizm mövzusunda tədbirlər keçiririk. Bu yaxınlarda mənim fərmanımla, zənnimcə, dünyada hələ ki, yeganə olan Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Bu mövzu çox vacibdir. Biz bu mövzu ilə hələ müasir təhlükələrin olmadığı bir vaxtda – cəmi 1-2 il bundan əvvəl təhlükələrin yaranmadığı dövrdən məşğul olmağa başlamışıq. Bəlkə də belə təhlükələr var idi, bundan xəbərdar olanlar az olub.

Mədəniyyətlərarası dialoq, bir ölkədə yaşayan müxtəlif xalqların, dinlərin və konfessiyaların nümayəndələri arasındakı münasibətlər uğurlu inkişafın rəhnidir. Buna görə də düşünürəm ki, Azərbaycanın bu istiqamətdəki irəliləyişi çox müsbət haldır.

Təəssüf ki, biz başqa nümunələrə də rast gəlirik. Həm sərhədlərimizin ətrafında, həm Yaxın Şərqdə, həm də Avropada münaqişələr, düşmənçilik münasibətləri artmaqdadır. Çox vaxt bu cür münasibətlər müəyyən siyasi dairələr, bəzən media nümayəndələri tərəfindən süni şəkildə təlqin olunur. Biz öz cəmiyyətimizi və ölkəmizi bu cür meyillərdən qorumağa çalışırıq. Buna görə də mədəniyyətlərarası dialoq çərçivəsində keçirdiyimiz tədbirlər təkcə görkəmli xadimlərin formal toplantısı deyil, belə mərasimlər bizim cəmiyyətimizə müsbət ovqat bəxş edir. Çünki Azərbaycanın uğurlu inkişafı ilk növbədə, insan potensialı deməkdir. Biz bu gün bu barədə danışmışıq. Tamamilə haqlısınız, bütün görülən işlərin, gördüklərinizin, gözə görünməyənlərin də əsasında insan kapitalı dayanır. Mən ilk çıxışlarımdan birində demişəm ki, biz nefti – «qara qızıl»ı insan kapitalına çevirməliyik. Biz bu istiqamətdə də işləyirik. Bu gün bizim iqtisadiyyatımızda neft əsas amil deyil, buna görə də digər sahələr artıq inkişaf etməkdədir. Tamamilə razıyam ki, bütün bunların əsasında cəmiyyətin mənəvi vəziyyəti və sağlamlığı durur. Buna isə yalnız bu cür ictimai həmrəyliklə nail olmaq mümkündür.

Əlbəttə ki, hər bir hökumətin və dövlətin öz siyasi xətti var, həmin siyasət də cəmiyyətin həyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Lakin ictimai rəy və cəmiyyətin nikbin əhval-ruhiyyəsi olmadan heç nəyə nail olmaq mümkün deyil. Buna görə də bugünkü tədbir multiplikativ effektə malikdir və cəmiyyətimizə müəyyən müddət üçün nikbinlik ovqatı bəxş edəcək. Bayaq sizin söylədiyiniz şeirin misraları ilə tam razıyam.

**A n d r e y D e m e n t y e v:** Yeri gəlmişkən, Sizin qızınız da gözəl şeirlər yazır.

**İ l h a m Ə l i y e v:** Siz bayaq qeyd etdiniz ki, bu cür əlaqələri məhv etmək mümkün deyil, hərçənd belə cəhdlər olur. Biz isə Azərbaycanda buna yol vermirik, əksinə, əlaqələri möhkəmləndirməyə çalışırıq və istərdik ki, ən başlıcası sizin nümunənizdə gənclər ibrət götürsünlər. Çünki biz vaxtilə bir ölkədə yaşamışıq, bizi ümumi keçmiş, hamımızın ünsiyyət

saxladığımız rus dili birləşdirirdi. Keçmiş sovet məkanında yaşayan indiki nəslin nümayəndələri isə bizim nəslimiz kimi, belə əlbir deyil. Bu da təbiidir. Buna görə də biz öz müsbət nümunəmizlə gələcək nəsillərə yaxşı siqnallar ötürməliyik. Çünki bundan heç kəs zərər görməyəcək. Əksinə, daha yaxşı olacaq. Çünki düşmənçilikdənsə dostluq və əməkdaşlıq daha yaxşıdır. Biz buna əsaslanırıq. Gəldiyinizə və münasibətinizə görə sizə bir daha təşəkkür edirəm. Bütün bunlar çox dəyərlidir. Sizə ən xoş arzularımı çatdırıram.

## TÜRKİYƏ RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRİ NİHAT ZEYBƏKÇİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının İqtisadiyyat naziri Nihad Zeybəkçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Nihad Zeybəkçi Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, ikitərəfli əlaqələrimizin siyasi, iqtisadi, enerji, qarşılıqlı sərmayə qoyuluşu, infrastruktur, müasir sənaye parklarının yaradılması, ticarət, kənd təsərrüfatı və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Münhen*

*5 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 5-də 51-ci Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlmişlər.*

## TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ «ŞAXƏLƏNDİRMƏ STRATEGİYALARI» MÖVZUSUNDA «DƏYİRMİ MASA»DA İŞTİRAK

*Münhen*

*6 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da 51-ci Münhen Təhlükəsizlik Konfransı çərçivəsində «Şaxələndirmə strategiyaları» mövzusunda enerji təhlükəsizliyi «dəyirmi masa»sında iştirak etmişdir.*

*Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq Fredrik İşinger tədbir iştirakçılarını və Azərbaycan prezidenti İlham Əliyevi salamladı.*

*Artıq Münhen Təhlükəsizlik Konfransı çərçivəsində müzakirə olunan məsələlərin əhatə dairəsinin genişləndiyini, 2013-cü ildən bu siyahıya enerji təhlükəsizliyinin də daxil olduğunu deyən Volfqanq Fredrik İşinger prezident İlham Əliyevə bu müzakirələrdə iştirakına görə təşəkkür etdi və «dəyirmi masa»nın işinə uğurlar arzuladı.*

*Sonra tədbirin aparıcısı sözü Azərbaycan Prezidentinə verdi.*

*Dövlətimizin başçısı «dəyirmi masa»da çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun. Əvvəlcə səfir İşingerə dəvətinə görə təşəkkürümü bildirmək istəyirəm. Münhendə yenidən olmaq məndə məmnunluq hissi doğurur. Burada belə bir müzakirənin təşkil olunmasına görə sizə təşəkkür etmək istəyirəm. Çünki enerji təhlükəsizliyi məsələsini milli təhlükəsizlik məsələsindən ayrı

müzakirə etmək olmaz. Enerji siyasəti ilə bağlı məsələlər milli maraqlara və Avropanın bizim regionda qlobal siyasi xəritəsinə sıx bağlıdır.

Azərbaycan, əlbəttə ki, yerləşdiyi regionda enerji təhlükəsizliyinin təminatında öz rolunu oynayır. İndi, «Cənub Qaz Dəhlizi» ilə bağlı vacib sazişin imzalanmasından sonra biz Avropa üçün əhəmiyyətli bir tərəfdaşa çevrilirik. Biz artıq enerji təchizatı marşrutlarını şaxələndirməyə nail olmuşuq.

Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. İstehsalat sahəsində əsas investisiyaları əldə etmək üçün bizə nəqliyyat marşrutları lazım idi. Bunun üçün də 1994-cü ildə, enerji strategiyamızın lap əvvəlində biz neft şirkətlərindən ibarət beynəlxalq konsorsiumdan neftin və qazın istehsalı üçün investisiyaları cəlb edə bildik. Biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft-qaz boru kəmərlərini inşa etməyə başladıq. Biz artıq bu dəhlizləri tikmişik. 10 il bundan əvvəl Bakı–Tbilisi–Ceyhan neft boru kəməri istismara veriləndə biz artıq Avropanın enerji təhlükəsizliyinin təmini istiqamətində mühüm bir addım atmışdıq. Bu gün Azərbaycandan daxil olan neft bəzi Avropa ölkələrinin enerji balansında 30–40 faiz təşkil edir. İndi isə dediyimiz kimi, növbə təbii qaza çatıb. Böyük «Şahdəniz» yatağı Azərbaycan üçün nəhəng ehtiyatdır. Bu, dünya miqyasında ən böyük qaz yataqlarından biridir. Biz 1996-cı ildən etibarən *bp* və digər tərəfdaş şirkətlərlə bu yatağın işlənməsi üzərində çalışmışıq. Biz artıq Azərbaycan qazını hasil və onun regional bazarlara çıxışını təmin etmişik. Bizim qonşularımız olan Gürcüstan, Türkiyə, İran və Rusiya Azərbaycan qazını alırlar. 2012-ci ildə vacib bir qərar qəbul edərək, Türkiyə ilə Trans–Anadolu – TANAP qaz boru kəməri haqqında saziş imzaladıq. Bu, Avropanın enerji təhlükəsizliyində böyük bir sıçrayış oldu. Çünki bu saziş olmadan «Cənub Qaz Dəhlizi» layihəsi bu gün sadəcə, yaxşı bir ideya olaraq qalardı.

2013-cü ildə Trans–Adriatik – TAP boru kəməri əsas təchizat marşrutu kimi seçilib. 2014-cü il sentyabrın 20-də Bakıda «Cənub Qaz

Dəhlizi»nin təməlqoyma mərasimi keçirilib. İndi hər şey hazırdır və biz artıq Avropanın əsas enerji və infrastruktur layihələrinin icrasına başlamışıq. «Şahdəniz» yatağının işlənməsi, boru kəmərinin tikintisi ilə birlikdə sərmayə dəyəri ən azı 45 milyard dollar həcmində olacaq. Bizə indi nə lazımdır?! Bizə bu komandanın bütün üzvləri arasında səmərəli əlaqələndirmə işlərinin aparılması lazımdır. Əvvəlki vaxtlarda bizdə regional əməkdaşlıq mövcud idi. Azərbaycan, Türkiyə və Gürcüstan – təkcə bu 3 ölkə Bakı–Tbilisi–Ceyhan neft «Cənubi Qafqaz» qaz boru kəmərləri və tezliklə istismara veriləcək dəmir yolu layihələrinin icrasına nail olublar. İndi komanndamızda Avropa İttifaqının üzvləri olduqda bizə daha çox əlaqələndirmə və çeviklik lazımdır. Çünki bəzən Avropa təşkilatlarının qaydaları çox vaxt aparır. Biz bürokratiya ilə bağlı müəyyən məsələlərlə üzləşirik və biz vaxt itirə bilmərik. Çünki bu layihə istehsalçı qismində bizə, tranzit və istehlakçı ölkələrə lazımdır.

Aydındır ki, Azərbaycandan daxil olan qaz Avropa istehlakçılarının yaxın gələcəkdə əldə edəcəyi yeganə yeni qaz mənbəyidir. Bütün digər layihələr, o cümlədən marşrutların şaxələndirilməsi ilə bağlı layihələr mənbələrin deyil, yalnız marşrutların şaxələndirilməsini nəzərdə tutur. Bizim mənbəyimiz yenidir və əgər belə demək mümkündürsə, təzə üzə çıxıb. «Şahdəniz» yatağında 1 trilyon kubmetrdən çox qaz ehtiyatı var. Bizim digər yataqlarla birgə təsdiqlənmiş qaz ehtiyatlarımız ən azı 2,5 trilyon kubmetr təşkil edir. Bu, on illərlə, yüz illərlə davam edəcək qaz layihəsidir. Bu layihə Avropanın enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişəcək.

Bizim təşəbbüsümüzlə bu il fevralın 12-də Bakıda «Cənub Qaz Dəhlizi» layihəsinin Məşvərət Şurasının birinci iclası keçiriləcək. Biz bu layihədə iştirak edən bütün ölkələrdən yüksək səviyyəli rəsmiləri dəvət etmişik – Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Beləliklə, bu ana qədər belə bir tərkibdə komanda formalaşıb. Həmçinin layihənin sonrakı mərhələlərində biz Balkan ölkələrindən tərəfdaşlarımızı cəlb edəcəyik. Çünki artıq Xorvatiya və Monteneqro ilə Anlaşma Memorandumu imzalanıb. Beləliklə, bizə əlaqələndirmə və Avropa təşkilatlarının güclü dəstəyi lazımdır

ki, ən azından bürokratik prosedurlara görə vaxt itirməyək. Düşünürəm ki, bu layihəni bəzən çox vaxt aparan ümumi qayda və prosedurlardan uzaqlaşdırmaq üçün xüsusi bir yanaşma tətbiq olunmalıdır. Yalnız Azərbaycan, Türkiyə və Gürcüstanın iştirak etdiyi ilkin layihələrin icrasında bizdə çeviklik var idi. Bu layihədə də bizə eyni səviyyədə çeviklik və etibar lazımdır. Çünki TANAP, TAP, «Şahdəniz-2» layihələri böyük investisiyalardır və təkcə Azərbaycan yox, *bp,* Türkiyə burada ən böyük sərmayə tərəfdaşlarıdır. Beləliklə, biz bu sərmayələri geri qaytarmalıyıq.

Səmimi desəm, hazırda neftin 1 barrelinin qiymətinin təqribən 50 dollardan yüksək olması bu layihənin kommersiya nöqteyi-nəzərindən dayanıqlı olmasını çətinləşdirir. Bu layihə də həyata keçirilməlidir. Bu ilk növbədə, enerji təhlükəsizliyi layihəsidir. Bu layihəyə ona cəlb olunan ölkələrin milli təhlükəsizliyinə xidmət edən layihə kimi yanaşılmalıdır. Beləliklə, böyük qaz ehtiyatlarımızı nəzərə alaraq biz hələ də «Cənub Qaz Dəhlizi» layihəsinin üzvü olmayan, lakin Nabukko layihəsinin böyük hissəsi olan ölkələri bu sistemə cəlb edə bilərik. Məsələn, əvvəlcə Bolqarıstan TAP-ın üzvü deyildi, lakin biz onu komandamıza əlavə etdik. Çünki bu ölkə Yunanıstan–Bolqarıstan və ya Türkiyə–Bolqarıstan arasında bağlayıcı kimi fəaliyyət göstərə bilər. Beləliklə, Bolqarıstanla müqavilə artıq imzalanıb. Bu isə o deməkdir ki, Nabukko komandasının bir üzvü artıq TAP-ın üzvüdür. Biz Rumıniya, Macarıstan və Avstriya ərazilərindən bu layihəni daha uzaqlara apara bilərik. Belə ki, Azərbaycan qazının həcmi kifayət qədər olacaq. Əlavə olaraq, regiondan digər qaz mənbələrinin də üzə çıxması potensialı ola bilər. Belə olan halda, bu daha böyükmiqyaslı layihə olacaq.

Onu söyləmək istəyirəm ki, biz düzgün istiqamətdəyik, işlər qrafik üzrə gedir, tikintiyə artıq başlanılıb, borular sifariş olunub, podratçılar seçilib. Biz ilk hissə olan TANAP layihəsini 2018-ci ilə qədər icra etməyi, TAP layihəsini 2020-ci ilədək yerinə yetirməyi öhdəmizə götürmüşük. Lakin bizə bütün komanda üzvləri arasında əlaqələndirmə, daha çox dəstək və daha çox qarşılıqlı etibar lazımdır.

## SERBİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ALEKSANDR VUÇİÇ İLƏ GÖRÜŞ

*Münhen*

*6 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Münhendə Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulandı, xalqlarımız arasında dostluq münasibətlərinin əlaqələrimizin inkişafına öz töhfəsini verdiyi qeyd edildi. Azərbaycanın Serbiya iqtisadiyyatında, o cümlədən bu ölkədə yol inşası sahəsində uğurla iştirak etdiyi diqqətə çatdırıldı. Bu görüşün əməkdaşlığımızın müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı perspektivlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı bildirildi.*

*Söhbət zamanı Azərbaycanın xarici ölkələrə fəal şəkildə sərmayə qoymasının əhəmiyyəti vurğulandı. Serbiya tərəfinin Azərbaycan şirkətlərinin bu ölkənin iqtisadiyyatının müxtəlif sahələrində iştirakının genişləndirilməsində maraqlı olduğu bildirildi.*

*Görüşdə energetika sahəsində əməkdaşlıq imkanlarının araşdırılmasının mümkünlüyü qeyd edildi, ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## FRANSA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ JAN-İV LÖ DRİAN İLƏ GÖRÜŞ

*Münhen*

*6 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Münhendə Fransa Respublikasının Müdafiə naziri Jan-İv Lö Drian ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin son illərdə müxtəlif sahələr üzrə intensiv inkişaf etdiyi bildirildi. Bu əməkdaşlığın nəticəsi olaraq ötən il Azərbaycanın ikinci peykinin istismara verilməsinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı Azərbaycan və Fransa prezidentlərinin qarşılıqlı səfərlərinin ölkələrimiz arasında əlaqələrin inkişafına, əməkdaşlığın yeni sahələrinin müəyyən olunmasına təkan verdiyi diqqətə çatdırıldı. Əlaqələrimizin müdafiə sənayesi sahəsində də genişləndiyi bildirildi.*

## MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*Münhen*

*6 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Münhendə Makedoniya Respublikasının Prezidenti George İvanov ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Enerji, gömrük, mədəniyyət, idman və digər sahələrdə əməkdaşlığın genişlənməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı. Bu ilin iyununda Bakıda keçiriləcək ilk Avropa oyunlarının əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

## AVROPA ŞURASININ BAŞ KATİBİ TORBYORN YAQLAND İLƏ GÖRÜŞ

*Münhen*

*6 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Münhendə Avropa Şurasının baş katibi Torbyorn Yaqland ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda gedən demokratik proseslər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ SAULİ NİİNİSTÖ İLƏ GÖRÜŞ

*Münhen*

*7 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Münhendə Finlandiya Respublikasının Prezidenti Sauli Niinistö ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Finlandiya arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin bu əlaqələri daha da genişləndirməkdə maraqlı olduğu bildirildi. Qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulandı. Finlandiya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə uğurlu fəaliyyəti qeyd edildi, birgə müəssisələrin yaradılmasının önəmi diqqətə çatdırıldı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*Münhen*

*7 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Münhendə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimizin faydalı qarşılıqlı təcrübə mübadiləsi apardığı qeyd olundu.*

*Söhbət zamanı tikinti, nəqliyyat, kənd təsərrüfatı, yükdaşımaları, sərmayə qoyuluşu və digər sahələrdə layihələrin həyata keçirilməsi, treninqlərin təşkili istiqamətində əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıldı.*

# TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ «UKRAYNADAN ƏLAVƏ – AVROPADA HƏLL OLUNMAMIŞ MÜNAQİŞƏLƏR» MÖVZUSUNDA PANEL MÜZAKİRƏSİNDƏ İŞTİRAK

*Münhen*

*7 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 7-də Münhendə Təhlükəsizlik Konfransı çərçivəsində «Ukraynadan əlavə – Avropada həll olunmamış münaqişələr» mövzusunda keçirilən panel müzakirəsində iştirak etmişlər.*

*Sloveniyanın prezidenti Borut Pahorun sədrliyi ilə keçirilən paneldə dövlətimizin başçısı çıxış etdi və sualları cavablandırdı.*

**B o r u t P a h o r: Prezident Əliyev, Ukraynada üzləşdiyimiz böyük bir böhranın bəzən unutduğumuz dondurulmuş münaqişələrin həll edilməsi üçün yaxşı təşəbbüslərə təkan verə biləcəyinə dair kifayət qədər nikbinsinizmi? Sizin bununla bağlı şərhinizi eşitmək istərdik.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, Ukraynadakı faciəvi vəziyyət uzun illərdir davam edən və həlli uzanan digər münaqişələrə də diqqəti yönəldir. Bizim timsalımızda Ermənistan və Azərbaycan arasında münaqişənin 20 ildən çox tarixi var. Bu münaqişə hətta Sovet İttifaqı dağılmamışdan əvvəl başlanıb və dağılandan sonra daha da kəskinləşib. Münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı ilə nəticələnib. Ərazilərimizin 20 faizi işğal altındadır və Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ zəbt olunub. Dağlıq Qarabağdan

bütün azərbaycanlılar zorla çıxarılıb. 700 min nəfər əhalinin yaşadığı 7 ətraf rayon da Ermənistanın işğalı altındadır. İşğal olunmuş ərazilərdə hər şey məhv edilib və biz hər hansı bir nəticə əldə etmədən 20 ildən çoxdur ki, danışıqlar aparırıq. Bu məsələ ilə ATƏT məşğul olur. ATƏT-in bu münaqişənin həlli ilə məşğul olan, BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvünün – Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi Minsk qrupu adlı xüsusi qurumu var. 22 ildən artıqdır ki, bu qrup fəaliyyət göstərir, lakin heç bir nəticə hasil olunmayıb.

**B o r u t  P a h o r: Nəyə görə? Bunu necə izah edə bilərsiniz?**

**İ l h a m  Ə l i y e v:** Düşünürəm ki, Ermənistanın üzərində kifayət qədər beynəlxalq təzyiq yoxdur. Biz bəzən onu görürük ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat olmasa da, bir neçə gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə XX əsrin 90-cı illərinin əvvəllərində BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamə var və onların heç biri yerinə yetirilməyib. Fikrimcə, təcavüzkara adekvat təzyiq göstərmək üçün vasitəçilərdə siyasi iradənin olmaması bizim bu gün üzləşdiyimiz real vəziyyətə gətirib çıxarıb. Çünki Ermənistan əsasən asılı olan ölkədir. Bu ölkə özünü təmin edə bilmir. Onlar inkişaf edə bilmirlər və hətta onların dövlətçiliyi belə, sual altındadır. Ermənistana xarici dəstək göstərilmədən bu ölkə yaşaya bilməz. Onlara dəstək əsasən Minsk qrupuna həmsədrlik edən ölkələr tərəfindən göstərilir. Bu da paradoksdur. Biz burada ikili standartları görürük və bu məsələ bizi məyus edir. Qeyd etmək istəyirəm ki, postsovet məkanındakı bütün münaqişələrə eyni münasibət göstərilməlidir. Azərbaycanın ərazi bütövlüyü indi hər kəsin haqqında danışdığı Ukraynanın ərazi bütövlüyü kimi, eyni dəyərə malikdir.

**B o r u t  P a h o r: Sizin fikrinizcə, bu münaqişə Ukrayna münaqişəsinin kölgəsində qalırmı?**

**İ l h a m  Ə l i y e v:** Əslində bu münaqişə digər vacib beynəlxalq hadisələrin kölgəsində qalmışdır. Yeri gəlmişkən,

Ukrayna məsələsi bu münaqişəyə müəyyən diqqəti cəlb etdi. Hesab edirəm ki, Ukrayna məsələsindən çıxarılan dərslər çox diqqətlə öyrənilməlidir. Ermənistan–Azərbaycan münaqişəsi həll edilmiş olsaydı, bəlkə də Ukrayna indi bu münaqişə ilə üzləşməzdi. Çünki burada eyni ssenari – ərazi bütövlüyünün eyni qaydada pozulması, eyni nəticə, işğal, separatizm var. Bunlar sanki bir-birinin güzgüdəki əksidir. Ona görə də biz beynəlxalq ictimaiyyətdən, dünyanın aparıcı ölkələrindən eyni yanaşmanı gözləyirik. Bizə gəldikdə, postsovet məkanının digər münaqişələrindən fərqli olaraq, BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməsi var. Bu qətnamələrin icra olunmaması faktı onu göstərir ki, həmin qətnamələri qəbul edən ölkələr öz qərarlarına hörmət etmirlər.

**B o r u t P a h o r: Cənab Prezident, Sizin fikrinizcə, Avropa İttifaqının genişlənməsi imkanlarının çatışmazlığı məsələsi problemin mövcud olduğu regionda çətinliklər yaradırmı?**

**İ l h a m Ə l i y e v:** Bizə, yəni Ermənistan–Azərbaycan münaqişəsinə gəldikdə, hesab edirəm ki, bu, əsas məsələ deyil. Çünki bizim Avropa İttifaqına istənilən inteqrasiya ilə bağlı perspektivlərimiz aydındır.

**B o r u t P a h o r: Bəs NATO?**

**İ l h a m Ə l i y e v:** NATO-ya gəldikdə, düşünürəm ki, bu əsasən həmin təşkilatın gündəliyində duran məsələlərdən asılı olacaq. Azərbaycan kimi ölkə və beynəlxalq təşkilatlar arasında münasibətlərdə təşəbbüs həmişə beynəlxalq təşkilatdan gəlir. Bu vaxta qədər NATO ilə Azərbaycan, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın səviyyəsi hər iki tərəf üçün qənaətbəxş olub. Nə NATO-nun, nə də Avropa İttifaqının danışıqlar prosesinə birbaşa müdaxilə etmək niyyəti yoxdur. Bu iki təşkilatın rəsmiləri həmin faktı dəfələrlə qeyd ediblər. Buna görə də biz əslində öz resurslarımıza güvənirik. 21 il bundan əvvəl atəşkəs rejimi elan olunanda Azərbaycanın əsas hədəfi dövlət və güclü iqtisadiyyat qurmaq, özümüzə güvənmək idi. Həmin vaxt bizim hələ də ümidimiz var idi ki, beynəlxalq

ictimaiyyət ədaləti bərpa etmək üçün nə isə bir iş görəcək. Başlanğıcda bizim çoxlu ümidlərimiz var idi. Bayaq qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnamələr və digər beynəlxalq təsisatlar həmişə bizim mövqemizi dəstəkləyib. Lakin zaman keçdikcə biz gördük ki, bu qətnamələr sadəcə, kağız üzərində qalır və bunlar sadəcə, bəyanatlardır, səfərlərdir, fəaliyyətlərdir, lakin heç bir nəticə yoxdur. Sonra biz başa düşdük ki, dövlətimizin taleyi bizim öz əlimizdədir.

**B o r u t P a h o r: Etimadı bərpa etmək üçün ilk növbədə hansı addım atılmalıdır?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, bu çox sadədir. İlk addım işğal olunmuş ərazilərin bir hissəsinin Ermənistan tərəfindən geri qaytarılmasına başlanılmasıdır. Dağlıq Qarabağ və 7 ətraf rayon işğal olunub. Beləliklə, danışıqlar prosesini davam etdirəcəyimizi nəzərə alaraq, bu ətraf rayonların bir qisminin geri qaytarılmasına başlanılması mənzərəni dərhal dəyişəcək, hərbi əməliyyatlar dərhal dayanacaq, atəşkəs rejiminə tam riayət olunacaq. Biz artıq Azərbaycan ilə Ermənistan arasında bütün kommunikasiyaların açılacağına dair təklif irəli sürmüşük. Beləliklə, Ermənistanın bizim ərazimizdən dəmir yolu vasitəsilə Rusiyaya çıxışı olacaq. Həmçinin Türkiyə də Ermənistan ilə bütün kommunikasiyalarını açacaq. Beləliklə, biz hərbi əməliyyatların başlanması ilə əlaqədar istənilən potensial riskləri aradan qaldırmış olacağıq və etimad qurmağa başlayacağıq.

Lakin Ermənistan bizim bütün təkliflərimizə məhəl qoymur. Çünki Ermənistan sülh istəmir. Düşünürəm ki, bu, münaqişənin həll olunmamasının ən vacib səbəblərindən biridir. Çünki bir tərəf sülh, ərazi bütövlüyünün bərpasını istəyir, digər tərəf isə sülh istəmir. Ermənistan hər şeyin dəyişməz qalmasını istəyir. Çünki onların torpaqları işğal altında deyil, onların bizim üzləşdiyimiz 1 milyondan artıq qaçqın və məcburi köçkün kimi böyük problemi yoxdur. Onlar danışıqlar prosesində sadəcə, imitasiya xarakterli müəyyən addımlar atırlar. Bəs nə etmək

lazımdır? Necə edək ki, Ermənistan daha çox məsuliyyətli olsun? Biz beynəlxalq təşkilatlarla, ilk növbədə vasitəçilərlə bu məsələlər üzərində işləməliyik. Ermənistan rəhbərliyinə çox aydın siqnal göndərilir: işğalı dayandırın, işğal olunmuş ərazilərin geri qaytarılmasına başlayın. Azərbaycan bu təklifləri etdi. Biz hətta təkliflər irəli sürdük ki, Dağlıq Qarabağda müəyyən sosial proqramlar icra edə bilərik. Çünki oradakı insanlar çox pis vəziyyətdə yaşayırlar. Biz nəqliyyat, energetika sahələrində əməkdaşlıq edə bilərik. Biz açığıq. Biz Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət təklif edirik. Lakin bütün təkliflərimiz qəbul olunmur.

**B o r u t P a h o r: Cənab Prezident, Rusiyanın Ermənistan–Azərbaycan münaqişəsində və Gürcüstan böhranında məqsədi varmı? Onun marağı nədir? Bu sualı necə cavablandırardınız?**

**İ l h a m Ə l i y e v:** Bizim üçün ən əhəmiyyətlisi bu münaqişənin həll yolunun tapılmasıdır. Biz ümid edirik ki, həll yolunun tapılmasına şərait yaratmaq üçün Minsk qrupunun həmsədrləri daha çox iş görəcəklər. Hesab edirik ki, Ermənistan–Azərbaycan münaqişəsi həll olunarsa və sülh bərqərar edilərsə bu, bütün tərəflərin maraqlarına xidmət edəcək. Buna görə də, əlbəttə ki, regional əməkdaşlığı artırmaq üçün biz çoxlu işlər görürük. Məsələn, bizim Gürcüstanla ikitərəfli əlaqələrimiz regional əməkdaşlığın və Cənubi Qafqazda əməkdaşlığa necə nail olmağın çox yaxşı nümunəsidir. Əgər Ermənistan–Azərbaycan münaqişəsi öz həllini taparsa, o zaman Ermənistan enerji, təhlükəsizlik, nəqliyyatın təhlükəsizliyi kimi layihələrimizə qoşula bilər. Ümid edirik ki, Rusiya hökumətinin də eyni maraqları var. Çünki hər bir ölkə öz sərhədləri xaricində sülh və dostluq mühitinin olmasında maraqlı olmalıdır. Buna görə də hesab edirəm ki, münaqişənin həlli yolunun tezliklə tapılması çox vacibdir. Çünki süni gərginliklərin olması siyasətinin istənilən qonşuya fayda verməsini düşünmürəm. Qonşu sabitlikdə maraqlı olmalıdır, regionda sabitlik isə sizin ölkənizdə və bölgənizdə sabitlik deməkdir. Rusiyanın bir hissəsi Qafqazdır və Qafqaz da böyük bir yerdir. Burada 3 ölkə var, lakin eyni zamanda, Rusiyada çoxlu muxtariyyətlər

mövcuddur və Azərbaycan ilə Rusiya Federasiyasının Qafqazdakı respublikaları arasında güclü mədəni əlaqələr var.

**Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi: Mənim sualım prezident Əliyevədir və əlbəttə ki, Dağlıq Qarabağla bağlıdır. Prezident Əliyevin düzgün qeyd etdiyi kimi, Minsk qrupu çərçivəsində ABŞ-ın Fransa ilə birlikdə Rusiya ilə əməkdaşlıq etməsi ola bilsin ki, nadir haldır. Bu 3 vasitəçi ölkə – ABŞ, Rusiya və Fransa Dağlıq Qarabağ münaqişəsinin həll olunmasının 3 əsas prinsipini göstəriblər. Bu 3 əsas prinsip xalqların öz müqəddəratını təyinetmə hüququ, gücdən istifadə etməmək və gücdən istifadə etməklə hədələməmək və ərazi bütövlüyüdür. Vasitəçilər danışıqlar prosesinin tərəflərini həmin 3 əsas prinsiplə bağlı üzərinə öhdəliklər götürməyə çağırıblar. Ermənistan dəfələrlə bu prinsiplərin yerinə yetirilməsi ilə bağlı öz üzərinə öhdəlik götürüb. Mənim sualım cənab Prezidentədir. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında əsas kimi bu 3 prinsipin yerinə yetirilməsi ilə bağlı öz üzərinə öhdəlik götürməyə hazırdırmı?**

**İlham Əliyev:** Azərbaycan, əlbəttə ki, bu münaqişənin həllində ən maraqlı tərəfdir. Çünki biz torpaqlarımızın geri qaytarılmasını istəyirik. Biz qaçqın və məcburi köçkünlərimizin öz evlərinə qayıtmaq hüququna malik olmasını istəyirik. Baxmayaraq ki, onların evləri yoxdur və hər şey məhv edilib. Yeri gəlmişkən, ATƏT faktaraşdırıcı və qiymətləndirmə missiyasını 2 dəfə Azərbaycanın işğal olunmuş ərazilərinə göndərib və hesabat yayıb. Bu hesabatda göstərilir ki, hər şey – bütün binalar, qəbiristanlıqlar, məscidlər məhv edilib. Beləliklə, işğal edilmiş ərazilər tamamilə boş torpaqlardır. Məcburi köçkünlərimiz torpaqlarına qayıdandan sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamalı olacağıq. Buna görə də ilk növbədə, bizim insanların torpaqlarına qayıtmaq hüququ var və biz münaqişənin tez bir zamanda həll edilməsində maraqlı tərəfik.

Problem burasındadır ki, nəyə görə münaqişə öz həllini tapmır? Çünki Ermənistan münaqişənin həll olunmasını istəmir.

Ermənistanı beynəlxalq hüquq normaları ilə razılaşmağa vadar edən heç bir mexanizm yoxdur. Hər bir münaqişənin həlli beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Beynəlxalq hüququn bu normaları çox aydın şəkildə BMT-nin Nizamnaməsində və Helsinki Yekun Aktında öz əksini tapıb. Helsinki Yekun Aktında ərazi bütövlüyü prinsipi və öz müqəddəratını təyinetmə ilə bağlı çox aydın tərif var. Biz öz müqəddəratını təyinetmə prinsipinə qarşı deyilik, lakin bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Dağlıq Qarabağ erməniləri və Ermənistan ordusu tərəfindən qovulan Dağlıq Qarabağ azərbaycanlıları öz torpaqlarına qayıtdıqdan sonra həyatlarını qurmaq hüququna malik olacaqlar. Lakin bu, ölkənin ərazi bütövlüyünü pozmamalıdır. Ermənistanın cəhd etdiyi kimi, hər hansı bir ölkənin ərazi bütövlüyü güc tətbiq olunaraq dəyişdirilə bilməz. Üstəgəl istənilən ölkənin ərazi bütövlüyü bu ölkə ilə razılıq əldə olunmadan dəyişdirilə bilməz. Bunlar əsas prinsiplərdir. Mən yenə də deyirəm, biz beynəlxalq hüququn əsas prinsiplərinə qarşı deyilik. Lakin Ermənistan ilk növbədə, beynəlxalq hüquqa hörmətlə yanaşmalıdır və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməni yerinə yetirməlidir.

**B o s n i y a və H e r s e q o v i n a n ı n B a ş n a z i r i n i n m ü a v i n i: Mən bir məsələyə toxunmaq istəyirəm. Biz Srebrenitsa soyqırımının 20 illiyini qeyd edirik. Bu soyqırımları keçmişi dəyişmir, bəs onların gələcəkdə bu cür faciələrin bir daha baş verməməsi və barışığa nail olunmasındakı rolu nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Sualınıza görə çox sağ olun. Siz tamamilə doğru buyurursunuz. Elə bir vəziyyət olmalıdır ki, səhvlərdən nəticə çıxarılmalı və dünyanın digər yerlərində oxşar faciələrin yaşanmaması üçün beynəlxalq ictimaiyyət baş verənlərə biganə qalmamalıdır. Əfsuslar olsun ki, Xocalı faciəsi barədə xüsusilə Avropa ictimaiyyətində geniş məlumat yoxdur.

Baxmayaraq ki, 10-dan çox ölkə Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Bu soyqırımı nəticəsində 600-dən çox günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq qətlə yetirilib və bu insanların yeganə günahı ondan ibarət idi ki, onlar azərbaycanlı idilər. Təəssüflər olsun ki, bu günə kimi Ermənistan bu hərbi cinayəti törətdiyini etiraf etməyib. Onlar heç üzr də istəməyiblər. Onlar Xocalıda törətdikləri ilə bağlı beynəlxalq ictimai rəyi səhv istiqamətə yönəltmək istəyirlər. Avropa və ABŞ-dakı fəal erməni lobbisinin fəaliyyəti nəticəsində beynəlxalq ictimaiyyətin bu faciədən diqqətini yayındırmağa nail olublar. Bu faciə ilə bağlı kifayət qədər məlumat yayılmamışdır, baxmayaraq ki, hər şey sənədləşdirilmişdi, lentə alınmışdı. Bu soyqırımından xilas olan adamların şahid ifadələri var. Xüsusi amansızlıqla qətlə yetirilən uşaq və qadınların lentə alınmış görüntüləri var. Ona görə də bu cür halların təkrar baş verməməsi üçün bunu törətmiş insanlar öncə ən azından üzr istəməli və bunun baş verdiyini etiraf etməlidirlər. Bu hərbi cinayəti etiraf etməlidirlər ki, o yenə də təkrarlanmasın. Yalnız bundan sonra barışıq ola bilər. Belə olan təqdirdə barışmaq daha asan olacaq. Düşünürəm ki, bu mümkündür, çünki biz ermənilərlə sülh şəraitində bir yerdə yaşamışıq. İndi də Bakının mərkəzində təmir olunmuş erməni kilsəsi var. Lakin Şuşada, Ağdamda Azərbaycan məscidləri tamamilə dağıdılıb. İlk növbədə, onlar bu məscidləri dağıtmamalı idilər, amma indi onlar bunun yanlış olduğunu etiraf etməli və üzr istəməlidirlər. Sonra biz onlarla, əlbəttə ki, barışacağıq, çünki gec və ya tez sülh olacaq, 2 xalq yenə də birlikdə yaşayacaq.

**Almaniya Bundestaqının üzvü: Mənim sualım ikili standartlarla bağlıdır. Biz, demək olar ki, Krım məsələsinin müzakirəsinə bütün bir gün həsr etdik. Əgər biz Dağlıq Qarabağ münaqişəsindən danışırıqsa, bunu Krım məsələsi ilə müqayisə etmək olar, ya yox?**

**Ermənistan nümayəndəsi: Mənim sualım cənab İlham Əliyevədir. Bir neçə gün bundan əvvəl ATƏT-in Minsk qrupu Azərbaycana müraciət edərək, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair**

**üzərinə götürdüyü öhdəliklərə əməl etməyə çağırmışdı. Bu müraciətin ünvanlanması təsadüfi deyil, çünki Azərbaycan tərəfi Dağlıq Qarabağla təmas xəttində və Ermənistanla sərhəddə atəşkəs rejimini davamlı olaraq pozur. Yanvar ayından etibarən atəşkəs ən azı 3 min dəfə pozulub və nəticədə hər 2 tərəfdən bir neçə nəfər həlak olub. Mənim cənab Əliyevə sualım budur ki, Azərbaycan bu cür hərəkətlərlə münaqişəni kəskinləşdirmir ki? Bu, yaxın gələcəkdə münaqişənin sülh yolu ilə həll olunması ehtimalını azaltmırmı? Bayaq moderator belə bir sual verdi ki, bu münaqişənin həlli üçün biz minimum olaraq nə etməliyik. Mən Azərbaycanı atəşi dayandırmağa çağırıram.**

**İ l h a m Ə l i y e v:** Mən əvvəlcə Almaniya parlamentinin üzvünün sualına cavab vermək istəyirəm. Əlbəttə ki, Ermənistan–Azərbaycan münaqişəsinin lap əvvəlində üzləşdiyimiz problemlərdən biri də ikili standartlar siyasəti idi. Mən çıxışımın əvvəlində qeyd etdim ki, postsovet məkanındakı bütün münaqişələrə eyni mövqedən yanaşılmalıdır. Azərbaycanın ərazi bütövlüyü Ukraynanın ərazi bütövlüyü kimi, eyni dəyərə malikdir. Əgər Ukraynanın ərazi bütövlüyü möhkəm dəstəklənirsə, Azərbaycan da onun ərazi bütövlüyünü çox güclü şəkildə dəstəkləyir. Ermənistandan fərqli olaraq, biz BMT Baş Məclisində Ukraynanın ərazi bütövlüyünün lehinə səs verdik. Ermənistan isə Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs verdi. Bu da Ermənistanın ərazi bütövlüyü prinsipinə nə dərəcədə əməl etməsi ilə bağlı bu ölkənin buradakı digər nümayəndəsinin sualına cavabdır. Onlar hətta Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs veriblər. Bu da onların yürütdüyü siyasətin nəticəsidir. Çünki bu ölkə müstəqil deyil. Onlar özləri qərar qəbul edə bilmirlər və həmişə başqalarının arxasınca gedirlər. Lakin ikili standartlar reallıqdır. Xüsusilə sanksiyaların tətbiq olunduğunu gördüyümüzdə biz özümüzə sual veririk: nəyə görə bu sanksiyalar Ermənistana qarşı tətbiq olunmur? Axı onlar da eyni əməli törədiblər. Niyə onların üzərinə sanksiyalar qoyulmur? Şübhəsiz, cavab budur ki, dünyada Ermənistanı bütün potensial və adekvat

məsələlərdən qoruyan çox güclü erməni diasporu var. Buna görə də ikili standartlar siyasəti beynəlxalq gündəlikdən çıxarılan kimi, Dağlıq Qarabağ münaqişəsi də tez bir zamanda öz həllini tapacaq.

Ermənistan nümayəndəsinin atəş açılması ilə bağlı sualına cavab olaraq bildirim ki, əslində həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır. Onlar bizim torpaqlarımızı işğal ediblər, beynəlxalq hüquq normalarını pozublar, Xocalıda soyqırımı törədiblər, tarixi və dini abidələrimizi məhv ediblər və bizi günahlandırırlar. Sual isə ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə Ermənistan əsgərlərinin nə işi var? Erməni əsgərinin Ağdamda nə işi var? Əgər o ölmək istəmirsə, onda qoy Ağdama getməsin, olduğu yerdə qalsın, İrəvanda, Gümrüdə, öz ölkəsində qalsın. Sizin ölkənizdə kifayət qədər yeriniz var. Ermənistanda o qədər də çox insan qalmayıb. Sizin Ağdamda, Füzulidə nə işiniz var? Gərginliyin kimin tərəfindən artırılması ilə bağlı suala cavab olaraq mən keçən ildən bir nümunə gətirə bilərəm. Keçən il beynəlxalq vasitəçilərin fəallığı nöqteyi-nəzərindən əlamətdar bir il olmuşdur. Ötən ilin avqust ayında prezident Putin mənimlə prezident Sarkisyan arasında bir görüş təşkil etdi. Sentyabr ayında NATO Sammiti zamanı ABŞ Dövlət katibi Con Kerri üçümüzün iştirakı ilə belə bir görüş keçirdi. Oktyabrın sonunda prezident Olland məni və prezident Sarkisyanı Parisə dəvət etdi. Bizim çox yaxşı və konstruktiv görüşümüz oldu. Hər 2 tərəf – həm Azərbaycan, həm Ermənistan tərəfi ictimaiyyətə bu görüşün çox uğurlu keçdiyini və təmas xəttində gərginlikləri azaltmağa çalışacağını bəyan etdi. Bundan sonra nə baş verir? Heç 10 gün keçməmiş Ermənistan işğal olunmuş ərazilərdə, xüsusilə Ağdamda genişmiqyaslı hərbi təlimlər təşkil edir. Onların özlərinin verdiyi məlumata görə, işğal olunmuş ərazilərdə 47 minlik ordunun iştirakı ilə təlimlər keçirilmişdir. Aviasiyadan, helikopterlərdən istifadə olunmuşdur. 3 gün ərzində bizim ordumuz səbr edərək, heç bir reaksiya göstərməmişdi. Sonra onlar «Mİ-24» hərbi helikopterlərini bizim mövqelərimizə istiqamətləndirərək, hücuma

keçdilər. Bizim ordumuz helikopterləri vurmaq məcburiyyətində qaldı və onlardan biri vuruldu. Onlar Azərbaycanı günahlandırmaq üçün bundan bəhanə kimi istifadə etdilər. Onlar təxribatlar törədir, bizi təhrik edir, bizi gərginliyi azaltmağa sövq etmək üçün çoxlu səylər göstərən Fransa, Rusiya və ABŞ-ın dövlət başçılarına hörmətsizlik edirlər, heç bir məhəl qoymurlar. Onlar hesab edirlər ki, istədikləri hər şeyi edə bilərlər və buna görə cəzalandırılmayacaqlar. Bu, əsas səbəbdir. İndi isə onlar bizi günahlandırırlar və bizə deyirlər ki, atəş açmayaq. Mənim Ermənistana mesajım odur ki, işğalı dayandırsın. İşğalı dayandırdığı an bizdə sülh də, qarşılıqlı ünsiyyət də, barışıq da olacaq. Bunun baş verməməsinin səbəbi odur ki, erməni əsgəri Ağdamda, Füzulidədir.

* * *

*Panel müzakirəsində Serbiyanın Baş naziri Aleksandr Vuçiç, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Xorvatiya Baş nazirinin birinci müavini, Xarici və Avropa İşləri üzrə nazir Vesna Pusiç də iştirak etdilər.*

*Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri başa çatmışdır.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Tarixən dostluq, mehriban qonşuluq şəraitində yaşamış, ortaq mənəvi dəyərləri və ənənələri bölüşən qardaş xalqlarımızın iradəsinə uyğun olaraq bu gün ikitərəfli münasibətlərimiz bütün sahələrdə yüksələn xətlə inkişaf etməkdədir.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin daim möhkəmləndirilməsi, beynəlxalq və regional qurumlar çərçivəsində əməkdaşlığımızın səmərəli şəkildə davam etdirilməsi üçün bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 fevral 2015-ci il*

## 110 KİLOVOLTLUQ «AĞ ŞƏHƏR -1», «HƏZİ ASLANOV», «KÜRDƏXANI» ELEKTRİK YARIMSTANSİYALARININ VƏ 35 KİLOVOLTLUQ 7 YARIMSTANSİYANIN AÇILIŞI MƏRASİMİ

*9 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin yeni inşa etdiyi 110 kilovoltluq «Ağ şəhər-1», «Həzi Aslanov», «Kürdəxanı» elektrik yarımstansiyalarının və 35 kilovoltluq 7 yarımstansiyanın açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev «Ağ şəhər-1» elektrik yarımstansiyasına gəldi.*

*«Bakıelektrikşəbəkə» ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına 110/35/6 kilovoltluq «Ağ şəhər-1» yarımstansiyası barədə məlumat verdi. Bildirildi ki, qapalı tipli bu yarımstansiya «Ağ şəhər» layihəsi üzrə tikilən yaşayış komplekslərinin, «Yeni Bulvar»ın və digər qeyri-yaşayış obyektlərinin elektrik təchizatının təmin edilməsi, eləcə də bu ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə inşa olunub. Orijinal layihə əsasında tikilən yarımstansiya da ölkəmizdə aparılan yenidənqurma tədbirlərinin miqyası və keyfiyyətinin daha bir əyani nümunəsidir. Açıq tipli yarımstansiyalardan xeyli az yer tutan, funksional baxımdan isə böyük üstünlüklərə malik belə qurğular xüsusilə meqapolislər üçün olduqca əlverişlidir. Bütün yarımstansiyalarda olduğu kimi, burada da ətrafda əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb. «Bakıelektrikşəbəkə»nin qəza xidməti və digər xüsusi maşınları da işin operativ yerinə yetirilməsinə hərtərəfli imkan yaradır. Həmin avtomobillərdən I Avropa oyunlarının keçirilməsi zamanı da geniş istifadə olunacaq.*

*Yarımstansiyanın girişində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkələrin inkişafı üçün həyata keçirdikləri kompleks tədbirlərə dair fotostend yaradılıb. Burada «Bakıelektrikşəbəkə»nin 2006-cı ildə fəaliyyəti bərpa ediləndən bəri reallaşdırdığı layihələr də əksini tapıb. Yarımstansiyada işçilərin normal fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.*

*Dövlətimizin başçısı «Ağ şəhər-1» yarımstansiyasının dispetçer idarəetmə otağı ilə tanış oldu.*

*Prezident İlham Əliyevə «Bakıelektrikşəbəkə»nin mövcud, təmirə ehtiyacı olan və tikilməsi vacib sayılan 110 kilovoltluq yarımstansiyaları barədə məlumat verildi. Bildirildi ki, 110 kilovoltluq 10 yarımstansiyanın əsaslı şəkildə yenidən qurulmasına və 10 yeni yarımstansiyanın tikintisinə ehtiyac var.*

*Dövlətimizin başçısına «Ağ şəhər» kompleksinin elektrik təchizatı sxemi nümayiş etdirildi. Qeyd olundu ki, perspektiv planda «Ağ şəhər» layihəsi üzrə tələb olunan gücün qarşılanması məqsədilə yaxın gələcəkdə 110/35/6 kilovoltluq «Ağ şəhər-2», «Ağ şəhər-3» və «Ağ şəhər-4» yarımstansiyalarının inşası, eləcə də həmin energetika qurğularının ikidövrəli 110 kilovoltluq kabel xətti vasitəsilə əlaqələndirilməsi nəzərdə tutulub.*

*Bildirildi ki, köhnə yarımstansiyanın yerində inşa olunan yeni 110/35/10 kilovoltluq «Həzi Aslanov» yarımstansiyası da müasirliyi ilə diqqəti çəkir. Yarımstansiyanın qidalandırılmasının gücləndirilməsi üçün bu energetika qurğusu 110 kilovoltluq «1-ci Əhmədli» hava xəttindən açılaraq 110 kilovoltluq kabel xətləri vasitəsilə 2 mənbə – «Əhmədli» yarımstansiyası və «Bakı İstilik Elektrik Mərkəzi-1» elektrik stansiyası ilə əlaqələndirilib. Bu layihə çərçivəsində «Həzi Aslanov» və «Ağ şəhər-1» yarımstansiyaları arasında 110 kilovoltluq ikidövrəli kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. «Həzi Aslanov» yarımstansiyasında müasir eleqaz və vakuum tipli avadanlıq quraşdırılıb. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub.*

Qeyd olundu ki, 110/35/6 kilovoltluq «Kürdəxanı» yarımstansiyasının inşasına da kəskin ehtiyac duyulurdu. «Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində və yeni yol qovşağının inşası ilə əlaqədar 35/6 kilovoltluq 498 saylı yarımstansiyanın əvəzinə tikilən yeni yarımstansiya Sabunçu rayonu və ətraf qəsəbələrin, eləcə də gələcəkdə inşa olunacaq yaşayış komplekslərinin, istirahət, sosial obyektlərin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bu energetika qurğusu da ən müasir avadanlıqlarla təchiz edilib və SCADA sisteminə qoşulub.

Prezident İlham Əliyevə yeni inşa olunan 35 kilovoltluq 7 yarımstansiya barədə də məlumat verildi. Bildirildi ki, bu yarımstansiyalar paytaxt və qəsəbələrin dayanıqlı və keyfiyyətli elektrik enerjisi təchizatı ilə yanaşı, ölkəmizdə beynəlxalq tədbirlərin də yüksək səviyyədə keçirilməsinə hərtərəfli şərait yaradır, dairəvi təchizat sxeminin etibarlılığını daha da artırır. Yeni 35 kilovoltluq yarımstansiyaların bir qismi 2014-cü ildə Azərbaycanda «Sənaye ili», həmçinin ölkəmizdə sənayeləşmə siyasəti çərçivəsində nəzərdə tutulan tədbirlərin dolğun həyata keçirilməsinə xidmət edir. Bundan başqa, bu yarımstansiyalar I Avropa oyunları ilə əlaqədar paytaxtın elektrik şəbəkəsində reallaşdırılan mühüm və kompleks tədbirlərin tərkib hissəsidir.

Azərbaycan prezidenti İlham Əliyevə I Avropa oyunları obyektlərinin elektrik təchizatı sxemi nümayiş etdirildi.

Dövlətimizin başçısına «Bakıelektrikşəbəkə»də tətbiq edilən yüksək texnologiyalar və elektron xidmətlər barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, şəbəkə şəffaflıq və operativliyin təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Ötən ilin may ayından etibarən əhaliyə «ASAN xidmət» mərkəzlərində «Bakıelektrikşəbəkə» ilə bağlı bir sıra xidmətlərin göstərilməsinə başlanılıb.

Sonra dövlətimizin başçısı «Ağ şəhər-1» yarımstansiyasını işə saldı.

*Prezident İlham Əliyev yeni yarımstansiyada quraşdırılan avadanlıqlarla tanış oldu. Qeyd edildi ki, yarımstansiyanın qidalandırılması birinci dairəvi sxemə daxil olan «Liman» və «Həzi Aslanov» yarımstansiyalarından 110 kilovoltluq ikidövrəli kabel xətləri vasitəsilə yerinə yetiriləcək. Yeni yarımstansiyaların işə düşməsi ilə elektrik şəbəkəsində 9 faiz güc artımı yaradılıb. Ümumilikdə, «Bakıelektrikşəbəkə»nin fəaliyyətinin bərpa edildiyi 2006-cı ildən bəri şəbəkənin güc qəbuletmə və paylama qabiliyyəti 105 faiz artıb. Yarımstansiyada 50 meqavoltamper gücündə 2 müasir transformator da quraşdırılıb.*

*Yeni yarımstansiyaların açılışı mərasimində iştirak edən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi, kollektivə uğurlar arzuladı.*

## AVROPA STOLÜSTÜ TENNİS BİRLİYİNİN PREZİDENTİ RONALD KRAMER İLƏ GÖRÜŞ

*9 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Avropa Stolüstü Tennis Birliyinin prezidenti Ronald Krameri qəbul etmişdir.*

*Görüşdə ölkəmizdə bütün idman növlərinin inkişafına dövlət səviyyəsində göstərilən diqqətdən danışıldı, paytaxtda və regionlarda müasir idman infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən ardıcıl işlərin önəmi vurğulandı. Azərbaycan Stolüstü Tennis Federasiyası və Avropa Stolüstü Tennis Birliyinin birgə təşkilatçılığı ilə ölkəmizdə stolüstü tennis üzrə Avropa «TOP-16» kuboku uğrunda yarışların yüksək səviyyədə keçirildiyi bildirildi və bu cür tədbirlərin idman sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

## RUSİYA DÖVLƏT DUMASINDA KOMMUNİST PARTİYASI FRAKSİYASININ SƏDRİ GENNADİ ZÜQANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasında Kommunist Partiyası fraksiyasının sədri Gennadi Züqanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə dostluq münasibətlərini böyük ehtiramla yada salan Gennadi Züqanov ulu öndərin Moskvada yüksək dövlət vəzifəsində olduğu zaman onun rəhbərliyi altında çalışmasını və onunla səmimi münasibətlərin qurulmasını dərin ehtiramla xatırlatdı. Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrə toxunan Gennadi Züqanov həmin illərdə nümayəndə heyətləri arasında sıx əməkdaşlığın həyata keçirildiyini vurğuladı və Avropa Şurası Parlament Assambleyasının son sessiyasında Azərbaycan nümayəndə heyətinin Rusiya nümayəndə heyətinə verdiyi dəstəyin ölkəsində yüksək qiymətləndirildiyini qeyd etdi. Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etməsinin Rusiyada maraqla izlənildiyini deyən Gennadi Züqanov ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu bildirdi. Bakını dünyanın inkişaf etmiş şəhərləri ilə müqayisə edən Gennadi Züqanov paytaxtımızda gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev və ölkəmizdə gedən inkişaf prosesləri ilə bağlı dediyi xoş sözlərə görə Gennadi Züqanova təşəkkürünü*

*bildirdi. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrü xatırladan dövlətimizin başçısı ölkəmizin bu quruma üzv olduğu ilk günlərdən başlayaraq Azərbaycan və Rusiya nümayəndə heyətləri arasında qarşılıqlı dəstəyin və səmərəli əməkdaşlığın yaradıldığını və həmin təşkilat çərçivəsində əlaqələrimizin bu gün də bu prinsiplər əsasında davam etdirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası və beynəlxalq əməkdaşlıq sahələrində uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da dərinləşəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Gennadi Züqanov Rusiya Federasiyası Kommunist Partiyasının xatirə ordenini prezident İlham Əliyevə təqdim etdi.*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ ARKADİ DVORKOVİÇ İLƏ GÖRÜŞ

*10 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Rusiya Federasiyası Hökuməti Sədrinin müavini Arkadi Dvorkoviçi qəbul etmişdir.*

*Arkadi Dvorkoviç Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, dövlət başçılarının mütəmadi görüşlərinin əlaqələrimizin möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, ticarət dövriyyəsinin və investisiya qoyuluşunun dinamik şəkildə inkişaf etməsi məmnunluqla qeyd edildi.*

*Söhbət zamanı ikitərəfli əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu, iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Federasiyasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## QIRĞIZ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AYCİGİT BURANOV İLƏ GÖRÜŞ

*10 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Aycigit Buranovun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Aycigit Buranov etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə Azərbaycan ilə Qırğızıstan arasında siyasi əlaqələrin səviyyəsinin razılıq doğurduğu bildirildi, ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli görüşlərin önəmi qeyd olundu, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Qırğızıstanın tərəfdaş və dost ölkələr olduğu bildirildi və əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün qarşılıqlı marağın mövcud olmasının önəmi qeyd edildi.*

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MÜXTƏLİF QURUMLARI, O CÜMLƏDƏN YOL POLİSİ ƏMƏKDAŞLARI ÜÇÜN YENİ ALINAN AVTOMOBİLLƏRİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*10 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Bakının Azadlıq meydanında Daxili İşlər Nazirliyinin müxtəlif qurumları, o cümlədən yol polisi əməkdaşları üçün yeni alınan və müasir avadanlıqlarla təchiz edilən avtomobillərin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Son illərdə yol polisinin bütün şəxsi heyətinin işinin səmərəli qurulması, yol hərəkəti təhlükəsizliyinin daha yüksək səviyyədə təmin edilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısının, qarşıda duran vəzifələrin icrası, işin daha səmərəli qurulması istiqamətində görülən tədbirlərin nəticəsidir ki, bu gün digər hüquq-mühafizə orqanlarında olduğu kimi, Daxili İşlər Nazirliyi sistemində də əməkdaşların fəaliyyəti keyfiyyətcə yeni mərhələyə yüksəlib. Daxili İşlər Nazirliyi orqanlarında maddi-texniki təchizatın yaxşılaşdırılması ilə bağlı xeyli iş görülüb, yeni texniki vasitələrin alınmasına başlanılıb. Post-patrul, növbətçi hissə və çevik polis alayı, o cümlədən yol polisi əməkdaşları üçün yeni alınan «Fiat Doblo» və «BMW» markalı avtomobillər bu sırada mühüm yer tutur.*

*Ümumilikdə yol polisi əməkdaşları üçün 400, digər qurumların əməkdaşları üçün isə 300 avtomobil alınıb. Avtomobillərin hər biri yeni və müasir avadanlıqlarla təchiz edilib, «e-patrol» sistemi quraşdırılıb. Sistem yol-patrul xidməti (YPX) avtomobilinin həm dayandığı, həm də hərəkət etdiyi hallarda fəaliyyət göstərir. Sistemin üzərində nömrəoxuma, ümumi mü-*

şahidə kameraları, gecə görüntüsü üçün 30 metr mənzili olan «infrared» işıqlandırma sistemi və GPS modulu quraşdırılıb. Avtomobildə daxili kompüter qurğusu mövcuddur ki, nömrəoxuma prosesi həmin kompüterdə aparılır. Sistem nömrəoxuma kameraları vasitəsilə üzərində quraşdırıldığı YPX avtomobilinin yerləşdiyi zolaqdan 2 zolağadək sağda, 2 zolağadək solda hərəkət edən və ya dayanmış nəqliyyat vasitələrinin nömrə nişanlarını və sürətlərini oxumaq imkanına malikdir. Həmçinin YPX avtomobilinə perpendikulyar istiqamətdə sağ və sol tərəflərdə parklanmış nəqliyyat vasitələrinin də nömrə nişanları oxunur. «E-patrol» sistemi tərəfindən nömrəsi və sürəti oxunmuş nəqliyyat vasitələri barədə məlumatlar tarix, saat, eləcə də GPS koordinatı əlavə edilməklə, mərkəzi serverdə arxivləşdirilir. Həmçinin nömrəsi oxunan hər bir nəqliyyat vasitəsinin axtarışda olub-olmaması, cərimə ödənişlərini uzun müddət gecikdirməsi və digər məlumatlar real vaxt rejimində sorğulanaraq YPX avtomobilində quraşdırılmış bort-kompüter qurğusuna ötürülür. Sürət həddini aşmış nəqliyyat vasitələri barədə məlumatlar Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə göndərilir.

Son dövrlərdə prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə yol infrastrukturunun yenidən qurulması, yeni yolların, körpülərin, yeraltı keçidlərin salınması yol polisi, həmçinin yol-patrul xidməti əməkdaşlarını daha məsuliyyətli olmağa, yol təhlükəsizliyini daha yüksək səviyyədə qurmağa sövq edir. Çünki ölkədə nəqliyyat vasitələrinin artması təbii olaraq yol hərəkətində problemlərin yaranmasına da səbəb olur. Dövlət yol polisinin yeni texniki vasitələrlə təmin olunması isə bu amillərin aradan qaldırılmasına hesablanıb. Şübhəsiz ki, xidmətin səmərəli yerinə yetirilməsində patrul avtomobillərinin müasirliyi böyük əhəmiyyət daşıyır. Bu da yeni avtomobillərdə hərəkətin təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə imkan verir.

Qeyd edildi ki, saxlanılan şəxslərin daşınması üçün «Mercedes» markalı 20 mikroavtobus alınıb. Prezident İlham Əliyev yeni alınmış mikroavtobuslara da baxdı.

## QIRĞIZ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ABİBİLLA KUDAYBERDİYEV İLƏ GÖRÜŞ

*10 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Qırğız Respublikasının Müdafiə naziri Abibilla Kudayberdiyevi qəbul etmişdir.*

*Müdafiə naziri Abibilla Kudayberdiyev Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Ölkələrimizin müdafiə və müdafiə sənayesi, o cümlədən hərbi təhsil sahələrində əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İlham Əliyev prezident Almazbek Atambayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğız Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## FRANSA SENATININ ÜZVÜ JAN-MARİ BOKELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Fransa Senatının üzvü, sabiq nazir Jan-Mari Bokelin başçılıq etdiyi Fransanın Alzas regionunun nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edən prezident İlham Əliyev münasibətlərimizin möhkəmləndirilməsində Fransa prezidenti Fransua Ollandla keçirdiyi mütəmadi görüşlərin önəmini vurğuladı. Dövlətimizin başçısı Fransa nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə yaxından tanış olmaq və ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılması baxımından yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Fransa Senatının üzvü, sabiq nazir Jan-Mari Bokel prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdə bu qurumda çalışmasını və eləcə də 2 il bundan əvvəl Fransa nümayəndə heyətinin tərkibində Azərbaycana səfər etməsini məmnunluqla xatırlatdı.*

*Görüşdə Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası və beynəlxalq əməkdaşlıq sahələrində, eləcə də ölkələrimizin regionları arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ ENERGETİKA NAZİRİ YOSEF YUSFİ İLƏ GÖRÜŞ

*11 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Əlcəzair Xalq Demokratik Respublikasının Energetika naziri, prezidentin xüsusi elçisi Yosef Yusfini qəbul etmişdir.*

*Yosef Yusfi Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikanın məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə edildi, energetika sahəsində əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMİSLAV NİKOLİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Serbiya dostluğu və əməkdaşlığı, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ikitərəfli münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Serbiya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *12 fevral 2015-ci il*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

Hörmətli xanım Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Mən Azərbaycanın mühüm tərəfdaşlarından biri kimi, Litva ilə münasibətlərə xüsusi əhəmiyyət verirəm. İnanıram ki, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı yolunda bundan sonra da birgə səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *12 fevral 2015-ci il*

**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN ÜZVÜ, RUSİYA OLİMPİYA KOMİTƏSİNİN FƏXRİ PREZİDENTİ VİTALİ GEORGİYEVİÇ SMİRNOVA**

Hörmətli Vitali Georgiyeviç!

Sizi – Beynəlxalq Olimpiya Komitəsinin qocaman üzvünü 80 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, bütün dünyada idmanın inkişafı və populyarlaşdırılması işində yeni uğurlar arzulayıram.

Sizin çoxillik fəaliyyətiniz olimpiya ideallarına sədaqətlə xidmət etməyin nadir nümunəsidir. Siz həm sovet dönəmində, həm də postsovet dövründə sağlam həyat tərzinin, bədən tərbiyəsinin və idmanın təbliği üçün çox iş görmüsünüz. Ölkələrimizin idman ictimaiyyəti Sizin Azərbaycanın və Rusiyanın idmançıları və idman təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmiş səylərinizi yüksək qiymətləndirir. Əminəm ki, Sizi Bakıda keçiriləcək I Avropa oyunlarında ən çox arzu edilən qonaqlardan biri kimi görəcəyik. İndi Azərbaycanda həmin oyunlara hazırlıq işi başa çatır. Ümidvarıq ki, bu oyunlar olimpiya hərəkatında yeni mərhələ olacaq, olimpizmin fundamental dəyərlərinin və prinsiplərinin möhkəmlənməsinə layiqli töhfə verəcək. Sizin çoxillik təcrübəniz gənc idmançıların yeni nəsilləri üçün son dərəcə maraqlı və faydalıdır. Düşünürəm ki, Sizə xas olan enerji istedadlı gənclərin olimpiya hərəkatına cəlb edilməsinin perspektivləri ilə bağlı hələ çox planları və layihələri həyata keçirməyinizə imkan verəcək. Sizə uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti**

Bakı, *12 fevral 2015-ci il*

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN NAZİRLƏRİN GÖRÜŞÜNDƏ İŞTİRAK

*12 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin görüşündə iştirak etmişdir.*

*Prezident İlham Əliyev Bakıda bu görüşün keçirilməsi təşəbbüsünə verdikləri dəstəyə görə iştirakçı ölkələrin rəhbərlərinə təşəkkürünü bildirdi. Azərbaycan Prezidenti bu görüşün olduqca münasib vaxtda – «Cənub Qaz Dəhlizi» layihəsinin praktiki olaraq həyata keçirilməsi ilində baş tutmasının mühüm əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev görüş zamanı aparılan müzakirələrin, fikir mübadiləsinin layihənin uğurla həyata keçirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası ilə bağlı müstəqilliyin ilk illərindən başlayaraq ötən müddətdə reallaşdırılan tədbirləri və layihələri ətraflı xarakterizə etdi, 2011-ci ildə Avropa Komissiyasının o vaxtkı sədri Joze Manuel Barrozu ilə «Cənub Qaz Dəhlizi» haqqında Birgə Bəyannamə imzaladıqlarını, həmin sənəddə Azərbaycanın «Cənub Qaz Dəhlizi»nə əsas töhfə verən və bu layihəni həyata keçirən ölkə olduğunun əksini tapdığını dedi. Azərbaycan Prezidenti TANAP və TAP layihələrinin «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi istiqamətində mühüm mərhələ olduğunu vurğuladı. «Əsrin müqaviləsi»nin imzalanmasından düz 20 il sonra – 2014-cü il sentyabrın 20-də «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulduğunu bildirdi.*

*Prezident İlham Əliyev ötən illərdə neft-qaz layihələri ilə əlaqədar qazanılan uğurlarda Azərbaycan Respublikası Dövlət*

*Neft Şirkəti ilə bp arasında sıx əməkdaşlığın mühüm rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, bp-nin əməliyyatçısı olduğu «Şahdəniz» yatağı «Cənub Qaz Dəhlizi» üçün əsas resurs mənbəyidir. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatının 2,5 trilyon kubmetrdən çox olduğunu deyən prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması ilə bağlı hasilatçı, tranzit və istehlakçı ölkələr arasında səyləri əlaqələndirməyin vacibliyini vurğuladı.*

*Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Xanımlar və cənablar, əziz dostlar!

Əvvəlcə sizin hamınızı Azərbaycanda salamlamaq istərdim. Bu gün biz «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ilk toplantısını keçiririk. Fürsətdən istifadə edib ölkələrinizin rəhbərliyinə Bakıda bu görüşün keçirilməsi təşəbbüsümüzə verdikləri dəstəyə görə təşəkkürümü çatdırmağınızı xahiş edirəm. Bu, görüşün keçirilməsi üçün çox münasib bir vaxtdır. Çünki bu il «Cənub Qaz Dəhlizi» layihəsinin praktiki olaraq həyata keçirilməsi başlanır. Bu layihə bizi birləşdirir və onunla bağlı əlavə əlaqələndirmə, fikir mübadiləsi lazımdır. Əminəm ki, bugünkü görüş ərzində fikir mübadiləsi, müzakirələr bu layihənin uğurla həyata keçirilməsinə töhfə verəcək.

Azərbaycan dünyada neft hasil edən ilk ölkə kimi tanınır. Bu, XIX əsrin ortalarında baş verdi. XX əsrin ortalarında dənizdə neft hasil edən ilk ölkə də Azərbaycan oldu. Bu səbəbdən Azərbaycanın neft sənayesinin tarixi çox zəngindir. Onu da bildirmək istəyirəm ki, İkinci dünya müharibəsində Azərbaycanda istehsal olunan neft Sovet İttifaqının hasil etdiyi neftin 80 faizini təşkil edirdi. Azərbaycan neftçiləri faşizm üzərində Qələbənin əldə edilməsinə böyük töhfə veriblər. Azərbaycan nefti olmasaydı, İkinci dünya müharibəsinin nəticələri bəlkə də başqa cür olardı.

Lakin Sovet İttifaqının süqutu zamanı neft sənayesindəki vəziyyət ürəkaçan deyildi. Quruda olan yataqlar əsasən tükənmişdi. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdə neft sənayesi böhran içərisində idi. Nəinki neft sənayesi, bütövlükdə biz ciddi hərbi, siyasi, iqtisadi böhranla üzləşdik. Vətəndaş müharibəsi, Ermənistanın işğalı baş verdi. Nəhəng neft yataqlarımızın işlənməsi üçün nə maliyyə ehtiyatlarımız, nə də ki texniki imkanlarımız vardı.

Yalnız Heydər Əliyev 1993-cü ildə prezident seçildikdən sonra vəziyyət sabitləşdi, vətəndaş müharibəsi dayandı, biz islahatlara başladıq. İslahatların mühüm elementlərindən biri Azərbaycanı dünyaya açıq etmək idi. Biz xarici sərmayələri cəlb etməyə başladıq və Azərbaycanda çox yaxşı sərmayə mühitini yaratdıq. Bu fakt sayəsində Azərbaycanın indiki iqtisadiyyatı davamlıdır, sabitdir. Birbaşa xarici sərmayələrin adambaşına olan həcminə görə Azərbaycan keçmiş sovet məkanında aparıcı yerdədir.

1994-cü il Azərbaycanın yeni enerji strategiyasının başlanğıc ili idi. Hökumətimiz ilə dünyanın əsas neft şirkətləri konsorsiumu arasında müqavilə imzalandı. 1994-cü ildə imzalanan müqavilə dərhal «Əsrin müqaviləsi» adını aldı. Bu, sərmayələrin həcmi və resurs əsası kimi götürülən «Azəri–Çıraq–Günəşli» yatağının dünyadakı ən böyük neft yataqlarından biri olması faktı ilə bağlı idi. 20 ildən çoxdur ki, həmin yataq işlənilir və ölkəmizdə neft hasilatının əsas özəyi hesab olunur. Buna görə də 1994-cü il enerji strategiyasının başlanğıc ili oldu. Beləliklə, Xəzər dənizi ilk dəfə olaraq xarici sərmayələr üçün açıq elan edildi.

Lakin Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkə olduğunu nəzərə alaraq, neftimizi nəql etmək üçün boru kəmərləri şəbəkəsinə ehtiyacımız var idi. Birmənalı olaraq, Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional əməkdaşlığa əsaslanan əlaqələndirilmiş səylər beynəlxalq bazarlara neft və qazın nəqli üçün başlanğıc mərhələdə müasir boru kəmərləri sistemini mümkün etdi.

Azərbaycanın enerji siyasətinin həyata keçirilməsində bu gün haqqında danışdığımız «Cənub Qaz Dəhlizi» üçün vacib olan vəziyyəti mümkün edən bir neçə mühüm mərhələləri sizə xatırlatmaq istərdim. Çünki «Cənub Qaz Dəhlizi» layihəsi burada – Azərbaycanda son 20 il ərzində tərəfdaşlarımızla apardığımız işə əsaslanır. 1996-cı ildə Azərbaycanla *bp*-nin rəhbərlik etdiyi xarici şirkətlər konsorsiumu arasında «Şahdəniz» yatağına dair saziş imzalandı. «Şahdəniz» qaz yatağı «Cənub Qaz Dəhlizi» üçün ən mühüm resurs bazasıdır. 1997-ci ildə «Çıraq» platformasında ilk neft hasil edildi. Bu ola bilsin ki, neft sənayesi tarixində rekord idi. Yəni müqavilənin imzalanması ilə ilk neftin hasil edilməsi arasında vaxt fərqi cəmi 3 il oldu. 1999-cu ildə Xəzər dənizi ilə Qara dənizi birləşdirən Bakı–Supsa boru kəməri çəkilmişdir. Beləliklə, Azərbaycan nefti Gürcüstanın Qara dənizdəki Supsa limanına nəql edilməyə başlandı. Bu, şaxələndirilmənin vacib elementi idi. İlk dəfə olaraq Qara dənizlə Xəzər dənizi xam nefti nəql edən boru kəməri ilə birləşdi. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft boru kəməri istismara verildi. Xəzər və Aralıq dənizləri ilk dəfə olaraq boru kəməri vasitəsilə birləşdi. 2007-ci ildə Bakı, Tbilisi və Türkiyənin Ərzurum şəhərini birləşdirən «Cənubi Qafqaz» qaz kəməri çəkildi.

Bütün bu mühüm mərhələlər Azərbaycanın enerji siyasətinin həyata keçirilməsində olduqca əhəmiyyətli idi. Biz Gürcüstan və Türkiyədəki tərəfdaşlarımızla birgə qarşımızda duran bütün məqsədlərə və hədəflərə nail olduq. Bu həmçinin məhsuldar regional əməkdaşlığın gözəl nümunəsi idi. Bu halda bir-birini dəstəkləyən və bir-biri ilə əməkdaşlıq edən 3 ölkə çox iddialı məqsədlərə nail oldu. Lakin bu, demək lazımdır ki, planlarımızın yalnız başlanğıcı idi. Çünki nəhəng «Şahdəniz» yatağı və Azərbaycanın digər qaz yataqları təbii qazı Azərbaycandan beynəlxalq bazara nəql edəcək «Cənub Qaz Dəhlizi»nin çəkilməsinin zəruriliyini diktə edirdi. Bu layihənin də həyata keçirilməsində mühüm mərhələlər var. 2011-ci ildə mənimlə Avropa Komissiyasının sədri cənab Barrozu arasında

Bakıda «Cənub Qaz Dəhlizi» haqqında Birgə Bəyannamə imzalandı. Bu sənəddə Azərbaycan «Cənub Qaz Dəhlizi»nə əsas töhfə verən və həyata keçirən ölkə kimi göstərilir.

2012-ci ildə Trans–Anadolu – TANAP qaz boru kəmərinin tikintisi ilə əlaqədar Azərbaycan ilə Türkiyə arasında saziş imzalandı. Bu saziş «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsində mühüm rol oynadı. Çünki Azərbaycan qazının nəql edilməsində əsas olacaq layihənin uzun illər ərzində müzakirəsi zamanı bizim tərəfimizdən TANAP layihəsi təqdim edildi və dərhal bütün tərəfdaşlarımızın güclü dəstəyini qazandı. Bir sözlə, TANAP «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsində mühüm yer tutur. Siz yəqin ki, bilirsiniz, artıq TANAP-ın praktiki həyata keçirilməsinə başlanılıb. 2013-cü ildə Trans–Adriatik boru kəməri Avropaya əsas ixrac marşrutu kimi seçildi və 2014-cü il sentyabrın 20-də isə «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimi burada – Bakıda keçirildi. Bu, 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanmasından düz 20 il sonra baş verdi. Bu, görülmüş işlərin qısa tarixçəsi idi. Buna görə, bir daha demək istəyirəm ki, artıq Azərbaycanda və qonşuluqda yaradılan həmin mühüm elementlər olmadan bu gün «Cənub Qaz Dəhlizi» layihəsi yalnız yaxşı bir ideya və ya istək kimi səslənərdi. Lakin bu gün bu layihə artıq həyata keçirilmə mərhələsində olan layihədir.

Qeyd etmək istəyirəm ki, Dövlət Neft Şirkəti ilə əsas investorumuz olan *bp* arasında tərəfdaşlıq neft-qaz layihələrimizin həyata keçirilməsində olduqca mühüm rol oynadı. Artıq 20 ildir ki, bu tərəfdaşlıq davam edir və gələn illərdə də davam edəcək.

Bir daha deyim ki, «Cənub Qaz Dəhlizi» üçün resurs bazası *bp*-nin əməliyyatçı olduğu «Şahdəniz» yatağıdır. «Şahdəniz»dən başqa, digər nəhəng qaz yataqlarını da götürsək – yeri gəlmişkən, hesablamalarımıza görə Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən çoxdur – «Abşeron», «Ümid» və digər yataqlar «Cənub Qaz Dəhlizi» layihəsinə birmənalı olaraq töhfə

verəcək. Çox güman ki, bu gün proqnozlaşdırdığımız rəqəmləri üstələyən daha çox hasilatımız və ixracımız olacaq.

Əməkdaşlığımızın vacib elementi səylərimizin əlaqələndirilməsidir. Fikrimcə, Məşvərət Şurasının bu gün keçirilən toplantısı bu məqsədi daşıyacaq. Görülmüş və planlaşdırılmış işlər barədə təqdimat olacaq. Lakin bu layihədə iştirak edən bütün ölkələr və şirkətlər arasında əlaqələndirmə və səmərəli ünsiyyət uğurun əsas ilkin şərtlərindən biri olacaq. Əvvəllər olduğu kimi, Gürcüstan, Türkiyə və Azərbaycan arasında aparılmış üçtərəfli əməkdaşlığa bənzər qaydada işləməliyik. Həmin üçtərəfli əməkdaşlıq və yüksək səviyyədə olan qarşılıqlı etimad, dəstək artıq qeyd etdiyim layihəni həyata keçirməyə imkan yaratdı. Hazırda isə daha mürəkkəb vəziyyətdir. Çünki iştirakçıların və tərəflərin sayı çoxdur. Buna görə bizə maksimal səviyyədə qarşılıqlı etimad lazımdır və bir-birimizi dəstəkləməliyik. Hamımız bu layihənin həyata keçirilməsinə töhfə verməliyik ki, onu vaxtında icra edək.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsidir. Bu bizim üçün enerji təhlükəsizliyidir. Çünki Azərbaycan beynəlxalq bazarlara böyük həcmdə təbii qazı ixrac etmək imkanı qazanacaq. Bu həm də istehlakçı və tranzit ölkələr üçün enerji təhlükəsizliyidir. Çünki bu gün enerji təhlükəsizliyinə istənilən ölkənin milli təhlükəsizliyindən ayrı baxıla bilməz. Enerji resursları nəinki çiçəklənmə, proqnozlaşdırma və sabitlik mənbəyi ola bilir, həmçinin bəzən rəqabət və düşmənçilik mənbəyinə də çevrilir. Fikrimizcə, bizim fəlsəfəmiz ondan ibarətdir ki, enerji resursları sabitliyə, proqnozlaşdırmaya, əməkdaşlığa və qarşılıqlı dəstəyə töhfə verməlidir. Əminəm ki, hasilatçı, tranzit və istehlakçı ölkələr üçün uduşlu vəziyyət, layihənin 3 komponenti arasındakı maraqlar balansı layihəmizin uğurla həyata keçirilməsinin başlıca səbəbi olacaq.

Enerji resurslarının şaxələndirilməsi hazırda beynəlxalq təşkilatların əsas arenasında müzakirə olunan məsələdir. Azərbaycan şaxələndirmədə öz rolunu oynayır. Şaxələndirmə haqqında danışanda biz yalnız marşrutların deyil, həm də mənbələrin

şaxələndirilməsini nəzərdə tuturuq. Marşrutların da şaxələndirilməsi vacibdir, lakin mənbə eyni olanda vəziyyət çox dəyişmir. Mənbələrin şaxələndirilməsi vacibdir. Bu halda, Xəzər dənizində çıxan qaz – Azərbaycan qazı növbəti illər ərzində Avropa istehlakçıları üçün yeganə yeni qaz mənbəyi olacaq.

Əlbəttə ki, bu tamamilə başqa vəziyyət yaradır. Bu gün qarşımızda ölkələrdən ibarət komanda var. Avropa Komissiyası güclü dəstəyini verir. Çox şadam ki, bugünkü görüşdə cənab Şefçoviç iştirak edir. Bu, planlarımızda nikbinliyi artırır. Çünki əminəm ki, bu layihənin həyata keçirilməsi məqsədilə nəzərdə tutduğumuz bütün məsələlər öz həllini tapacaq. Layihə vaxtında icra olunacaq və hamımız «Cənub Qaz Dəhlizi»nin baş tutmasını qeyd edəcəyik. Lakin buna nail olmaq üçün əlaqələndirmə, qarşılıqlı etimad və bu prosesə qoşulmuş bütün ölkələr arasında sıx qarşılıqlı əlaqə lazımdır.

Bu gün bizimlə olduğunuza görə sizə bir daha minnətdarlığımı bildirirəm və Məşvərət Şurasına uğurlar arzulayıram. Sağ olun.

* * *

**Natiq Əliyev** (*Azərbaycan Respublikasının Energetika naziri*): Zati-aliləri cənab Prezident!

«Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının üzvləri adından ilk iclasda iştirak etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Sizin nitqinizi yüksək dəyərləndiririk və dərin təşəkkürümüzü bildiririk. Hamımız bilirik ki, Azərbaycanın müasir neft tarixinə təsiriniz – «Cənub Qaz Dəhlizi» layihəsi istiqamətində aparılan işlərə verdiyiniz töhfə çox böyükdür. Buna görə bizimlə olduğunuz üçün Sizə bir daha «Çox sağ olun» – deyirik.

İcazənizlə, mən sözü Avropa Komissiyasının sədr müavini cənab Maroş Şefçoviçə vermək istəyirəm.

**Maroş Şefçoviç** (*Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini*): Zati-aliləri cənab Prezident!

Əvvəlcə gözəl Bakı şəhərinə, bu cür möhtəşəm iclas zalına səmimi dəvətinizə görə hamımızın adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Açılış nitqinizdə böyük təəssürat bağışlayan tarixçəni xatırlatdığınıza görə minnətdarıq. Ən böyük təəssürat isə ondan ibarətdir ki, Siz heç vaxt nitqinizi kağızdan oxumursunuz. Siz bu tarixçəni əzbər bilirsiniz, çünki şəxsən iştirak etmisiniz. Siz ölkənizə, regionun gələcəyinə və bu layihəyə bağlısınız. 2 ay əvvəl keçirdiyimiz görüş zamanı anladıq ki, keçmişdə buraxdığımız səhvləri öyrənməliyik. Həmin vaxt regionla bağlı olan böyük layihələr maddi formasını tapmadı, çünki kifayət qədər siyasi dəstək yox idi. Biz siyasi baxımdan bu məsələlərə kifayət qədər əhəmiyyət vermədik və əlaqələndirmə mexanizmi çatışmırdı. Bilirdim ki, belə miqyaslı layihə üçün problemlərin həllinə yönəlmiş yanaşmadan istifadə etməliyik. Bilirik ki, bu qədər təəssürat bağışlayan, belə bir əhəmiyyətə malik olan «Cənub Qaz Dəhlizi» kimi layihəni həyata keçirdikdə, əlbəttə ki, bir çox məsələlər həll olunmalı, onlar vaxtında, lazımi qaydada və konstruktiv yanaşma əsasında aradan qaldırılmalıdır. Bu səbəbdən deməliyəm ki, Xəzər qazının Avropaya çatdırılması bizim uzunmüddətli arzumuz idi. Görülmüş işlər sayəsində bu layihəyə artıq yaxınıq.

Bildiyiniz kimi, mən Avropa İttifaqında enerji birliyinin qurulması ilə məşğulam. İstəyirik ki, bu layihə Avropa məkanında gözəçarpan keçid yaratsın. Müxtəlif nöqteyi-nəzərdən götürsək, bu müzakirə siyasi gündəlikdə daha yüksək səviyyəyə qaldırılıb. Çünki bu məsələ Sizin də qeyd etdiyiniz kimi, enerji təhlükəsizliyi ilə bağlıdır. Səmimi desək, biz Avropa İttifaqında yayda yox, qışda nəyin baş verəcəyi haqqında düşünməkdən artıq yorulmuşuq. İnanırıq ki, Avropa kimi böyük iqtisadiyyata və etibarlı istehlakçıya xoş münasibət bəslənilməlidir. Onun ardı kəsilməyən qaz təchizatına hüququ olmalıdır. Buna görə də biz vəziyyətin yaxşılaşması üçün əlimizdən gələni etməliyik. Nail olmaq istədiyimiz həmin şaxələndirilmənin əsas

vasitələrindən biri mənbələrin və resursların şaxələndirilməsidir.

Dediyiniz kimi, «Cənub Qaz Dəhlizi» Avropa istehlakçılarına yeni təchizat marşrutu ilə yeni qazı nəql edəcək birinci əsas layihədir. Bu gün Avropa İttifaqında apardığımız hesablamalara görə, istifadə etdiyimiz qazın 66 faizi, neftin isə 90 faizi idxal edilir. Gələcəkdə isə Avropa İttifaqına idxal etdiyimiz qazın həcmi 84 faiz, neftin həcmi isə 94 faiz olacaq. Yaxşı bilirsiniz ki, idxal edilən neft və qazın əsas hissəsi 3 qonşumuzdan – Rusiya, Norveç və Əlcəzairdən daxil olur. Lakin onu da açıq söyləməliyik ki, Ukraynadakı hazırkı böhran vəziyyəti daha da mürəkkəbləşdirdi. Biz mütləq olaraq şaxələndirməni əvvəlkindən daha çox genişləndirməliyik. Elə indicə mən bolqar həmkarlarımızı salamladım, birinci gün Sofiyada onlarla görüş keçirdik. Bu toplantı Şuranın qərarı ilə keçirildi. Çünki uzun illər ərzində müzakirə olunan ən iri layihələrdən biri olan «Cənub axını» layihəsinin təxirə salınması ilə bağlı qərar qəbul edilmişdir. Bu layihə baş tutmadı və bu baxımdan Cənub-Şərqi Avropanın həssaslığını göstərdi. Bu problemi biz həll etməliyik. Avropa İttifaqının üzvü olan bütün dövlətlərin enerji təhlükəsizliyini, Avropa enerji sisteminə real inteqrasiyasını təmin etməliyik. Belə qərara gəldik ki, Avropanın cənub-şərq hissəsindəki üzv dövlətlərin ən azı 3 müxtəlif enerji mənbələrinə çıxışına zəmanət verəcək tədbirlər planı iyunda hazırlansın. Bu halda şaxələndirmə və sabit enerji platforması haqqında danışmaq olar.

Əlbəttə ki, biz hazırda həyata keçirilən «Cənub Qaz Dəhlizi» layihəsinin uğuruna və tempinə böyük ümidlər bəsləyirik. Buna görə də hesab edirəm ki, bu layihə üçün Məşvərət Şurası ideyası əla ideyadır. Şadam ki, bu gün biz konsorsiumdakı biznes tərəfdaşlarımızla da konkret məsələləri müzakirə edəcəyik.

Çox şadam ki, Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndəsi cənab Puliti buradadır. Digər təsisatlara – Avropa İnvestisiya Bankının, Dünya Bankının nümayəndələrinə də söz veriləcək. Çünki hesab edirəm ki, bu layihə digər beynəlxalq maliyyə təsisatları üçün də maraqlıdır. Ona görə ki, biz Avropa

İttifaqı olaraq artıq öz enerji qurğularımızı bu layihəyə qoşub onun müəyyən hissələrinə dəstək vermişik.

Cənab Prezident, çıxışımın sonunda Sizə təşəbbüsünüzə və Bakıya səmimi dəvətinizə görə bir daha minnətdarlığımı bildirirəm. Fikrimcə, bugünkü görüşün ən yaxşı nəticəsi yol xəritəsinin tərtibi ola bilər. Biz hansı işlərin görülməsini, hansı problemlərin olduğunu aydın şəkildə bilməliyik. Onları həll edə biləcəyikmi və nə vaxt həll edəcəyik? Cədvələ uyğun işləyəcəyik və proqnozlaşdırdığınız kimi, Xəzər qazını bu onilliyin sonuna qədər Avropada görəcəyik. Çox sağ olun.

*Sonra Məşvərət Şurası öz işini davam etdirdi.*

*Azərbaycanın Energetika naziri Natiq Əliyev bir daha qonaqları salamladı və iclasın yüksək səviyyədə keçəcəyinə əminliyini bildirdi.*

**N a t i q Ə l i y e v:** Biz bu gün buraya «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi ilə bağlı hazırkı vəziyyəti, çağırışları, məsələləri müzakirə etmək və müvafiq həll yollarını işləyib hazırlamaq üçün toplaşmışıq. Ötən illər 2011-ci ilin yanvarında imzalanmış Birgə Bəyannamə ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu tərəfindən irəli sürülmüş «Cənub Qaz Dəhlizi» layihəsi üçün çox məhsuldar illər olmuşdur. Azərbaycan Prezidenti bugünkü açılış nitqində «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasına cəlb olunmuş bütün ölkələrin, o cümlədən Türkiyə, Gürcüstan, Avropa İttifaqının və aparıcı şirkətlərin xüsusi rolunu qeyd etdi.

Gəlin bir anlıq geriyə baxaq, görək biz bu günədək birlikdə nələrə nail olmuşuq? Qarşımızda hansı vəzifələr durur və nazirlər səviyyəsində bu məsələlərin həlli ilə bağlı nə kimi işlər görülə bilər?

*Nazir «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində görülən işlərdən danışdı, bu məsələdə Azərbaycanın tərəfdaş ölkələrlə uğurlu əməkdaşlıq etdiyini dedi, layihə ilə bağlı hazırlıq işlərinin uğurla həyata keçirildiyini diqqətə çatdırdı:*

– Bizim məqsədimiz dəyişməz qalır. Məqsədimiz bütün bu infrastruktur layihənin nəzərdə tutulduğu kimi, 2019-cu ildə fəaliyyətə başlamasından ibarətdir. Bu, ölkələrimizin gələcək iqtisadi inkişafı, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi üçün də vacibdir. Artıq bizim əməkdaşlığımızın bəzi nümunələri mövcuddur. 2014-cü il sentyabrın 19-da Azərbaycan və Bolqarıstan prezidentləri tərəfindən Birgə Bəyannamə imzalanmış və bu Bəyannamədə Azərbaycan tərəfindən Bolqarıstanın, eləcə də Bolqarıstanın qaz şəbəkəsi vasitəsilə Avropa bazarlarına gedən boru kəmərlərinin Azərbaycan qazı ilə təchiz olunmasının önəmi öz əksini tapmışdır. Bolqarıstan tərəfi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Bulgargas» arasında 2013-cü ilin sentyabrında imzalanmış və 2020-ci ildən başlayaraq 1 milyard kubmetr qazın Bolqarıstana çatdırılmasını nəzərdə tutan müqavilənin əhəmiyyətini xüsusi vurğulamışdır. 2014-cü il dekabrın 19-da Azərbaycan Respublikası və Albaniya Respublikası hökumətləri arasında Albaniya üçün qazla bağlı baş planın işlənib hazırlanması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. Tərəflər Cənub-Şərqi Avropa regionu və ümumilikdə Avropa İttifaqı üçün strateji maraq doğuran Trans–Anadolu, Trans–Adriatik, İon–Adriatik boru xətlərinin əhəmiyyətini qeyd etmişlər.

*Sonra Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Tanər Yıldız çıxış etdi. O, «Cənub Qaz Dəhlizi»ni Avropa İttifaqı ölkələrinin təbii qazla təminatında ən önəmli layihə kimi dəyərləndirdi. Nazir layihənin həyata keçirilməsi üçün Türkiyə tərəfinin götürdüyü öhdəlikləri şərəflə yerinə yetirəcəyini vurğuladı.*

**T a n ə r Y ı l d ı z:** Türkiyə həmişə olduğu kimi, xüsusilə belə bir layihədə qətiyyətini həm siyasi, həm də iqtisadi cəhətdən davam etdirəcək. Bu layihə Avropa İttifaqına üzv ölkələrin təbii qazla təmin olunması baxımından çox mühüm layihələrdən biridir. «Cənub Qaz Dəhlizi» layihəsində, xüsusən «Şahdəniz-2»də öz payını artıran Türkiyə olaraq bu layihədə iştirak edirik.

Əlbəttə, Türkiyə yerləşdiyi coğrafiyadan qaynaqlanan bütün imkanlardan həm qonşu ölkələr, həm də Avropa İttifaqının üzvü olan ölkələr üçün istifadə edəcək. Türkiyə öz coğrafiyasından qaynaqlanan imkanlardan yararlanmaqda davam edəcək.

Mən burada səslənən və səslənəcək çıxışlarla yanaşı, bəzi ikitərəfli görüşləri də qeyd edərək, bu iclasın bölgəmizə və ölkələrimizə xeyirli olacağını arzu edirəm. Azərbaycanın ev sahibliyi ilə Məşvərət Şurasının bu iclasının işlərin daha yüksək səviyyəyə çatmasına töhfə verəcəyinə əminliyimi bildirir, hamınızı sevgi və ehtiramla salamlayıram.

*Gürcüstanın Baş nazirinin müavini, Energetika naziri Kaxa Kaladze «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətinə toxunaraq onun iqtisadi və sosial səmərəsindən danışdı.*

**K a x a  K a l a d z e:** Bu möhtəşəm tədbirin təşəbbüskarlarına və tərəfdaşlarımıza dərin hörmət və ehtiramımı bildirirəm. Bugünkü tədbir «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi ilə bağlı bütün uğurlu hadisələrin məntiqi davamıdır.

Əziz həmkarlar, «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində gedən işlər çox genişmiqyaslıdır, eyni zamanda, bizim və layihədə iştirak edən başqa ölkələr üçün də çox vacibdir. Biz bu layihədən investisiyalar, işsizliyin aradan qaldırılması, enerji təhlükəsizliyi və iqtisadi inkişafın, sabitliyin təmin edilməsini gözləyirik.

**P a n a g i o t i s  L a f a z a n i s** (*Yunanıstanın Məhsuldar İstehsal, Ətraf Mühit və Energetika naziri)*: Hər şeydən əvvəl, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının birinci iclasının keçirilməsi ilə bağlı Azərbaycan hökumətinin təşəbbüsünə görə minnətdarlığımı bildirmək istərdim. Biz burada göstərdiyiniz qonaqpərvərlik və tədbirin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığımızı bildiririk. Mən inanıram ki, bu Şuranın fəaliyyəti «Cənub Qaz Dəhlizi»nin reallaşması başa çatana qədər önəmli rol oynayacaq. Belə ki, bu bizə, bütün maraqlı tərəflərə və səhmdarlara eyni templə irəliləməyimizi və ümumi məqsədlər istiqamətində fəaliyyətimizi müzakirə etmək və

əlaqələndirmək üçün yaxşı imkan yaradacaq. Bu doğrudan da «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı işlərin hazırkı vəziyyətini müzakirə etmək üçün yaxşı imkan yaradır.

*Panagiotis Lafazanis çıxışında «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətinə toxunaraq bildirdi:*

– «Cənub Qaz Dəhlizi» ilə bağlı mühüm amil ondan ibarətdir ki, bu layihə sürətlə həyata keçirilir və heç şübhəsiz, 2020-ci ildən başlayaraq, Cənubi və Cənub-Şərqi Avropa və daha geniş məkanın enerji xəritəsini dəyişəcək. Mən burada Yunanıstanı, eyni zamanda, bir neçə həftə bundan əvvəl islahatlar və yeniliklərin reallaşdırılmasını qarşısına məqsəd qoymuş yeni formalaşmış hökuməti təmsil edirəm. Biz ölkə iqtisadiyyatının müxtəlif sahələri, o cümlədən enerji sektorunda, xüsusilə təbii sərvətlərimizin işlənilməsi ilə bağlı milli planlarımız və ictimai korporasiyaların fəaliyyəti ilə bağlı işlərdə yeniliklər həyata keçirmək əzmindəyik. Bununla belə, çox aydın şəkildə bildirmək istəyirəm ki, TAP və «Cənub Qaz Dəhlizi» layihələrinin dəstəklənməsi ilə bağlı bizim milli siyasətimiz dəyişməzdir. Biz TAP layihəsinin Yunanıstanda nəzərdə tutulmuş vaxt çərçivəsində, bütün tərəflərin hüquqlarına hörmət etməklə və layihənin keçdiyi bütün ölkələrin yerli icmaları və iqtisadiyyatlarına fayda verəcək şəkildə reallaşmasını təmin etmək üçün bütün maraqlı tərəflərlə sıx və səmərəli şəkildə işləməyə sadiqik.

**Damian Qjiknuri** (*Albaniyanın Energetika və Sənaye naziri*): Azərbaycan hökumətinə bu mühüm tədbirin təşkilinə görə minnətdarlığımı bildirirəm. Azərbaycan bir daha bu strateji layihənin tam şəkildə irəli aparılması işində öndə durduğunu nümayiş etdirir.

*Damian Qjiknuri «Cənub Qaz Dəhlizi» layihəsinin Albaniya üçün gətirəcəyi faydalardan danışdı:*

– Albaniya hökuməti daha çox Albaniya şirkətlərinin bu layihəyə cəlb edilməsində maraqlıdır. Göründüyü kimi, bu layihə çətin maliyyə böhranı dövründə iqtisadiyyatı inkişaf

etdirməyə təkan verəcək bir layihədir və bir çox ölkələrin iqtisadi inkişaf imkanlarını daha da genişləndirəcək.

**Temenujka Petkova** (*Bolqarıstanın Energetika naziri*): Hörmətli xanımlar və cənablar!

Hər şeydən əvvəl, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünə bizi ev sahibi olaraq dəvət etdiyinə görə Azərbaycana təşəkkürümü bildirmək istərdim. Bolqarıstan hökuməti adından iki ölkə arasında enerji tərəfdaşlığımızın strateji əhəmiyyətini təsdiqləmək istəyirəm. Bolqarıstan dövləti həmişə Azərbaycanı dəstəkləyib və Avropada ikinci ölkə olaraq Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü tanıyıb. Mənim üçün Bolqarıstanı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasında təmsil etmək böyük şərəfdir.

*Temenujka Petkova çıxışında «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində Azərbaycanın xüsusi rolunu vurğuladı:*

– Bolqarıstan Respublikası «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi və inşasında bir daha Azərbaycanın həlledici rolunu vurğulayır. Bolqarıstan «Cənub Qaz Dəhlizi»nin inkişafını həmişə dəstəkləyib. Biz bu layihənin həyata keçirilməsinə qüvvə və imkanlarımızı cəlb etmişik.

**Gilberto Dialuse** (*İtaliyanın İqtisadi İnkişaf Nazirliyinin baş direktoru)*: Müasir şəraitdə İtaliya üçün «Cənub Qaz Dəhlizi» layihəsinin strateji əhəmiyyəti daha da artır. İtaliyanın qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacaq bu layihə rəqabətin artırılması məqsədilə İtaliya və Avropa bazarlarının qazla təchiz olunmasının şaxələndirilməsi imkanlarını daha da genişləndirir. «Cənub Qaz Dəhlizi»nin TAP boru xətti vasitəsilə fəaliyyətə başlaması təchizatın təhlükəsizliyi, marşrutların və mənbələrin şaxələndirilməsi, eləcə də İtaliya və Avropa bazarlarında rəqabət aparan bir sıra qaz təchizatçılarının sayının artırılmasının təmin edilməsi işinə xidmət edəcək. İtaliya hökuməti həqiqətən də Azərbaycanla və bu layihəyə cəlb olunmuş digər ölkələrlə yüksək səviyyədə

münasibətlər çərçivəsində «Cənub Qaz Dəhlizi»nin fəaliyyətə başlaması işinə öz töhfəsini verməyə sadiqdir. Beləliklə, təkcə İtaliya üçün deyil, ümumilikdə Avropa üçün qaz təminatının təhlükəsizliyinin möhkəmləndirilməsi, sədr müavini Şefçoviçin qeyd etdiyi kimi, enerji ittifaqının əsas sütunlarından biridir.

**Amos Hokstayn** (*ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunun xüsusi nümayəndəsi*): Çox sağ olun. Bu tədbirdə Amerika Birləşmiş Ştatları Hökuməti adından iştirak etməkdən məmnunluq hissi keçirirəm. Eyni zamanda, Azərbaycan hökumətinə belə bir mühüm zamanda bu vacib tədbirin – «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclasının təşkilinə görə minnətdarlığımı bildirirəm. Mən prezident İlham Əliyevə Bakı–Tbilisi–Ceyhan layihəsindən başlayaraq həyata keçirilən bütün bu işlərə rəhbərlik etdiyinə görə təşəkkürümü bildirirəm. Bugünkü açılış nitqində prezident Əliyevin söylədiyi bəzi fikirləri bir daha vurğulamaq istəyirəm. Cənab Prezident bu gün şaxələndirmə və onun əhəmiyyətindən danışdı. Eyni zamanda, prezident İlham Əliyev qeyd etdi ki, marşrutların şaxələndirilməsi vacib olmaqla bərabər, bu marşrutlar yalnız təchizat mənbələrinin şaxələndirildiyi təqdirdə mühüm əhəmiyyət kəsb edir. Bu iki amildən biri olmadıqda, enerji təhlükəsizliyi mümkün deyil. «Cənub Qaz Dəhlizi» bu iki amilin hər ikisini özündə birləşdirir və buna görə də Avropa enerji təhlükəsizliyinə dəstək verilməsi ABŞ hökumətinin həmişə strateji məqsədi olub və bundan sonra da olacaq.

*ABŞ nümayəndəsi çıxışında enerji təhlükəsizliyi məsələlərinə toxundu:*

– Enerji təhlükəsizliyi məsələsi təkcə enerji ilə bağlı deyil. Bu həm də sabitlik deməkdir. Geosiyasi sabitlik bu regionların iqtisadi firavanlığı deməkdir. «Cənub Qaz Dəhlizi» bizim üçün eyni zamanda, fikirləşirəm ki, burada əyləşən hər bir insan üçün Avropa enerji təhlükəsizliyinin təməl daşıdır.

«Cənub Qaz Dəhlizi» təkcə tranzit ölkələr və son nöqtə olan İtaliya üçün deyil. «Şahdəniz» konsorsiumunun 2-ci və 3-

cü fazaları işə düşən zaman bu layihəyə əlavə qaz resursları cəlb oluna və beləliklə, bu layihənin potensialı daha da arta bilər.

**İ r f a n  S i d d i q** (*Böyük Britaniyanın Azərbaycandakı səfiri)*: Birləşmiş Krallıq Azərbaycanın strateji tərəfdaşı və «Cənub Qaz Dəhlizi»ni güclü şəkildə dəstəkləyən ölkədir. Biz bu təşəbbüsün – Məşvərət Şurasının iştirakçısı olmaqdan və bu layihəyə və layihənin uğurla həyata keçməsi işinə davamlı dəstək verməyimizdən çox məmnunuq.

*Səfir Böyük Britaniyanın biznes, müəssisə və energetika üzrə Dövlət naziri Mətyu Hənkokun tədbirlə bağlı ünvanladığı məktubu oxudu. Məktubda deyilir:* «Birləşmiş Krallıq Azərbaycanla güclü münasibətləri yüksək qiymətləndirir. Bu özünü energetika sahəsində çox aydın göstərir. Ötən 20 illik bir müddətdə uğurlu əməkdaşlıq həyata keçirməklə, Birləşmiş Krallıq Azərbaycan ilə münasibətləri daha da möhkəmləndirmək və qarşılıqlı səmərəli layihələrlə bağlı əməkdaşlığı bundan sonra da davam etdirmək əzmindədir. Bu baxımdan biz «Cənub Qaz Dəhlizi»ni ciddi şəkildə dəstəkləyirik. «Cənub Qaz Dəhlizi» layihəsi mühüm strateji layihə olmaqla, Avropa İttifaqının qaz təchizatında yeni mənbəni təmin edəcək və Azərbaycanın, Birləşmiş Krallığın və digər tərəfdaş ölkələrin iqtisadiyyatlarına böyük fayda verəcək. Bu baxımdan bu layihə ilə bağlı mən Azərbaycan rəhbərliyinə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Azərbaycan hər zaman «Cənub Qaz Dəhlizi»nə dəstək verilməsi işində aparıcı rol oynamışdır».

*Məktubda «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla həyata keçirilməsi istiqamətində prezident İlham Əliyevin fəaliyyətinin yüksək qiymətləndirildiyi qeyd olunub və layihənin strateji əhəmiyyəti vurğulanıb:* «Birləşmiş Krallıq Avropa enerji bazarlarının Azərbaycan qazı ilə təmin olunması işinə güclü dəstək verilməsi üçün əlindən gələni əsirgəməyəcək».

*bp şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı görülən işlər və qarşıda duran vəzifələrlə bağlı təqdimat etdi.*

**Q o r d o n  B i r r e l l:** Bu layihə neft və qaz sənayesi sahəsində meqalayihədir. Hazırda bu, ola bilsin, dünyanın 3 və ya 4 ən iri enerji layihələrindən biridir. Bu, Avropa və Türkiyə üçün yeni enerji mənbəyidir.

*Məşvərət Şurasının iclasında Trans–Anadolu qaz kəməri layihəsinin baş meneceri Saltuk Düzyol və Trans–Adriatik qaz kəməri layihəsinin icraçı direktoru İn Bradşav həmin layihələr çərçivəsində görülən işlər barədə ətraflı məlumat verdilər. Avropa Yenidənqurma və İnkişaf Bankının enerji və təbii ehtiyatlar üzrə icraçı direktoru Rikkardo Puliti isə «Cənub Qaz Dəhlizi» layihəsinin iqtisadi səmərəliliyi və maliyyələşdirilməsi məsələləri barədə danışdı.*

*Avropa İnvestisiya Bankının Mərkəzi və Cənub-Şərqi Avropada kredit əməliyyatları üzrə direktoru Flavia Palanza investisiya qoyuluşu baxımından layihənin cəlbedici olduğunu bildirərək, onun əhəmiyyətindən bəhs etdi.*

**F l a v i a  P a l a n z a:** Avropa Komissiyası ilə birlikdə Avropa İnvestisiya Bankı Avropa üçün təhlükəsiz enerji mənbəyinin şaxələndirilməsi və qaz bazarında rəqabətliliyin təmin edilməsi baxımından mühüm insfrastruktur sayılan «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması işinə böyük önəm verir. Avropa İnvestisiya Bankı TAP və TANAP layihələri ilə bağlı hadisələrin inkişafını yaxından izləyirdi. 2013-cü ildə TAP layihəsi Cənubi İtaliyaya, Bolqarıstana və Qərbi Balkan ölkələri kimi, bütün potensial tranzit ölkələrə Azərbaycan təbii qazının nəql edilməsi üçün üstünlük verilən marşrut kimi seçilmişdir. Avropa İnvestisiya Bankı TAP layihəsini bu gün Avropa Komissiyasının sədr müavininin də qeyd etdiyi kimi, ümumi maraqlar layihəsi statusuna malik bir layihə kimi alqışlayır.

*Beynəlxalq Maliyyə Korporasiyasının Neft, Qaz və Mədən Məsələlərinə dair Avropa, Orta Şərq və Şimali Afrika üzrə regional sektor müdiri Karsten Fuelster beynəlxalq aparıcı maliyyə qurumlarının nümayəndələrinin bu tədbirdə iştirakının əhəmiyyətini vurğuladı və dünya maliyyə institutlarının «Cənub*

*Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı uğurlu əməkdaşlıq həyata keçirdiklərini bildirdi.*

**K a r s t e n  F u e l s t e r:** Heç şübhəsiz, «Cənub Qaz Dəhlizi» layihəsi Azərbaycan qazının dünya bazarlarına çıxarılması və beləliklə, regionun, həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından mühüm strateji layihədir. Beynəlxalq Maliyyə Korporasiyası Dünya Bankı Qrupunun üzvüdür və Dünya Bankı Qrupu həmişə bu layihəyə, həmçinin əvvəllər Bakı–Tbilisi–Ceyhan boru xətti kimi layihələrə uzun müddət dəstək vermişdir və bu baxımdan biz bu regiondakı qazın dünya bazarlarına çıxarılmasının önəmini yüksək qiymətləndiririk.

*Avropa Komissiyasının Enerji Birliyi üzrə sədr müavini Maroş Şefçoviç tədbirin yüksək səviyyədə keçirildiyinə görə bir daha Azərbaycan tərəfinə və prezident İlham Əliyevə təşəkkür etdi.*

**M a r o ş  Ş e f ç o v i ç:** Biz bu böyük layihənin müxtəlif aspektləri barədə çox danışa bilərik – yeni iş yerlərinin yaradılması, enerji təhlükəsizliyinin təmin edilməsi, layihənin keçdiyi ərazilərə yeni biznes imkanlarının gətirilməsi və digər aspektlər. Bu layihə enerji təhlükəsizliyi və təminatı işini gücləndirir.

Mən bu gün bu tədbirin səmimi dostluq şəraitində keçməsini yüksək qiymətləndirirəm. Biz bu gün bu layihəni birgə həyata keçirmək üçün özümüzü bir komanda kimi hiss etdik. Bu həqiqətən də bizim hamımız üçün çox önəmlidir. Burada iştirak edən nazirlər və şirkətlərin nümayəndələri bu layihəni strateji layihə, meqalayihə, hamımız üçün prioritet olan bir layihə kimi dəyərləndirdilər. Fikirləşirəm, hamı razılaşar ki, bu layihə hazırda reallaşmaqda olan ən böyük layihədir və biz bunun həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Çünki bu layihə doğrudan da marşrutların keçdiyi bütün ölkələrin inkişafına təkan verə bilər. Eyni zamanda, bu layihə Avropa İttifaqının enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

*Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Tanər Yıldız çıxışında tədbirin yüksək səviyyədə baş tutduğunu dedi, bir daha bu iclasın önəminə toxunaraq layihənin strateji əhəmiyyətini vurğuladı.*

**T a n ə r  Y ı l d ı z:** İndiyə qədər ərsəyə gətirdiyimiz Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərləri və digər layihələrimiz kimi, son dərəcə əhəmiyyətli olan bu layihənin də uğurla reallaşacağına heç kimdə şübhə yoxdur. Artıq bu layihə siyasi, texniki, iqtisadi və maliyyə baxımından bütün tərəflərin dəstəyini alıb və ortaq faydaya əsaslanan bir layihə halına gəlib.

Bu çox sevindirici haldır. Bu layihə ilə bağlı burada verilən bütün məlumatlar üçün istər şirkətlərimizə, istərsə də maliyyə qurumlarına, qeyri-hökumət təşkilatlarının hamısına təşəkkür edirik.

*Sonra prezident İlham Əliyev layihənin həyata keçirilməsi üçün nəzərdə tutulan bütün məsələlərin müsbət həllini tapacağına və layihənin vaxtında icra olunacağına əminliyini bildirdi, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasına işində uğurlar arzuladı.*

*«Cənub Qaz Dəhlizi»nin reallaşmasında prezident İlham Əliyevin xidmətlərini xüsusi vurğulayan Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş Şevçoviç Avropa İttifaqında enerji birliyinin qurulması ilə məşğul olduğunu və gündəlikdə duran layihə ilə bağlı müzakirələrin siyasi baxımdan daha yüksək səviyyəyə qaldırıldığını dedi, Avropanın enerji təhlükəsizliyi üçün mənbələrin və resursların şaxələndirilməsində maraqlı olduğunu bildirdi. Aparılan hesablamalara görə, Avropa İttifaqının idxal etdiyi qazın həcminin gələcəkdə 84 faiz, neft idxalının isə 94 faiz təşkil edəcəyini açıqlayan Maroş Şevçoviç bundan sonra da Avropa İttifaqının üzvü olan bütün ölkələrin enerji təhlükəsizliyi, Avropa enerji sisteminə real inteqrasiya istiqamətində ardıcıl addımların atılacağını bildirdi. O bu baxımdan «Cənub Qaz Dəhlizi» la-*

*yihəsinin uğurla və sürətlə həyata keçiriləcəyinə ümidvar olduğunu vurğuladı.*

*Sonra Məşvərət Şurası gündəlikdə duran məsələlərlə bağlı müzakirələri davam etdirdi.*

*Tədbirin yekununda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün iştirakçıları tərəfindən mətbuat üçün Birgə Bəyannamə imzalandı.*

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Məhəmməd Cavad Zərif İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Ölkələrimiz arasında əlaqələrin bütün sahələri əhatə etdiyini bildirən Azərbaycan Prezidenti münasibətlərimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev İran prezidenti Həsən Ruhani ilə keçirdiyi görüşlər zamanı qəbul edilən qərarların önəmini qeyd etdi. Dövlətimizin başçısı İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin məhsuldar olacağına və əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Xarici İşlər naziri Məhəmməd Cavad Zərif ölkələrimiz arasında ikitərəfli əlaqələrin dərin tarixə malik olduğunu vurğuladı. O, İran–Azərbaycan münasibətlərinin qurulmasında Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin xidmətlərini böyük ehtiramla xatırlatdı. İranın Xarici İşlər naziri ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

Görüşdə ölkələrimiz arasında regional təhlükəsizlik, terrorizmə qarşı mübarizə, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, enerji, nəqliyyat, müasir texnologiyalar, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XÜSUSİ ELÇİSİ VƏ ƏLAQƏLƏNDİRİCİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, enerji, nəqliyyat və digər layihələrin həyata keçirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı və bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## YUNANISTAN RESPUBLİKASININ MƏHSULDAR İSTEHSAL, ƏTRAF MÜHİT VƏ ENERGETİKA NAZİRİ PANAGİOTİS LAFAZANİS İLƏ GÖRÜŞ

*12 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Yunanıstanın Məhsuldar İstehsal, Ətraf Mühit və Energetika naziri Panagiotis Lafazanisi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Yunanıstan arasında qarşılıqlı faydalı əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirildi. Ölkələrimiz arasında mövcud olan tarixi əlaqələrin ikitərəfli münasibətlərimizin genişləndirilməsi üçün yaxşı imkan yaratdığı qeyd olundu.*

*Söhbət zamanı həyata keçirilən qlobal enerji layihələrinin ölkələrin bir-birinə daha da yaxınlaşması və inkişafı baxımından önəmi vurğulandı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*16 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Endryunu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ VİKTORİYA NULANDIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Viktoriya Nulandın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafından razılıq ifadə olundu, Azərbaycan–ABŞ əməkdaşlığı yüksək qiymətləndirildi. Söhbət zamanı ölkələrimizin enerji, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, Əfqanıstanla bağlı əməkdaşlığının perspektivləri, insan hüquqları, demokratik təsisatlar, bu istiqamətdə dialoqun aparılması və digər məsələlər müzakirə edildi.*

*Görüşdə eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, bölgədə gərginliyin aradan qaldırılması, danışıqların davam etdirilməsi, regionda sülh və sabitliyin təmin olunması ilə bağlı məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

# ABŞ-ın AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ROBERT SEKUTA İLƏ GÖRÜŞ

*19 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Robert Sekutanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Robert Sekuta Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Robert Sekutanın etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələri əhatə etdiyi məmnunluqla qeyd olundu. Bu əlaqələrin regional əməkdaşlıq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, enerji, nəqliyyat və digər sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Səfir Robert Sekutanın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin uğurlu inkişafının davam edəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan–ABŞ münasibətlərinin perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## YUNANISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

Hörmətli cənab Pavlopulos!

Yunanıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Yunanıstan arasındakı dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın ikitərəfli və çoxtərəfli qaydada bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yunanıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *20 fevral 2015-ci il*

**BRUNEY-DARÜSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli qaydada əmək-daşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *20 fevral 2015-ci il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *20 fevral 2015-ci il*

# YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ DÜNYA KUBOKU YARIŞLARINDA QALİB GƏLMİŞ MİLLİ KOMANDAMIZIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*23 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Yunan-Roma güləşi üzrə İranda keçirilən dünya kuboku yarışlarında qalib gəlmiş milli komandamızın üzvlərini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz idmançılar!

Güləş Federasiyasının üzvləri!

Sizi ilk növbədə, böyük qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan Yunan-Roma güləşi üzrə dünya kubokunun sahibidir. Bu, böyük tarixi qələbədir. Bu doğrudan da tarixi qələbədir. Çünki Yunan-Roma güləşçilərimiz ilk dəfədir ki, dünya kubokunun sahibi olurlar. Bu bir daha Azərbaycanın güləş məktəbinin nə qədər güclü olduğunu göstərir. Bizim güləşçilərimiz müxtəlif beynəlxalq yarışlarda ən yüksək nəticələr göstərirlər, London Olimpiya oyunlarında 2 qızıl medalı da güləşçilərimiz qazanmışlar və ümumiyyətlə, dünya miqyasında Azərbaycan güləşi bu gün ən yüksək zirvədədir.

Dünya kubokunda dünyanın ən güclü komandaları iştirak etmişdi. Biz dünyanın ən güclü komandalarına qalib gəlmişik. Bizim milli bayrağımız qaldırılmışdır, sizin şərəfinizə Dövlət himnimiz səsləndirilmişdir. Doğrudan da bu hər bir Azərbaycan vətəndaşını sevindirən hadisədir, böyük tarixi qələbədir. Bu qələbə onu göstərir ki, Güləş Federasiyasında işlər çox yaxşı gedir, düzgün qurulubdur.

Güləş Federasiyası Olimpiya oyunlarında, dünya çempionat-larında, digər beynəlxalq yarışlarda qazanılan medallara və

yüksək nəticələrə görə Azərbaycanda liderdir. Bu belədir və mən bunu yüksək qiymətləndirirəm. Çünki güləş Azərbaycanda ən sevilən, ən populyar və bizim milli idman növümüzdür. Əlbəttə, hər bir qələbədən sonra çox güman ki, uşaqlarımız, yeniyetmələrimiz güləş bölmələrinə daha da böyük həvəslə gələcəklər, güləşçi olmaq istəyəcəklər ki, onlar da sizin kimi, Azərbaycanı ləyaqətlə təmsil etsinlər, çempion olsunlar və yüksək kürsülərdə əyləşsinlər.

Mən Güləş Federasiyasının işindən razıyam. Bütövlükdə Azərbaycanda idman sahəsinə göstərilən diqqət öz nəticələrini verməkdədir. Azərbaycan idman dövlətidir. Bütün mötəbər beynəlxalq idman qurumları, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, dünya idman federasiyaları bunu qeyd edirlər ki, Azərbaycan idman sahəsində çox böyük uğurlara imza atmışdır və bu həqiqətən də belədir. Çünki baxın, Olimpiya oyunlarında, dünya miqyasında Azərbaycan 30-cu yerdədir, Yeniyetmələrin Olimpiya oyunlarında 200 ölkə arasında Azərbaycan 10-cu yerdədir. Azərbaycanda dünya və Avropa çempionatları ən yüksək səviyyədə keçirilir və bütün qonaqlar bunu qeyd edirlər. Bizim idmançılarımız hər il medalların sayına görə liderlik göstərirlər, həm olimpiya, həm qeyri-olimpiya idman növləri üzrə medalların sayı ildən-ilə artır.

Azərbaycanda idman infrastrukturu yaradılır. Əgər bu infrastruktur yaradılmasaydı, çox güman ki, bu uğurlar da mümkün olmazdı. Bütün bölgələrdə müasir olimpiya mərkəzləri, Bakıda ən möhtəşəm olimpiya idman qurğuları tikilir və idman dövlət siyasətində çox mühüm yer tutur. Müxtəlif proqramlar qəbul edilmişdir və idmanın inkişafı dövlət siyasətidir. Bu yaxınlarda Bakıda keçirilmiş Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında da səslənən fikirlər, Azərbaycanda görülən işlər mənim sözlərimi təsdiqləyir.

Bu nəticələr təbiidir. Çünki görülən işlər federasiyaların, klubların, Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Bizdə vəziyyət belədir ki, bir çox ölkələrdən fərqli olaraq, bütün idman qurumları, idmanın inkişafına cavabdehlik daşıyan qurumlar bir nöqtəyə vurur və idarəetmədə də çox düzgün yanaşma mövcuddur.

Mən əminəm ki, idmançılarımız bundan sonra da bizi sevindirəcəklər. Əlamətdar hal ondan ibarətdir ki, bizim bütün idmançılarımız, o cümlədən bu gün burada əyləşən idmançılar müstəqillik dövründə yetişiblər. Bu, müstəqilliyimizin əlamətidir.

Azərbaycanda bütün dövrlərdə güclü idmançılar olub. Əgər sovet dövrünü yada salsaq görərik ki, bizim o qədər də böyük idman uğurlarımız olmayıb. Ancaq müstəqillik dövründə Azərbaycan dünya arenalarında ən yüksək nəticələrə çata bilib. Ancaq müstəqillik dövründə bizim olimpiya çempionlarımız, dünya çempionlarımız, Avropa çempionlarımız özlərini göstərirlər və onların sayı getdikcə artır. Görün indi bizim nə qədər olimpiya çempionlarımız var. Heç vaxt bu qədər olimpiya çempionlarımız olmayıb.

Müstəqil Azərbaycanda idman sürətlə inkişaf edir. Mən artıq bu barədə fikirlərimi qeyd etdim. Yəni müstəqilliyin üstünlüyü müxtəlif sahələrdə özünü göstərir. İlk növbədə, Azərbaycan xalqı azad xalqdır, öz taleyini özü müəyyən edir. Bu gün Azərbaycan reallıqları belədir – hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, o, Azərbaycan vətəndaşıdır. O cümlədən bu müsbət dinamika, müsbət inkişaf idmanda da özünü göstərir və bu da təbiidir. Çünki hər bir sahədə uğurlarımız var, o cümlədən idmanda. İdmanda isə bu nəticələr daha əyani şəkildə özünü göstərir. Çünki medalların sayı, yarışlarda idmançılarımızın qələbələri artıq bu reallıqları təmin edir.

Bir daha sizin uğurunuza qayıtmaq istəyirəm. Yunan-Roma güləşi Azərbaycanda bütün dövrlərdə çox populyar olub. Son illərdə bizim doğrudan da çox güclü komandamız yaranıb.

Dünya kubokunun əldə edilməsi çox böyük hadisədir. Çünki bu, komandanın qələbəsidir. Bu onu göstərir ki, bizdə bir-iki idmançı yox, komanda, çoxsaylı idmançılarımız dünya miqyasında ən güclü idmançılardır. Sizin rəqibləriniz də

dünyanın ən güclü idmançıları idi. Siz böyük məharət, peşəkarlıq, Vətənə sevgi göstərərək, bu qələbəyə nail oldunuz, bizim hamımızı sevindirdiniz.

Əlbəttə, bilirəm ki, siz bu il Bakıda keçiriləcək I Avropa oyunlarına da ciddi hazırlaşırsınız. Dünya kuboku yarışında göstərdiyiniz nəticələr ümid edirəm ki, iyun ayında da təkrarlanacaq. Bütün Azərbaycan xalqı sizdən qələbələr gözləyir. Bu doğrudan da böyük tarixi nailiyyətdir. Biz I Avropa oyunlarını Yay Olimpiya oyunları səviyyəsində keçirəcəyik. 2 il bundan əvvəl mən bu barədə öz sözümü deyəndə bəziləri bəlkə də inanmırdı ki, Azərbaycan qısa müddət ərzində, cəmi 2 il yarım ərzində bütün hazırlıq işlərini yüksək səviyyədə görə biləcək. Ancaq bu gün, demək olar ki, bizim bütün idman qurğularımız ya artıq hazırdır, yaxud da yaxın vaxtlarda hazır olacaq. Bütün təşkilati məsələlər öz həllini tapır və iyun ayında Azərbaycanda böyük idman bayramı qeyd ediləcək.

Əlbəttə, Azərbaycan komandası bu oyunlarda böyük tərkibdə təmsil olunacaq. Əsas ümidimiz ondan ibarətdir ki, güləşçilərimiz bizi bir daha sevindirəcəklər. Artıq Yay Olimpiya oyunlarına da o qədər çox vaxt qalmayıb. Gələn il Rio-de-Janeyroda Olimpiya oyunları keçiriləcəkdir. Bilirəm ki, ciddi hazırlıq gedir. Bir daha qeyd etmək istəyirəm, belə mötəbər yarışlarda qələbənin qazanılması onu göstərir ki, bizim bundan sonra da qələbələrimiz olacaqdır.

Mən bir daha sizin hamınızı ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da Vətənə, xalqa sədaqət nümayiş etdirərək, bizi yeni qələbələrlə sevindirəcəksiniz.

**Rafiq Hüseynov** (*Yunan-Roma güləşi üzrə milli komandamızın üzvü*): Möhtərəm cənab Prezident!

Mən də fürsətdən istifadə edərək, Sizi bu qələbə münasibətilə təbrik edirəm. Cənab Prezident, bu qələbə təkcə biz idmançıların deyil, həm də Sizin rəhbərlik etdiyiniz bütün Azərbaycanın qələbəsidir. Biz idmançılar Sizin ölkəmizin

inkişafı və qüvvətlənməsi üçün göstərdiyiniz səylərdən böyük ruh yüksəkliyi alırıq.

Cənab Prezident, Siz hər zaman biz idmançılara diqqət və qayğı ilə yanaşırsınız. Buna görə də mən həm öz adımdan, həm komanda yoldaşlarımın adından, həm də Federasiyanın bütün kollektivi adından Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Sizinlə görüş hər zaman bizə ruh yüksəkliyi və əlavə güc verir. Cənab Prezident, biz idmançılar Sizin qayğınızı və diqqətinizi üzərimizdə hiss edirik. Şükürlər olsun ki, heç bir problemimiz yoxdur. Çünki bütün sahələrdə olduğu kimi, bu sahədə də Siz bizə yüksək diqqət və qayğı göstərirsiniz. Hər bir idmançının vəzifəsi dünya miqyaslı yarışlara yaxşı hazırlaşmaq və ölkəmizi layiqincə təmsil etməkdir. Biz də çox xoşbəxtik ki, bu yarışda ölkəmizi layiqincə təmsil etdik və Sizin etimadınızı doğrultduq.

Möhtərəm cənab Prezident, bu tarixi qalibiyyət münasibətilə bir daha bütün komanda yoldaşlarımın adından Sizi ürəkdən təbrik etmək istəyirəm. Öz adımdan, həmçinin bütün komanda yoldaşlarımın adından söz verirəm ki, bundan sonra daha da əzmlə çalışacağıq və qarşıdan gələn ilk Avropa oyunlarında bayrağımızı qaldıracağıq, himnimizi səsləndirəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha Sizə təşəkkür edirəm.

**İlham Əliyev:** Çox sağ ol.

**Nurəddin Rəcəbov** *(Yunan-Roma güləşi üzrə milli komandamızın böyük məşqçisi):* Möhtərəm cənab Prezident!

Əziz dostlar, idmançılar, qonaqlar!

Mən fürsətdən istifadə edərək, möhtərəm cənab Prezident, Sizi bu qələbə münasibətilə təbrik edirəm. Cənab Prezident, bu qələbə Sizin qələbənizdir. Başda Siz olmaqla, bütün Azərbaycan xalqının qələbəsidir. Çünki ölkəmizdə bütün sahələr, o cümlədən idman şəxsən Sizin birbaşa diqqət və qayğınızla əhatə olunub. Siz hər zaman çıxışlarınızda Azərbaycanın idman ölkəsi olduğunu qeyd edirsiniz. Bu gün qazandığımız bu qələbə bunu bir daha sübut edir. Komandalarımız beynəlxalq yarışlarda uğurlu çıxış edir, ölkəmiz dünyanın ən möhtəşəm beynəlxalq yarışlarına ev sahibliyi edir. Təsadüfi deyil ki, dünya tarixində ilk dəfə keçiriləcək Avropa

oyunları da məhz Azərbaycanda baş tutacaq. Cənab Prezident, bu ilk növbədə, Sizin uğurunuzdur. Məhz Sizin göstərişiniz əsasında həm paytaxtımızda, həm də bölgələrimizdə idmanın ən müxtəlif sahələri üzrə ixtisaslaşmış olimpiya idman kompleksləri tikilib istifadəyə verilir.

Bu gün ölkəmizdə güləşlə məşğul olan 40 mindən artıq idmançının böyük əksəriyyəti məhz bölgələrimizdə fəaliyyət göstərən olimpiya idman komplekslərində hazırlıq keçir. Təsadüfi deyil ki, son Olimpiya oyunlarında və dünya çempionatlarında qızıl medal qazanmış idmançılarımız məhz bu bölgələrimizin təmsilçiləridir. Olimpiya çempionu Toğrul Əsgərov Gəncə, Hacı Əliyev isə Naxçıvan güləş məktəbinin yetirmələridir. Ötən il biz analoji yarışda Azərbaycan idman tarixində ilk dəfə dünya kubokunu 3-cü yerdə başa vurmuşduq. Bu dəfə istəyimiz, arzumuz kuboku qazanmaq, Vətənimizə kubokla dönmək idi. Biz bu gün şadıq ki, Sizin etimadınızı doğrulda bilmişik.

Möhtərəm cənab Prezident, bu qələbə bizim üçün vacib idi. Çünki qarşıda bizi ölkəmizdə keçiriləcək I Avropa oyunları kimi möhtəşəm yarış gözləyir. Çalışacağıq ki, Avropa oyunlarında ölkəmizi layiqincə təmsil edək, Azərbaycanın güclü idman ölkəsi olduğunu bir daha sübut edək.

**İ l h a m Ə l i y e v:** Sağ ol. Doğrudan da bu, böyük qələbədir. Bu qələbə bir daha onu göstərir ki, bizim güləşçilərimiz dünyada ən güclü güləşçilərdir. Yəni bu qələbənin əsl nəticəsi bundan ibarətdir. Çox şadam ki, Yunan-Roma güləşçilərimiz, sərbəst güləşçilərimiz, qadın güləşçilərimiz bizi sevindirirlər. Qadın güləşçilərinin fəaliyyətini mən çox yüksək qiymətləndirirəm. Bu sahədə əldə edilmiş nailiyyətlər məni çox sevindirir. Çünki bizdə keçmişdə qadın güləşi olmayıb. Ancaq bu gün qadınlar da yüksək pillələrə qalxırlar, Azərbaycanı dünyada ləyaqətlə təmsil edirlər. Beləliklə, güləşin hər 3 növü üzrə Azərbaycan dünyada liderdir. Bu, danılmaz həqiqətdir. Bu liderliyi biz son bir neçə il ərzində əldə etmişik. Mən qeyd etdim ki, güləş Azərbaycanda ən sevilən, ən populyar idman növüdür, milli idman növümüzdür. Ancaq beynəlxalq

yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında bu qədər qələbəmiz heç vaxt olmamışdı. Bu, görülən işlər nəticəsində mümkün oldu.

Mən bir daha ilk növbədə, idmançıları, onların məşqçilərini, idman mütəxəssislərini və Güləş Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Onların fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm.

Bu qələbə bir daha Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücünü göstərir. Onu göstərir ki, Azərbaycan gənci nə qədər istedadlıdır, güclüdür, Vətənə sədaqətlidir. Çünki qələbəni əldə etmək üçün sadəcə olaraq, peşəkar güləşçi olmaq kifayət deyildir. Gərək qələbə əzmi olsun, gərək Vətən sevgisi olsun, vətənpərvərlik ruhu yüksək səviyyədə olsun. Bütün bunlar var. Azərbaycan gəncləri bu gün milli ruhda tərbiyə olunurlar. Azərbaycan gənci öz dövlətinə, xalqına sadiqdir. Bu gün Azərbaycan gənci bizim sərhədlərimizi qoruyur. Bu gün Azərbaycan gənci düşmənə sarsıdıcı zərbələr vurur. Bu gün Azərbaycan gənci dünya miqyasında Azərbaycanın idman şöhrətini ucaldır. Bu məni prezident kimi və Milli Olimpiya Komitəsinin prezidenti kimi sevindirir, çünki gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər. Onlar vətənpərvər, bilikli, savadlı, fiziki cəhətdən güclü olmalıdırlar ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin. Belə qələbələr, əlbəttə ki, bu inamı daha da gücləndirir. Ona görə mən bu qələbəyə çox böyük əhəmiyyət verirəm. Siz dünən Vətənə qayıtmısınız və bu gün sizinlə görüşürük. Bir daha sizə öz səmimi arzularımı çatdırır və yeni qələbələr arzulayıram.

**İ d m a n ç ı l a r:** Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD
ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *23 fevral 2015-ci il*

**DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DANİLO MEDİNAYA**

Hörmətli cənab Prezident!

Dominikan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *24 fevral 2015-ci il*

## AVROPA İTTİFAQININ XÜSUSİ NÜMAYƏNDƏSİ STAVROS LAMBRİNİDİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Avropa İttifaqının insan hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsinin önəmi qeyd edildi. Söhbət zamanı əməkdaşlığımızın iqtisadi, enerji, nəqliyyat, insan hüquqları, demokratiya və digər sahələrdə vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

# MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*24 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevir şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov prezident İlham Əliyevə burada aparılan abadlıq işləri barədə məlumat verdi.*

## Məcburi köçkün ailələri üçün yeni salınan yaşayış kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə 594 məcburi köçkün ailəsi üçün yeni salınan yaşayış kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov prezident İlham Əliyevə yeni salınan yaşayış kompleksi barədə məlumat verdi. Bu məhəllə prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan Prezidentinin 2011-ci il 21 fevral tarixli Sərəncamı ilə təsdiq edilən Əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunub.*

*Yeni yaşayış kompleksinə Mingəçevir şəhərində yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri köçürüləcək.*

*Dövlətimizin başçısı 480 şagird yerlik məktəb binasında yaradılan şəraitlə tanış oldu.*

*Yüksək keyfiyyətlə inşa olunan, müasir avadanlıqlarla təchiz edilən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb.*

*Burada yeni yaşayış kompleksinin sxeminə və maketinə baxan prezident İlham Əliyevə məlumat verildi ki, 12 hektar sahəni əhatə edən bu məhəllədə 596 ev, məktəb, 140 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, poçt binası tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Mingəçevir şəhərinin kommunikasiyalarına qoşulub. Yeni məhəllə Məcburi Köçkünlərin İnkişaf Fondunun sifarişi ilə inşa olunub. Məhəllənin tikintisinə 2014-cü ilin may ayında başlanılıb və bu ilin fevralında tam başa çatdırılıb. Yeni yaşayış kompleksi qaçqın və məcburi köçkünlər üçün salınmış sayca 89-cu yaşayış kompleksidir.*

*Dövlətimizin başçısı yaşayış kompleksinin uşaq bağçasında oldu və burada yaradılan şəraitlə maraqlandı. Qeyd olundu ki, uşaq bağçasında da yüksək şərait yaradılıb.*

*Sonra prezident İlham Əliyev mənzillərdə yaradılan şəraitlə tanış oldu.*

*Bütün bunlar göstərir ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xarakterik xüsusiyyətlərindən biri də ölkədə həyata keçirilən siyasətin müsbət nəticələrinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının yaxşılaşmasıdır. Ermənistanın hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşən vətəndaşlarımızın həyat şəraitinin prezident İlham Əliyevin müvafiq fərmanlarına və sərəncamlarına əsasən yaxşılaşdırılması və bu sahədə təsirli tədbirlərin görülməsi daim diqqət mərkəzində saxlanılır. Dövlətimizin başçısının diqqət və qayğısı ilə hər il minlərlə məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Mingəçevir şəhəri ərazisində salınan bu yaşayış kompleksi də bu qayğının bariz nümunəsidir.*

*Qeyd edək ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə son 20 ildə ümumilikdə 5,1 milyard manat vəsait ayrılıb ki, bunun da 2,1 milyard manatı bu kate-*

*qoriyadan insanların mənzil şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Həmin vəsaitin 1,8 milyard manatı Dövlət Neft Fondunun xətti ilə ayrılıb. Son illərdə məcburi köçkün sahibkarlar da dövlətin güzəştli kreditlərindən səmərəli istifadə edirlər. Belə ki, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə son 11 ildə 2 min məcburi köçkün sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 40 milyon manat güzəştli kredit ayrılıb.*

## Heydər Əliyev parkında aparılan yenidənqurma işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Heydər Əliyev parkında aparılan yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Heydər Əliyev parkının yenidən qurulmasına 2014-cü ilin may ayında başlanılıb. Hazırda tikinti işləri sürətlə davam etdirilir. Ümumi sahəsi 3 hektar olan parkda sakinlərin və qonaqların istirahəti üçün hərtərəfli imkanlar yaradılacaq, yeni yaşıllıq zolaqları salınacaq. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, Azərbaycan dövlətinin vətəndaşların sosial məsələlərinin həlli, onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində atdığı addımlar ardıcıl xarakter daşıyır.*

*Bu parkın yenidən qurulması ümumilikdə ölkəmizdə geniş vüsət alan abadlıq-quruculuq işlərinin bir hissəsidir. Digər tərəfdən, belə istirahət mərkəzlərinin müasir səviyyədə qurulması, yeni park və xiyabanların salınması şəhər və rayon mərkəzlərinin simasını gözəlləşdirir. Bu baxımdan, Mingəçevirdə Heydər Əliyev parkında aparılan yenidənqurma işləri şəhərin gözəlliyini daha da artırır, onun simasına müasir elementlər əlavə edir.*

*Prezident İlham Əliyevə şəhərin Heydər Əliyev prospektində görüləcək işlər, o cümlədən tikintisi nəzərdə tutulan Mingəçevir Sənaye Parkı barədə də məlumat verildi. Bildirildi ki, Mingəçevir toxuculuq fabrikinin 15 hektaradək ərazisi Sənaye*

*parkına veriləcək. Burada yüngül sənaye üzrə müxtəlif istehsal müəssisələrinin yaradılması planlaşdırılır. Sənaye parkında mahlıc, iplik, toxuculuq, boyama, tikiş və digər sahələr yaradılacaq, həmin müəssisələrdə 2 mindən çox sakin işlə təmin olunacaq. Yaradılacaq müəssisələrin ilkin dəyəri 100 milyon manatdır və bu layihələrin müəyyən hissəsi İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcək.*

*«Kür» Mədəniyyət Mərkəzinin layihəsinə baxan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Kür çayının Mingəçevirdən keçən hissəsinin üzərində körpü inşa olunacaq. Bildirildi ki, şəhərdəki yaşayış binalarının fasadlarında, o cümlədən Heydər Əliyev prospektindəki keçiddə də son vaxtlar geniş yenidənqurma işləri aparılıb.*

*Dövlətimizin başçısı işlərin yüksək səviyyədə yerinə yetirilməsinə dair tapşırıq və tövsiyələrini verdi.*

## Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına aparılan yenidənqurma işləri barədə geniş məlumat verdi. Bildirildi ki, uzun illər təmir olunmayan bu müalicə müəssisəsi ilk dəfədir əsaslı şəkildə yenidən qurulur.*

*Azərbaycan Prezidentinin 2013-cü il 18 aprel tarixli Sərəncamına əsasən Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında əsaslı təmir və yenidənqurma işləri aparılaraq, onu çoxprofilli tibb müəssisəsinə çevirmək məqsədilə Prezidentin ehtiyat fondundan ilkin olaraq 3 milyon manat vəsait ayrılıb. Ümumi sahəsi 6 hektar olan xəstəxananın yenidənqurma işlərinə 2013-cü ilin may ayında başlanılıb və bu ilin fevralında başa çatdırılıb.*

*Bu tibb müəssisəsi möhtəşəmliyi ilə yanaşı, xidmətin müxtəlifliyi ilə də fərqlənir. Xəstəxana kompleksi 3 əsas korpusdan ibarətdir. Burada doğum şöbəsi, cərrahiyyə və terapiya bölmələri fəaliyyət göstərəcək. 430 çarpayılıq xəstəxana mərkəzləşmiş havalandırma sistemi, ən müasir tibbi avadanlıqlarla təmin olunub. Palatalarda xəstələrin rahatlığı üçün hər cür şərait yaradılıb. Burada tibb işçiləri tərəfindən şəhər əhalisinə, qaçqın və məcburi köçkün ailələrinə, ətraf rayonların sakinlərinə tibbi xidmət göstəriləcək.*

*Xəstəxana kompleksindəki şöbələrdə müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi mümkün olacaq. Cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya, reanimatologiya, şüa-diaqnostika, fizioterapiya, qəbul şöbələri, konsultativ poliklinika, klinik laboratoriya, təcili tibbi yardım stansiyası və əməliyyat blokları tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib. Səhiyyə ocağında ilk dəfə olaraq, 10 çarpayılıq dializ otağı yaradılıb ki, bu da Mingəçevirdə dializə ehtiyacı olan xəstələrin hamısını əhatə edəcək.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, xəstəxananın bütün infrastrukturu tamamilə yenilənib. Tibb ocağı üçün ən son tibbi texnologiyalarla təchiz olunan 5 təcili tibbi yardım avtomobili alınıb. Ərazidə əqli və fiziki cəhətdən zəif olan uşaqlar üçün Reabilitasiya Mərkəzi tikilib.*

*Yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev xəstəxananın kollektivi ilə görüşdü.*

**İlham Əliyev:** Mingəçevir Şəhər Xəstəxanasının əsaslı təmirdən sonra açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Xəstəxana ilə tanış oldum, çox gözəl təəssürat bağışlayır. Bina gözəl təmir olunub, burada ən yüksək standartlar tətbiq edilib, ən müasir avadanlıqlar quraşdırılıb. Dünyanın ən qabaqcıl xəstəxanalarında olan avadanlıqlar bu gün Mingəçevirdə də var. Bu məni çox sevindirir. Çünki bu bir daha göstərir ki, biz Azərbaycanda səhiyyə sisteminin təkmilləşməsində böyük uğurlara nail ola bilmişik. Bütün şöbələr var

və 430 çarpayılıq Mərkəzi Şəhər Xəstəxanası bu gün artıq hazır vəziyyətdədir.

Bu xəstəxananın binası keçən əsrin 60-cı illərində tikilmişdi. Təbii ki, illər keçdikcə yararsız vəziyyətə düşmüş, avadanlıq da köhnəlmişdi. Bu gün isə bu xəstəxana ən yüksək səviyyədə qurulub və bu məni çox sevindirir. Burada həkimlərin iş şəraiti də çox yaxşıdır, xəstələrə də gözəl xidmət göstəriləcək.

Son illərdə Azərbaycanın bütün bölgələrində müasir xəstəxanalar tikilir, təmir olunur, diaqnostika mərkəzləri inşa olunur. Son 11 ildə Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilib, təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Bu, insanlara göstərilən diqqətin təzahürüdür. Çünki insanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir və müxtəlif tədbirlərin həyata keçirilməsi ilə hesab edirəm ki, biz bu işlərdə dönüş yarada bilmişik. İlk növbədə, demək olar ki, artıq bütün şəhər və rayonlarımızda müasir səhiyyə infrastrukturu var. Həkimlərin peşəkarlığı artır, hazırda Azərbaycanda ən mürəkkəb əməliyyatlar həyata keçirilir. Bir neçə il bundan əvvəl bu barədə danışmaq belə, yersiz idi.

Bu gün Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan işlər beynəlxalq səhiyyə qurumları – Ümumdünya Səhiyyə Təşkilatı, Avropa Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilir. Mən xəstəxanaların, diaqnostika mərkəzlərinin açılışında olarkən dəfələrlə qeyd etmişəm ki, bizim vətəndaşlar gərək vaxtlı-vaxtında müayinədən keçsinlər. Mən hər dəfə bunu təkrarlayırdım, bu gün də bunu demək istəyirəm. Ancaq görürdük ki, əhali tərəfindən buna o qədər də böyük maraq göstərilmirdi. Ona görə keçən ildən başlayaraq Azərbaycanda kütləvi şəkildə dispanserizasiya keçirilməyə başlanılmışdır. Keçən il 5 milyondan çox, bu il artıq 1 milyon 500 min insan dispanserizasiyadan keçib. Bütün dispanserizasiya xidmətləri pulsuzdur və bir məqsəd var ki, insanlar öz xəstəliklərini vaxtında aşkar etsinlər və əgər müalicəyə ehtiyac olarsa, yüksək keyfiyyətli tibbi xidmət alsınlar. Nəzərə alsaq ki, bütün bölgələrdə müasir xəstəxana kompleksləri var, bunu etmək o qədər də çətin deyil.

Təki iradə olsun, bu da var. Bu istiqamətdə dövlət siyasəti bundan sonra da aparılacaq. Sosial siyasət Azərbaycanda həmişə olduğu kimi, prioritet məsələdir. Sosial infrastrukturun yaradılması sahəsində böyük işlər görülüb və səhiyyə sistemi burada ön plandadır.

Təbii ki, bütün bu işləri görmək üçün gərək dövlətin güclü iqtisadiyyatı olsun. Biz uzun illərdir bu istiqamətdə çalışırıq. Azərbaycan iqtisadiyyatının inkişafı, maliyyə vəziyyətimizin yaxşılaşdırılması imkan yaradır ki, biz dövlət büdcəsi hesabına belə gözəl xəstəxanalar tikək, yaradaq. Bu il də iqtisadi göstəricilərimiz müsbətdir. İqtisadiyyat yanvar ayında 4,4 faiz, qeyri-neft iqtisadiyyatı isə 5,5 faiz artmışdır. Yəni bu onu göstərir ki, hətta dünyada və regionda gedən böhran illərində də Azərbaycan iqtisadiyyatı artır və artacaq. Güclü iqtisadiyyat bizə imkan verir ki, sosial məsələləri uğurla həll edək, dünya miqyasında beynəlxalq arenada müstəqil siyasət aparaq.

İqtisadiyyatın öz qanunları var. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Azərbaycanda gedən işlər təqdirəlayiqdir və mötəbər beynəlxalq maliyyə qurumları bizim uğurlarımızı yüksək qiymətləndirir. Ancaq regionda gedən proseslər istər-istəməz bizə də təsir göstərir. Son 1 il ərzində MDB məkanında bizim qonşuluğumuzda yaşanan gərginlik müəyyən dərəcədə Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərmişdir. Əsas məsələ ondan ibarət idi ki, biz Azərbaycan xalqını mümkün olan risklərdən qoruyaq, Azərbaycanda sabitliyi möhkəmləndirək və xalqımızın seçimini müdafiə edək. Həm Yaxın Şərqdə, həm Avropada, MDB məkanında baş verən xoşagəlməz hadisələr Azərbaycanda gedən işlərə mənfi təsir etməmişdir, çünki biz artıq özümüzü, öz seçimimizi müdafiə etməyə qadirik. Ancaq bölgədə iqtisadi sahədə gedən xoşagəlməz proseslər, əlbəttə ki, bizə də təsir göstərib. Bir neçə gün bundan əvvəl manatın məzənnəsində dəyişiklik edilib. Qeyd etməliyəm ki, biz 2006-cı ildə pul islahatı keçirdik, 2005-ci ildə belə qərar verilmişdi. 2006-cı ilin əvvəlindən bizim pul islahatlarımız artıq başa çatmışdı. Təbii ki, yaşlı nəsil bunu

xatırlayır, o vaxta qədər 1 dollar 5 min manata bərabər idi. Biz manatı dollarla eyniləşdirdik, 1 dollar 1 manat oldu və 10 il ərzində manat getdikcə dollara nisbətdə güclənirdi. Əslində, bu bizim iqtisadi islahatlarımızın uğurlu olmasını göstərirdi. Ancaq qonşuluqda baş verən hadisələr və bütün qonşu dövlətlərdə milli valyutaların kəskin şəkildə ucuzlaşması istər-istəməz bizə də mənfi təsir göstərməyə başladı. Üstəgəl dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim gəlirlərimizə mənfi təsir göstərdi. Əlbəttə, manatın məzənnəsinin getdikcə artması iqtisadi inkişafımıza mənfi təsir göstərirdi. Ona görə qərar qəbul edildi ki, manat bir az ucuzlaşsın. Mən yanvar ayında regionların sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş konfransda bu barədə öz fikrimi açıq şəkildə bildirmişdim ki, insanlar bunu bilsinlər və buna hazır olsunlar. Bu heç kəs üçün sürpriz olmasın. O vaxt da demişəm ki, manat həddən artıq bahalaşıb, bu, iqtisadiyyatımıza mənfi təsir göstərir.

Regionda baş verən hadisələr və dünyada neftin qiymətinin aşağı düşməsi artıq müəyyən çətinliklərə gətirib çıxarır. Bu birinci siqnal idi. Ondan sonra Mərkəzi Bankımız açıqlama verdi ki, tədricən ilin sonuna qədər manatın məzənnəsi aşağı düşəcək. Bu da bir siqnal idi ki, insanlar buna hazır olsunlar. Ancaq ondan sonra biz gördük ki, müəyyən ajiotaj yarandı. Manatın məzənnəsində bir qədər dəyişiklik olan kimi, əhali puldəyişmə məntəqələrinə üz tutdu və kütləvi şəkildə dollar almağa başladı.

Bəzi möhtəkirlər, natəmiz adamlar əsassız qazanc əldə etmək üçün bu vəziyyətdən istifadə etdilər. Belə olan halda, bizim valyuta ehtiyatlarımız, Mərkəzi Bankın valyuta ehtiyatları azalmağa başladı. Sadəcə, bir rəqəmi sizə deyə bilərəm. Bir neçə gün ərzində hər gün bazardan minimum 500 milyon dollar alınırdı və əgər belə getsəydi, ilin axırına qədər Mərkəzi Bankın valyuta ehtiyatları kəskin şəkildə azala bilərdi. Belə olan halda qərar qəbul edildi ki, manat ucuzlaşsın.

Əslində manat əvvəlki səviyyəyə endi. Yəni islahat baş-layanda 1 manat 1 dollar idisə, bu gün də 1 manat təxminən 1

dollardır. Bütün müvafiq qurumlara göstəriş verilmişdi ki, süni qiymət artımına yol verilməsin. Monitorinq keçirilir və qiyməti süni şəkildə artırmaq istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görüləcəkdir.

Son illər ərzində ölkədə istehlak olunan əsas ərzaq məhsulları Azərbaycanda istehsal edilir. Belə olan halda bu məhsullarda heç bir bahalaşmadan söhbət gedə bilməz. Kim qiymətləri süni şəkildə artırırsa, dövlət tərəfindən öz cəzasını alacaq. Ümumiyyətlə, kompleks tədbirlər nəticəsində Azərbaycanda bundan sonra uğurlu iqtisadi inkişaf prosesi gedəcək. İqtisadiyyat sabitdir, ictimai-siyasi vəziyyət möhkəmdir. Manatın dollarla bərabərləşdirilməsi imkan verəcək ki, sosial məsələlərə daha çox vəsait xərclənsin, büdcədə problem olmasın və ölkə üçün lazım olan bütün infrastruktur layihələri vaxtında icra edilsin.

Mingəçevirdə olarkən, əlbəttə ki, Mingəçevirin inkişafı ilə bağlı əlavə tapşırıqlar veriləcək. Bu mənim Mingəçevirə 5-ci səfərimdir. Şəhər abadlaşır, gözəlləşir, inkişaf edir, böyük işlər görülür. Mingəçevir böyük sənaye mərkəzinə çevriləcək. Mingəçevir Sənaye Parkının yaradılması artıq başlanmışdır. Bu il ciddi addımlar atılacaq. Gəncə, Sumqayıt və təbii ki, Bakıdan sonra Mingəçevir Azərbaycanın dördüncü sənaye mərkəzinə çevriləcəkdir. Sosial infrastruktur yaradılır: gözəl xəstəxana, uşaq bağçası, ictimai yerlər, parklar. Qazlaşdırma Mingəçevirdə 95 faizə çatıb. İçməli su layihəsi icra edilir və 2017-ci ilə qədər şəhər içməli su ilə tam şəkildə təmin ediləcəkdir. Bu işlər indi davam etdirilir.

Köçkünlərin problemləri həll olunur. Bu gün məcburi köçkünlər üçün tikilmiş yeni, gözəl şəhərciyin açılışını qeyd etdik. Turizm imkanları kifayət qədər genişdir. Yollar çəkilir. Gəncədən, Yevlaxdan, Bakıdan Mingəçevirə çox gözəl yollar çəkilibdir. Hotellər yaradılır, tikilir. Birinin tikintisi ilə bu gün tanış olacağam. Yəni biz Mingəçevirin inkişafına kompleks şəkildə yanaşırıq və şəhərin inkişafı üçün əlavə tədbirlər də görüləcək. Prezidentin ehtiyat fondundan əlavə vəsait ayrılacaq.

Bu il Mingəçevirdə də I Avropa oyunları keçiriləcək. Bu da tarixi hadisədir. Çünki Azərbaycanda bu oyunlar 2 şəhərdə – Bakıda və Mingəçevirdə keçiriləcəkdir. Avropa oyunlarına hazırlıq indi son mərhələdədir. Mingəçevirin gözəlləşməsi, abadlaşması, burada ictimai yerlərin yaradılması, əlbəttə ki, qonaqlara da çox müsbət təsir bağışlayacaq.

Bir sözlə, mən Mingəçeviri müasir, dinamik inkişaf edən, güclü sənaye potensialına malik olan şəhər kimi görürəm, görmək istəyirəm. Artıq bu proses gedir, reallaşır. Əminəm ki, şəhərin bundan sonra inkişafı ancaq müsbət istiqamətdə gedəcək. Sizi görülən bu işlər, əldə edilən nailiyyətlər münasibətilə təbrik edirəm və cansağlığı, uğurlar arzulayıram.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı bağçanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu gün dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə Azərbaycanın gələcəyi olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə dövlətin gördüyü işlərə Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun ölkəmizdəki məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti bu baxımdan vacib əhəmiyyət daşıyır.*

*Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etməsi «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı»ndan da görünür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurul-*

*masına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və bu istiqamətdə çox mühüm nəticələr əldə edilib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Mingəçevirdə inşa olunan uşaq bağçası bir daha aydın göstərir ki, Fondun həyata keçirdiyi bu qəbildən olan layihələr ardıcıl xarakter alıb və artıq respublikanın bütün bölgələrini əhatə edir.*

*Yeni uşaq bağçası 120 yerlikdir və onun inşasına 2014-cü ilin aprelində başlanılıb. Uşaq bağçasının foyesində ümummilli lider Heydər Əliyevin, dövlətimizin başçısı İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Bağçada məşğələ, oyun, tibb otaqları var. Uşaq bağçasında kompüter, rəsm, şahmat otaqları da balacaların ixtiyarına veriləcək. İkimərtəbəli binada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait qurulub. Burada qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub, uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar yaradılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqlarla təchiz edilib. Balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılacaq. Bağçanın ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, yay çardaqları və oyun meydançası quraşdırılıb.*

## Müşfiq Mirzəyev adına «Dostluq» parkında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Müşfiq Mirzəyev adına «Dostluq» parkında yaradılan şəraitlə tanış olmuşdur.*

*Ümumi sahəsi 6 hektar olan parkda müasir işıqlandırma sistemi və fəvvarə quraşdırılıb, geniş yaşıllıq zolaqları salınıb, dekorativ ağac və kollar əkilib. Parkda yay konsert səhnəsi tikilib. Burada açıq havada şəhər əhəmiyyətli müxtəlif tədbirlər*

*və konsert proqramları təşkil olunur. Parkda müxtəlif istirahət guşələri, həmçinin uşaq əyləncə meydançaları yaradılıb, müasir attraksionlar və yelləncəklər quraşdırılıb. Aparılan yenidənqurma işləri sayəsində park şəhər əhalisinin və qonaqların ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.*

## Kür çayının sağ sahilində inşa olunan «Ağsaray» hotelində aparılan tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Kür çayının sağ sahilində inşa olunan «Ağsaray» hotelində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, 2,5 hektar sahəsi olan hotel ən müasir səviyyədə inşa edilir. Hotel kompleksi 5 korpusdan ibarətdir. Ümumilikdə hoteldə 55 otaq olacaq. Burada restoran, kafe-bar, əyləncə mərkəzi, konfrans zalı yaradılacaq. Bundan başqa, hoteldə uşaq və böyüklər üçün qapalı və açıq hovuzlar, sauna, fitnes zalı, masaj otaqları, günəş vannası qəbulu üçün terraslar da qonaqların ixtiyarına veriləcək. İnşaat işləri zamanı Kür çayının üzərindən asma kanat yolunun çəkilməsi nəzərdə tutulur. Hotelin kottecləri də olacaq.*

*Yeni hotelin istifadəyə verilməsi həm də iş yerlərinin açılması baxımından əhəmiyyətlidir. Belə ki, kompleks istifadəyə veriləndən sonra burada 40 nəfər işlə təmin ediləcək. Hotelin ilk Avropa oyunları başlayanadək istifadəyə verilməsi nəzərdə tutulur.*

*Bu cür komplekslərin inşası ilk növbədə, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının göstəricisidir. Digər tərəfdən, belə obyektlər bir neçə aydan sonra ölkəmizdə keçiriləcək I Avropa oyunlarının iştirakçılarını yüksək səviyyədə qəbul etməyə, onlara müasir xidmət göstərməyə geniş imkanlar yaradır. Belə layihələrin icrası onu da sübut edir ki, indi Azərbaycanın bölgələri də ən müasir infrastrukturla təchiz edilir, regionlarda dünya standartları səviyyəsində istirahət məkanları inşa olunur.*

*«Ağsaray» hotelinin inşası Mingəçevirə turist axınının artmasına səbəb olacaq.*

*Prezident İlham Əliyev hotelin inşası ilə bağlı tapşırıq və göstərişlərini verdi.*

## «Kür» Olimpiya Tədris-İdman Mərkəzində Avropa oyunlarına hazırlıqla bağlı həyata keçirilən yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirə səfəri çərçivəsində «Kür» Olimpiya Tədris-İdman Mərkəzində I Avropa oyunlarına hazırlıqla bağlı həyata keçirilən yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına I Avropa oyunlarına hazırlıqla bağlı burada həyata keçirilən yenidənqurma işləri barədə ətraflı məlumat verdi. Bildirildi ki, artıq yenidənqurma tədbirləri son mərhələyə daxil olub və bu qəbildən işlər mərkəzin hotel hissəsini əhatə edib.*

*Qeyd edək ki, bir neçə il bundan əvvəl prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə açılan «Kür» Olimpiya Tədris-İdman Mərkəzi Avropada, o cümlədən MDB məkanında bənzəri olmayan avarçəkmə bazasıdır. Bir neçə aydan sonra ölkəmizdə keçiriləcək ilk Avropa oyunlarının bəzi yarışları bu mərkəzdə təşkil olunacaq.*

*Xatırladaq ki, bu il iyunun 12-dən 28-dək keçiriləcək I Avropa oyunlarında 49 ölkədən 6 mindən çox idmançı 20 idman növündə mübarizə aparacaq.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan–Türkiyə əlaqələrinin daha da genişləndirilməsi işinə yeni təkan verəcəyinə əminliyini bildirdi. Türkiyəyə dövlət səfərinin və Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının uğurla keçdiyini məmnunluqla xatırladan prezident İlham Əliyev səfər zamanı birgə fəaliyyətlə bağlı gələcək planların müzakirəsinin önəmini qeyd etdi. Türkiyə–Azərbaycan əlaqələrinin xalqlarımız və region, eləcə də dünya üçün çox böyük əhəmiyyətə malik olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında mövcud birliyin bölgədə sabitliyin təminatçısı olduğunu da vurğuladı.*

*Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Xarici İşlər naziri kimi, ilk rəsmi səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirdi. O, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarını dövlətimizin başçısına çatdırdı. Mövlud Çavuşoğlu prezident İlham Əliyevin Türkiyəyə dövlət səfərinin və Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Görüşdə Bakı–Tbilisi–Qars, TANAP layihələri, hərbi-texniki əməkdaşlıq və əlaqələrimizin digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2015-ci il*

*23 il əvvəl – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər*

*Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda facia qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, facia qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Türkiyənin ölkəmizdə səfərdə olan Xarici İşlər naziri Mövlud Çavuşoğlu abidənin önünə gül dəstələri qoydular.*

*Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

*Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.*

*** * ***

*Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində*

*yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət* olan *366-cı motoatıcı alayın* zirehli *texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə* yeksan *etdilər.*

*Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində* 613 *nəfər,* o *cümlədən* 106 *qadın,* 63 *uşaq,* 70 qoca *amansızlıqla qətlə* yetirildi, 487 *nəfər şikəst* oldu, 1275 dinc sakin *əsir götürüldü,* 155 *nəfərin* taleyi *isə hələ də məlum* deyil. *Bu soyqırımı aktı nəticəsində* 8 *ailə tamamilə məhv edildi,* 25 *uşaq hər iki* valideynini itirdi. *Hər il dünya azərbaycanlıları və ədaləti* uca tutanlar *Xocalı faciəsi qurbanlarının xatirəsini* yad *edirlər.*

*Xocalı faciəsi* 200 *ilə qədər* bir *müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları* etnik *təmizləmə və soyqırımı siyasətinin* davamıdır. *Soyqırımı zamanı* 56 *nəfər xüsusi qəddarlıqla öldürülüb,* 3 *nəfər* diri-diri *yandırılıb, başlarının dərisi* soyulub, *bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb.* Bu *əməllərin* qabaqcadan *düşünülmüş* qaydada, milli *əlamətinə görə insanların* tamamilə *və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq* hüquqa *əsasən, Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq* edir.

*Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər,* o *cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya* ictimaiyyətinə *çatdırılması,* onun *soyqırımı* kimi *tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır.* Prezident İlham *Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər* boyu *Azərbaycan xalqına qarşı apardığı soyqırımı və* etnik *təmizləmə* siyasətinin *qanlı səhifəsi* kimi *qiymətləndirib.*

*Erməni təcavüzkarlarının törətdikləri* bu *vəhşilik yaddaşlardan* heç zaman *silinməyəcək.* Bu *təkcə Azərbaycan* xalqına *qarşı soyqırımı* deyildi, *bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət* idi. Buna baxmayaraq, *o zamankı Azərbaycan hakimiyyəti* bu *dəhşətli hadisəyə* siyasi *qiymət verilməsi, qanlı qırğın barədə* obyektiv *məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli*

*lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.*

*Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» kampaniyası çərçivəsində hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı Qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.*

*Xalqımız qəti əmindir ki, Xocalı faciəsi soyqırımı kimi tanınacaq və Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Bolqarıstanı möhkəm dostluq münasibətləri birləşdirir. İnanıram ki, xalqlarımızın iradəsinə uyğun olaraq əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik. Bolqarıstana tezliklə edəcəyim səfərin ölkələrimiz arasındakı əlaqələrin daha da inkişafına və möhkəmlənməsinə öz töhfəsini verəcəyinə şübhə etmirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 fevral 2015-ci il*

## POLŞA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MAREK TSALKA İLƏ GÖRÜŞ

*27 fevral 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Marek Tsalkanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Marek Tsalka Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Marek Tsalkanın etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Ölkələrimiz və xalqlarımız arasında münasibətlərin qədim tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Polşa prezidenti Bronislav Komorovski ilə Bakıda və müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırladan prezident İlham Əliyev münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli görüşlərin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, humanitar, beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində əməkdaşlığın və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu, Polşa şirkətlərinin ölkəmizdə, Azərbaycan şirkətlərinin isə Polşada həyata keçirilən birgə layihələrdə daha fəal iştirak etmələrinin önəmini qeyd etdi.*

*Səfir Marek Tsalka ayrı-ayrı nümayəndə heyətlərinin tərkibində Azərbaycana müxtəlif vaxtlarda səfər etdiyini vurğuladı. O, diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.*

# BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİ İLƏ GÖRÜŞ

*2 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Böyük Britaniya Baş nazirinin Azərbaycan, Qazaxıstan və Türkmənistan ölkələrində ticarət məsələləri üzrə elçisi Çarlz Hendrini qəbul etmişdir.*

*Çarlz Hendri bildirdi ki, Azərbaycana səfərinin əsas məqsədi prezident İlham Əliyevin təşəbbüsü ilə «Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi və ticarət əməkdaşlığı haqqında» Anlaşma Memorandumu imzalamaqdır.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında təkcə enerji sektorunda deyil, iqtisadi, ticarət, investisiya və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev daha çox sayda Britaniya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsində də ölkəmizin maraqlı olduğunu qeyd etdi. Dövlətimizin başçısı Çarlz Hendrinin bu istiqamətdə əlaqələrimizin genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.*

## AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİSİ PEDRO AQRAMUNTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçisi Pedro Aqramuntun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında qarşılıqlı faydalı əməkdaşlığın önəmi vurğulandı, bu əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin şimal-şərq bölgəsində baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2015-ci il*

## SLOVENİYA RESPUBLİKASI PARLAMENTİ MİLLİ ŞURASININ SƏDRİ MİTYA BERVARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Sloveniya Respublikası Parlamenti Milli Şurasının sədri Mitya Bervarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Milli Şuranın sədri Mitya Bervar Sloveniya Respublikasının Prezidenti Borut Pahorun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli münasibətlərin səviyyəsinin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi sahədə razılıq doğurduğu bildirildi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu. Sloveniya Respublikası Parlamenti Milli Şurasının sədri Mitya Bervarın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı prezident Borut Pahorun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sloveniya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ÇEX RESPUBLİKASININ SƏNAYE VƏ TİCARƏT NAZİRİ YAN MLADEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Çex Respublikasının Sənaye və Ticarət naziri Yan Mladekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Çexiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin qarşılıqlı investisiya qoyuluşu üçün müsbət zəmin yaratdığı bildirildi, energetika sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.*

*Söhbət zamanı Bakıda keçirilən Azərbaycan–Çexiya biznes-forumunun iqtisadi əlaqələrimizin inkişafı işinə xidmət edəcəyi vurğulandı, iqtisadi sahədə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASI «VTB» BANKININ PREZİDENTİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*3 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyasının «VTB» bankının prezidenti və İdarə Heyətinin sədri Andrey Kostini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin maliyyə, bank sektorunda əməkdaşlığının bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olundu və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BOLQARISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*3 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Bolqarıstan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Sofiya Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Bolqarıstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Sofiya*

*4 mart 2015-ci il*

*Bolqarıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyanın Aleksandr Nevski meydanında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Bolqarıstanın dövlət bayraqlarının dalğalandığı meydanda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidentinə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Bolqarıstanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*President İlham Əliyev Bolqarıstan əsgərlərini salamladı.*

*Bolqarıstanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti prezident Rosen Plevnelievə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi prezidentlərin qarşısından keçdi.*

## NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*Sofiya*

*4 mart 2015-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra martın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyanın Aleksandr Nevski meydanında Naməlum əsgərin məzarını ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev Naməlum əsgərin məzarı önünə əklil qoydu.*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Sofiya*

*4 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Sofiyada Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev ilə təkbətək görüşmüşdür.*

*Dövlət başçıları əvvəlcə rəsmi foto çəkdirdilər.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, humanitar, mədəni və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı. Azərbaycan prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi işinə böyük töhfə verəcəyi qeyd olundu. Əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivin və yaxşı imkanların olduğu bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Sofiya*

*4 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyada Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev ilə geniş tərkibdə görüşü olmuşdur.*

**R o s e n  P l e v n e l i e v**: Cənab Prezident!

Azərbaycan hökumətinin üzvləri!

Sizi Bolqarıstanın milli bayramından bir gün sonra, dostluq rəmzlərimizi paylaşdığımız bir vaxtda qarşılamaq mənim üçün böyük şərəfdir. Ölkələrimiz arasında əsrlərboyu mövcud olan dostluğun davamı kimi, bu gün biz Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayacağıq. Bolqar xalqı Sizin səfərinizdən məmnunluq duyur, çünki Azərbaycan bizim üçün çox yaxşı, etibarlı dost və tərəfdaşdır. Strateji tərəfdaşlıq çərçivəsində bütün sahələrdə əməkdaşlıq üçün yeni üfüqlər açılır. Mən bu uğurdan çox qürur duyuram və bundan sonra bu nailiyyətin təfərrüatları üzərində çalışacaq hər kəsə uğurlar arzulamaq istəyirəm. Bir daha Bolqarıstana xoş gəlmisiniz!

**İ l h a m  Ə l i y e v:** Cənab Prezident, təşəkkür edirəm!

Sizin gözəl ölkənizə yenidən səfər etməyimə çox şadam. Fürsətdən istifadə edərək, Sizi və bütün bolqar xalqını dünən qeyd etdiyiniz milli bayramınız münasibətilə təbrik etmək istərdim. Mənə hədiyyə etdiyiniz bu gözəl yaz rəmzinə görə təşəkkür edirəm. Mən bunu həm də dostluq rəmzi hesab edirəm. Sizin dediyiniz kimi, Bolqarıstanda bu rəmzləri ailə üzvlərinə və dostlara hədiyyə edirlər. Biz yaxşı dostlarıq və strateji tərəfdaşlığımızı gücləndirəcəyik.

*Görüşdə Avropanın* enerji *təhlükəsizliyində Azərbaycanın* rolu qeyd edildi. *Azərbaycan–*Avropa *İttifaqı əməkdaşlığı,* investisiya *qoyuluşu,* energetika, *TAP və TANAP* strateji layihələri, informasiya-kommunikasiya texnologiyaları, *əczaçılıq, ərzaq məhsulları,* turizm, infrastruktur *və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BOLQARISTAN RESPUBLİKASI ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏ»NİN İMZALANMASI MƏRASİMİ

*Sofiya*

*4 mart 2015-ci il*

*Sofiyada geniş tərkibdə görüş başa çatdıqdan sonra martın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev «Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»ni imzaladılar.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Sofiya*

*4 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyada Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev və Baş nazir Boyko Borisov əvvəlcə rəsmi foto çəkdirdilər.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin strateji əməkdaşlıq səviyyəsinə yüksəlməsinin önəmi vurğulandı. İqtisadi əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair ətraflı fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Sofiya*

*4 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyada Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycan Prezidentinin Bolqarıstana rəsmi səfərinin iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivlərinin müzakirə edilməsi üçün önəmli olduğu vurğulandı. Ölkələrimizin energetika sahəsində, həmçinin «Cənub Qaz Dəhlizi» layihəsində uğurlu əməkdaşlığının önəmi qeyd olundu. Azərbaycan ilə Bolqarıstan arasında dostluq münasibətlərinin əlaqələrimizin daha da genişləndirilməsinə təkan verdiyi bildirildi.*

*Söhbət zamanı, həmçinin infrastruktur, sənaye, nəqliyyat, maliyyə, turizm, idman, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Sofiya*

*4 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyada Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında elektron rabitə, informasiya texnologiyaları və elektron idarəçilik sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov və Bolqarıstanın Nəqliyyat, İnformasiya Texnologiyaları və Rabitə naziri İvaylo Moskovski imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokol»u Azərbaycanın Bolqarıstandakı səfiri Emil Kərimov və Bolqarıstanın Turizm nazirinin müavini xanım İrena Georgiyeva imzaladılar.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Sofiya*

*4 mart 2015-ci il*

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun mətbuat konfransı keçirilmişdir.*

**B o y k o B o r i s o v**: Hörmətli cənab Prezident, Sizi və nümayəndə heyətinizi Bolqarıstanda səmimiyyətlə salamlayıram. Bu Sizin üçgünlük səfərinizin əhəmiyyətinin bariz nümunəsidir, bizim strateji tərəfdaşlığa olan münasibətimizdir.

Biz cənab Prezidentlə bir sıra məsələləri müzakirə etdik. Ancaq indi sözü cənab prezident Əliyevə vermək istərdim ki, ilk olaraq o çıxış etsin. Təşəkkür edirəm.

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli cənab Baş nazir!

İlk növbədə, məni Bolqarıstana dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Yenidən Sizin gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Bu gün biz Sizinlə Bolqarıstan–Azərbaycan əlaqələrinin müxtəlif aspektlərini çox səmimi şəkildə müzakirə etdik və bir daha gördük ki, əlaqələrimiz ən yüksək səviyyədədir. Bizim əlaqələrimiz strateji tərəfdaşlıq əlaqələridir. Bu əlaqələrin çox gözəl perspektivləri vardır. İlk növbədə, siyasi əlaqələr yüksək

səviyyədədir. Biz Sizinlə mütəmadi qaydada görüşürük. Siyasi əlaqələrin güclü olması, əlbəttə ki, bütün başqa sahələrə də müsbət təsir göstərir. Biz eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Bu gün Avropa İttifaqı–Azərbaycan əlaqələri də görüşümüz zamanı müzakirə edilmişdir və Bolqarıstan bu əlaqələrin inkişafında çox mühüm rol oynayır.

Təbii ki, əsas danışıqlar mövzusu ikitərəfli əlaqələr olmuşdur və bu sahədə biz çox müsbət nəticələri görürük. İqtisadi sahədə çox gözəl imkanlar var. Bilirəm ki, həm Bolqarıstan, həm Azərbaycan şirkətləri birgə fəaliyyət aparmaq üçün böyük səylər göstərirlər. İnvestisiya imkanları araşdırılır. Azərbaycan şirkətləri çox böyük həvəslə Bolqarıstana investisiya qoymağa hazırlaşırlar. Eyni zamanda, Bolqarıstan şirkətlərini də investorlar kimi Azərbaycanda görmək istəyərdik. Bolqarıstan şirkətləri eyni zamanda, Azərbaycanda infrastruktur layihələrinin icrasında iştirak edə bilərlər.

Nəqliyyat sahəsində gözəl imkanlar var. Bu barədə də fikir mübadiləsi aparıldı. Azərbaycan bölgədə nəqliyyat dəhlizlərinin yaradılması işində fəal rol oynayır. Həm Şərq–Qərb, həm Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Yaxın illərdə Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi nəticəsində Azərbaycan Avropanı Asiya ilə birləşdirən ölkəyə çevriləcəkdir. Təbii ki, nəqliyyat infrastrukturunun yaradılması, birgə addımlar bizim iqtisadi maraqlarımıza xidmət göstərəcək və ölkələrimizi bir-birinə daha da sıx bağlayacaqdır.

Təbii ki, bu gün danışıqların əsas mövzusu «Cənub Qaz Dəhlizi»nin icrası və energetika məsələləri idi. Azərbaycan bu istiqamətdə ardıcıl siyasət aparır. Uzun illər Azərbaycan tərəfindən təşəbbüs olaraq irəli sürülmüş layihələr bu gün «Cənub Qaz Dəhlizi»nin reallaşmasına xidmət göstərir. 20 ildir ki, Azərbaycan öz enerji resurslarının dünya bazarlarına müxtəlif yollarla çıxarılması ilə məşğuldur və geniş şaxələndirilmiş nəqliyyat infrastrukturuna malikdir. «Cənub Qaz Dəhlizi» isə sadəcə olaraq, Avropada bu gün reallaşan ən

böyük infrastruktur layihəsidir. Bu layihə bir neçə komponentdən ibarətdir. İlk növbədə, «Şahdəniz» qaz yatağının işlənilməsi, Azərbaycanı Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» kəmərinin genişləndirilməsi, Trans–Anadolu – TANAP layihəsinin icra edilməsi və Trans–Adriatik – TAP layihəsinin tikintisi «Cənub Qaz Dəhlizi»ni formalaşdıran seqmentlərdir. Bütün istiqamətlər üzrə ardıcıl iş aparılır. Keçən ilin sentyabr ayında Bakıda «Cənub Qaz Dəhlizi»nin təməli qoyuldu. Bu ilin fevralında isə Bolqarıstanın Energetika nazirinin iştirakı ilə Bakıda «Cənub Qaz Dəhlizi» ölkələrini təmsil edən nazirlərin birgə Məşvərət Şurası keçirildi.

Azərbaycanın qaz ehtiyatları həm Azərbaycan xalqının rifahına, eyni zamanda, Avropa istehlakçılarının enerji təhlükəsizliyinə xidmət göstərir. Bu gün Avropa İttifaqı sənədlərində Azərbaycan çox etibarlı və strateji tərəfdaş kimi qiymətləndirilir. Azərbaycan qazı Avropaya yaxın zamanlarda nəql edilə biləcək yeganə yeni qaz mənbəyidir. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyonkubmetrdir. Geniş şaxələndirilmiş infrastruktur imkan verir ki, biz qaz ixracımızı istənilən istiqamət üzrə artıraq. Bizim üçün Avropa bazarı prioritet bazardır. Azərbaycanın bu istiqamətdə təşəbbüs olaraq irəli sürdüyü layihələr Avropa qurumları tərəfindən də dəstəklənir. Əslində, keçən ay Bakıda keçirilən I Məşvərət Şurası işlərin əlaqələndirilməsi üçün çox önəmli addım olmuşdur.

Biz ümid edirik ki, Bolqarıstan–Azərbaycan əlaqələri, eyni zamanda, «Cənub Qaz Dəhlizi»nin digər üzvləri ilə bərabər apardığımız işlər bu layihənin vaxtında icra edilməsinə gətirib çıxaracaq və bir neçə ildən sonra böyük həcmdə Azərbaycan qazı Avropaya nəql ediləcəkdir.

Bununla bərabər, qeyd etmək istəyirəm və çox şadam ki, Bolqarıstan bu layihənin iştirakçısıdır, hazırda Azərbaycan qazını alan bir ölkədir. Amma ümid edirəm ki, gələcəkdə Azərbaycan qazını digər ölkələrə nəql edən tranzit ölkə kimi, Bolqarıstan öz xidmətlərini göstərəcək və öz rolunu oynayacaq.

Beləliklə, əslində bu gün ölkələrimiz arasında uzunmüddətli strateji tərəfdaşlıq dövrü başlayır. Bu məni çox sevindirir. Bolqarıstan bizim üçün əziz dostdur, çox yaxın ölkədir, bolqar xalqına bizim çox böyük rəğbətimiz var. Fürsətdən istifadə edərək, dünən qeyd olunan milli bayram münasibətilə Sizi, bütün Bolqarıstan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bolqarıstana yeni uğurlar arzulayıram. Sağ olun.

## Bolqarıstanın Baş naziri Boyko Borisovun bəyanatı

Sizə təşəkkür edirəm, cənab Prezident!

İcazənizlə, bizim media mənsubları üçün əlavə məlumat vermək istərdim ki, bu görüşlərdə Veliko Tırnovo şəhərinin meri də iştirak edir. Bizim bu şəhərdə gələcək layihələrimiz var. Bu şəhər Azərbaycana növbəti maraqlı layihələrini təklif edir. Bu çox gözəl bir şəhərdir və ümid edirəm ki, turistlərin də marağına səbəb olacaq.

Ümidvaram, bu məsələyə də diqqət yetirildi ki, biz Nabukko layihəsinin yenidən bərpa edilməsinə önəm veririk. Bu layihədə Bolqarıstan çox sadiq tərəfdaş olmuşdur və biz digər ölkələrdən fərqli olaraq üzərimizə düşən üçüncü enerji paketi çərçivəsində bütün öhdəliklərimizi yerinə yetirmişik.

Cənab prezident İlham Əliyev və SOCAR-ın nümayəndəliyi ilə bərabər, biz yenidən həmin təkliflər paketini Avropa İttifaqı məmurlarının diqqətinə çatdıracağıq ki, bu məsələdə Bolqarıstana hər hansı bir maneə törətməsinlər. Biz heç də yalnız Avropa Komissiyasının maraqlarını müdafiə etməklə məşğul olmamalıyıq. Uzun illərdir biz bu layihələrin inkişafına böyük sərmayələr qoymuşuq, böyük səylər göstərmişik. O da bir faktdır ki, həmin layihənin səhmləri Azərbaycan tərəfindən də əldə edilə bilər. Bu da bizim üçün, Bolqarıstan üçün əlavə mənfəət deməkdir.

Bolqarıstanın bütün siyasi partiyalarının nümayəndələri Azərbaycanda səfərdə olublar, Azərbaycanı sevirlər, bu ölkəyə böyük rəğbət bəsləyirlər. Ona görə də zənnimcə, Bolqarıstanda

hansı partiyanın iqtidarda olmasından asılı olmayaraq bu layihələr üzrə bütün işlər uğurla gedəcək. Bu bizim əlavə imkanlarımızdır, bizim qaz və nəqliyyat sisteminin inkişafı deməkdir. Bu bizim nəqliyyat və boru kəmərləri sisteminin şaxələndirilməsi deməkdir. Bu, Avropaya da yeni mənbələrin əldə edilməsinə şərait yaradır. Əminəm ki, burada heç bir maneə olmayacaq və Avropa Komissiyası bu məsələdə bizi tam dəstəkləyəcək.

Cənab prezident Əliyev, Sizi əmin edə bilərəm ki, bu məsələdə Siz Bolqarıstanın tam dəstəyinə arxalana bilərsiniz. Bizim hökumətimiz bu danışıqlarda birmənalı olaraq bu əməkdaşlığın tərəfdarı kimi çıxış edəcək və bu məsələnin, yəni «Cənub Qaz Dəhlizi»nin ən qısa zamanda inkişaf etdirilməsinə və reallaşdırılmasına çalışacaq.

Azərbaycan bu gün artıq Yunanıstanın qaz şəbəkəsinə yüz milyonlarla avro sərmayə yatırıb. Bu da gələcək üçün geniş imkanlar açır. Bu layihə heç bir dövlətə qarşı yönəlməyib. Bu layihə milli maraqlarımızın müdafiəsinə xidmət edir ki, bizim qaz nəqliyyat sistemimiz tam doldurulmuş olsun. Biz bilirik ki, Azərbaycan dəmir yolu nəqliyyatı şəbəkəsinin inkişaf etdirilməsinə böyük sərmayələr yatırır. Bu layihə Mərmərə tuneli vasitəsilə birləşəndən sonra Asiyadan Avropaya uzanan ən qısa bir marşrut olacaq. Bu çox böyük yük həcmlərinin daşınması deməkdir. Bu da iqtisadiyyatın və ticarət əlaqələrinin genişləndirilməsinə növbəti bir stimul olacaq və bu məsələyə də bizim tam dəstəyimiz var.

Digər sahələrdə – idman, mədəniyyət və kənd təsərrüfatı sahələrində sərmayə üçün böyük imkanlar və potensial var. Bundan əlavə, biz əczaçılıq məhsullarının təchizatı məsələsini də müzakirə etdik. Bizim Səhiyyə nazirimiz artıq bu gün böyük əczaçılıq şirkətlərinin nümayəndələri ilə görüşərək, Azərbaycanda istehsal sahələrinin yaradılması məsələlərini nəzərdən keçirəcək. Bizim tikinti şirkətlərimiz də Azərbaycanda bir sıra layihələrdə iştirak edə bilər. Beləliklə, çox geniş

imkanlar vardır ki, biz dost Azərbaycan ilə bir sıra sahələri inkişaf etdirək.

* * *

*Prezident İlham Əliyev və Baş nazir Boyko Borisov bəyanatlarla çıxışlardan sonra jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l** (*«24 saat» qəzetinin müxbiri*): **Strateji tərəfdaşlıq və Nabukko layihəsinin inkişafı ilə bağlı sual vermək istərdim. Necə düşünürsünüz, bu layihə nə zaman reallaşdırıla bilər? Bu layihə «Cənub Qaz Dəhlizi»nə alternativ layihədirmi?**

**B o y k o  B o r i s o v**: «Nabukko West» «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsidir. Bu, Avropa Komissiyasının ilk prioriteti olub. Trans–Adriatik boru kəməri barədə isə demək istərdim: bu, Bolqarıstan üçün çox nadir bir şans olardı ki, bizim böyük şirkətimiz bu böyük layihənin tərkib hissəsi olsun. Bu məsələ Brüsseldə müzakirə mövzusu kimi qaldırılıb.

**S u a l**: **Cənab prezident Əliyev, Siz belə qənaətdəsinizmi ki, bu gün Bolqarıstan ilə Azərbaycan arasında əməkdaşlığın yeni səhifəsi açılır və tərəflər hansı mənfəət əldə edəcəklər, burada hansısa bir mənfi məqam varmı? Azərbaycan qazının Bolqarıstan istiqamətində nəql edilməsi Avropa İttifaqına üzvlüyün bir hissəsi hesab oluna bilərmi, yoxsa bu, digər bir sahəyə aid məsələdir?**

**İ l h a m  Ə l i y e v**: Bu gün əlaqələrimizin yeni dövrü başlayır. Bu barədə mən öz fikirlərimi bildirdim. Bizim əlaqələrimizin strateji mahiyyəti artıq bir neçə ildir ki, özünü göstərir. Sadəcə olaraq, bu gün biz bu əlaqələri formalaşdırdıq. Əlbəttə ki, bu, görülən işlərin təzahürüdür, eyni zamanda, hər iki tərəfə yeni imkanlar verir və hər iki tərəfin məsuliyyətini artırır. Strateji tərəfdaşlıq, hesab edirəm ki, ölkələr arasındakı əlaqələrdə ən yüksək bir formatdır. Bu gün bu format onu göstərir ki, bizim əlaqələrimiz doğrudan da strateji əhəmiyyət daşıyır. Burada siyasi əlaqələr mühüm yer tutur. Eyni zamanda, bu gün prezident Plevneliev ilə imzaladığım strateji tərəfdaşlıq

haqqında Birgə Bəyannamədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkələrin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı çərçivəsində həll edilməsi də öz əksini tapıbdır.

Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafında Bolqarıstanın çox böyük rolu vardır. Eyni zamanda, NATO–Azərbaycan əlaqələrinin inkişafında da Bolqarıstan mühüm yer tutur.

Enerji sahəsindəki əməkdaşlıq bu gün Avropa İttifaqı–Azərbaycan əlaqələrinin tərkib hissəsidir və mən çox şadam ki, Azərbaycanın bütün layihələri Avropa İttifaqı tərəfindən dəstəklənir. 2011-ci ildə Avropa Komissiyasının prezidenti ilə Bakıda imzaladığım enerji sahəsində strateji tərəfdaşlıq haqqında Bəyanat artıq özünü göstərməkdədir. Bundan sonra enerji sahəsindəki əməkdaşlıq, əlbəttə ki, bizim əlaqələrimizin əsas hissəsi olacaq. Amma mən çox istərdim ki, digər sahələrdə də biz buna oxşar nailiyyətləri görək – investisiyalar, ticarətin artması və digər layihələr ki, bu barədə artıq cənab Baş nazir də öz fikirlərini bildirdi.

Mən hesab edirəm ki, bu gün Avropa İttifaqı–Azərbaycan əlaqələrinin perspektivləri müəyyən edilir. Biz istərdik ki, bu əlaqələr strateji tərəfdaşlıq əlaqələri səviyyəsinə yüksəlsin. Qeyd etməliyəm ki, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrin 7-si ilə artıq strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməsi vardır. Buna görə belə hesab edirəm ki, gələcəkdə Avropa İttifaqı–Azərbaycan arasında imzalanacaq istənilən sənədin gözəl əsası ola bilər.

**B o y k o  B o r i s o v**: Cənab Prezident, Sizin fikirləriniz cənab Yunkerin bəyanatı ilə üst-üstə düşür. Biz Avropa İttifaqının müxtəlif səviyyələrdə əməkdaşlığı genişləndirməsini alqışlayırıq. Azərbaycanın Avropa İttifaqı ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksələn əməkdaşlığını birmənalı şəkildə dəstəkləyirik.

**S u a l: İkitərəfli məsələlərin müzakirəsinə gəldikdə, Siz qeyd etdiniz ki, biz Nabukkonu bərpa etmək istərdik, amma**

**«Şahdəniz-2» layihəsi çərçivəsində, TAP dəhlizi boyu. Bu, artıq TAP layihəsindən kənara çıxmaq demək deyilmi?**

**B o y k o  B o r i s o v**: Cənab Prezidentin dediyi kimi, hər iki qaz kəmərinin doldurulması, təmin edilməsi məsələsi ortaya çıxır. Yəni burada artıq söhbət 2 kəmərin doldurulmasından gedir. Bir neçə il bundan öncə «Cənub axını» layihəsi Avropa İttifaqı üçün prioritet layihə idi. Burada heç Ukraynanı təcrid etməkdən söhbət getmirdi. Nabukko da eyni dərəcədə prioritet bir layihə hesab edilirdi. Amma artıq görünür ki, vəziyyət dəyişir. Bolqarıstan 3-cü enerji paketinin tələblərinə birmənalı olaraq sadiq qalır. Mən heç də başa düşə bilmirəm ki, nədən bu layihə reallaşa bilməz. Çünki Azərbaycan kifayət qədər qaz ehtiyatlarına malikdir. Bizim də qaz qəbul etmək imkanlarımız genişdir. Zaman olduqca dinamik şəkildə inkişaf edir və gördüyünüz kimi, artıq bir çox sahədə ikitərəfli layihələr yaradır. Bir həftə bundan öncə cənab prezident Əliyevlə müzakirə apardıq. Bu sahədə ilk görüşümüz də dünən olubdur.

**İ l h a m  Ə l i y e v**: Azərbaycanın çox zəngin qaz ehtiyatları vardır və əlbəttə ki, «Cənub Qaz Dəhlizi»nin əsas resurs bazası «Şahdəniz» qaz yatağıdır. «Şahdəniz» qaz yatağının resursları 1 trilyon kubmetrdən çoxdur. Ancaq Azərbaycanın ümumi qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. «Cənub Qaz Dəhlizi» əslində bir neçə layihəni özündə ehtiva edir. Bu barədə mən öz fikirlərimi bildirmişəm. TAP layihəsi «Cənub Qaz Dəhlizi»nin ayrılmaz hissəsidir. TAP marşrutu əsas ixrac marşrutu kimi seçiləndə bəzilərinə elə gəldi ki, Nabukko layihəsi artıq tarixdə qaldı. Ancaq reallıqda biz nəyi gördük? Biz gördük ki, Nabukkonun üzvü olan Bolqarıstan artıq «Cənub Qaz Dəhlizi»nin üzvüdür. Yəni TAP layihəsinə biz «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsi kimi baxmalıyıq. Əgər biz «Cənub Qaz Dəhlizi»nin marşrutuna baxsaq – bu bir xətdir. Bakıdan başlayıb İtaliyada başa çatan xətt. Amma bu xəttin bir neçə qolları ola bilər və artıq bir qol yaradılmaqdadır. Bolqarıstan–Yunanıstan qaz birləşməsi bu qolun bir hissəsidir. Eyni zamanda, artıq Azərbaycan ilə Balkan ölkələri – Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina arasında bu

sahədə memorandumlar imzalanıb. İonik–Adriatik qaz kəmərinin tikintisi indi danışıqlar mövzusudur. Eyni zamanda, Bolqarıstan ərazisindən qonşu ölkələrə – Rumıniyaya, Macarıstana xəttin çəkilişi də artıq reallaşır. Biz bu gün bu barədə fikir mübadiləsi apardıq. Ona görə siz haqlısınız, «Şahdəniz» qazının istehlakçıları bəllidir. Ancaq yaxın zamanlarda Xəzərin Azərbaycan sektorunda «Abşeron» yatağı istifadəyə veriləcək. «Ümid» yatağında çox böyük qaz ehtiyatları vardır. Ümid edirəm ki, bu 2 yataqdan yaxın 5-6 ildə ən azı əlavə 5-6 milyard kubmetr qaz hasil ediləcəkdir.

«Şahdəniz» yatağının ikinci mərhələsi 16 milyard kubmetrdən daha çox qaz hasil edə bilər. Yəni bütün bunları nəzərə alaraq, bu gün biz TAP layihəsini Nabukko layihəsi ilə bir növ birləşdirmək əzmindəyik. Söhbət ondan getmir ki, bu layihələrə hansı ad verəsən. Əsas məsələ və bizim istəyimiz ondan ibarətdir ki, Azərbaycan öz qazını maksimum həcmdə Avropa məkanına nəql etsin və nə qədər mümkündürsə, o qədər də çox Avropa ölkələri bu qaza çata bilsinlər.

**S u a l** *(Yunis Orucov, Azərbaycan Televiziyası):* **Mənim sualım cənab Baş nazirədir. Siz regional baxımdan, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan–Bolqarıstan əməkdaşlığını necə qiymətləndirirsiniz? Sağ olun.**

**B o y k o  B o r i s o v**: Bolqarıstan hazırda olduqca mürəkkəb bir regionda yerləşir. Bildiyiniz kimi, 10 və ya 20 il bundan öncə bizim qonşumuz olan Yuqoslaviya qanlı vətəndaş müharibəsi nəticəsində bir neçə yerə parçalandı. Bizim digər bir sərhədimizdə – Qara dənizin o biri sahilində – Ukraynada müharibə tüğyan edir. Çox mürəkkəb bir vəziyyət yaranıb. Bundan əlavə, Bolqarıstanın da Rusiyaya qarşı yönəlmiş sanksiyalara qoşulmasının bizim iqtisadiyyatımıza çox böyük mənfi təsiri var, xüsusilə də turizm sahəsi baxımından. Bildiyiniz kimi, bizim qonşu Yunanıstan da böyük problemlərlə üzləşir. Yunan qonşularımıza bu problemlərin öhdəsindən gəlməkdə böyük uğurlar arzulayırıq. Lakin istənilən halda bu problemlər mövcuddur. Bununla yanaşı, biz siyasi-iqtisadi, maliyyə şaxələndirilməsi baxımından da bu sahələrə böyük önəm veririk. Çünki bu sahələr bütün dövlətlər üçün böyük

önəm daşıyır. Bolqarıstan həm NATO, həm Avropa təsisatları çərçivəsində etibarlı tərəfdaşdır.

Azərbaycan nəyə görə bizim strateji tərəfdaşımızdır? Bu ölkə neft və qaz sərvətlərinə malikdir. İnvestisiya qoymaq iqtidarında olan bir dövlətdir. Coğrafi baxımdan bizim bənzər ölçülərimiz də var. Qədim ənənələrimiz var. Xalqlarımız arasında sıx dostluq münasibətləri var. Xalqlarımız biri-birini çox yaxşı tanıyır. Siz bizim vasitəmizlə Avropa İttifaqı ilə təmaslar baxımından əlavə imkan əldə edirsiniz. Biz isə sizin sərvətlərdən bəhrələnmək imkanını əldə edirik. Biz bu məsələlərin bir sıra elementlərini – infrastruktur layihələrini, kənd təsərrüfatı sahəsinin inkişafını müzakirə etdik. Qaz nəqliyyatı sahəsində infrastrukturu inkişaf etdirmək əzmindəyik. Əlavə qaz həcmi olduğu təqdirdə, qaz təminatı şəbəkəsinin inkişaf etdirilməsi, kompressor stansiyalarının inşası və digər sahələrdə də layihələri genişləndirə bilərik. Bu gün elə bir vəziyyətdir ki, biz bir-birimizə yaxından yardım göstərə bilərik.

**S u a l: Cənab Prezident, cənab Baş nazir, Nabukkonun bərpa edilməsinə dəstək baxımından sizin Avropa Komissiyası çərçivəsində arqumentləriniz hansılardır? Cənab Baş nazir Boyko Borisova sualım bundan ibarətdir ki, Bolqarıstan «Cənub axını» layihəsindən birmənalı olaraq imtina edirmi?**

**B o y k o B o r i s o v**: Xeyr, bu o demək deyil ki, biz «Cənub axını» layihəsi üzərindən xətt çəkirik. Artıq bu uğurlar anbarlara yığılmış vəziyyətdədir. Müvafiq icazələr alınıbdır. Burada heç bir rəsmi məlumat verilməyib ki, işlər dayandırılıb. Burada işləri davam etdirmək əzmi nümayiş etdirilsə, biz bu layihəni davam etdirə bilərik. «Nabukko West» heç vaxt «Cənub axını»nın alternativi olmayıb və ya «Cənub axını» layihəsi hər hansı bir digər layihənin alternativi deyil. Bolqarıstan tranzit imkanlarını genişləndirə bilər. Arqumentlərimiz bundan ibarətdir ki, indiki vəziyyətdə Azərbaycan qazını qəbul etməyə bizim real imkanlarımız var. Maye-qaz terminalları vasitəsilə Yunanıstandan da əlavə

həcmlər ala bilərik. Bununla da həm daxili bazarımızı, həm də digər qonşu ölkələrin bazarını qazla təmin edə bilərik.

Zənnimcə, bu çox güclü arqumentdir. Bizim naziri Azərbaycanda cənab Prezident qəbul etdi. Ona görə də bizim marağımız ortadadır və biz «Cənub Qaz Dəhlizi»nin inkişaf etdirilməsi və burada bağlayıcı kəmərlərin inkişafı baxımından marağımızı bildirmişik. Biz çox layiqli tərəfdaş ola bilərik. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə müvafiq vəsait ayrılmışdır ki, Müqəddəs Sofiya kilsəsində müəyyən bərpa işləri aparılsın. Ona görə də istərdim cənab Prezident görülən işlərin nəticəsi ilə tanış olsun. Sağ olun.

## MÜQƏDDƏS SOFİYA KİLSƏSİNİ ZİYARƏT

*4 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Bolqarıstan Respublikasına rəsmi səfəri çərçivəsində Müqəddəs Sofiya kilsəsində olmuşdur.*

*Bolqarıstan paytaxtının mərkəzi hissəsində yerləşən Müqəddəs Sofiya kilsəsi bu ölkənin diqqəti cəlb edən ən qədim məbədidir.*

*Kilsənin ayrı-ayrı guşələri və eksponatları ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, tarixi mənbələrdə burada ilk kilsənin 311–313-cü illərdə tikildiyi göstərilir. Sonralar məbəd imperator I Konstantin tərəfindən daha da genişləndirilib. Sonrakı əsrlərdə müxtəlif müharibələr zamanı kilsə dağıntılara məruz qalıb. 537-ci ildə imperator I Yustinian məbədi yenidən bərpa etdirib. Orta əsrlərdə bu tikili imperiyanın baş məbədi olub. Osmanlı imperiyası dövründə məbəd bir müddət məscid funksiyasını yerinə yetirib. Bolqarıstan paytaxtının adı da ilkin mənbəyini 1700 ildir ki, dindarların əsas ibadət yeri kimi fəaliyyət göstərən bu məbəddən götürüb. XIII əsrdən başlayaraq yerli əhali bu şəhərə yunanca mənası «müdriklik» olan Sofiya adını verib. XIV əsrdən başlayaraq bolqar çarlarının bütün sənədlərində paytaxt şəhər Sofiya olduğu göstərilir. Bu kilsə dini məbəd olmaqla yanaşı, tarixi abidə kimi, Bolqarıstanın diqqətçəkən turizm obyektlərindən sayılır.*

*Prezident İlham Əliyev məbədin Xatirə kitabına ürək sözlərini yazdı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Sofiya*

*4 mart 2015-ci il*

*Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevnelievin adından martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirildi.*

**Rosen Plevneliev**: Zati-aliləri!

Milli Assambleyanın sədr müavini!

Kabinetin üzvləri!

Xanımlar və cənablar!

Prezident İlham Əliyevi və onun rəhbərlik etdiyi nümayəndə heyətini Sofiyada salamlamaq mənim üçün şərəfdir. Səfəriniz prezident Jelyu Jelev və prezident Heydər Əliyev tərəfindən Bolqarıstan Respublikası və Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Sazişin imzalanmasının 20-ci ildönümünə təsadüf edir. Hər iki dövlət başçısı münasibətlərimizin əsas prinsiplərini – xalqlarımızın rifahı və çiçəklənməsi naminə qarşılıqlı hörmət və anlaşmanı bizə miras qoyub.

Biz ötən 20 ildə konkret layihələri icra etməklə, tarixi əlaqələrimizi inkişaf etdirərək, münasibətlərimizi praqmatizmlə zənginləşdirmişik. Bu gün Azərbaycan Bolqarıstanın çox dəyərli və etibarlı tərəfdaşıdır. Ən yüksək siyasi səviyyədə keçirilən müntəzəm görüşlər yeni əməkdaşlıq formalarını müəyyən etmək üçün iradəmizin mövcudluğunu sübut edir. Bu gün Bolqarıstan Respublikası və Azərbaycan Respublikası

arasında imzalanan Birgə Bəyannamə münasibətlərimizi mühüm strateji səviyyəyə yüksəldərək, yeni mərhələnin başlanğıcını qoymuşdur.

*Bolqarıstan prezidenti Rosen Plevneliev çıxışında 2014-cü ilin sentyabrında Bakıya etdiyi səfər zamanı «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimində iştirakını xatırlatdı. Azərbaycanın iqtisadi baxımdan inkişaf etdiyini, beynəlxalq aləmdə rolunun artdığını, regionda aparıcı ölkəyə, neft və qaz sahəsində beynəlxalq ticarətdə mühüm amilə çevrildiyini diqqətə çatdırdı:*

– Son illərdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi sahəsində Avropa İttifaqının əsas tərəfdaşına çevrilib. «Cənub Qaz Dəhlizi»nin uğurla həyata keçirilməsi Bolqarıstanın yeganə boru xəttindən və təchizatçıdan uzunmüddətli asılılığına son qoyacaqdır. Keçən ilin sentyabr ayında Bakıda rəsmi mərasimdə yüksək səviyyədə təmsil olunmağımız da Bolqarıstan Respublikasının Avropa üçün strateji əhəmiyyət daşıyan bu infrastruktur layihəsinə verdiyi önəmin ifadəsidir. Bolqarıstan və Azərbaycan arasında enerji əməkdaşlığının təməlində hər il 1 milyard kubmetr qazın təchizi üzrə artıq imzalanmış müqavilə, habelə əlavə həcmlərin müzakirə olunması imkanı durur. Lakin biz daha yaxşı nəticələr də əldə edə bilərik. Biz Bolqarıstanda və Cənub-Şərqi Avropa regionunda mənzillərin qazla təmin olunması, qaz anbarları və qaz tranziti infrastrukturunun inşası sahəsində Azərbaycan ilə müştərək layihələrin həyata keçirilməsi imkanlarının araşdırılmasında maraqlıyıq.

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, Bolqarıstan xalqını milli bayramı – Azadlıq Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zəngin tarixi və mədəniyyəti ilə seçilən Bolqarıstanı yenidən ziyarət etməyimdən çox məmnunam. Mən Sizin ölkənizə

üçüncü səfərimi edirəm. Bu, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunun bariz nümunəsidir. Səfərimin yekunlarını müsbət qiymətləndirirəm. Apardığımız danışıqlar və fikir mübadiləsi, imzalanan sənədlər, xüsusilə də «Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə» bizi əmin edir ki, nəticələr uğurlu olacaq, strateji tərəfdaşlığımız daha da möhkəmlənəcəkdir.

Azərbaycan və Bolqarıstan xalqları arasında münasibətlərin qədim tarixi var. Bizim mədəniyyət, incəsənət, elm sahəsində əlaqələrimizi sübut edən çoxlu faktlar mövcuddur. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin şeirləri isə hələ XIX əsrdə bolqar dilinə tərcümə olunub nəşr edilmişdi. Görkəmli Azərbaycan şairləri, yazıçıları Bolqarıstana, bolqar xalqına həsr olunmuş gözəl əsərlər yazmışlar. Bolqar ədəbiyyatının klassiklərini – İvan Vazovu, Xristo Botevi, Yemelyan Stanevi və bir çox başqalarını bu gün də Azərbaycanda sevərək oxuyurlar.

İqtisadi sahədə əlaqələrimizin inkişafı üçün yaxşı imkanlar var. Azərbaycanda mövcud olan əlverişli siyasi-iqtisadi mühit beynəlxalq maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir. Davos İqtisadi Forumu Azərbaycanı iqtisadi sahədə rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görüb. Bu da ölkələrimiz arasında qarşılıqlı investisiyaların qoyuluşu, şirkətlərin fəaliyyəti və ikitərəfli əməkdaşlığın genişlənməsi üçün yaxşı şəraitin olduğunu göstərir.

Eyni zamanda, enerji sahəsində əməkdaşlıq əlaqələrinin perspektivləri genişdir. Zəngin karbohidrogen ehtiyatlarına malik ölkəmizin təsdiq olunmuş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Hazırda Azərbaycandan enerji resurslarını müxtəlif istiqamətlərə nəql edən 7 neft və qaz kəməri mövcuddur. Azərbaycan TANAP layihəsinin əsas səhmdarıdır, TAP və «Şahdəniz» layihələrində isə böyük paya malikdir. «Cənubi Qafqaz» qaz kəmərinin genişlənməsi ilə bərabər, bu layihələr

hazırda Avropada inşa edilən ən böyük, dəyəri ən azı 45 milyard dollar olan infrastruktur layihəsidir.

Azərbaycan yalnız enerji sektorunun inkişafı ilə kifayətlənmir. Biz regional əməkdaşlığa töhfə verən digər layihələrə də böyük sərmayələr qoyuruq. Bu il Xəzər dənizində ən böyük Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsi və Bakı–Tbilisi–Qars dəmir yolunun inşası başa çatacaqdır. Bununla da Asiya ilə Avropanı birləşdirəcək ən rahat və qısa dəmir yolu istifadəyə veriləcəkdir.

Azərbaycan öz nəqliyyat infrastrukturunun imkanlarını tərəfdaşları ilə bölüşməyə hazırdır. Ölkələrimiz arasında humanitar sahədə münasibətlərin uğurla inkişaf etdirilməsi üçün də geniş imkanlar mövcuddur. Bakı Slavyan Universitetində bolqar dili, tarixi, mədəniyyəti tədris edilir. 2004-cü ildən isə Bolqar Dili və Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. 2013-cü ildə Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində bolqar gənclərini Azərbaycanın mədəniyyəti, dili və ədəbiyyatı ilə yaxından tanış etmək məqsədilə Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi yaradılıb. Hazırda həmin universitetdə Azərbaycan multikulturalizmi fənni tədris olunur.

Bolqarıstan ilə Avropa İttifaqı çərçivəsində mövcud olan əməkdaşlığımız da məmnunluq doğurur. Azərbaycan artıq neçə illərdir ki, beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edir. Belə tədbirlərdən biri də cari ilin iyununda ilk dəfə Bakıda keçiriləcək I Avropa oyunlarıdır. Yüksək səviyyədə təşkil edəcəyimiz bu yarışlarda iştirak edəcək bolqarıstanlı atletlərə uğurlar arzulayıram.

Azərbaycan eyni zamanda, yerləşdiyi regionda təhlükəsizliyin və sabitliyin qorunmasında, inkişafın və beynəlxalq əməkdaşlığın təşviqində mühüm rol oynayır. Bununla belə, əfsuslar olsun ki, regionun ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmayıb. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal edilib, bu ərazilərdə etnik təmizləmə

siyasəti aparılıb və 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair 4 qətnaməsi var ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. ATƏT, NATO, Avropa Parlamenti, AŞPA, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul edib. Bir daha qeyd etmək istəyirəm ki, bu gün imzalanan «Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»də vurğulandığı kimi, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı çərçivəsində nizamlanmalıdır. Belə ədalətli mövqeyə görə Bolqarıstan tərəfinə minnətdarlığımı bildirirəm.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri martın 5-də başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Sofiya Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Bolqarıstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və yüksək amallar naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz, Azərbaycan qadınlarının müasir cəmiyyətimizdə tutduğunuz mövqe, bərabər hüquqlar və imkanlar üçün göstərdiyiniz səylər, həmçinin mötəbər qurumlarda təmsil olunmağınız fəxr etdiyimiz mühüm tarixi nailiyyətlərdir. Adınız ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi, ölkəmizdə həmişə uca tutulmuşdur. Qədim keçmişimizin hər bir səhifəsi müdrikliyinizin, fədakarlıq və qəhrəmanlığınızın parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik mədəni-mənəvi dəyərlərin, doğma ana dilinin və adət-ənənələrin bu günlərədək layiqincə yaşadılması sizin misilsiz xidmətinizdir.

Mədəniyyət salnaməmizə, ədəbi-ictimai və elmi fikir tariximizə öz istedadı və zəkasıyla yeni səhifələr yazmış maarifpərvər Azərbaycan xanımlarının yolunu siz bu gün də şərəflə davam etdirirsiniz. Nəsillərin varisliyini qoruyaraq ötən əsr boyunca sosial-mədəni fəaliyyətin genişləndirilməsi istiqamətindəki müvəffəqiyyətlərinizi müasir mərhələdə vətəndaş cəmiyyətinin təşəkkülü və əsaslarının möhkəmləndirilməsi prosesində yaxından iştirakınızla daha da zənginləşdirmisiniz. Məmnunluq hissi ilə bildirirəm ki, müstəqilliyimizin bərpasından sonrakı müddət ərzində milli dövlət quruculuğu sahəsində qazanılan uğurlarda müstəsna rolunuz vardır.

Azərbaycançılıq məfkurəsinə, milli dövlətçilik ideallarına sədaqət, Vətənə məhəbbət ruhunda formalaşmış gənclik

ölkəmizə ən böyük töhfənizdir. İnanıram ki, istedad və bacarığınızı ictimai-siyasi, sosial-iqtisadi və intellektual-mənəvi həyatımızda bundan sonra da gerçəkləşdirərək, Azərbaycanın davamlı inkişafı naminə var qüvvənizlə çalışacaqsınız.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *5 mart 2015-ci il*

## MÜQƏDDƏS TAXT-TACA – VATİKANA RƏSMİ SƏFƏR

*5 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Müqəddəs Taxt-taca – Vatikana rəsmi səfərə gəlmişdir.*

# KATOLİK KİLSƏSİNİN RƏHBƏRİ PAPA FRANSİSK İLƏ GÖRÜŞ

*Vatikan*

*6 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 6-da Vatikanda Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşmüşlər.*

*Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Vatikanda rəsmi qarşılanma mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin görüşündə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə edildi. Münasibətlərimizin yaxşı perspektivlərinin olduğu vurğulandı. Vatikanın Azərbaycan ilə əlaqələrə yüksək qiymət və mühüm əhəmiyyət verdiyi bildirildi. Mədəniyyətlərarası və dinlərarası münasibətlərə Azərbaycanın verdiyi önəmin dövlətlərimiz arasında ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığı diqqətə çatdırıldı. Ölkəmizdə nümunəvi tolerantlıq mühitinin olduğu, bütün dini konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı bildirildi.*

*Söhbət zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illərdə Vatikanda həyata keçirdiyi müxtəlif mədəni layihələrin əhəmiyyəti vurğulandı.*

*Görüşdə qarşılıqlı hədiyyələr təqdim edildi.*

## MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ KARDİNAL PİETRO PAROLİN İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Vatikan*

*6 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın martın 6-da Vatikanda Müqəddəs Taxt-tacın Dövlət katibi kardinal Pietro Parolin ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əmək-daşlığın səviyyəsindən məmnunluq ifadə edildi. Azərbaycanda bütün dinlərə münasibətin yüksək səviyyədə olduğu, müxtəlif dini icmalar arasında qarşılıqlı anlaşma və etimad mühitinin hökm sürdüyü bildirildi. Azərbaycanda multikulturalizmin yaxşı ənənələrinin olduğu diqqətə çatdırıldı. Bu sahənin inkişafına xüsusi diqqətin göstərildiyi, ölkəmizdə sabitliyin və qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğu vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın martın 6-da Müqəddəs Taxt-taca – Vatikana rəsmi səfəri başa çatmışdır.*

## RUSİYA FEDERASİYASI PREZİDENTİNİN KÖMƏKÇİSİ, OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ İQOR LEVİTİN İLƏ GÖRÜŞ

*9 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Rusiya Federasiyası Prezidentinin köməkçisi, Rusiya Federasiyası Olimpiya Komitəsinin vitse-prezidenti İqor Levitini qəbul etmişdir.*

*İqor Levitin Soçi Qış Olimpiya oyunlarına həsr olunmuş xatirə albomunu dövlətimizin başçısına təqdim etdi. Rusiya idmançılarının Bakıda keçiriləcək I Avropa oyunlarına ciddi hazırlaşdıqlarını vurğulayan İqor Levitin Rusiyanın bu tədbirdə 300-ə yaxın idmançı ilə təmsil olunacağını dedi. O, Azərbaycanda I Avropa oyunlarının yüksək səviyyədə təşkil ediləcəyinə ümidvar olduğunu bildirdi və bu işdə ölkəmizə uğurlar arzuladı.*

*Dövlətimizin başçısı Soçi Qış Olimpiya oyunlarında Rusiyanın əldə etdiyi nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev I Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsindən qısa vaxt keçməsinə baxmayaraq, bu istiqamətdə böyük işlərin görüldüyünü vurğuladı. Oyunların yüksək səviyyədə təşkil olunması üçün Azərbaycanın bütün səylərini əsirgəmədiyini bildirdi. Dövlətimizin başçısı bu idman yarışının təkcə ölkəmiz üçün deyil, ümumilikdə idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## BAKI ATICILIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*9 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı – I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri martın 9-da paytaxtın Biləcəri qəsəbəsində Bakı Atıcılıq Mərkəzinin açılışında iştirak etmişlər.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına mərkəz haqqında məlumat verdi. Bildirildi ki, bu mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün nəzərdə tutulub. Burada yarışların yüksək səviyyədə təşkil olunması üçün hər cür şərait yaradılıb. Mərkəzin funksional zonalarının sahəsi 123 min kvadratmetrdən artıqdır.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Bakı Atıcılıq Mərkəzinin baş planına əsasən ərazidə inşa edilən bina və qurğuların hamısı Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verir. Bu idman obyektinin ərazisi genişləndirilərək 19,6 hektara çatdırılıb. Burada geniş quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, ətraf abadlaşdırılıb. Mərkəzin güllə atıcılığı binası müasir səviyyədədir. Binada müxtəlif funksional sahələr, o cümlədən kafe, VİP gözləmə və istirahət, idarəetmə, tədris, dopinq yoxlama, silahsaxlama, həmçinin təchizat-xidmət otaqları, 55 yerlik 2 konfrans və mətbuat zalı, tibb məntəqəsi, fitnes zal var. Güllə atıcılığı sahəsində 10, 25, 50 və 300 metr məsafəyə güllə atıcılığı üzrə yarışlar keçiriləcək. Güllə atıcılığı zallarında atış nəticələrini avtomatik qeydə alan, xalları*

hesablayıb monitorlara və idarəetmə mərkəzinə ötürən «Sius Ascor» markalı (İsveçrə) müasir elektron sistemləri və avadanlıqları quraşdırılıb. 10 metrlik məsafəyə qapalı atış tirində 80 idmançının eyni vaxtda yarışmasına imkan verən atış xətti quraşdırılıb. 25 metrlik məsafəyə yarımqapalı atış tirində 50 idmançı eyni vaxtda yarışa bilər. Burada 346 oturacaq quraşdırılıb. 50 metrlik məsafəyə yarımqapalı atış tirinin xətti isə eyni vaxtda 80 idmançıya bacarığını sınamağa imkan verir. 300 metrlik məsafəyə yarımqapalı atış tirində də idmançıların yüksək səviyyədə yarışmaları üçün hərtərəfli imkanlar var. Burada eyni vaxtda 40 idmançı yarışa biləcək. Final yarışlarının keçirilməsi üçün nəzərdə tutulan 10, 25 və 50 metr məsafəyə atış üzrə qapalı tirlərdə eyni vaxtda 15 idmançı mübarizə aparacaq. Güllə atıcılığı binasında Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə uyğun olaraq qurulan zalların hər birində idmançılara, hakimlərə, məşqçilərə xidmət edəcək xüsusi otaqlar yaradılıb. Binanın ikinci mərtəbəsində atıcılıq zallarının nəzarət otaqları və baxış eyvanı, təlim-tədris, məşqçi, iclas otaqları və digər inzibati-texniki otaqlar yaradılıb.

Stend atıcılığı sahəsində idmanın dairəvi və səngər stend atıcılığı növü üzrə yarışlar və məşqlər keçiriləcək. Burada biri final yarışları üçün nəzərdə tutulmaqla, 5 atış meydançası inşa edilib. Bu meydançalarda səngər atış hərəkətləri üçün 75 hədəftullayıcı avadanlıq quraşdırılıb. Dairəvi atış hərəkətləri üçün inşa edilmiş 5 qüllədə isə 10 hədəftullayıcı avadanlıq var. İtaliyanın «Mattarelli» markalı hədəftullayıcıları Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verən avadanlıqlardır.

Mərkəzdə idmançıların və məşqçilərin, həmçinin qonaqların qalmaları üçün mehmanxana binası da inşa edilib. 4 mərtəbə və terrasdan ibarət binada qonaqların istirahəti üçün yüksək şərait yaradılıb. Binada, həmçinin inzibati otaqlar da fəaliyyət göstərir.

Müasir idman infrastrukturuna malik Azərbaycan eyni zamanda, beynəlxalq yarışları keçirmək təcrübəsinə də malik-

dir. I Avropa oyunlarına hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Bakı Atıcılıq Mərkəzinin istifadəyə verilməsi görülən tədbirlərin mühüm tərkib hissəsidir. Onu da deyək ki, bu mərkəz Avropada ən böyük atıcılıq komplekslərindən biridir. Mərkəzdə 495 avtomobil yerlik yerüstü, həmçinin 26 avtomobil yerlik VİP dayanacaqlar da inşa edilib. Burada içməli və yanğına qarşı su anbarları, qazanxana və nasosxana, transformator və generator məntəqələri var. Bu idman obyekti ayrıca qaz, su, kanalizasiya, elektrik, rabitə, yüksəksürətli internet xətləri ilə təchiz edilib. Obyektdə havalandırma, yanğın xəbərverici və yanğınsöndürmə, işıqlandırma sistemləri, təhlükəsizlik kameraları quraşdırılıb.

Beləliklə, belə müasir idman kompleksinin istifadəyə verilməsi «Bakı–2015» ilk Avropa oyunları zamanı bu idman növləri üzrə yarışların da yüksək səviyyədə keçirilməsinə imkan yaradacaq. Belə müasir idman qurğularının istifadəyə verilməsi, mövcud komplekslərin ən yüksək səviyyədə yenidən qurulması və yeni idman obyektlərinin inşası bir daha sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda başlanılan bütün layihələr uğurla, həm də vaxtında icra olunur. Müasir idman qurğularının yalnız Bakıda deyil, eləcə də regionlarda inşası isə ölkəmizdə gənclərin idmana marağının artırılması və idmanın kütləviliyinin təmin edilməsi istiqamətində atılan addımların ardıcıl xarakter aldığını nümayiş etdirir. Bu cür layihələrin reallaşdırılması eyni zamanda, gənc nəslin həm fiziki, həm mənəvi cəhətdən sağlam yetişməsində də mühüm rol oynayır.

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Argentinada baş vermiş helikopter qəzasında olimpiya çempionu Kamil Muffanın, tanınmış idmançıların və digər həmvətənlərinizin həlak olması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 mart 2015-ci il*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏMNUN HÜSEYNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 mart 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin martın 11-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyni qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Pakistan Prezidentinə raport verdi.*

*Pakistan İslam Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi. Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Pakistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Məmnun Hüseynə, Pakistan İslam Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

# PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏMNUN HÜSEYN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*11 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin martın 11-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Pakistan prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirildi. Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.*

*Söhbət zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 mart 2015-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin martın 11-də geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, nümayəndə heyətinin üzvləri! Sizi Azərbaycanda bir daha salamlayıram. Əminəm ki, Sizin səfəriniz ikitərəfli əlaqələrimizin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edəcək. Ölkələrimiz arasındakı qardaşlıq əlaqələri iki müsəlman ölkəsinin əməkdaşlığının yaxşı nümunəsidir. Əminəm ki, səfərinizin çox yaxşı nəticələri olacaq.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsini təmin edəcək mühüm sənədlər imzalanacaq. Bizim aramızda çox yüksək səviyyəli əməkdaşlıq mövcuddur. Bu əməkdaşlığın əsasını xalqlarımız arasında qardaşlıq əlaqələri təşkil edir. Sizin səfəriniz siyasi, iqtisadi, mədəniyyət, elm, texnologiya, müdafiə sənayesi sahələrində tərəfdaşlığımızın gücləndirilməsində mühüm addım olacaq. Biz bütün sahələrdə ölkələrimiz arasında daha geniş əməkdaşlığın olmasını istəyirik.

Əlbəttə ki, biz Sizin Azərbaycanın mövqeyini beynəlxalq təsisatlarda dəstəkləməyinizi yüksək qiymətləndiririk. Biz bütün beynəlxalq təsisatlarda Pakistanı dəstəkləyirik. Bu bizim səmimi əməkdaşlığımızın və əlaqələrimizin yaxşı nümunəsidir.

Dəvətimi qəbul edib Azərbaycana səfərə gəldiyinizə görə Sizə olduqca minnətdaram. Bilirəm ki, Sizi böyük nümayəndə heyəti müşayiət edir. Ümidvaram ki, müvafiq hökumət rəsmilərinin də bir-biri ilə danışıqlar aparmağa və birgə gələcək fəaliyyəti planlaşdırmağa vaxtı olacaq. Əminəm ki, səfəriniz

nəticəsində bizi birləşdirən bütün sahələrdə yaxşı nəticələr əldə etmək üçün konkret planımız olmalıdır və sonra onlar təlimatlarımızı necə yerinə yetirdikləri barədə bizə məruzə edəcəklər.

Cənab Prezident, bir daha xoş gəlmisiniz! Əminəm ki, Azərbaycanda özünüzü evinizdəki kimi hiss edəcəksiniz.

**M ə m n u n  H ü s e y n:** Çox sağ olun, cənab Prezident. Məni qardaş ölkəyə – Azərbaycana dəvət etdiyiniz üçün Sizə bir daha təşəkkür etmək istəyirəm. Azərbaycana gəldiyim andan, elə hava limanından mənə göstərilən səmimi qəbula görə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bununla belə, bir çox beynəlxalq məsələlərdə bizimlə apardığınız tərəfdaşlıq, bizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Məsələn, Cəmmu və Kəşmir məsələsi kimi prinsipial mövzularda onların əvvəlki illərdə qəbul edilmiş BMT qətnamələrinə uyğun olaraq həll edilməsini hər zaman dəstəkləmisiniz.

Həmçinin Dağlıq Qarabağ məsələsində biz sizi dəstəkləyirik və bunu gələcəkdə də, inşallah, davam etdirəcəyik. Bəzi «qonşular» tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş bir sıra zorakılıqları pisləyirik. Xocalı qətliamını qətiyyətlə pisləyirik. Sizi əmin edirəm ki, hər bir çətin və ya yaxşı məsələnizdə sizinlə birlikdəyik.

Cənab Prezident, Sizinlə müzakirə etdiyimiz kimi, ölkələrimizdə gözəl imkanlar var. İndi müsəlman dünyası bilməlidir ki, bir-birimizə kömək edərək, bəlli sahələrdə bir-birimizin təcrübəsindən istifadə edərək, daha güclü olmalıyıq.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*11 mart 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra martın 11-də Azərbaycan–Pakistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»ni prezident İlham Əliyev və prezident Məmnun Hüseyn imzaladılar.*

*«Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında məhkumların verilməsi haqqında Saziş»i Azərbaycanın Pakistandakı səfiri Daşqın Şikarov və Pakistanın Azərbaycandakı səfiri Xalid Usman Qayser imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ADA Universiteti ilə Pakistan İslam Respublikasının Xarici Xidmət Akademiyası arasında 2015–2017-ci illər üzrə Əməkdaşlıq Proqramı»nı Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev və Pakistanın Xarici İşlər Nazirliyinin xüsusi katibi Amcad Hüseyn Sial imzaladılar.*

# PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏMNUN HÜSEYN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*11 mart 2015-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz dostlar!

Nümayəndə heyətinin üzvləri!

Cənab Prezident, Sizi və nümayəndə heyətinizi bir daha salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz! Səfərinizə çox böyük əhəmiyyət veririk. Bu səfəriniz ölkələrimiz, həmçinin Azərbaycan və Pakistan xalqları arasındakı qardaşlıq əlaqələrini gücləndirəcək. Əsrlərboyu Azərbaycan və Pakistan xalqları sülh, əməkdaşlıq və dostluq şəraitində yaşamışlar. Əsrlərboyu bir-birimizi dəstəkləmişik, qardaş kimi yaşamışıq. Bu gün iki müstəqil ölkə yeni bir əməkdaşlıq formatını yaradır. Bu əməkdaşlıq tarixi irsimiz, ənənələrimiz, dinimiz və həmçinin strateji maraqlarımıza söykənir.

Bu gün cənab Prezidentlə mənim imzaladığımız sənəd ölkələrimiz arasındakı strateji tərəfdaşlıq Bəyannaməsidir. Əslində bu sənəd əməkdaşlığımızın, demək olar ki, bütün istiqamətlərini əhatə edir və strateji əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm bir mərhələdir. Biz dostuq, qardaşıq, strateji tərəfdaşıq və əməkdaşlığımızı xalqlarımız, ölkələrimiz, habelə regional təhlükəsizlik və sabitlik naminə davam etdirəcəyik.

Ölkələrimiz arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Pakistan Prezidentinin Azərbaycana rəsmi səfəri, elə indicə imzalanmış sənədlər bunu aydın şəkildə nümayiş etdirir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik və bu işi davam etdirəcəyik.

Bu gün cənab Prezidentlə ikitərəfli və çoxtərəfli əhəmiyyətə malik məsələləri, xüsusilə beynəlxalq təsisatlarda əməkdaşlığımızı müzakirə etdik. Biz bir-birimizi BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təsisatlarda dəstəkləyirik. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana davamlı dəstək göstərdiyi üçün Pakistana çox minnətdarıq.

Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqları 20 ildən çoxdur ki, erməni işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və bunun nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin 20 faizi indi işğal altındadır. Ermənilər günahsız azərbaycanlı uşaqları, qadınları və yaşlıları yalnız etnik mənsubiyyətinə görə qətlə yetirərək, Xocalı soyqırımını törədiblər. Azərbaycan xalqı Pakistandakı qardaşlarına çox minnətdardır. Çünki Pakistan dünyada Xocalı soyqırımını rəsmi olaraq soyqırımı kimi tanıyan ilk ölkədir. Artıq 10-dan çox ölkə Xocalı soyqırımını tanıyıb, ancaq birinci ölkə Pakistan olub.

Biz Pakistana çox minnətdarıq ki, bu ölkə torpaqlarımızın Ermənistan tərəfindən davam edən işğalı səbəbindən Ermənistanla heç bir diplomatik münasibət qurmayan az sayda ölkələrdən biridir. Bu, qardaş münasibətidir. Bu, real dəstək rəmzidir. Hökumətimiz və xalqımız sizin bu mövqenizə görə hökumətinizə və xalqınıza çox minnətdardır. BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxmasını tələb edir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir.

Azərbaycan öz növbəsində, Pakistanı Cəmmu və Kəşmir məsələsində, onun BMT-nin müvafiq sənədlərinə uyğun olaraq

həllini hər zaman dəstəkləyir. Başqa sözlə desək, ölkələrimiz arasında əməkdaşlığın güclü tarixi təməli var və bu gün biz beynəlxalq arenada öz milli mənafelərimizi qorumaq üçün bir-birimizi dəstəkləyirik.

Biz bu gün iqtisadi sahədə əməkdaşlığın perspektivlərini də müzakirə etdik. Şadam ki, cənab Prezident Pakistanın işgüzar dairələrinin təmsilçilərinin böyük qrupu tərəfindən müşayiət olunur. Sabah biz bir yerdə biznes-forumda iştirak edəcəyik. Ümid edirik ki, bu biznes-forum iqtisadi əməkdaşlıq, biznes dairələri arasında təmaslar, qarşılıqlı sərmayə qoyuluşu və birgə müəssisələr üçün əlavə imkanlar yaradacaq. Bu gün nümayəndə heyətləri ilə görüşdə biz bu məsələni müzakirə etdik. Sabah nümayəndə heyətlərinin üzvləri bu istiqamətdə işləməyə davam edəcək və nəticələr haqqında bizə məruzə edəcəklər.

Biz hərbi sahədə fəal əməkdaşlıq edirik. Bu gün müdafiə sənayesi sahəsində əməkdaşlıq üzrə növbəti planları müzakirə etdik. Pakistan müdafiə sənayesində çox böyük irəliləyişə nail olub. Əlbəttə, biz də Azərbaycanda müdafiə sənayesi qururuq. Müasir texnologiyalara çıxışın əldə edilməsi üçün səylərimizi birləşdirmək, həmçinin tədqiqat, elm və müdafiə texnologiyaları sahəsində birgə fəaliyyət üçün imkanlar əldə etmək istəyirik ki, potensialımızı müasirləşdirə bilək.

Əməkdaşlığımızın mühüm bir hissəsi humanitar sahəyə aiddir. Bu, mədəniyyət, elm, sosial sahələrdir. Bunların hamısı xalqlarımız və ölkələrimiz üçün çox əhəmiyyətlidir. Çünki beynəlxalq arenada qarşılıqlı dəstək, iqtisadi və enerji sektorlarında əməkdaşlıq həqiqətən, strateji tərəfdaşlığın səviyyəsinin göstəricisidir. Habelə ölkələrimiz islam həmrəyliyinin gücləndirilməsinə aid məsələlərdə də çox fəaldır. İslam dünyasında daha çox birliyə, qarşılıqlı dəstəyə ehtiyacımız var. Bir-birimizi siyasi və iqtisadi cəhətdən, həmçinin beynəlxalq təşkilatlardakı fəaliyyətlərimiz baxımından dəstəkləməliyik.

Biz islam həmrəyliyinin gücləndirilməsinə böyük töhfə veririk. Azərbaycan və Pakistan bu istiqamətdə öz mühüm rolunu oynamağa davam edəcək. Başqa sözlə desək, biz bütün

sahələrdə əməkdaşlıq edirik. Bu əməkdaşlığı gücləndirmək üçün aydın niyyətimiz var. Bizim üçün Pakistan ən yaxın dost və müttəfiqlərdən biridir. Bu gün qardaş ölkənin prezidentini Azərbaycanda qəbul etməkdən çox məmnunuq. Ümid edirəm ki, səfərinizin çox yaxşı nəticələri və səfərlə bağlı xoş xatirələriniz olacaq. Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz!

## Pakistan prezidenti Məmnun Hüseynin bəyanatı

Sağ olun, cənab Prezident!

Zati-aliləri, qardaşım İlham Əliyev!

Hörmətli nazirlər, mətbuat nümayəndələri, xanımlar və cənablar!

Qardaşım prezident İlham Əliyevin dəvəti ilə bu gün burada olmaqdan çox məmnunam. Biz mövcud mükəmməl ikitərəfli münasibətlərimizi müzakirə etdik və onların səviyyəsindən məmnunluğumuzu bildirdik. Səmimi əlaqələrimizin bundan sonra da davam etdirilməsi ilə bağlı tədbirlərə dair razılığa gəldik. Biz həmçinin qarşılıqlı maraq kəsb edən bir sıra regional və beynəlxalq məsələlərlə bağlı çox faydalı və səmərəli fikir mübadiləsi apardıq.

Azərbaycan ilə Pakistan arasında ikitərəfli münasibətlər ortaq tarixə əsaslanır. Cənab Prezidentin qeyd etdiyi kimi, bu münasibətlər ortaq tarixə, dinə, mədəniyyətə, ənənələrə söykənir. Bizim xalqlarımız bir-birinə dərin rəğbət və ehtiram bəsləyir. Eyni zamanda, bir sıra regional və beynəlxalq məsələlərdə birgə baxışlarımız var. Biz regionlarımızın daha təhlükəsiz və əmin-amanlıq şəraitində olmasına töhfəmizi veririk. Biz ikitərəfli münasibətlərimizin bütün sahələrini nəzərdən keçirdik, mükəmməl siyasi əlaqələrimizin iqtisadiyyat, sərmayə, ticarət, kommersiya, təhsil, müdafiə sənayesi, elm, texnologiya və mədəniyyət sahələrində nəzərəçarpacaq dərəcədə əməkdaşlığa çevrilməsinə olan sadiqliyimizi yenidən

ifadə etdik. Biz ikitərəfli qarşılıqlı ticarət və sərmayə əməkdaşlığına təkan verilməsi ilə bağlı razılığa gəldik.

Cənab Prezident, Sizin atanız – Azərbaycan xalqının ulu öndəri mərhum prezident Heydər Əliyevin Azərbaycanın inkişafına verdiyi töhfə və ölkələrimiz arasında əlaqələrin təşviqi baxımından baxışları Pakistan xalqını dərindən valeh etmişdi. Qardaşım prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin siyasəti dahi şəxsiyyətin baxışlarının həyata keçirilməsinin bariz nümunəsidir. Sizin müdrik rəhbərliyiniz ilə Azərbaycan beynəlxalq arenada layiqli yerini tutub. Son 10 ildə Azərbaycanın əldə etdiyi misli görünməmiş tərəqqi dünyada inkişafda olan bir çox ölkələr üçün nümunə ola bilər. Biz Pakistanda Azərbaycanın inkişaf və tərəqqisini öz inkişafımız və tərəqqimiz kimi qəbul edirik.

Xanımlar və cənablar, bu gün imzalanmış Birgə Bəyannamə və digər sənədlər müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığımızı gücləndirəcək. Mən Dağlıq Qarabağdakı hazırkı vəziyyət və münaqişənin nizamlanması istiqamətində Azərbaycanın səyləri ilə bağlı məlumat aldım. Biz bu məsələnin beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə tezliklə həll edilməsini dəstəkləyirik. Biz həmçinin Pakistan–Hindistan münasibətlərinə dair fikir mübadiləsi apardıq. Mən Hindistan ilə mehriban qonşuluq münasibətlərinin yaradılmasında səylərimizi və bütün mübahisələrin, o cümlədən mühüm əhəmiyyət kəsb edən Cəmmu və Kəşmir məsələsinin sülh şəraitində həll edilməsinə sadiqliyimizi vurğuladım. Biz bu məsələdə Azərbaycanın dəstəyinə böyük dəyər veririk.

Mən həmçinin qardaşım İlham Əliyevlə başladığımız Pakistan–Əfqanıstan əlaqələrinin yeni tarixi mərhələsi və siyasət, təhlükəsizlik, terrorizmlə mübarizə, ticarət və iqtisadiyyat məsələlərində çoxşaxəli dialoqun intensivləşdirilməsi ilə bağlı fikirlərimi bölüşdüm. Biz BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı beynəlxalq forumlar çərçivəsində Azərbaycanla çox sıx işləyirik. Biz bu qənaətdəyik ki, islahat

müfəssəl və konsensusa əsaslanmış olmalıdır. BMT-yə üzvlük yalnız dar milli maraqlarla məhdudlaşmamalıdır.

Xanımlar və cənablar, Azərbaycan ilə Pakistan arasında ikitərəfli münasibətlər gündən-günə güclənməkdə davam edəcək. Bizim ikitərəfli əməkdaşlığımızın inkişafı ilə bağlı birgə səylərimiz, beynəlxalq və regional səviyyədə sülh və inkişafa töhfəmiz gələcək illərdə daha da dinamik olacaq.

Mən qardaş Azərbaycanın inkişafı üçün dua edirəm. Yaşasın Pakistan–Azərbaycan dostluğu! Yaşasın Pakistan–Azərbaycan qardaşlığı! Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA PAKİSTANIN «HİLAL-E-PAKİSTAN» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*11 mart 2015-ci il*

*Mətbuata bəyanatlarla çıxışdan sonra martın 11-də Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn tərəfindən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı – «Hilal-e-Pakistan» ordeninin təqdim edilməsi mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Əvvəlcə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın «Hilal-e-Pakistan» ordeni ilə təltif edilməsi barədə müvafiq qərar oxundu:*

«Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2004-cü ildə Heydər Əliyev Fondunun prezidenti təyin edilmişdir. Fond təhsil, səhiyyə, mədəniyyət, idman, ətraf mühit və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək, Azərbaycanın sosial-iqtisadi inkişafına töhfələr verir. Fondun fəaliyyəti tədricən dost ölkələri, o cümlədən Pakistanı da əhatə etməyə başladı. 2005-ci ilin oktyabrında Pakistanda zəlzələ baş verdikdən sonra Fond 2007-ci ildə Müzəffərabadın Rara qəsəbəsində zəlzələ nəticəsində dağılmış Qızlar məktəbinin tikintisi kimi müxtəlif humanitar layihələrdə fəal iştirak etmişdir. 2011-ci ildə daşqınlar nəticəsində zərər çəkmiş məktəb 2012-ci ildə tam şəkildə yenidən qurulmuş, təmir və təchiz edilmiş, davamiyyəti ilə seçilmiş, tələbələrə isə təqaüdlər verilmişdir. 2012-ci ildə «Hepatit B» peyvəndi İslamabadda Edhi və KPK kimsəsiz evlərinə çatdırılmış, 40 min nəfərə yaxın şəxsə həmin peyvənd vurulmuşdur. Fond, həmçinin qanköçürmə

məqsədilə Həmzə Fonduna tam təchiz edilmiş təcili tibbi yardım maşınını və 2000 qan paketini çatdırmış, Peşəvərdə Xayber Göz Fondunun klinikasının yeni blokunun tikintisinə maliyyə yardımı ayırmışdır. 2013-cü ildə isə Fond Azərbaycanın 12 nüfuzlu universitetində pakistanlı tələbələr üçün sosial elmlər üzrə universitetlərarası konsorsiuma 36 təqaüd ayırmışdır.

Pakistanda göstərdiyi xidmətlərə, eləcə də verdiyi böyük töhfəyə görə Pakistan İslam Respublikasının Prezidenti Mehriban xanım Əliyevanı «Hilal-e-Pakistan» ordeni ilə təltif etməkdən məmnundur».

*Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı – «Hilal-e-Pakistan» ordenini təqdim etdi.*

## Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı

Cənab Prezident, birinci xanım, əziz dostlar!

Pakistan İslam Respublikasının ali dövlət mükafatı – «Hilal-e-Pakistan» ordeni ilə məni təltif etdiyinizə görə, cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan ilə Pakistanı tarixi və mədəni köklərə əsaslanan möhkəm dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Ölkələrimiz bir çox sahələrdə əməkdaşlıq edir və əminəm ki, Azərbaycana etdiyiniz səfər bu əlaqələrimizin gələcək inkişafında mühüm rol oynayacaq.

Çox şadam ki, Heydər Əliyev Fondu xalqlarımızın iradəsini ifadə edən dostluq münasibətlərimizin, ölkələrimiz arasındakı mövcud humanitar əlaqələrin daha da genişləndirilməsi istiqamətində ardıcıl səylər göstərir. Bir sıra mühüm layihələr və xeyriyyə proqramları Pakistanın müxtəlif yerlərində icra olunur. Çox fərəhlənirik ki, birinci layihəmiz – Müzəffərabadda 2005-ci ilin oktyabrında güclü zəlzələ nəticəsində dağılmış Qızlar məktəbinin tikintisi çox uğurlu olmuş və gələcək əməkdaşlığımız üçün yaxşı əsas yaratmışdır.

Fond təhsil, səhiyyə və sosial sahələrdə layihələr həyata keçirir. Pakistanın müxtəlif yerlərində bütün layihələrin icrası zamanı biz yerli əhalidən güclü dəstək aldıq və beləliklə, ikitərəfli münasibətlərimizin ayrılmaz hissəsi olan insanlar arasında təmasların geniş formatını qurduq.

Heydər Əliyev Fondunun prezidenti olaraq fərəhlənirəm ki, Fondumuz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin gücləndirilməsinə töhfə verir. Ümidvaram ki, hər iki prezidentin dəstəyi ilə Pakistandakı fəaliyyətimiz davam edəcək.

Bu fürsətdən istifadə edərək, xalqınıza böyük hörmətimi ifadə etmək istəyirəm. Bütün bu illər ərzində ölkənizdə çoxlu sayda yaxşı dost qazanmışıq. Cənab Prezident, fəaliyyətimizə verdiyiniz bu cür yüksək qiymətə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar, bir daha Azərbaycana xoş gəlmisiniz! Sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

* * *

*Mərasimin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn və xanımı Mehmuda Məmnun xatirə şəkli çəkdirdilər.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*11 mart 2015-ci il*

*Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Pakistan Respublikasının Prezidenti Məmnun Hüseynin şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Pakistan Prezidentinin xanımı Mehmuda Məmnun ziyafətdə iştirak etmişlər.*

## AZƏRBAYCAN–PAKİSTAN BİZNES-FORUMUNDA İŞTİRAK

*12 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn martın 12-də Bakıda keçirilmiş Azərbaycan–Pakistan biznes-forumunda iştirak etmişlər. Dövlət başçıları forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Dünən bizim ikitərəfli münasibətlərimiz üçün çox məhsuldar gün oldu. İkitərəfli əlaqələrimizin gələcək inkişafı barədə söhbət apardıq. Mən əməkdaşlıq səviyyəsindən olduqca məmnunam. Dünən ölkələrimiz arasında tərəfdaşlıq üçün geniş imkanlar yaradacaq mühüm sənədlər imzalandı. Xüsusən də Pakistan ilə Azərbaycan arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə əməkdaşlığımızın mahiyyətini, bir-birimizə olan hissləri özündə əks etdirir. Biz, sözün əsl mənasında, ən yüksək əməkdaşlıq, tərəfdaşlıq və qardaşlıq səviyyəsindən yararlanırıq.

Bizim üçün Pakistan ən yaxın dost və müttəfiqlərdən biridir. Əminəm ki, bu səfər əməkdaşlığımızın inkişafına yeni töhfə verəcək. Gözəl siyasi münasibətlərimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Biz əsl müttəfiqik. Buna görə, əlbəttə ki, biz həmin gözəl münasibətlər fürsətindən

istifadə etməliyik və onları ölkələrimizin biznes dairələri arasında əməkdaşlığa çevirməliyik.

Pakistan ilə Azərbaycan arasında ticarət dövriyyəsinə nəzər saldıqda, əlbəttə ki, bu bizi qane edə bilməz. Həmin səbəbdən, mən cənab Prezidentə olduqca minnətdaram ki, o, Azərbaycana böyük nümayəndə heyəti – Pakistanın işgüzar dairələrinin mühüm təmsilçiləri ilə gəlib. Ölkəmiz, imkanlar və həyata keçirilməsini planlaşdırdığımız layihələr haqqında daha çox bilmək imkanı yaranıb. Eyni zamanda, biznes-forumun yaxşı nəticələrini görmək istəyirik.

Ümumiyyətlə, biznes-forum, işgüzar dairələrin nümayəndələri arasında görüşlər kimi əməkdaşlıq formatı çox səmərəlidir və yaxşı nəticələr verə bilər. Əminəm ki, bu gün siz ilk öncə qarşılıqlı ticarət səviyyəsinin artırılması, ölkələrimizdən nəyin idxal olunması haqqında söhbət aparacaqsınız. Hesab edirəm ki, hökumət strukturları əlaqələndirici kimi çıxış edə bilər. Müvafiq nazirliklər, eyni zamanda, hökumətlərarası ticarət və iqtisadiyyat Komissiyası bu məsələni əlaqələndirə bilər. Həm biz, həm də siz bir çox malları idxal edirik. Bu səbəbdən biz iqtisadiyyatımızı gücləndirmək və ümumi dövriyyəmizi artırmaq üçün bir-birimizdən nəyi idxal edə biləcəyimiz haqqında düşünməliyik.

Şad olardıq ki, Pakistan şirkətləri Azərbaycanda sərmayə imkanlarını nəzərdən keçirsinlər. Bu xüsusən də iqtisadiyyatımızın idxaldan asılı olan sahələrinə aiddir, çünki bazarımız artır. Bu səbəbdən istehsalatın ölkəmizdə artırılması hökumətimizin prioritetlərindən biridir. Fikrimcə, xarici sərmayədarlar üçün bu məsələləri nəzərdən keçirmək faydalı olardı. Çox münbit sərmayə mühiti var. Müstəqilliyin son illəri ərzində Azərbaycana təxminən 200 milyard dollar sərmayə yatırılıb. Bu, ilkin olaraq, enerji sektoruna aiddir. İndi isə iqtisadiyyatımızın digər sahələri də əhatə olunur.

Biz Pakistan şirkətlərini podratçı kimi görmək istəyirik. Əminəm ki, bu gün burada, əsasən Bakıda, eləcə də regionlarda icra etdiyimiz infrastruktur layihələrinin təqdimatı da olacaq.

Artıq biz regionların inkişafı ilə bağlı rayonlarımızda yeni imkanlar açmış 2 proqramı uğurla həyata keçirmişik. Hazırda üçüncü proqram icra olunmaqdadır. Əslində, gələn bir neçə illər üçün planlarımız yaxşı məlumdur. Regionların inkişaf proqramı mətbuatda çap edilib. Hər rayonda, hər şəhərdə planlaşdırılmış iş əhalimizə və sərmayədarlara yaxşı məlumdur.

Hər il dövlət sərmayə proqramını qəbul etdikdə, biz əsasən infrastruktura, sosial infrastruktura diqqət yetiririk. Bu səbəbdən Azərbaycanda xarici podratçılar üçün birgə icra edə biləcəyimiz böyük həcmdə işlər var. Xüsusən də Pakistanda və Azərbaycanda iqtisadiyyatımız üçün vacib sahələrdə birgə müəssisələrin yaradılması haqqında düşünə bilərik. Qarşılıqlı sərmayə proqramlarını da yüksək qiymətləndirə bilərik. Bir daha söyləmək istəyirəm ki, biz yaxşı biznes imkanlarının yaradılması üçün əla siyasi münasibətlər fürsətindən yararlanmalıyıq. Bu, birincisi. İkincisi isə, biz bir-birimizi BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda dəstəklədiyimiz kimi, həmçinin iqtisadi əməkdaşlıq baxımından da dəstəkləməliyik. Biznes imkanlarının təşviq edilməsi üçün bir-birimizə dəstək verməliyik.

Dünən biz cənab Prezidentlə islam həmrəyliyi haqqında danışdıq. Biz Azərbaycanda və siz Pakistanda bütün müsəlman ölkələri arasında daha yaxşı anlaşma və əməkdaşlığın yaradılması üçün çox çalışırıq. Biz işlərimiz, bəyanatlarımız və iqtisadi imkanlarımızla bir-birimizə dəstək verməliyik. İqtisadiyyatın bir sahəsində yaxşı təcrübəyə malik olan ölkələr digər ölkələrə texnologiyanın, təcrübənin və biliklərin verilməsində kömək etməlidir.

Bir sözlə, məqsədlərimiz üst-üstə düşür. Əminəm ki, bu gün keçirilən biznes-forumdan sonra çox yaxşı nəticələr olacaq və yaxın zamanlarda müvafiq nazirliklərdən əməkdaşlığın yeni sahələri haqqında yaxşı hesabatlar alacağıq.

Azərbaycanın iqtisadiyyatına gəldikdə, o çox sürətlə inkişaf edir. Azərbaycanın müstəqilliyinin ilk illərində iqtisadi vəziyyətimiz çox ağır idi. Ölkəmizdə yoxsulluğun və işsizliyin

səviyyəsi çox yüksək idi. İnflyasiya 1000 faizdən artıq idi. Sonra biz keçən əsrin 90-cı illərinin ortalarında iqtisadi islahatları həyata keçirməyə başladıq. Onlar bu günə qədər davam edir. Hazırda iqtisadiyyatımız rəqabətədavamlı iqtisadiyyat hesab olunur. Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını qlobal rəqabətədavamlılıq göstəricisinə görə 38-ci yerdə qərarlaşdırıb. Bu əsasən, iqtisadi islahatlar sayəsində əldə edilib.

Biz işsizlik və yoxsulluğu 5 faizə qədər azalda bilmişik. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olub. Bu əsasən, artan neft və qaz hasilatı ilə bağlı olub. Eyni zamanda, iqtisadi islahatlarımız da nəticə verib. Hazırda neftin qiyməti aşağı düşdüyü halda, görürük ki, iqtisadiyyatımız hələ də inkişaf edir. Eyni vəziyyət 5-6 il öncə baş vermişdi. Həmin vaxt neft sənayesi bəzi çətinliklərlə üzləşdi, Avropada ciddi iqtisadi və maliyyə böhranı baş verdi. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı inkişaf edirdi. Ümumi daxili məhsul artırdı və iqtisadiyyatımızın qeyri-neft sektoru inkişaf edirdi. Bu bizim üçün daha vacibdir, çünki planlarımız daha çox şaxələndirməni nəzərdə tutur. Əgər əvvəlki illərdə neft və qazın qiymətlərindən daha çox asılı idiksə, hazırda neft və qaz ÜDM-in təxminən 40 faizini təşkil edir.

Bununla belə, bu yenə də ixracımızın ən böyük hissəsidir. Həmin səbəbdən, biz iqtisadiyyatın şaxələndirilməsində, yeni sərmayə imkanlarının yaradılmasında, yerli istehsalatın artırılmasında, eyni zamanda, enerji resurslarından əlavə, digər malların ixracında maraqlıyıq. Bu halda mühüm məqama gəlirik. Əlbəttə ki, məhsullar beynəlxalq standartlara cavab verməlidir. Biz də bunu edirik. İkinci vacib element isə bazarlardır. Bu gün bildiyiniz kimi, yumşaq desək, bazarlar uğrunda yarışma, daha doğrusu, mübarizə gedir. Həmin səbəbdən bizim kimi qardaş ölkələr bazarlara daxil olmaq məqsədilə bir-biri üçün imkanlar yaratmalıdır. Artıq öncə qeyd etdiyim kimi, biz çox idxal edirik, siz daha çox idxal edirsiniz.

Bir-birimizi hansı ixrac sahələrilə təmin etmək üzərində düşünməliyik. Biz bazarlarımızı bir-birimiz üçün açıq elan etməliyik. Belə olan halda, iş yerləri açılar, kapital formalaşar və iqtisadi fəaliyyət yaranar.

Bir sözlə, biz ikitərəfli iqtisadi əməkdaşlığımıza böyük nikbinliklə baxırıq. Biz gözəl fürsəti əldən verməli deyilik və praktiki layihələrə diqqət yetirməliyik. Bu gün Azərbaycan tərəfindən planlaşdırdığımız işlər, qaydalar, hüquqi şərait, vergi rejimi, sərmayə imkanları və nəhayət, gələcək üçün planlarımız barədə kifayət qədər informasiya veriləcək.

Bu səbəbdən mən Pakistanın işgüzar dairələrinin bütün təmsilçilərini Azərbaycanda salamlamaq istəyirəm. Eyni zamanda, cənab Prezidentə Azərbaycana etdiyi səfərə və iqtisadi sahəyə diqqət yetirmək fürsətini yaratdığına görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Çox sağ olun.

## Pakistan prezidenti Məmnun Hüseynin çıxışı

Azərbaycan Respublikasının Prezidenti, əziz qardaşım zati-aliləri İlham Əliyev!

Hörmətli nazirlər!

Xanımlar və cənablar!

Əvvəlcə, icazə verin, mənə və nümayəndə heyətimə göstərilmiş olduqca səmimi qəbula, qonaqpərvərliyə görə zati-aliləri cənab Prezidentə və Azərbaycan hökumətinə ən dərin təşəkkürümü, səmimi minnətdarlığımı bildirim. Azərbaycanda hiss etdiyimiz xeyirxahlıq, səmimiyyət və xoş iradə ölkələrimiz arasında təşəkkül tapmış, vaxtın sınağından keçmiş sıx ikitərəfli münasibətlərin bariz nümunəsidir.

Pakistan ilə Azərbaycan mədəni və dini yaxınlığa, uzun tarixi köklərə əsaslanan mükəmməl və çoxşaxəli münasibətlərə malikdir. Qeyd etməkdən olduqca fərəhlənirik ki, Pakistan müstəqil Azərbaycanı tanıyan ilk ölkələrdən biri olub və həmin

vaxtdan etibarən iki ölkə arasında münasibətlər dayanmadan güclənir.

Bugünkü dünyada iqtisadi maraqlar ən yüksək maraqlar hesab olunur və iqtisadi əməkdaşlığın miqyası hazırda ikitərəfli əlaqələrin səviyyəsini bilmək üçün əsas göstərici hesab edilir. Bu səbəbdən, biz də həmin səviyyədən geridə qala bilmərik.

Uzun müddət ərzində Pakistan və Azərbaycan qarşılıqlı fayda verə biləcək müxtəlif sahələrdə ekspert bacarıqlarını formalaşdırıblar. Əczaçılıq məhsulları, cərrahiyyə alətləri, idman və geyim malları, müdafiə avadanlığı, düyü, meyvələr və dəniz məhsulları kimi, Pakistanın yüksəkkeyfiyyətli malları Azərbaycan bazarına səmərəli şəkildə daxil olmağa hazırdır. Eyni zamanda, Azərbaycanın neft və qaz kəşfiyyatı, hasilatı və emalı sahəsindəki ekspert bilikləri Pakistana potensial qaydada böyük fayda verə bilər. İkitərəfli ticarəti gözəçarpan dərəcədə artırmaq və şaxələndirmək üçün böyük potensial var. Son bir neçə ildə Azərbaycanda ümumi daxili məhsulun yüksək artımı və Pakistan iqtisadiyyatının potensialı iqtisadi münasibətlərin yeni zirvəyə qaldırılması üçün birgə səylərin göstərilməsini zəruri edir.

Xanımlar və cənablar, Pakistan Cənubi, Mərkəzi və Qərbi Asiyanın kəsişdiyi yerdə yerləşir. Yerli bazar 150 milyondan artıq insandan, o cümlədən gənc, təhsilli və bacarıqlı əmək qüvvəsindən ibarətdir. Pakistanın da zəngin, işlənilməmiş təbii sərvətləri var. Sind əyalətində kömür ehtiyatlarımız dünyada ən iri ehtiyatlardan biridir. Bütün bu üstünlüklər müvafiq sərmayə siyasəti ilə yanaşı, Pakistanda sərmayə üçün ideal imkanlar yaradır.

Bizim biznesmenlər üçün də Azərbaycanda sərmayə qoymaq imkanları var. Müxtəlif sahələrdə birgə müəssisələr yaradıla bilər. Əminəm ki, Pakistandan gəlmiş nümayəndə heyəti bu səfərdən tam şəkildə istifadə etməlidir və bu məqsədlərlə Azərbaycanda və Pakistanda birgə müəssisələrin qurulması üçün Azərbaycanın işgüzar dairələri ilə əlaqə yaratmalıdırlar.

Ölkəmizdə liberal sərmayə siyasəti, o cümlədən 100 faizlik səhmlərin alınması, kapitalın tam çıxarılması imkanları, vergidən azad olmalar və avadanlığın, dəzgah və xammalın

idxalına güzəştli gömrük rüsumları tətbiq olunur. Səmərəli infrastruktura və «bir pəncərə» prinsipinə malik xüsusi iqtisadi zonalar fəaliyyət göstərir. Milli iqtisadiyyatın yenidən qurulması və canlandırılması üçün dinamik siyasətimizin bir hissəsi olaraq, biz özəl sektorda yatırımlara, xüsusən xarici özəl sərmayələrə böyük önəm veririk. Pakistan və Azərbaycanın birgə işləyə biləcəyi mühüm sahə neft və qaz sektorudur. Mən nəinki kəşfiyyat və hasilat sahələrində, o cümlədən neftayırma zavodlarının və boru kəmərlərinin tikintisi sahəsində sıx əməkdaşlığı səmimiyyətlə arzulayıram. Termal, kömür, külək və günəş enerjiləri sahələrində böyük potensialı ilə seçilən Pakistanın enerji sektoru sərmayələrə açıqdır. 5 min meqavatdan artıq elektrik enerjisi istehsalını nəzərdə tutan irimiqyaslı layihələrdən başlamış, kiçik və ortamiqyaslı layihələrə qədər imkanlar olduqca genişdir.

Toxuculuq sənayesi ölkəmizin ixrac gəlirlərinin əsas mənbəyidir. Toxuculuq məhsullarımızın çeşidi genişdir, keyfiyyəti isə beynəlxalq standartlara uyğundur. Xam pambıq xammalının bolluğu, o cümlədən ucuz və bacarıqlı əmək qüvvəsi sərmayədarlar üçün əlavə şəraitlər yaradır. Bildirməliyəm ki, tam istehsal prosesini aparmaq istəyən Azərbaycan sərmayədarları üçün imkanlar genişdir. Onlar neft və qaz, bərpa olunan enerji, proqram təminatı üzrə texnologiya parkları, toxuculuq, kənd təsərrüfatı, turizm, kiçik və orta müəssisələr və infrastruktur kimi müxtəlif sahələrdə 100 faiz səhmlərin alınması prinsipi, yaxud birgə müəssisələrin yaradılması üçün böyük imkanlardan istifadə edə bilərlər.

Cənab Prezident, xanımlar və cənablar, özəl sektor artım təkanıdır. Biz ənənəvi dövlətlərarası münasibətlərin hüdudlarından kənara çıxaraq şirkətlər arasında sıx və intensiv münasibətlərin inkişafını arzulayırıq. Pakistanın əsas sektorlarını təmsil edən aparıcı biznes adamları və baş icraçı direktorlardan ibarət böyük nümayəndə heyəti bu gün bu zaldadır. Əminəm ki, onların azərbaycanlı həmkarları ilə qarşılıqlı fəaliyyəti konkret və güclü əməkdaşlıqla nəticələnəcək.

Çıxışımı yekunlaşdırmazdan öncə Pakistanın son illər ərzində əldə etdiyi iqtisadi nəticələr barədə qısa məlumatı sizinlə bölüşmək istərdim. Pakistanda həyata keçirilən davamlı iqtisadi islahatlar birbaşa xarici sərmayələri cəlb etmək üçün bizə yaxşı əsas yaratdı. Bu gün ölkəmizə yatırılmış birbaşa xarici sərmayələrin həcmi 30 milyard dollardır və müxtəlif beynəlxalq şirkətlər Pakistanın müxtəlif sahələrində fəaliyyət göstərir. İqtisadiyyat üzrə komandamızın böyük səyləri sayəsində iqtisadiyyatımız yenidən sabitlik mərhələsinə qaytarıldı. Ötən ay inflyasiyanın həcmi 3 faizdən az olmuşdur və bu, 11 illik dövr ərzində ən yaxşı göstəricidir.

Fiskal kəsirimiz təxminən 5 faizdir və ilkin hədəfimizə yaxındır. Pakistan rupisi nəinki sabitləşib, hətta ABŞ dolları, avro və yapon yeninə qarşı məzənnədə qalxıb. Xarici valyuta ehtiyatlarımız, bank köçürmələri və özəl sektora verilən kreditlər xeyli artıb. Səhmlər bazarı inkişaf edir və demək olar ki, gündəlik əsaslarla yeni rekordlar qazanır və nəhayət, regionda ən yaxşı fəaliyyət göstəricisi ilə seçilir. Həmçinin enerji istehsalımız, irimiqyaslı istehsalata sərmayə qoyuluşu və ölkə gəlirləri artır. Biz həmçinin yeni maye qaz idxal terminalı tikirik və apreldə elektrik enerjisi stansiyalarımız üçün təbii qaz idxal edəcəyik. Biz kömür, hidro, nüvə, külək və günəş enerjilərindən elektrik enerjisini istehsal edən stansiyaları həm dövlət, həm də özəl sektorda tikməyə başlamışıq. Eyni zamanda, idxal edilən maye qazla işləyəcək, gücü 3600 meqavat olan elektrik stansiyasını tikməyi planlaşdırırıq.

Cənab Prezident, xanımlar və cənablar, biz az inkişaf etmiş və açıq dənizə çıxışı olmayan dövlətlərdə yüksək iqtisadi artımı təmin etmək üçün regional və alt regional səviyyədə iqtisadi inteqrasiyanı sürətləndirmək səylərini yaxşı bilirik. Bu proseslərdə İqtisadi Əməkdaşlıq Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq və Mərkəzi Asiya–Cənubi Asiya Regional Elektrik Enerji bazarı kimi regional hökumətlərarası platformaları olduqca vacib hesab edirik. Bu səbəbdən biz təbii qazın Türkmənistandan

Əfqanıstan vasitəsilə Pakistana, sonra isə Hindistana nəql edəcək TAPI boru kəmərinin çəkilməsinə çalışırıq. Biz həmçinin Mərkəzi Asiyadan Cənubi Asiyaya elektrik enerjisini çatdıracaq «CASA-1000» layihəsi üzərində işləyirik. Biz fikrimcə, nəinki Pakistan, o cümlədən regionda vəziyyəti tam dəyişəcək Çin–Pakistan İqtisadi Dəhlizin yaradılması üçün ürəkdən çalışırıq. Bu dəhliz boyu yerli və xarici sərmayədarlar üçün gözəl sərmayə imkanlarını təmin edəcək xüsusi iqtisadi zonalar fəaliyyət göstərəcək. Beləliklə, regional əlaqə bizim üçün sadəcə, əfsanə deyildir, biz onu reallığa çevirməyə çalışırıq. Bu isə öz növbəsində, Pakistanı gücləndirəcək. Beləliklə, hamınızın qeyd etdiyi kimi, güclü və inkişaf edən Pakistan bütün regionda sülhün və rifahın bərqərar olunmasına xidmət edir.

Cənab Prezident, xanımlar və cənablar, sonda mən Pakistanın Sərmayə Şurasını bu uğurlu tədbiri digər hökumət orqanları ilə təşkil etməsi münasibətilə təbrik edirəm. Mən həmçinin Azərbaycanın buradakı iş adamlarına, Bakıya gəlmiş və azərbaycanlı tərəfdaşları ilə məzmunlu dialoq apardıqlarına görə Pakistan biznesmenlərinə təşəkkürümü bildirirəm.

Mən əmin etmək istərdim ki, Pakistan hökuməti ölkəmizdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən Azərbaycan şirkətlərinə bütün şəraitləri yaradacaq. Mən Azərbaycan hökuməti və xalqına səfərimiz zamanı bizə göstərilmiş səmimi qəbula və qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Əminəm ki, bu gün qurulan biznes təmasları iqtisadi münasibətlərimizdə yeni səhifə açacaq.

Çox sağ olun, cənab Prezident.

Hamınıza «çox sağ ol» – deyirəm. Yaşasın Pakistan–Azərbaycan dostluğu!

* * *

*Sonra Azərbaycan Ticarət və Sənaye Palatası və Pakistan Sənaye və Ticarət Palataları Federasiyası arasında Anlaşma Memorandumu imzalandı.*

*Biznes-forum işini təqdimatlarla davam etdirdi.*

*Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov, Azərbaycan Ticarət və Sənaye Palatasının rəhbəri Niyaz Əlizadə, Pakistanın İnvestisiya İdarəsinin katibi İftixar Hüseyn Babar, Pakistan Ticarət Nazirliyinin Ticarətin İnkişafı İdarəsinin katibi xanım Rabiya Javeri Ağa, Pakistan Su və Elektrik Enerjisi Nazirliyinin Özəl Elektrik Enerjisi İnfrastrukturu İdarəsinin nümayəndəsi Mir Adil Həmid, Pakistanın Ticarət və Sənaye Palataları Federasiyasının vitse-prezidenti Məhəmməd Vasim Vohran və başqaları biznes və investisiya imkanlarına, iqtisadiyyatın müxtəlif sahələrinə, eləcə də sahibkarlar arasında əməkdaşlığın genişləndirilməsinə dair təqdimatlarla çıxış etdilər.*

*Biznes-forumda qeyri-neft məhsullarının ixracı, Azərbaycanda yaradılan sənaye parklarında iştirak, qarşılıqlı şəkildə infrastruktur layihələrinin icrası və mövcud infrastrukturdan istifadə, tranzit, kənd təsərrüfatı, kimya, turizm və s. sahələrdə əməkdaşlıq, biznes-forumların, sərgi və yarmarkaların təşkili məsələləri barədə fikir mübadiləsi aparıldı.*

*Sonra Azərbaycan və Pakistan iş adamları arasında ikitərəfli görüşlər keçirildi.*

*Görüşlərdə kənd təsərrüfatı, sənaye, toxuculuq, səhiyyə və əczaçılıq, kimya sənayesi, ticarət, tikinti materialları, idman malları və məişət texnikası istehsalı, qida və mədənçıxarma sənayesi, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, yeni əlaqələrin qurulması məsələləri müzakirə olundu.*

## BƏRDƏ RAYONUNA SƏFƏR

*12 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdə rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə şəhərdə yeni salınmış və ulu öndərin adını daşıyan park-bulvarda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev bildirdi ki, bərdəlilərin ulu öndərin xatirəsinə ehtiram əlamətinin rəmzi olan bu möhtəşəm abidə yeni ucaldılıb. Abidənin postamenti və ətrafı orijinal layihə əsasında qurulub.*

### Heydər Əliyev adına park-bulvarın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdədə Heydər Əliyev adına park-bulvarın açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı park-bulvarın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Ölkənin ümumi inkişaf tempinə uyğun olaraq sürətlə müasirləşən və gözəlləşən Bərdə şəhərində yeni park-bulvar kompleksi yaradılıb. Ulu öndər Heydər Əliyevin adını daşıyan bu kompleks Gəncə şəhərindən sonra ən böyük mədəniyyət və istirahət mərkəzlərindən biridir. Uzunluğu 2400 metr olan park-bulvar kompleksi ilkin mərhələdə 47 hektar ərazini əhatə edir və gələcəkdə daha da genişləndiriləcək. Parkın giriş qapısı öz əzəməti ilə diqqəti cəlb edir. Eni 36 metr, hündürlüyü 12 metr olan giriş qapısı milli memarlıq üslubunda ucaldılıb. Kompleksə əlavə 6 istiqamətdən giriş qapısı tikilib. İnşaat işləri aparılarkən Bərdənin qədim tarixini özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşılıb. Belə ki, Tərtər çayının yatağında göl və şəlalələr yaradılarkən VII əsrə aid nadir tarixi tikilinin qalıqları saxlanılıb. Abidəyə 2 istiqamətdən asma körpü çəkilib.*

*12 fəvvarənin körpülər vasitəsilə bir-birinə birləşdirilməsi parkın ecazkarlığını daha da artırır.*

*Parkın mərkəzində ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsi ucaldılıb. Abidə ətrafında yerli çay daşlarından rəmzi olaraq çay yatağını xatırladan kompozisiya quraşdırılıb. Ətrafda 5 fəvvarədən ibarət kompleks yaradılıb. Bütövlükdə park-bulvarda 16 min kvadratmetr qranit işləri görülüb.*

*Dövlətimizin başçısına məlumat verildi ki, hakimiyyətdə olduğu bütün dövrlərdə Bərdəyə xüsusi həssaslıqla yanaşmış ümummilli liderin adına layiq Mədəniyyət və istirahət parkının yaradılması təşəbbüsü bərdəlilərin ulu öndərin əziz xatirəsinə ehtiramının nəticəsidir. Elə bu ərazidə 1979-cu ilin sentyabrında ulu öndərin öz əli ilə əkdiyi sərv ağacının indiyədək qorunub mühafizə olunması da ümummilli liderin xatirəsinə ehtiramın bir nümunəsidir. Ümumilikdə 12 fəvvarə, 2 süni göl, 2 su aşırımından ibarət olan, gözəl tərtibatı ilə zövq oxşayan kompleksdə istirahət üçün bütün zəruri infrastruktur yaradılıb.*

*Prezident İlham Əliyev parkda ağac əkdi.*

*Komplekslə tanışlıq zamanı bildirildi ki, 10 hektar ərazini əhatə edən süni göllər üçün alınmış qayıqlar istirahət edənlərin ixtiyarına veriləcək. Bulvarın qurtaracağında quraşdırılan 3 fəvvarə burada gözəl mənzərə yaradır. Kompleksdə keçiriləcək müxtəlif tədbirləri nəhəng monitor vasitəsilə izləmək mümkün olacaq. Burada velosiped həvəskarları üçün 1,2 kilometr uzunluğunda yol salınıb və 10 ədəd velosiped alınıb. Park-bulvara üz tutanların istirahətinin mənalı təşkili üçün 1000 tamaşaçı yeri olan süni örtüklü stadion, örtülü əl oyunları meydançası, 1000 yerlik yay kinoteatrı, 2 min kvadratmetr ərazidə uşaq əyləncə mərkəzi, ana-uşaq kafesi, ikimərtəbəli çay evi, istirahət köşkləri, ticarət və iaşə obyektləri, inzibati bina inşa olunub.*

*Burada dövlətimizin başçısına Bərdə şəhərində Tərtər çayı üzərində tikiləcək yeni asma körpünün layihəsi təqdim olundu.*

*Hazırda mövcud olan körpünün əvəzində tikiləcək yeni qurğunun uzunluğu 128 metr, eni 18,5 metr olacaq.*

*Prezident İlham Əliyevə, həmçinin tikilməsi nəzərdə tutulan Qarabağ Dövlət Tarix Muzeyinin eskiz layihələri də təqdim olundu.*

*Parka avtomobillə gələnlər 300 yerlik dayanacaqdan istifadə edə biləcəklər. Prezident İlham Əliyev parkın ərazisini elektromobillə gəzdi.*

*Tərtər çayının sağ sahilində yaradılan süni təpə və yaşıllıq massivi, həmçinin əkilmiş 20 mindən çox çiçək, gül kolu və ağaclar parkın füsunkarlığına əlavə çalarlar qatır.*

*Prezident İlham Əliyev parkın ərazisində qorunan qədim körpü qalıqlarına baxdı. Vaxtilə karvan yolu üzərində yerləşmiş bu körpü lap qədimdən Bərdənin yaxın və Orta Şərqdə iri ticarət və mədəniyyət mərkəzi kimi formalaşmasında mühüm rol oynayıb.*

*Yeni salınan park-bulvara 22 kilometr su xəttinin, 27 kilometr yeraltı elektrik xəttinin çəkilişi, subartezian quyusunun qazılması, çoxlu sayda işıqlandırma nöqtələrinin və 10 ədəd relyef birləşdirici pilləkənin quraşdırılması bu möhtəşəm mədəniyyət və istirahət mərkəzində görülən işlərin həcminin göstəricisidir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, gələcəkdə parkın daha da genişləndirilməsi, 30 hektar ərazidə təbii göllərin yaradılması, Tərtər çayı boyunca bulvarın ümumi uzunluğunun 4,3 kilometrə çatdırılması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev yeni park-bulvarın imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## 588 məcburi köçkün ailəsi üçün yeni salınmış yaşayış kompleksində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdədə 588 məcburi köçkün ailəsi üçün yeni salınmış yaşayış kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir. Məcburi köçkünlərin müvəqqəti*

*yaşayış yerləri və çadır şəhərciklərindən müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən biri məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasıdır ki, bununla bağlı görülən işlər nəticəsində bu gün ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayıb, orada yaşayan insanların hamısı müasir tipli qəsəbələrə köçürülüb. Onların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bunu prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Bərdədə 588 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksində yaradılan şərait də təsdiqləyir.*

*Son illərdə məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Prezident tərəfindən onlarla fərman və sərəncam imzalanıb, müxtəlif qanunlar təsdiqlənib. Dövlət başçısının 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» qəbul olunub. 2003–2013-cü illərdə 25 minə yaxın məcburi köçkün ailəsi mənzillə təmin edilib. Həmin illər ərzində hərtərəfli infrastruktura malik onlarla məktəb binası, uşaq bağçası, tibb müəssisəsi və rabitə evi tikilib. 2015-ci ilin mart ayına olan məlumata əsasən, bu qəbildən olan insanlar üçün indiyədək 89 müasir qəsəbə salınıb. Beləliklə, 46 min ailənin və ya 230 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Təkcə 2014-cü ildə məcburi köçkün ailələri üçün 7 yeni qəsəbə və ya yaşayış kompleksi yaradılıb. Bu məqsədlə il ərzində Dövlət Neft Fondundan 300 milyon manat, digər investisiya xərclərindən isə 50 milyon manat vəsait ayrılıb. 2015-ci ildə isə məcburi köçkünlər üçün 4 yeni yaşayış kompleksinin inşa edilməsi, 2500 ailənin və ya 11 min nəfərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması nəzərdə tutulub.*

*Prezident İlham Əliyevə yeni salınan yaşayış kompleksi barədə məlumat verildi. Bu kompleks dövlətimizin başçısının «Qaçqınların*

*və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na 2011-ci il 21 fevral tarixli Sərəncamı ilə təsdiq edilən Əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunub. Yeni yaşayış kompleksinə Bərdədə yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri köçürüləcək.*

*Prezident İlham Əliyev mənzillərə baxdı.Burada yaradılan şərait göstərir ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xarakterik xüsusiyyətlərindən biri də ölkədə həyata keçirilən siyasətin müsbət nəticələrinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının yaxşılaşmasıdır.*

*Yeni məhəllənin sxeminə və maketinə baxan prezident İlham Əliyevə məlumat verildi ki, 11 hektar sahəni əhatə edən yeni yaşayış kompleksində 588 mənzil, 640 şagird yerlik məktəb, 140 yerlik uşaq bağçası, ATS və digər inzibati binalar tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Bərdənin kommunikasiya şəbəkələrinə qoşulub. Kompleksin tikintisinə 2014-cü ilin iyun ayında başlanılıb və bu ilin mart ayında tam başa çatdırılıb. Yeni kompleks qaçqın və məcburi köçkünlər üçün salınmış 90-cı yaşayış kompleksidir.*

*Dövlətimizin başçısı kompleksdəki məktəbdə yaradılan şəraitlə tanış oldu. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin təhsilə qayğısını və məcburi köçkünlərlə görüşünü əks etdirən fotostendlərə baxdı. Burada, həmçinin indiyədək istifadəyə verilmiş yeni qəsəbələrin fotostendləri də yaradılıb. Məktəblə tanışlıq zamanı bildirildi ki, bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb.*

*Dövlətimizin başçısı yaşayış kompleksindəki uşaq bağçasında da oldu və yaradılan şəraitlə maraqlandı. Uşaq bağçasında balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınıb.*

*Prezident İlham Əliyev yeni yaşayış kompleksində görülən işlərdən razılığını bildirdi.*

## REGİONAL «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ BƏRDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bərdə regional «ASAN xidmət» Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci ilin iyul ayının 13-də bu sahədə daha mühüm islahata imza atıldı, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı. 2012-ci il dekabrın 29-da isə pilot layihə olaraq Bakıda 1 saylı «ASAN xidmət» Mərkəzi fəaliyyətə başladı. 2013-cü il ərzində paytaxtın bir neçə rayonunda da «ASAN xidmət» sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olan xidmətlər üstünlük təşkil edir. Əgər əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzlərdə 32 növ funksional yardımçı xidmətlər təşkil edilib. Bütün bunlar dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Belə ki, Avropa Parlamentində «İnnovasiya və Mobil İmza–Avropa ilə yeni rəqəmsal inteqrasiya vasitəsi kimi» mövzusunda keçirilən konfransda «ASAN xidmət»in fəaliyyəti ilə bağlı təqdimat olub. Bu faktın özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan «ASAN xidmət»ə dünyada böyük maraq vardır. Təsadüfi deyil ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək, «ASAN xidmət»lərin fəaliyyəti ilə yaxından tanış olurlar. Artıq Bərdə rayonunda da «ASAN xidmət» Mərkəzi fəaliyyətə başlayır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Bərdə regional «ASAN xidmət» Mərkəzinin binasının inşasına 2014-cü ilin aprel ayında başlanılıb və bu ilin mart ayında başa çatdırılıb. Dördmərtəbəli binanın tikintisi ən yüksək standartlara uyğun həyata keçirilib. Mərkəz rayonun Heydər Əliyev prospektində şəhər infrastruktur obyektlərinə yaxın ərazidə yerləşir. Həyətdə uşaq avtoşəhərciyi yaradılıb və burada balacaların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün bütün şərait var. Bundan əlavə, böyüklərin istirahəti və əylənmələri üçün də lazımi şərait yaradılıb.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Mərkəzdə müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü qoyulub.*

*Prezident İlham Əliyev yeni xidmətin işə başlamasını bildirən düyməni basdı.*

*Geniş beynəlxalq marağın nəticəsidir ki, bu il Bərdə «ASAN xidmət» Mərkəzi OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata layiq görülüb. Standartın əsas tələbi xidmət mərkəzinin fəaliyyət göstərdiyi inzibati binalarda təhlükəsiz və sağlam iş mühitinin yaradılmasıdır.*

*Hazırda ölkəmizdə 7 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir. Onlardan 4-ü paytaxt Bakıda, digər 3-ü isə regional mərkəz olmaqla, Sumqayıt, Gəncə və Sabirabaddadır. Bərdə «ASAN xidmət» Mərkəzi sayca 8-cidir.*

*Prezident İlham Əliyev xidmətdə yaradılan şəraitlə tanış olarkən bildirildi ki, «ASAN xidmət» Mərkəzinin fəaliyyətindən Bərdə də daxil olmaqla, Ağdam, Ağcabədi, Laçın, Yevlax və Tərtər rayonlarının 800 minə yaxın sakini yararlanacaq. Ümumilikdə fəaliyyətə başladığı tarixdən bu günədək «ASAN xidmət»lərə 4 milyon 120 mindən çox müraciət daxil olub.*

*Dövlətimizin başçısına «ASAN məktəb» layihəsi barədə də məlumat verildi. Bildirildi ki, layihə Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək. Layihə çərçivəsində ilkin mərhələdə məktəbə Bərdə rayonunda qəbul aparılacaq. Xatırladaq ki, digər mərkəzlərdə olduğu kimi, burada da internetə açıq olan kompüterlər qoyulub və vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılıb. «ASAN xidmət» Mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər–bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilib.*

*Prezident İlham Əliyev İnnovasiyalar zalında yeni layihələrlə tanış oldu.*

*Bildirildi ki, sorğu robotu – «ASAN robot» «ASAN xidmət» mərkəzlərinə müraciət edən vətəndaşların istiqamətləndirilməsi və məlumatlandırılmasına xidmət edir. Belə ki, robot «Çağrı» mərkəzinin operatorları ilə canlı bağlantı yaradaraq vətəndaşın sorğu və müraciətinin qəbul olunmasını təmin edir.*

*«ASAN xidmət» Mərkəzində «ASAN İnteraktiv Bələdçi» Azərbaycana gələcək turistlərin ölkəmizə dair məlumatları heç bir fərdi bələdçiyə ehtiyac duymadan, birbaşa öz smartfonları vasitəsilə əldə etmələrinə imkan verən mobil yenilikdir. Proqramı öz telefonlarına konfiqurasiya edən turistlər üzərində xüsusi «Artex» markeri olan obyektlərə dair məlumatları interaktiv və əyləncəli formada öyrənə biləcəklər. Proqram təminatının digər*

bir xüsusiyyəti də turistlərin konkret və darıxdırıcı proqrama tabe olmağa məcbur edilməməsidir. Bu da onların gəzinti vaxtı rahatlığına və maraqlandıqları obyektlərlə yaxından tanış ola bilmələrinə imkan verəcək. Proqramın təqdim olunan hissəsi 3 bölmədən ibarətdir və hər bir bölmə «Artex» markeri yerləşdirilmiş fərqli posterlər üzərindən işləyir. Bölmələrdən biri iyun ayında «Bakı–2015» I Avropa oyunlarının açılış və bağlanış tədbirlərinin keçiriləcəyi Olimpiya stadionunun nümayişindən ibarətdir. Bu bölmədə Olimpiya stadionuna dair məlumatlar görüntülü formada yerləşdirilib. Proqramın ikinci hissəsi Bərdə «ASAN xidmət»inin açılışına həsr olunub. Üçüncü bölmə isə Bərdə şəhərində yeni inşa edilən və ümummilli liderin adını daşıyan Heydər Əliyev parkı haqqındadır. Burada parka dair məlumatlandırıcı videoçarx yerləşdirilib.

Buradakı «ASAN kadr» karyera mərkəzi «ASAN məktəb» könüllülük proqramını bitirmiş gənclərə işə qəbul prosesində dəstək olmaq üçün yaradılmış elektron portaldır. www.asankadr.az portalı vasitəsilə işaxtaranlar və işəgötürənlər üçün məlumat bazası yaradılır. Belə ki, həm könüllülük proqramını bitirmiş gənclər öz tərcümeyi-hallarını portalda yerləşdirir, həm də işəgötürənlər burada vakant yerlər barədə elanlar verə bilirlər. Portalın axtarış sistemi hər iki tərəfin öz tələbatına uyğun iş yeri və ya kadrla təmin olunmasına şərait yaradır.

Məlumat verildi ki, Elektron Lisenziya üzrə Mərkəzləşdirilmiş İdarəetmə Sistemi lisenziyaların verilməsi prosesində sui-istifadə hallarını aradan qaldıran və şəffaflığı təmin edən elektron informasiya sistemidir. Sistem vasitəsilə 115 adda müxtəlif növ lisenziyanın elektron qaydada təqdim edilməsi həyata keçiriləcək. Sistemdən istifadə etməklə sahibkarlıq subyekti dövlət orqanlarına getmədən lisenziya ala biləcək. Uyğun baza və sistemlərin yaradılması və təkmilləşdirilməsi lisenziya alınması prosesinin daha şəffaf təşkili və sadələşdirilməsinə, yekun sənədin elektron şəkildə təqdim edilməsinə səbəb olacaq.

Sonra «ASAN həyat» və «ASAN xidmət» dünya mətbuatında videoçarxları nümayiş olundu.

*Bərdədəki «ASAN xidmət» Mərkəzində işçilərin ümumi sayı 170 nəfərdir ki, onların da 60 nəfəri könüllüdür. Burada kitabxana, kafe, ana-uşaq otağı, uşaq əyləncə mərkəzi də yaradılıb.*

*Dövlətimizin başçısı mərkəzdə Bərdə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Yenidən Bərdədə olmağımdan çox məmnunam, çox şadam. Mən Bərdədə dəfələrlə olmuşam. Hər dəfə burada olanda gözəl obyektlərin açılışını qeyd edirik. Bu gün Bərdədə «ASAN xidmət» fəaliyyətə başlayır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Gözəl binadır. Şəhərə yaraşıq verir. Daxili dizayn da gözəldir. Əsas məsələ ondan ibarətdir ki, burada yüksək xidmətlər göstəriləcəkdir. Bu, sayca 8-ci «ASAN xidmət»dir. 4-ü Bakıda fəaliyyət göstərir, 3-ü bölgələrdə – Gəncə, Sumqayıt, Sabirabad şəhərlərində. 4-cüsü də bölgədə – məhz Bərdə şəhərində açılmışdır. Qəbələdə və Bakıda 2 mərkəz tikilməkdədir. Əminəm ki, yaxın zamanlarda Masallıda da tikiləcək. Beləliklə, bütün ölkə üzrə «ASAN xidmət» fəaliyyət göstərəcək.

Bərdə şəhərində «ASAN xidmət»in fəaliyyətə başlaması, əlbəttə ki, xüsusi məna daşıyır. Qarabağ bölgəsində ilk dəfə olaraq bu gözəl xidmət fəaliyyətə başlayır. Bu gün rəsmi açılışını edirik. Novruz bayramından sonra isə artıq vətəndaşları qəbul etməyə başlayacaq.

**S a k i n:** Sağ olun, cənab Prezident. Biz Sizə çox minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Bu, gözəl hadisədir. «ASAN xidmət» Azərbaycan məhsuludur. 2 ildən bir qədər çox müddət ərzində fəaliyyət göstərir. Bu gün buradakı lövhədə göstərilən bu dəyişən rəqəmlər – görürsünüz, 4 milyon 120 min müraciət olub – getdikcə artır. Bu müraciətlərin sayı bu lövhədə göstərilir – 4 milyon 120 min müraciət. Təxminən 4 milyon insan müraciət etmişdir və bürokratiyasız, korrupsiyasız, rahat, mədəni şəkildə gözəl xidmətlər almışdır. «ASAN xidmət» doğrudan da ictimai xidmətlər, ümumiyyətlə, ictimai əlaqələr sahəsində bir inqilab olub. Bu gün dünyanın aparıcı maliyyə qurumları bizim təcrübəmizi çox yüksək

qiymətləndirir və tövsiyə edirlər ki, bu təcrübə başqa ölkələrdə də tətbiq olunsun. Azərbaycan indi intellektual məhsulları həm yaradır, həm də ixrac edir. Bu doğrudan da çox böyük hadisədir.

Ümumiyyətlə, Azərbaycanda gedən bütün işlər müasir səviyyədə görülür. Ölkəmiz müasirləşir, inkişaf edir. «ASAN xidmət»in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar. Azərbaycan vətəndaşları bu xidmətdə fəaliyyət göstərir və yüksək xidmət göstərir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə «ASAN xidmət» çox mühüm rol oynayır. Eyni zamanda, bu mərkəzdə yeni texnologiyalar, innovasiyalar tətbiq olunur. Artıq səkkizinci mərkəzdir ki, mən açılışında iştirak edirəm. Hər dəfə mənə yeni bir xidmət təqdim olunur. Sonra isə bu, geniş şəkildə tətbiq edilir. Yəni innovasiya, yeni fikrin, yeni yanaşmanın yaranması məni çox sevindirir. Çünki Azərbaycan belə inkişaf etməlidir. Bizim gözəl, təbii imkanlarımız, təbii resurslarımız, istedadlı insanlarımız var.

Bu xidmətdə yüzlərlə Azərbaycan gənci fəaliyyət göstərir. Keçən dəfə Sabirabaddakı mərkəzin açılışında könüllülərin forumunu keçirdik. Bu da yenilikdir. Azərbaycanda artıq könüllülər qrupu yaranıb. Bu gənclər insanlara könüllü şəkildə kömək etmək istəyirlər. Bu, ən gözəl niyyətdir. Bu, Azərbaycanda ictimai əlaqələr sahəsində yenilikdir. Könüllülər eyni zamanda, bizim kadr ehtiyatımızdır.

Bu gün mənə göstərilən təqdimatda «ASAN kadr» sistemi də artıq fəaliyyətə başlayıb. Bütün könüllülərin iş qabiliyyəti, onlarla bağlı bütün məlumat artıq vahid sistemdə cəmləşir. İstər dövlət qurumu olsun, istər özəl şirkət olsun, əgər hazırlıqlı kadr işə götürmək istəyirsə, o sistemə müraciət edir. Mənə verilən məlumata görə, artıq 400-dən çox könüllü işlə təmin edilib. Bu bizim kadr ehtiyatımızdır, gənclərin tərbiyəsidir. Doğrudan da hansısa bir işi könüllü surətdə görmək əzmində olan insan böyük hörmətə malikdir.

Gənclər bu mərkəzdə uğurla fəaliyyət göstərirlər. Bu mərkəzlərdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir, Azərbaycan

gəncləridir. Gələcəkdə ölkəmizin taleyi onların əlində olacaq. Ona görə onlar gənc yaşlarından bilikli, savadlı, Vətənə bağlı və insanlarla ünsiyyətdə olmalıdırlar. «ASAN xidmət»in fəaliyyəti nəticəsində, gördüyünüz kimi, bir neçə məqsəd artıq təmin edilir: innovasiya, insanlara xidmət, rüşvətxorluğa qarşı mübarizə, yenilik, müasirlik, könüllülər qrupunun yaradılması, bölgələrin inkişafı. Bu xidmətin fəaliyyəti indi özünü başqa sahələrdə də göstərir. Yəni bu xidmətin yaradılması doğrudan da məni həddindən çox sevindirir. Çünki son illər ərzində Azərbaycanda iqtisadi, sosial və digər sahələrdə bir çox işlər görülüb. Məsələn, bu gün biz Bərdədə məcburi köçkünlər üçün yeni şəhərciyin açılışını qeyd etdik.

Ancaq bu sahə xüsusi əhəmiyyət daşıyır. Çünki, adətən, yeni texnologiyalar, yeniliklər bizə xaricdən gəlir. Bu da təbiidir. Yəni inkişaf etmiş ölkələr intellektual məhsulun sahibləridir. Onlar bu intellektual məhsulu yaradır, icad edirlər. Təbii ki, o ölkələrdə ənənələr böyükdür, sənaye inkişaf edib və elmi fikir kifayət qədər yüksək səviyyədədir. Ona görə, adətən, inkişaf etmiş ölkələr intellektual məhsulu yaradır və ondan sonra onu başqa ölkələrə satır. Bu intellektual məhsul isə Azərbaycanda yaradılıb. Bu, xalqımızın intellektual səviyyəsini, Azərbaycanın inamla inkişafını göstərir. Şadam ki, artıq Qarabağ torpağında «ASAN xidmət» var və bu xidmət bütün ətraf rayonların sakinlərinə, məcburi köçkünlərə xidmət göstərəcək. Əminəm ki, bərdəliləri də sevindirəcək.

**S a k i n:** İnşallah, Sizin sayənizdə, Sizin rəhbərliyinizlə. Sizə minnətdarıq, cənab Prezident. Sizinlə fəxr edirik. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də çox şadam ki, yenidən Bərdədəyəm, doğma Qarabağ torpağındayam. Əminəm ki, Azərbaycanın ərazi bütövlüyü də bərpa ediləcək. Biz buna nail olmaq üçün daha da güclü olmalıyıq. Çünki bildiyiniz kimi, biz bu barədə dəfələrlə fikir mübadiləsi aparmışıq. Bütün beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini dəstəkləyir. Tarixi ədalət də bizim mövqemizi dəstəkləyir.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr bizim mövqemizi dəstəkləyir. Dünən Pakistan Prezidenti ilə strateji tərəfdaşlıq haqqında imzaladığımız Bəyannamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində həll edilməsi öz əksini tapıb. Bu ayın əvvəlində Bolqarıstanda da strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilmişdir. Orada da eyni cümlələr əksini tapıb: Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı.

Bu məsələ beynəlxalq hüquq çərçivəsində çoxdan həll olunardı. Əsas məsələ ondan ibarətdir ki, Ermənistan beynəlxalq hüquqa məhəl qoymur, qətnamələri icra etmir. Belə olan halda biz ancaq öz gücümüzə güvənməliyik və güvənirik. Ordu quruculuğu, güclü iqtisadiyyat, güclü siyasi mövqelərimiz hər gün bizim qələbəmizi yaxınlaşdırır. Son aylar ərzində Azərbaycan təmas xəttində üstünlüyü tam şəkildə təmin edibdir və bizim ordumuz, orduda xidmət edən gənclərimiz Vətəni ləyaqətlə qoruyur, düşmənə çox güclü zərbələr vururlar.

Belə də olmalıdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlibdir. Cəmiyyətdə indi müşahidə olunan həmrəylik, səfərbərlik, iqtisadi və hərbi gücümüz bizim qələbəmizi şərtləndirən amillərdən biridir. Biz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik. Mən buna əminəm və biz «ASAN xidmət»i Şuşada da yaradacağıq.

**S a k i n l ə r:** İnşallah, Sizin rəhbərliyinizlə. Çox sağ olun. Minnətdarıq.

**İ l h a m   Ə l i y e v:** Bir daha Sizi gözəl mərkəzin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gün burada digər tədbirlər nəzərdə tutulur, Bərdədə yollar çəkilir, kənd yolları, ictimai, sosial obyektlər, məktəblər tikilir, tarixi abidələr bərpa edilir. Köçkünlər üçün gözəl evlər tikilir, mərkəzlər, Olimpiya İdman Mərkəzi, xəstəxanalar yaradılır.

**S a k i n:** Bu bizə bayramqabağı ən böyük hədiyyədir.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, biz nəzərə almışdıq ki, ilk növbədə, regional mərkəzlər yaradılsın. Təbii ki, bir neçə region seçilibdir. Bakıdan sonra ilk növbədə, Gəncə mərkəzi regionu əhatə edir. Sumqayıt böyük şəhərdir. Sabirabad mərkəzi regionu əhatə edir və ondan sonra Qarabağ bölgəsini biz mütləq nəzərə almalı idik. Bu gün Qarabağda da «ASAN xidmət» var. Qeyd etdiyim kimi, növbəti mərkəzlər Qəbələdə, Masallıda və yəqin ki, gələn il şimal zonasında yaradılacaqdır. Bu, birinci mərhələdir. Eyni zamanda, səyyar xidmət də göstərilir. Yəqin ki, əvvəlki dövrlərdə Bərdəyə də avtobuslar gəlib. Belə mərkəz olandan sonra indi avtobusa ehtiyac yoxdur. Sizi qarşıdan gələn bayram münasibətilə təbrik edirəm.

**S a k i n l ə r**: Çox sağ olun, cənab Prezident, Sizin də bayramınızı təbrik edirik!

## Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olmuşdur.*

*Qeyd edək ki, 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndələrindən olan Əhməd bin Əyyub əl-Hafiz Naxçıvani tərəfindən inşa olunmuş və hündürlüyü 12,5 metr olan türbənin yerüstü hissəsi 3 əsas memarlıq quruluşundan ibarətdir.*

*Türbə daşdan hörülmüş kürsülük, dairəvi gövdə və çadırvarı günbəzdən, yeraltı hissəsində dəfn üçün ayrılmış sərdabadan, yerüstü hissəsi isə xatirə abidəsindən ibarət olub. Bolşeviklərin Azərbaycanı işğal etmələrindən sonra abidənin kitabələri dağıdılıb, üzərində ərəb əlifbası ilə yazılan sözlərin bir hissəsi silinib. Uzun illər baxımsız qalan türbənin qala qapıları uçub dağılıb, özü bərbad vəziyyətə düşüb, həyətyanı sahədə ağaclar quruyub və yaxud qırılıb məhv edilib. Abidənin ərazisinin xeyli hissəsi ayrı-ayrı şəxslər tərəfindən zəbt olunaraq, müxtəlif məqsədlər üçün istifadə edilib.*

*Sonralar tariximizin yadigarı, əsrlərboyu yadelli istilaçılara boyun əyməyib bu günümüzədək gəlib çıxan türbənin ətrafı təmizlənib, zəbt olunan həyətyanı sahələr geri alınıb və bir sıra əlavə işlər görülüb. Buna baxmayaraq, türbənin bərpası və təmiri mümkün olmayıb.*

*Nəhayət, tarixi keçmişimizə, abidələrimizə həssaslıqla yanaşan prezident İlham Əliyevin göstərişi ilə 2011-ci ildə Bərdə rayonunda başlanılan genişmiqyaslı abadlıq və bərpa işləri türbənin təmirini gündəmə gətirdi. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən Bərdə türbəsində bərpa işlərinə başlanılıb və bu proses davam etdirilir. Bərpaçılar tarixi abidəni əzəli görkəminə qaytarmaq üçün qiymətli tikinti materiallarından istifadə edirlər. Həyətyanı sahədə abadlıq-tikinti işləri aparılır.*

## 1 saylı Uşaq incəsənət məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdəyə səfəri çərçivəsində 1 saylı Uşaq incəsənət məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Son illərdə Azərbaycan mədəniyyəti dünya miqyasında yüksək səviyyədə təbliğ edilir. Bu gün paytaxt Bakı ilə yanaşı, regionlarda da müşahidə olunan inkişaf gənc nəslin mənəvi zənginləşməsinə geniş imkanlar açır. Hazırda ölkəmizdə bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. Bərdədə istifadəyə verilən 1 saylı Uşaq incəsənət məktəbi də məhz bu məqsədə xidmət edir. Bu gün Bərdə rayonunda təhsil, mədəniyyət, səhiyyə, idman və digər sahələrdə işlər yüksək səviyyədə aparılır. Rayon əhalisinin rifah halının yüksəldilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər görülür. Uşaqların təlim-tərbiyəsi və onların sağlam böyümələri də daim diqqət mərkəzindədir. Bu baxımdan Bərdə Şəhər*

*1 saylı Uşaq incəsənət məktəbi üçün yeni binanın tikilib istifadəyə verilməsi xüsusi önəm daşıyır. Məktəbin ərazisində yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.*

*Bildirildi ki, məktəbin tikintisinə 2014-cü ilin əvvəlində başlanılıb. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən inşaat işləri yüksək səviyyədə aparılıb və bu ilin mart ayında başa çatdırılıb.*

*İncəsənət məktəbi üçmərtəbəlidir. Foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif illərdə Bərdə rayonuna səfərlərini əks etdirən fotostendlər var. Məktəb Bərdədə uşaqların musiqinin sirlərinə mükəmməl səviyyədə yiyələnmələri üçün lazımi avadanlıqlarla təchiz olunub.*

*Məktəbin binası ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, məktəbin 32 sinif otağı və digər yardımçı otaqları var. Burada xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər, rəsm və rəqs şöbələri fəaliyyət göstərəcək, bir neçə ixtisas – tar, kamança, nağara, fortepiano, skripka, qarmon, klarnet, balaban, xanəndəlik üzrə dərslər keçiriləcək. İncəsənət məktəbi həm də regionda mədəni həyatın canlanması, yeni istedadların üzə çıxarılması, gənc nəslin hərtərəfli inkişafı istiqamətində atılan növbəti addımdır.*

*Prezident İlham Əliyev şagirdlərin ifasını dinlədi.*

## Qarabağ Aqrar Sənaye Parkının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və sərəncamlarına uyğun olaraq sahibkarlara verilən güzəştli kreditlərin həcmi ildən-ilə artır. Bu kreditlərdən Bərdə rayon sahibkarları da kifayət qədər faydalanırlar. İndiyədək rayonun 2 mindən çox sahibkarına 70 milyon manatadək güzəştli kredit verilib və bu kreditlər hesabına 4300-dək yeni iş yeri yaradılıb. Güzəştli kreditlərdən istifadə edilməklə yaradılan müəssisələrdən biri də Qarabağ Aqrar Sənaye Parkıdır.*

*Dövlət başçısının rayona səfəri ərəfəsində istifadəyə verilən və tərkibinə 5 min tonluq logistik mərkəz, 4200 başlıq ətlik və südlük istiqamətli heyvandarlıq kompleksləri, illik 5,4 min ton istehsal gücünə malik ət kəsimi və emalı fabriki, saatda 10 ton yem istehsal edən zavod daxil olan Aqrar Sənaye Parkının ümumi dəyəri 32 milyon manatdır. Bu müəssisələrin maliyyələşdirilməsinə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 20,4 milyon manat güzəştli kredit verilib.*

*Logistik mərkəzdə güzəştli kreditlər almış fermerlər tərəfindən istehsal olunan ət və tərəvəz məhsulları yüksək keyfiyyətlə saxlanılır və ilboyu əhalinin tələbatının ödənilməsinə yönəldilir. Ən son texnologiyalarla təchiz olunmuş ət kəsimi və emalı fabrikində heyvanların kəsilməsindən ət məhsullarının qablaşdırılmasına və istehlakçılara çatdırılmasınadək bütün proseslər gigiyenik normalar tam gözlənilməklə aparılır. Heyvandarlıq komplekslərində kənd təsərrüfatı avadanlıqları istehsalında dünyanın aparıcı şirkətlərinin müasir avtomatlaşdırılmış havalandırma, suvarma, qidalandırma sistemləri və digər ferma avadanlıqları quraşdırılıb. «Aqrolizinq» ASC vasitəsilə Avropadan gətirilmiş xüsusi cinslərdən olan ətlik-südlük inəklər bəslənilir. Gətirilən heyvanlar artıq yerli iqlimə tam olaraq uyğunlaşıb. Hələlik gündəlik 32 ton yüksəkkeyfiyyətli süd istehsal olunur və emal müəssisələrinə təhvil verilir. İlin sonunadək heyvanların sayı artırılacaq və süd istehsalı 60 tona çatdırılacaq. Qarabağ Aqrar Sənaye Parkında 300 nəfər daimi iş yeri ilə təmin olunub.*

*Belə komplekslərin yaradılması idxaldan asılılığın aradan qaldırılmasına, daxili bazarın keyfiyyətli məhsullarla təmin edilməsinə və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.*

*Güzəştli kreditlərdən yararlanmaqla, Bərdədə yaradılmış digər heyvandarlıq müəssisəsi rayonun Türkmən kəndi ərazisində inşa edilmiş 500 başlıq südlük cins heyvandarlıq kompleksidir. Ümumi dəyəri 4,2 milyon manat olan kompleks sağmal inəklər üçün fermalar, sağımxana, yem anbarı sahələrindən ibarətdir. Bu layihənin də həyata keçirilməsinə Sahibkarlığa Kömək Milli Fondu*

*tərəfindən 2,5 milyon manat güzəştli kredit verilib. Ən müasir avadanlıqlarla təchiz olunmuş kompleksdə «Aqrolizinq» ASC vasitəsilə ilkin olaraq Avropadan 325 baş cins inək gətirilib. Layihənin icrası nəticəsində 50 nəfər yeni iş yeri ilə təmin olunub.*

## Mollaisalar–Vəliuşağı–Mollaəhmədli–Sərkarlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdəyə səfəri çərçivəsində Mollaisalar–Vəliuşağı–Mollaəhmədli–Sərkarlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Ölkənin yol-nəqliyyat strukturunda əsaslı dəyişikliklər prosesi uğurla davam etməkdədir. Ölkə ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar müasir standartlar səviyyəsində tamamilə yenidən qurulub. Paytaxtın və rayon mərkəzlərinin küçə və yolları başdan-başa abadlaşdırılır. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, xüsusilə də yolayırıcıları və körpülərin inşasına və yenidən qurulmasına yönəldilib. Bu proses Bərdə rayonunda da geniş vüsət alıb. Dövlətimizin başçısının müvafiq sərəncamlarına əsasən rayonun bir çox yaşayış məntəqələrini birləşdirən kəndarası yollar əsaslı təmir edilib. Onlardan biri də Mollaisalar–Vəliuşağı–Mollaəhmədli–Sərkarlı avtomobil yoludur.*

*Bildirildi ki, dövlətimizin başçısının 2014-cü il 14 avqust tarixli Sərəncamı ilə bu yolun əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan rayon icra hakimiyyətinə 5,8 milyon manat vəsait ayrılıb. Hazırda 10 mindən çox əhalinin yaşadığı 11 kəndi birləşdirən 15,5 kilometr uzunluğunda Mollaisalar–Vəliuşağı–Mollaəhmədli–Sərkarlı avtomobil yolunun tikintisi nəzərdə tutulan müddətdə başa çatdırılıb.*

*Burada dövlətimizin başçısına əsaslı təmiri başa çatmış Alpout–Mustafaağalı–Nəzirli–Qaratəpə avtomobil yolunun*

*göstəriciləri barədə də məlumat verildi. Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, 24 min nəfərdən çox əhali yaşayan 14 kəndi birləşdirən bu yolun çəkilməsinə dövlət büdcəsindən kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulan vəsaitdən 4 milyon manat ayrılıb. Yolun tikintisi nəzərdə tutulan müddətdə və müasir tələblərə uyğun olaraq başa çatdırılıb. Yeni yolun ümumi uzunluğu 22 kilometr, eni çiyin hissələri ilə birlikdə 10 metrdir. Bu yolun istifadəyə verilməsi ilə Alpout və Nəzirli kəndləri arasında gediş-gəliş məsafəsi 3 dəfə azalıb.*

*Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına və dövlətimizin başçısının müvafiq sərəncamlarına uyğun olaraq ölkənin bütün regionları kimi, Bərdədə də kəndarası yolların yenidən qurulması prosesi davam etdirilir.*

**İRLANDİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *13 mart 2015-ci il*

## AŞPA-nın SİYASİ İŞLƏR VƏ DEMOKRATİYA KOMİTƏSİNİN MƏRUZƏÇİSİ ROBERT UOLTER İLƏ GÖRÜŞ

*13 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Avropa Şurası Parlament Assambleyasının siyasi işlər və demokratiya komitəsinin məruzəçisi Robert Uolteri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi və münaqişənin nizama salınması perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizə və bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

İnanıram ki, Azərbaycan ilə Vatikan arasında tolerantlığın, multikulturalizmin, ümumbəşəri dəyərlərin təntənəsi naminə müvəffəqiyyətlə davam edən əməkdaşlıq bundan sonra da yer üzündə sülhə və əmin-amanlığa, insanlar arasında qarşılıqlı anlaşmaya və həmrəyliyə xidmət edəcəkdir.

Bu yaxınlarda Vatikana səfərimi, Sizinlə keçirdiyim görüşü, apardığımız fikir mübadiləsini məmnunluqla xatırlayıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, müqəddəs missiyanızda uğurlar, məsləkdaşlarınıza xoşbəxtlik və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *16 mart 2015-ci il*

# QƏTƏR DÖVLƏTİNİN NƏQLİYYAT NAZİRİ CASSİM SAİF ƏHMƏD ƏS-SULAİTİ İLƏ GÖRÜŞ

*16 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Qətər Dövlətinin Nəqliyyat naziri Cassim Saif Əhməd əs-Sulaitini qəbul etmişdir.*

*Nazir Cassim Saif Əhməd əs-Sulaiti ölkəmizdə mövcud olan müasir nəqliyyat infrastrukturunun onda dərin təəssürat yaratdığını bildirdi, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün Azərbaycanın müvafiq qurumları ilə danışıqlar aparıldığını dedi. Azərbaycanla əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd edən nazir səfərinin bu məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimizdə regional nəqliyyat infrastrukturu yaradılması istiqamətində mühüm işlər görüldüyünü, bu sahədə uğurlar əldə edildiyini dedi. Azərbaycan ilə Qətər Dövləti arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirən prezident İlham Əliyev bu sahədə perspektivləri müəyyənləşdirməyin və birgə səyləri artırmağın vacibliyini qeyd etdi.*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *17 mart 2015-ci il*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*17 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Türkiyə Respublikasının Qars şəhərinə işgüzar səfərə gəlmişdir.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*Qars*

*17 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Qarsda Heydər Əliyev adına parkda ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.*

# *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Qars*

*17 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Qarsda bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə bp arasında uğurlu əməkdaşlıqdan və «Şahdəniz» qaz yatağının işlənilməsi üzrə səmərəli birgə fəaliyyətdən məmnunluq ifadə edildi. Ötən il sentyabrın 20-də Bakıda «Cənub Qaz Dəhlizi»nin, eləcə də bu gün Qarsda TANAP layihəsinin təməlinin qoyulmasının önəmi vurğulandı, «Cənub Qaz Dəhlizi» layihəsi üzrə işlərin uğurla davam etməsinin əhəmiyyəti qeyd olundu. «Cənub Qaz Dəhlizi» layihəsinin bir hissəsi kimi, TANAP-ın önəmi vurğulandı, bu layihələrdə bütün işlərin plan üzrə həyata keçirildiyi bildirildi.*

*Söhbət zamanı 2018-ci ildə «Şahdəniz-2» layihəsindən Türkiyəyə 6 milyard kubmetr əlavə qazın verilməsinin əhəmiyyəti qeyd edildi. TAP layihəsi üzrə də işlərin uğurla davam etdiyi vurğulandı, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu yüksək qiymətləndirildi.*

*Görüşdə bp-nin TANAP layihəsinin səhmdarlarından biri olmasından məmnunluq ifadə edildi, digər layihələr üzrə də işlərin uğurla davam etdirildiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə bp arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Qars*

*17 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Qarsda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Görüşdə strateji tərəfdaşlıq, dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Türkiyədə təməli qoyulan TANAP layihəsinin əhəmiyyəti vurğulandı, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli görüşlərin rolu qeyd edildi. Azərbaycanın və Türkiyənin iştirak etdikləri mühüm strateji layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verdiyi bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# HEYDƏR ƏLİYEV ADINA ANADOLU TEXNİKİ-PEŞƏ LİSEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Qars*

*17 mart 2015-ci il*

*Qarsda martın 17-də Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili açılış mərasimində iştirak etmişlər.*

*Əvvəlcə Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndirildi.*

*Sonra Türkiyənin Milli Təhsil naziri Nəbi Avcı çıxış etdi. Nazir bu məktəbin istifadəyə verilməsini dövlətlərimiz arasında qardaşlıq və dostluq münasibətlərinin gözəl nümunəsi adlandıraraq dedi: «Bu məktəb ölkələrimiz və xalqlarımız arasındakı sarsılmaz əlaqələrin güclü nişanəsidir». Nəbi Avcı məktəbin qurulmasındakı xidmətlərinə görə azərbaycanlı qardaşlarına minnətdarlığını bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev çıxışında qardaş Türkiyədə yenidən olmağından, qədim türk torpağı Qarsa gəlməkdən qürur duyduğunu dedi. Ulu öndər Heydər Əliyevin adının bu məktəbə verilməsinə, həmçinin Qarsda ümummilli liderin xatirəsinin əziz tutulduğuna görə minnətdarlığını bildirdi. Heydər Əliyevin Türkiyə–Azərbaycan əlaqələrinin inkişafında müstəsna rol oynadığını deyən prezident İlham Əliyev ulu öndərin «Bir millət – iki dövlət» kəlamının bu gün dövlət başçılarının timsalında daha da gücləndiyini diqqətə çatdırdı. Bu gün Türkiyənin dünyada güc*

*mərkəzinə çevrildiyini deyən dövlətimizin başçısı ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini vurğuladı, təhsil sektorunda da əməkdaşlığın gücləndirilməsindən, son illərdə ölkəmizdə bu sahədə həyata keçirilən islahatlardan, görülən işlərdən danışdı. Türkiyə və Azərbaycanın bu gün dünyada baş verən hadisələrə mətanətlə sinə gərdiyini deyən prezident İlham Əliyev ölkələrimizin tarixi keçmişə də sadiq qaldığını diqqətə çatdırdı.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan liseyin açılışı münasibətilə təbriklərini çatdırdı. Yüksək standartlara uyğun inşa edilən bu məktəbin tikintisində əməyi olan hər kəsə, xüsusilə də prezident İlham Əliyevə təşəkkürünü bildirdi. «Heydər Əliyevin adını ölkəmizin hər yerində yaşatmağa çalışacağıq» – deyən Türkiyə dövlətinin başçısı bütün bunların xalqlarımız və ölkələrimiz arasındakı dostluq və qardaşlığın nümunəsi olduğunu vurğuladı.*

*Minillik mədəniyyətlərin qovuşduğu məkan kimi, Qarsın türk tarixində böyük əhəmiyyətinin olduğunu deyən Rəcəb Tayyib Ərdoğan Vətən, fədakarlıq, qalibiyyət kimi ümummilli məfhumların Qarsın timsalında daha dolğun əks olunduğunu diqqətə çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox hörmətli Türkiyə prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Çox hörmətli Gürcüstan prezidenti, əziz qardaşım Giorgi Marqvelaşvili!

Əziz bacılar və qardaşlar!

İlk növbədə, qardaş Türkiyədə yenidən olmağımdan çox məmnunam, bunu ifadə etmək istəyirəm. Xüsusilə qədim türk torpağı olan Qarsda olmağımdan çox məmnunam. Qars qədim türk dünyasının tarixi yeridir və belə məktəbin məhz Qarsda açılması böyük məna daşıyır.

Bu məktəb mənim atamın, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adını daşıyır. Bu gün Qarsda hava limanına enərkən ilk növbədə, Heydər Əliyevin adını daşıyan parkı, onun abidəsini ziyarət etdim. Azərbaycan xalqının lideri Heydər Əliyevin xatirəsinə Türkiyədə, Qarsda olan hörmətə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Heydər Əliyev Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün böyük xidmətlər göstərmişdir. Daim çalışırdı ki, Türkiyə–Azərbaycan birliyi, qardaşlığı daha da möhkəm olsun. Onun məşhur kəlamı bizim hamımız üçün bir nümunədir. O demişdir: «Türkiyə–Azərbaycan bir millət – iki dövlətdir». Biz bu siyasətə sadiqik və əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla son 11 il ərzində Türkiyə–Azərbaycan birliyini daha da möhkəmləndirmək üçün böyük səylər göstəririk.

Biz bütün məsələlərdə bir yerdəyik. Siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıra bilmişik. Bütün beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik. Türkiyənin artan gücü bizi də gücləndirir. Türkiyə bu gün dünya miqyasında güc mərkəzidir və əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə son illər ərzində böyük yol keçmişdir. Bunu bu gün Qarsda görülən işlər də təsdiqləyir. Burada tikilən binalar, məktəblər, xəstəxana, sosial obyektlər Qarsın simasını dəyişib. Türkiyənin hər bir yerində inkişaf göz qabağındadır. Türkiyə bu gün dünyada böyük güc mərkəzinə çevrilib və «Böyük 20-lik»in – «G-20»nin toplantısına qardaş ölkəni – Azərbaycanı dəvət edib. Buna görə bir daha əziz qardaşıma – Türkiyə Prezidentinə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu əsl qardaşlıq yanaşmasıdır. Biz hər yerdə bu qardaşlığı möhkəmləndiririk.

Bu gün eyni zamanda, Qarsda TANAP layihəsinin təməli qoyulur. TANAP bizim müştərək layihəmizdir. 3 il bundan öncə İstanbulda TANAP layihəsi imzalandı. Bu gün biz artıq bu layihənin təməlini qoyuruq. Enerji sahəsində Türkiyə–Azərbaycan–Gürcüstan birliyi tam yeni bir mənzərə ortaya qoyur. Birgə həyata keçirdiyimiz enerji layihələri bizi gücləndirir, xalqlarımız üçün yeni imkanlar, yeni iş yerləri

yaradır, iqtisadi, siyasi gücümüzü artırır. Azərbaycan Türkiyəyə sərmayələr qoymağa başlayıb. SOCAR – Azərbaycan Dövlət Neft Şirkəti Türkiyəyə 20 milyard dollar dəyərində sərmayə qoymağa başlayıb. Bu sərmayə nəticəsində bizim bütün önəmli enerji layihələrimiz həyata keçiriləcək. SOCAR Türkiyənin təhsil sektoruna da sərmayə qoymağa başlayıb. Qarsda, Ankarada, Kocaelidə, Ceyhanda, Əliağada 5 lisey və məktəb tikilib. Bu, təhsil sektoruna qoyulan sərmayədir. Yəni bu bizim gələcəyimizə qoyulan sərmayədir. Hər bir ölkənin uğurlu inkişafını şərtləndirən onun təhsilinin, elminin səviyyəsidir. Biz çalışmalıyıq ki, həm Azərbaycanda, həm Türkiyədə bu məsələləri bundan sonra da inkişaf etdirək.

Bizim gənclərimiz gərək bilikli, savadlı olsunlar. Bilik, savad bu dünyada hər şeyi həll edir. Bilik, savad texnoloji tərəqqini, inkişafı şərtləndirir. O ölkələr gələcəkdə daha da güclü olacaqlar ki, orada təhsilin səviyyəsi yüksəkdir. Belə olan halda Türkiyədə bu sahəyə göstərilən diqqət bizi həddindən artıq sevindirir.

Azərbaycanda da təhsil sahəsi prioritetdir. Son 11 il ərzində Azərbaycanda 3 minə yaxın məktəb tikilib, təmir edilib və gənclərimiz üçün çox gözəl imkanlar yaradılıb.

Bu məktəbdə peşə sahibləri oxuyacaqlar. Buranı bitirən peşə sahibləri sonra Türkiyə və Azərbaycanın maraqlarını qoruyacaqlar. Bu, artıq Türkiyə–Azərbaycan dostluq, qardaşlıq mərkəzidir. Belə məktəbin açılması hamımızı ürəkdən sevindirir. Gənclər bilikli, savadlı, eyni zamanda, vətənpərvər, öz Vətəninə bağlı olmalıdırlar. Tarixi, tarixi həqiqətləri həm bilməli, həm də təbliğ etməlidirlər.

Əfsuslar olsun ki, Türkiyəyə və Azərbaycana qarşı bu gün çirkin kampaniya aparılır. Bizim keçmişimizi qaralamaq, bizə şər, böhtan atmaq, bugünkü uğurlu inkişafımızı inkar etmək üçün bəzi xarici dairələr durmadan bizə qarşı kampaniya aparırlar. Biz isə buna öz işimizlə cavab veririk. Bütün böhranlara baxmayaraq, bu gün biz inkişaf edirik. Bizim inkişafımız siyasi iradə, tarixi həqiqət üzərində qurulubdur. Biz

gələcəyimizi tarixi həqiqət üzərində qururuq, tarixi gənc nəsillərə olduğu kimi təqdim edirik. Bəzi başqa ölkələr kimi, tarixi təhrif etmirik, öz gələcəyimizi yalan, böhtan üzərində qurmuruq. Əfsuslar olsun ki, bu gün Türkiyəyə və Azərbaycana qarşı əsassız iddialar irəli sürən işğalçı erməni dövləti yalan üzərində qurulubdur. Onların tarixi də yalandır, onların bizə qarşı irəli sürdüyü iddialar da əsassızdır. Tarix var, həqiqət var, tarixi sənədlər var. Onlar açıq sənədlərdir. Biz haqq yolundayıq, bizim işimiz haqq işidir. Türkiyə–Azərbaycan birliyi bu gün dünya miqyasında artıq inkaredilməz amildir. Türkiyə dünya birliyinin önəmli ölkəsidir. Azərbaycanın da imkanları artır. Biz enerji, nəqliyyat layihələrimizi həyata keçirməklə birliyimizi daha da gücləndiririk. Təsadüfi deyil ki, Bakı–Tbilisi–Qars dəmir yolunun təməl daşı da Qarsda qoyulub, TANAP layihəsinin təməli də Qarsda qoyulacaqdır.

Bu gün bizimlə bərabər, qardaş Gürcüstan dövlətinin prezidenti də iştirak edir. Buna görə mən ona çox minnətdaram. O, TANAP layihəsinin təməlqoyma mərasimi üçün Qarsa gəlib və bizimlə bərabər, Heydər Əliyev adına məktəbin açılışında da iştirak edir. Bizim üçtərəfli əməkdaşlığımız, qardaşlığımız, birliyimiz əbədidir. 3 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə bundan sonra da bir yerdə olacaq, bir yerdə öz gələcəyini quracaq, bir-birinə həmişə dayaq, arxa olacaqlar.

Əziz bacı və qardaşlarım, mən Qarsda olmağımdan çox məmnunam. Qarsı yenilənmiş, inkişafda olan şəhər kimi görürəm və buna görə sizə, Türkiyə hökumətinə, dövlət başçısına minnətdaram. Qars bütün türk dünyası üçün əziz diyardır, əziz şəhərdir. Əminəm ki, bu gün Qarsda görülən işlər, xüsusilə TANAP layihəsinin icrası Qars üçün yeni imkanlar açacaqdır.

Yaşasın Türkiyə–Azərbaycan birliyi, qardaşlığı!

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Cənab Azərbaycan Prezidenti, cənab Gürcüstan Prezidenti, dəyərli qonaqlar, sevgili qarslılar, xanımlar və cənablar!

Sizləri ən səmimi duyğularla salamlayıram.

Cənab İlham Əliyev başda olmaqla, dost və qardaş Azərbaycandan və cənab Giorgi Marqvelaşvili başda olmaqla, Gürcüstandan gələn qonaqlarımıza, Avropadan, ABŞ-dan gələn qonaqlarımıza ölkəmizə, Qarsımıza «Xoş gəldiniz!» – deyirəm.

Açılışını etdiyimiz Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin və digər məktəblərin Qarsa və ölkəmizə xeyirli olmasını diləyirəm. 424 şagirdə xidmət edəcək, 32 sinif, 200 şagirdi olan yataqxanası, idman zalı, müasir emalatxanaları, laboratoriyaları və digər təchizatı olan bu məktəbi nümunəvi bir tədris müəssisəsi kimi görürəm. Azərbaycanla aramızdakı qardaşlıq əlaqələrinin səmimi bir rəmzi olaraq gördüyüm Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin şəhərimizə bəxş edilməsində zəhməti olan hər kəsə təşəkkür edirəm. Qarsda bu məktəbin inşa edilməsinə dəstək olan Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev qardaşıma təşəkkür edirəm.

Əvvəllər də azərbaycanlı qardaşlarımız Ceyhanda Heydər Əliyev adına Anadolu texniki-peşə liseyini inşa edərək, adanalı qardaşlarımıza ərməğan ediblər. Biz də İğdırda Heydər Əliyev adına Fənn liseyini istifadəyə vermişdik.

2011-ci ildə təməlqoyma mərasimində iştirak etdiyim Qarsdakı bu məktəb əslində 2013-cü ilin sonunda təlim-tədrisə başlayıb. Bu gün isə məktəbin rəsmi açılışını həyata keçiririk. Beləliklə, Azərbaycan xalqına və Türkiyə–Azərbaycan dostluğuna xidmətlərini daim hörmətlə, ehtiramla, təqdirlə andığımız mərhum Heydər Əliyevin adını ölkəmizin hər guşəsində yaşadırıq və yaşatmağa da davam edəcəyik. Bu gün burada, həmçinin Türkiyənin Milli Təhsil Nazirliyi tərəfindən şəhərimizdə istifadəyə verilən 112 sinfin də açılışını edirik. Hamısının xeyirli olmasını diləyirəm. Qonaqlarımızla birlikdə bir müddət sonra təməlqoyma

mərasimində iştirak edəcəyimiz TANAP layihəsinin də Türkiyə, Azərbaycan, Gürcüstan və layihənin Avropa hissəsində yer alan bütün ölkələr üçün xeyirli olmasını diləyirəm.

Cənab prezidentlər! Dəyərli qardaşlarım!

Çıxışımın əvvəlində, martın 21-də qeyd edəcəyimiz Novruz bayramımızı indidən təbrik edirəm. Novruzdan əvvəlki çərşənbə, İlaxır çərşənbə Azərbaycanda bayramın ən şən, ən gözəl və coşqulu gecəsi kimi qeyd edilir. Bu münasibətlə oxunan Qurani-Kərimin, edilən duaların, yoxsullara verilən sədəqələrin qəbul olunmasını diləyirəm. Azərbaycan başda olmaqla, Orta Asiyadan Balkanlaradək bütün coğrafiyamızın bu 5 min illik ortaq bayramının birliyimizə, həmrəyliyimizə vasitə olmasını diləyirəm. Baharın müjdəçisi olan Novruzun regionumuzda və bütün dünyada sülhün və əmin-amanlığın da müjdəçisi olmasını könüldən arzulayıram.

Bu il anadan olmasının 90-cı ilini qeyd etdiyimiz və 2009-cu ildə itirdiyimiz böyük şairimiz Bəxtiyar Vahabzadənin o gözəl şeirində ifadə etdiyi kimi:

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu
Azərbaycan–Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir
Azərbaycan–Türkiyə.
Ana yurdda yuva qurdum,
Ata yurda könül verdim.
Ana yurdum, ata yurdum
Azərbaycan–Türkiyə.

Bəli, Azərbaycan bizim üçün sadəcə, dövlətlərdən bir dövlət, azərbaycanlı qardaşlarımız da millətlərdən bir millət deyildir. Biz eyni dili danışan, eyni inanca mənsub, ortaq bir tarixi keçmişi olan, sözdə deyil, əməldə qardaş, bir millət – iki dövlətik.

1918-ci ildə Bakını işğaldan azad edən Qafqaz İslam Ordusunun yarısı Anadolu xalqından, yarısı da Azərbaycan xalqından ibarət idi. Bakını, Gəncəni, Dərbəndi, Dağıstanı düşməndən bu qardaşlar çiyin-çiyinə verərək, yan-yana şəhid olaraq azad ediblər. Bu gün də Dağlıq Qarabağda zülmə məruz qalan azərbaycanlı qardaşlarımızın dərdini, inanın, Anadolu torpaqlarındakı hər qardaşımız ürəyində hiss edir. Bizim nəzərimizdə Qarsdakı, İğdırdakı, Ərzurumdakı vətəndaşımızla Naxçıvandakı qardaşımız arasında heç bir fərq yoxdur. Bizim üçün İzmir, İstanbul, Ankara, Antalya nədirsə, Bakı da elədir. Trabzon, Samsun bizim üçün nədirsə, Batum, Tiflis də bizim üçün odur.

Mən bu gün soyuq havaya baxmayaraq, burada prezident həmkarlarımla birlikdə bizlərlə birgə bu həyəcanı paylaşdığınız üçün sizlərə təşəkkür edirəm. İnşallah, indi Selim rayonuna gedəcəyik. Orada, inşallah, TANAP layihəsinin təməlini qoyacağıq. İnşallah, ən qısa zamanda da Azərbaycan təbii qazını Gürcüstan və Türkiyə ərazisindən Avropaya göndərəcək.

Hamınızı ən səmimi duyğularla salamlayıram. Sizlərə xoşbəxtlik, cansağlığı arzulayıram. «Novruzumuz xeyirli olsun!» – deyirəm.

* * *

*Çıxışlardan sonra Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Giorgi Marqvelaşvili liseyin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Azərbaycan və Türkiyə prezidentləri liseyin Xatirə kitabına ürək sözlərini yazdılar.*

*Dövlət başçıları liseyin binasında yaradılan şəraitlə tanış oldular. Binanın foyesində türk dünyasının ulu öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin büstləri qoyulub. Burada, həmçinin Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının, dövlət himnlərinin mətnlərinin, ulu öndərlər Mustafa*

*Kamal Atatürkün və Heydər Əliyevin həyat və fəaliyyətləri barədə məlumatların olduğu lövhələr və fotoşəkillərdən ibarət xüsusi guşə yaradılıb. Ümummilli lider Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» Fərmanın Azərbaycan və türk dillərindəki mətni də foyedə yaradılan guşədə nümayiş olunub.*

*Məlumat verildi ki, liseyin binasının təməli 2011-ci ilin mayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulub. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin maliyyə dəstəyi ilə inşa olunan liseyin ərazisi 2,2 hektardır. Türkiyənin Şərqi Anadolu bölgəsinin ən böyük və nüfuzlu liseyi olan bu kompleksdə müasir tələblər səviyyəsində təhsil almaq üçün bütün zəruri şərait yaradılıb. Burada 32 sinfin yerləşdiyi əsas bina, 200 yerlik yataqxana, 200 nəfərlik örtülü idman zalı, açıq idman sahəsi, zəngin fondu olan kitabxana və 2 emalatxana var. Liseydə 400-dən çox şagirdin təlim-tərbiyəsi ilə 24 müəllim məşğul olur.*

*Liseyin əsas məqsədi elmi və texnoloji yeniliklərə açıq, ölkənin ehtiyaclarına uyğun, intizamlı, ali təhsil proqramına hazırlıq istiqamətində dərin və hərtərəfli bilik və bacarığa, müasir və demokratik düşüncəyə malik gənclər yetişdirməkdir. Təhsil ocağında gündəlik dərslərlə yanaşı, şagirdlərin texniki biliklərinin artırılması və psixoloji durumlarının yüksək səviyyədə olması, hadisələri asan qavraya və təhlil edə bilmələri, fərdi və qrupla işləmək bacarıqlarına yiyələnmələri istiqamətində də məşğələlər keçirilir.*

*Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri liseyin həyətində ağac əkdilər.*

## DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*Qars*

*17 mart 2015-ci il*

*Qars valisi Günay Özdəmirin adından martın 17-də dövlət başçılarının şərəfinə nahar verilmişdir. Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Giorgi Marqvelaşvili naharda iştirak etdilər.*

## TRANS–ANADOLU QAZ BORU KƏMƏRİ–TANAP-ın TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*Qars*

*17 mart 2015-ci il*

*Türkiyənin Qars vilayətinin Selim rayonunda martın 17-də Trans–Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir.*

*Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili iştirak etmişlər.*

*Əvvəlcə TANAP layihəsinə həsr olunmuş film nümayiş etdirildi. Filmdə TANAP-ın Türkiyə və Azərbaycan qardaşlığının Anadoluya atılan imza olması qeyd olunub. Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanıb. Layihə Azərbaycandan başlayan genişlənmiş «Cənubi Qafqaz» boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə–Bolqarıstan və ya Türkiyə–Yunanıstan sərhədində təhvil veriləcək.*

*Mərasimdə Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət himnləri səsləndi.*

**R ö v n ə q  A b d u l l a y e v** *(Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti):* Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan!

Gürcüstan Respublikasının Prezidenti cənab Giorgi Marqvelaşvili!

Hörmətli nazirlər və dəyərli iştirakçılar! Sizi bu tarixi gündə salamlamaqdan böyük qürur duyuram. Xoş gəlmisiniz!

Müasir Azərbaycanın qurucusu ulu öndərimiz Heydər Əliyevin tarixə düşmüş «bir millət – iki dövlət» kəlamı məfkurəyə çevrilərək, hər iki dövlət tərəfindən mənəvi olaraq mənimsənildi. Biz də SOCAR olaraq, cənab prezident İlham Əliyevin tapşırıq və tövsiyələri ilə ölkələrimizin arasındakı qardaşlıq əlaqələrini iqtisadi istiqamətdə gücləndirmək, strateji sərmayələrlə dəstəkləmək üçün üzərimizə çox önəmli bir vəzifə götürdük.

Beləliklə, 2008-ci ilin mayında Türkiyənin ən dəyərli şirkətlərindən biri olan, bu il 50 illiyini qeyd etdiyimiz «Petkim»in satın alınması, sonra isə Petkim yarımadasındakı Neft emalı zavodu, enerji, neft-kimya və liman investisiyaları Azərbaycanı Türkiyənin ən böyük xarici sərmayəçisi etdi.

Bütün bunlara əlavə olaraq, SOCAR-ın qarşısında qoyulan bu vəzifə sayəsində 2012-ci ildə əsrimizin «qızıl layihəsi» olan və maliyyə dəyəri 10 milyard dolları ötən TANAP layihəsinə sərmayə qoyulmasına başladıq. Bu layihə ideya kimi ortaya çıxdıqdan cəmi 6 ay sonra – rekord qısa vaxtda dövlətlərarası müqaviləyə çevrildi.

TANAP kimi meqalayihənin belə qısa müddətdə inşasına başlanılması bu günədək tarixdə görülməmiş bir uğurdur. Bu uğurun əsl memarları isə bu gün bizim mərasimə təşrif buyuraraq bizi şərəfləndirən prezidentlər cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğandır. Onların dəstəyi, himayəsi və iradəsi ilə biz bu layihənin önündəki bütün çətin əngəlləri aşaraq bu gün TANAP layihəsinin təməlqoyma mərasiminə gəlib yetişdik. Bütün bu

layihələri gerçəkləşdirərkən bizə inanıb dəstək verdiklərinə və himayə etdiklərinə görə hər iki böyük dövlət başçısına – cənab prezident İlham Əliyevə və cənab prezident Rəcəb Tayyib Ərdoğana hüzurunuzda minnətdarlığımı bildirmək istəyirəm.

TANAP layihəsinin hər mərhələsində vermiş olduğu dəyərli dəstəyinə görə Energetika naziri cənab Tanər Yıldıza və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyinə, BOTAŞ şirkətinin əməkdaşlarına, bununla yanaşı, SOCAR və TANAP-dakı əziz iş yoldaşlarıma və zəhməti olan hər kəsə təşəkkür edirəm.

Belə soyuq və sərt bir iqlimdə bizimlə bir yerdə olub bu sevinci və qüruru paylaşdığınıza görə hər birinizə minnətdaram. Hamınızı bir daha salamlayıram.

**Amos Hokstayn** *(ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunun xüsusi nümayəndəsi):* Cənab Prezident Ərdoğan, cənab prezident Əliyev, cənab prezident Marqvelaşvili!

Bu gün burada prezident Obamanı və Dövlət katibi Kerrini təmsil etmək mənim üçün şərəfdir. Bir neçə ay bundan öncə, «Əsrin müqaviləsi»nin 20-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə iştirak etmək üçün Azərbaycanda olarkən dediyim kimi, ABŞ «Cənub Qaz Dəhlizi»ni 20 il bundan əvvəl başladığımız Bakı–Tbilisi–Ceyhan boru xətti prosesinin tamamlanması kimi görür.

Hələ o zaman Türkiyə və Azərbaycan hökumətləri Avropanın enerji təhlükəsizliyinin kritik elementlərini təmin etməyə və həyata keçirilməsi mümkün olan potensial imkanı reallaşdırmağa nail olmuşdular.

Prezident Əliyevin və prezident Ərdoğanın rəhbərliyi ilə biz bu gün Avropanın enerji təhlükəsizliyində yeni dövrə başlamaq və «bu mümkünsüzdür» deyənlərin əksinə həqiqi rəhbərlik və öhdəliklə bunun mümkün olduğunu və bu kimi layihələrin nəinki mümkün olduğunu, hətta reallıq olacağını bütün dünyaya göstərmək üçün buraya yenidən toplaşmışıq. Bu gün biz başlanğıc nöqtəsi TANAP və davamı TAP olan layihəyə və Avropaya çatdırılacaq qaz axınına nəzər yetirdikdə görürük ki,

Gürcüstan, Yunanıstan, Albaniya tərəfdaşları ilə birlikdə Azərbaycan və Türkiyə hökumətləri Avropada və dünyada enerji təhlükəsizliyinin yeni reallığının mühüm elementlərinə çevrilirlər. Belə layihələrə başlamaq üçün müəyyən təsəvvürə malik olmağın, bu kimi layihələri həyata keçirmək üçün dünyanın hər tərəfindən şirkətləri bir araya toplamağın nə qədər əhəmiyyətli olduğunu hər gün bizə xatırladırlar. ABŞ hökuməti bu layihənin mühüm əhəmiyyətə malik olduğuna inanır və Avropada enerji təhlükəsizliyinə sadiqdir. Buna görə də ABŞ hökuməti «Cənub Qaz Dəhlizi» kimi layihənin TANAP və TAP vasitəsilə reallaşmasının öz milli təhlükəsizlik maraqlarına uyğun olduğunu düşünür. Bu gün ABŞ hökuməti adından sizə söz verirəm ki, indiyə qədər olduğu kimi, biz bu layihəni dəstəkləməyə davam etmək, onun reallaşmasını təmin etmək və qarşımıza çıxan maneələri birlikdə aradan qaldırmaq üçün əlimizdən gələni edəcəyik. Nitqimi hər 3 ölkənin prezidentini təbrik etməklə yekunlaşdırıram. Çünki nəticədə şirkətlərin apardığı mükəmməl işlər olsa da, bu layihənin reallığa çevrilməsi ölkələrin ortaya qoyduğu mükəmməl rəhbərlik və səylər nəticəsində mümkün oldu.

Bunun üçün də bu gün biz sizi alqışlayır, təbrik edir və layihə davam etdikcə öz dəstəyimizi əsirgəməyəcəyimizi bildirirəm. Çox sağ olun.

**Maroş Şefçoviç** *(Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini):* Zati-aliləri hörmətli prezidentlər!

Hörmətli nazirlər, iştirakçılar!

TANAP layihəsinin təməlqoyma mərasimində burada olmaqdan böyük məmnunluq duyduğumu ifadə etmək istəyirəm.

Bu gün həqiqətən, tarixi bir gündür. Mən bu çox mühüm tarixi gündə prezident Yunkeri və Avropa Komissiyasını təmsil etmək üçün dəvətinizə görə sizə səmimi-qəlbdən təşəkkürümü bildirmək istərdim. 2014-cü ilin sentyabrında Bakıda «Cənubi Qafqaz» boru kəmərinin təməlqoyma mərasimi keçirildi. Cəmi 6 aydan sonra biz bu gün burada «Cənub Qaz Dəhlizi»nin tikintisinin növbəti mərhələsini qeyd etmək üçün toplaşmışıq. Düşünürəm ki, bu, nəhəng infrastruktur layihənin həyata keçirilməsi ilə bağlı əldə

olunan yaxşı irəliləyişi aydın nümayiş etdirir. «Cənub Qaz Dəhlizi» Avropa üçün böyük strateji əhəmiyyətə malikdir. Bu, hazırda Avropanı yeni marşrutlar, yeni qaz mənbələri ilə təmin edəcək yeganə layihədir. Avropa Komissiyası, Avropa İttifaqı bu layihəyə böyük diqqət yetirir.

Bildiyiniz kimi, 3 həftə əvvəl biz enerji birliyinin yeni çərçivə strategiyasını təqdim etdik. Bu strategiyada «Cənub Qaz Dəhlizi»nin Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək əsas strateji təşəbbüs kimi göstərilməsini təmin etdik. TANAP Xəzər dənizindən təyinat nöqtəsi olan İtaliyanın Puliya regionuna mühüm bağlantını əks etdirir. 1850 kilometr uzunluğunda boru xəttindən ibarət olan TANAP bu layihənin ən uzun hissəsidir. Ona görə də mən Azərbaycan, Türkiyə, Gürcüstan prezidentlərini və hökumətlərini, həmçinin TANAP konsorsiumunu, xüsusilə də SOCAR, BOTAŞ və *bp* şirkətlərini indiyədək görülmüş mükəmməl işlər münasibətilə təbrik edirəm. Çünki indiyədək şahidi olduğumuz irəliləyiş bizim vaxt qrafikinə əsasən hərəkət edə biləcəyimizin, razılaşmalar əsasında işləyəcəyimizin və belə layihələrlə əlaqədar hər zaman ortaya çıxan bütün maneələrin və çətinliklərin öhdəsindən gələ biləcəyimizin aydın sübutudur.

Mən bir daha Azərbaycan prezidenti İlham Əliyevə fevralın 12-də Bakıda belə mühüm bir layihənin həyata keçirilməsi zamanı ortaya çıxan potensial problemlərin öhdəsindən gəlməyə kömək edəcək xüsusi Məşvərət Şurasının toplantısını təşkil etdiyinə görə təşəkkürümü bildirmək istərdim. Bakıda keçirilən birinci görüş normativ, inzibati, hətta bəzən siyasi məsələlərin öhdəsindən gəlinməsində nə dərəcədə faydalı olduğunu sübut etdi. Sizi əmin etmək istərdim ki, Avropa Komissiyası Məşvərət Şurasında fəal rolunu davam etdirməyə və layihənin vaxtında tamamlanması üçün əlindən gələni etməyə hazırdır.

Sonda mən Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini kimi, bir daha bu layihədə fəal iştirak edəcəyimi bildirmək istəyirəm və sıx əməkdaşlıq edəcəyimizi səbirsizliklə gözləyirəm. Cənab prezidentlər, bir daha dəvətinizə görə sizə dərin

təşəkkürümü bildirmək istəyirəm. Bu çox mühüm tarixi hadisədir. Təşəkkür edirəm!

**T a n ə r  Y ı l d ı z** *(Türkiyənin Energetika və Təbii Sərvətlər naziri):* Hörmətli Prezidentim!

Azərbaycanın və Gürcüstanın hörmətli prezidentləri!

Ölkə xaricindən və daxilindən gələn hörmətli qonaqlar və mətbuat nümayəndələri!

Mən də nümayəndə heyətlərinizi sevgi və hörmətlə salamlayıram!

Əvvəla, ali himayənizlə siyasi iradə göstərərək, hörmətli Prezidentim, hörmətli prezident Əliyev ilə birlikdə verdiyiniz dəstək bu layihənin inkişafında çox mühüm rol oynadı. Biz bu siyasi qətiyyətdən ilhamlanaraq dostlarımız – SOCAR və *bp* ilə birlikdə bu layihəni həyata keçiririk.

2035-ci ilə qədər dünyada karbohidrogenlərin istehlakı təxminən 40 faiz artacaq. Dünyada neftin 35, təbii qazın isə 70 faizi boru kəmərləri ilə daşınır. Türkiyə coğrafi mövqeyinin üstünlükləri ilə yanaşı, şərqindəki resursları qərbindəki istehlak nöqtələrinə çatdırmaqda son dərəcə fəal mövqe nümayiş etdirir. Avropa İttifaqına üzv ölkələrin təbii qazla təmin edilməsi təhlükəsizliyinin bir hissəsi olmaq baxımından Türkiyə istər öz ehtiyacları, istərsə də qeyd etdiyimiz ölkələrlə bağlı cəhdlərini davam etdirir.

Türkiyə Xəzər bölgəsindəki neftin Bakı–Tbilisi–Ceyhan və təbii qazın Bakı–Tbilisi–Ərzurum boru kəmərləri ilə ölkəmizə gəlməsinə və xarici bazarlara çıxmasına səbəb oldu. «Cənub Qaz Dəhlizi»nin ən mühüm hissələrindən biri TANAP-dır. Bu zəncirvarı bir sistemdir. Təbii qaz Xəzərdə hasil olunacaq, Gürcüstana nəql ediləcək, TANAP ilə Türkiyədən keçəcək və TAP vasitəsilə Yunanıstan, İtaliya və Cənubi Avropaya çatdırılacaq. Bu zəncirin hər bir halqası özlüyündə çox vacibdir. Həmin halqaların hər biri tamamlandıqda bu layihələr başa çatacaq. 2011-ci, 2012-ci və 2013-cü illərdə, nəhayət, 2013-cü il dekabrın 17-də investisiya qərarı imzalandı.

17 dekabr Türkiyədə siyasi sabitliyin pozulmasına cəhdlər tarixidir, eyni zamanda, TANAP üçün də investisiya qərarının qəbul olunduğu tarixdir. Hansı qazansaydı, digərinə mane olacaqdı. İnvestisiya qərarı qalib gəldi və Türkiyədəki siyasi sabitliklə birlikdə bu layihə davam etdi. TPAO olaraq, Azərbaycana sonsuz etimadımızla birlikdə Xəzər bölgəsindəki payımızı artıraraq 9 faizdən 19 faizə çatdırdıq.

Hörmətli Prezident, buradakı təlimatlarınızla bərabər, istər ölkə daxilində, istərsə də xaricində axtarışlarımızı sürətləndirdik və eyni qaydada TANAP-dakı ortaqlıq anlaşmamızda payımızı 30 faizə çatdırdıq.

50 milyard kubmetr təbii qaz istehlak edən Türkiyə bu layihə ilə 20 vilayətdə, 67 qəsəbədə və 600 kənddə 5 minə yaxın iş yerinin açılmasını reallaşdıracaq. Bildiyiniz kimi, qrafiki qabaqlayırıq.

Hörmətli Prezidentim, bizə «bu layihələri həyata keçirin» – deyərkən, «ətraf mühitə mütləq diqqət edin» – demişdiniz. Baxın, TANAP-ın marşrutu müəyyən olunarkən çox maraqlı bir nümunə ilə qarşılaşdıq. Bunlardan biri Qarsın qədim Qazi kəndindəki tarixi qəbiristanlıq ərazi idi. Sivasın Əmrə kəndində də belə bir ərazi var idi. Əskişəhərin Hamam Qara divarında isə Bizans dövrünə aid məzarlar tapılmışdı. Ona görə də istər Bursadakı çiyələk tarlaları, istərsə də tarixi və mədəni abidələr marşrutumuzu müəyyənləşdirərkən nəzərə alındı. Biz bu layihəni irəlilətmək üçün Ədalət və İnkişaf Partiyasının, hökumətimizin mühüm dəstəyi və Prezidentimizin himayəsi ilə yolumuza davam edəcəyik. Bizə tapşırılan bu layihəni, inşallah, vaxtında tamamlayacağıq.

Mən bu işdə əməyi olan bütün dostlarıma bir daha təşəkkür edirəm və hamınızı ehtiramla salamlayıram.

## Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin çıxışı

Türkiyə Respublikasının Prezidenti hörmətli cənab Ərdoğan!

Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab Əliyev!

Hörmətli nazirlər, dost ölkələrin dəyərli təmsilçiləri!

Xanımlar və cənablar!

Çıxışıma əvvəlcə dostum, Türkiyə prezidenti Ərdoğana bu gözəl dəvətə və tədbirə ev sahibliyi etdiyinə görə təşəkkürümü bildirməklə başlamaq istəyirəm. Bu gün çox gözəl gündür və burada olmaq da gözəldir.

Trans–Anadolu boru kəməri – TANAP-ın təməlinin qoyulması bizim üçün çox önəmli hadisədir. Bu layihənin uğurlu olacağını bilirəm və bunu sizinlə də paylaşmaq istəyirəm. Bunun səbəbi ölkələrimiz arasında son 10 ildə əldə edilən böyük işbirliyi və dostluqdur. Bu sadəcə, önəmli bir layihə deyil. Ölkələrimizin liderləri bu layihənin təməlini bir neçə il əvvəl qoyub, biz orada da bu işbirliyini gördük. O gün atdığımız addımlar nəticəsində bu gün artıq buradayıq və bu ölkələrin, yəni Türkiyə ilə Azərbaycanın rolu bu mənada çox önəmlidir, dünya siyasətində də bu ölkələrin önəmi artır.

Hörmətli Heydər Əliyevi yad etdik. O, Gürcüstanın dostu idi və Gürcüstan hələ də bu dostluğa böyük önəm verir və üzərinə götürdüyü öhdəliyi dərindən dərk edir. Gürcüstan tranzit ölkə olmasına baxmayaraq, bu layihədəki vəzifəsinə və öhdəliklərinə böyük önəm verir. Bu mənada dəhlizin təhlükəsizliyini təmin etmək üçün üzərimizə düşənləri sona qədər həyata keçirəcəyimizi bildirmək istəyirəm. Bu layihə sadəcə, Gürcüstana deyil, qonşularımıza da fayda gətirəcək bir layihədir və öz mənfəətimiz və qonşularımızın rifahı üçün üzərimizə düşənləri, əlbəttə, həyata keçirməyə hazırıq.

Gürcüstan da Avropa ilə Asiya arasında bir qapı, keçid nöqtəsidir. Yüz illərdir keçid nöqtəsi olmaq özəlliyi Gürcüstana fayda gətirir. Tranzit-keçid nöqtəsi olmaq baxımından Gürcüstan bu nöqtələrin əvvəlində və sonunda olanların maraqlarının təhlükəsizliyi baxımından önəmlidir. Bir tərəfimizdə Asiyaya – Çinə qədər uzanan yol, bir tərəfdə də Qərbə uzanan yol var. Bu yollar çətinliklərlə dolu ola bilər və o

zəncirin bir halqasi kimi, biz bölgəmizdə üzərimizə düşəni həyata keçirməyə çalışacağıq. Amma başqa vacib məsələlər də var. Qitəmizdə 14 ölkə var ki, onların Qara dənizə çıxışı yoxdur. Gürcüstan da daxil olmaqla, cəmi 8 ölkənin Qara dənizə çıxışı var.

Ümumiyyətlə, Gürcüstanın uğurlarını Türkiyə və Azərbaycan kimi dost və qardaş ölkələrin dəstəyi olmadan əldə etmək mümkün deyil. Biz regional baxımdan xoş niyyətlə öz münasibətlərimizi davam etdiririk. Bunu sadəcə, enerji mənbələri məsələsinə deyil, digər sahələrə də aid etmək mümkündür. Bu gün ölkələrimizin və xalqlarımızın rifahı məqsədilə gələcəyə doğru daha bir önəmli addım atırıq. Bu boru kəmərinin «Şahdəniz»in ikinci mərhələsi olması çox önəmlidir. «Şahdəniz» bölgəmizin, Avropanın, bütün qitənin enerji təhlükəsizliyi baxımından çox əhəmiyyətlidir. Enerji təhlükəsizliyi də regiondakı sabitlik baxımından mühüm əhəmiyyət daşıyır. Bəzən enerji məsələsi digər ölkələrə qarşı yönələ bilir, bu baxımdan Avropa ilə Asiya arasında iqtisadi əlaqələr mühüm əhəmiyyət kəsb edir. Bu layihə dediyim mənada çox mühüm dəhliz yaratmaq, çox önəmli marşrut ortaya qoymaq iqtidarındadır. Bütün bu yol əvvəldən axıra qədər Gürcüstan, Azərbaycan və Türkiyə ilə işbirliyi çərçivəsində həyata keçirildi. Bu layihə eyni zamanda, çox mühüm nəqliyyat və logistika layihəsidir. Bizim ölkəmiz çox da böyük deyil. İqtisadi inkişafımız da əsasən regional layihələrlə əlaqəlidir. Gürcüstan iqtisadiyyatı üçün bu layihələrə qoşulmaq, bu kimi beynəlxalq layihələrdə iştirak etmək və bu baxımdan nümayiş etdirilən işbirliyi strateji mənada mühüm əhəmiyyət daşıyır. Eynilə bu, turizm və ticarətə sirayət edir və edəcək də.

Bakı–Tbilisi–Ceyhan Xəzər neftini Aralıq dənizinə, «Cənub Qaz Dəhlizi»nin önəmli qolu olan Bakı–Tbilisi–Ərzurum «Şahdəniz» qazını Türkiyəyə daşıyır. Bunlar da bizim üçün mühüm layihələrdir. Bundan əlavə, elektrik və enerji şəbəkələri işbirliyi layihələrinə də böyük əhəmiyyət veririk. Bütün bunlarla bağlı faydalanacağımız fürsətlər bu gün də realdır.

Enerji müstəqilliyi və enerji təhlükəsizliyi ölkələrimiz arasında önəmli işbirliyi sahələridir.

Bakı–Tbilisi–Qars yeni nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yolu ilə bir-birinə bağlanacaq. Çindən, Asiya ölkələrindən malların gəlişi getdikcə artır və bununla bağlı, təbii ki, bizim yaxşı bazaya və logistik sistemə ehtiyacımız var. Buna görə də Türkiyə və Azərbaycanla bu sahədə ticarət tərəfdaşlığımızın yaranması bizim iqtisadi inkişafımız üçün çox önəmlidir. Hər 3 ölkə bir-biriləri ilə ticarət baxımından yaxşı tərəfdaşlardır və bu sahədə əməkdaşlığımızın daha da dərinləşdirilməsi lazımdır. Ölkəmizə ən çox turist Türkiyə və Azərbaycandan gəlir və biz onlara ev sahibliyi etməkdən böyük şərəf və qürur duyuruq. Turizm, yükdaşımalar, ticarət, enerji və digər sahələrlə ölkəmizin inkişafı arasında olan əlaqəyə nəzər salanda görürük ki, ölkələrimizin tərəfdaşlığı baxımından bunların regional mənada böyük təsirləri var. Enerji sahəsində bu tərəfdaşlığı və işbirliyini artırmaq lazımdır ki, bu potensialımızdan axıra qədər istifadə edə bilək. Bununla da enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsi ilə bağlı hədəflərimizə çataq.

Çıxışımı yekunlaşdırarkən bir daha hər kəsə dəvətə görə təşəkkür edirəm və arzu edirəm ki, uğurlar hər zaman sizinlə olsun. Bu mühüm günü heç vaxt unutmayaq. Təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli prezident Rəcəb Tayyib Ərdoğan, əziz qardaşım!

Hörmətli prezident Giorgi Marqvelaşvili, əziz qardaşım!

Hörmətli xanımlar və cənablar!

Yenidən qardaş Türkiyədə olmağımdan çox məmnunam. Mən ilin əvvəlində Türkiyədə idim – qardaşımın dəvəti ilə Türkiyədə dövlət səfərində idim. Bu gün də Türkiyədəyəm. Gələn ay, inşallah, aprelin 24-də biz Çanaqqala zəfərini bərabər qeyd edəcəyik. Bu özlüyündə bir göstəricidir.

Türkiyə bizim doğma Vətənimizdir və biz özümüzü həmişə Türkiyədə öz evimizdəki kimi hiss edirik. Bizim aramızdakı birlik, dostluq, qardaşlıq əslində bu günü şərtləndirən amildir.

Bu gün tarixi bir gündür – TANAP layihəsinə start verilir, təməl daşı qoyulur. Bu layihə enerji layihəsidir. Bu layihə enerji təhlükəsizliyi layihəsidir. Amma ilk növbədə, bu layihə Türkiyə–Azərbaycan birliyi, qardaşlığı layihəsidir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizi müstəqil dövlət kimi ilk tanıyan məhz qardaş Türkiyə olmuşdur. O gündən bu günə qədər biz bərabər irəliyə gedirik, bir-birimizi dəstəkləyirik, bir-birimizin uğurlarına sevinirik, hər zaman bir-birimizə arxa, dayaq oluruq.

Biz enerji layihələrimizi də birgə icra edirik. Bu gün bu salonda oturarkən və dəyərli məsləkdaşlarımın çıxışlarına qulaq asarkən sanki 21 il öncəyə döndüm, yəni xatirimdə o günlər canlandı – 1994-cü il 20 sentyabr, Bakı şəhəri, Gülüstan sarayı, «Əsrin kontraktı»nın imzalanması mərasimi. Bəlkə biz o vaxt heç təsəvvür edə bilməzdik ki, o gün nə qədər böyük əhəmiyyət kəsb edir və hansı böyük hadisələrə gətirib çıxaracaq. O vaxt Azərbaycan müstəqil dövlət kimi, sadəcə, 3 ilə yaxın idi ki, yaşayırdı. Bizim ümummilli liderimizin – Heydər Əliyevin baxışları, siyasi müdrikliyi, cəsarəti sayəsində o vaxt Azərbaycanın yeni enerji strategiyası başlanmışdı. «Əsrin kontraktı» əslində bu günə gedən yolumuzu açdı. İlk dəfə olaraq biz Xəzər dənizinə xarici neft şirkətlərini dəvət etdik. O vaxta qədər Xəzər dənizi qapalı bir su hövzəsi idi. Qısa müddət ərzində «Azəri–Çıraq–Günəşli» yatağının işlənməsinə başlandıq. Buradan ilk neft 1997-ci ildə çıxarılıb. Ondan sonra təbii ki, bu neftin ixrac yolları haqqında müzakirələr başlandı və Bakı–Tbilisi–Ceyhan neft kəməri əsas ixrac marşrutu kimi seçildi. Xatırlayıram, 2006-cı ildə əziz qardaşım prezident Ərdoğanla bərabər biz Ceyhanda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışını qeyd edirdik. Bu gün artıq bu layihəsiz bölgənin və qitənin enerji təhlükəsizliyini təsəvvür etmək mümkün deyil. Bakı–Tbilisi–Ceyhan əslində bir yol açdı, bir enerji dəhlizi yaratdı. Bu gün artıq Qarsda xüsusi məmnunluq hissi ilə

qeyd etmək istəyirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu da məhz bu enerji dəhlizi üzrə inşa edilir. Bu, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşasına da yol açdı. Yəni o tarixi günlər bu gün uğurlarımızı daha da gücləndirir, çünki biz tarix əsasında gələcəyimizi də qururuq, necə ki Türkiyə və Azərbaycan xalqları öz gələcəyini müştərək tarix üzərində qururlar.

Son 20 ilin tarixi hesab edirəm ki, dünya miqyasında nadir bir tarixdir. 1996-cı ildə *bp* ilə SOCAR arasında «Şahdəniz» qaz yatağının işlənilməsinə dair kontrakt imzalandı. O zaman biz bilmirdik ki, «Şahdəniz» yatağında nə qədər qaz ehtiyatı var. Ancaq yəqin ki, təxmin edirdik, əgər belə olmasaydı, o yatağa «Şahdəniz» adı verilməzdi, yəni «dənizin şahı». Xəzər dənizinin «şahı» – «Şahdəniz» öz adını doğrultdu. Bu gün «Şahdəniz» dünya miqyasında ən böyük qaz yataqlarından biridir və «Cənub Qaz Dəhlizi» üçün hazırda yeganə resurs mənbəyidir. Əmin olduğuma görə deyirəm, Azərbaycanın digər nəhəng qaz yataqları yaxın zamanlarda qazı hasil edəcək və beləliklə, biz «Cənub Qaz Dəhlizi»ni əlavə həcmlə təmin edəcəyik.

TANAP layihəsinin tarixçəsi çox qısadır, ancaq çox şərəflidir. 2012-ci ildə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla bərabər biz İstanbulda TANAP anlaşmasını imzaladıq və qısa müddət ərzində bu anlaşma dünya miqyasında çox böyük dəstəyə nail ola bildi. Qısa müddət ərzində artıq TANAP layihəsi gerçəkləşir, bu gün təməl daşı qoyulur.

2013-cü ildə TAP layihəsi «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsi kimi seçildi. Hazırda «Cənub Qaz Dəhlizi»nin hər bir tərkib hissəsi üzrə sürətli iş gedir. «Cənub Qaz Dəhlizi» 4 hissədən ibarətdir: «Şahdəniz», «Cənubi Qafqaz» qaz kəməri, TANAP və TAP. Keçən il sentyabrın 22-də biz Bakıda «Cənub Qaz Dəhlizi»nin təməlini qoyduq, indi işlərə başlanılıb. Əminəm ki, bütün bu işlər cədvəl üzrə gedəcək və biz bu işləri vaxtında icra edəcəyik.

Bu gün «Cənub Qaz Dəhlizi» layihəsi Avropanın ən böyük infrastruktur layihəsidir. Bu layihəyə qoyulacaq vəsaitin həcmi ən azı 45 milyard dollardır. Bu gün TANAP layihəsinin əsas

iştirakçıları Türkiyə və Azərbaycandır. Çox şadam ki, bizim strateji tərəfdaşımız *bp* şirkəti də səhmdar kimi, bu layihəyə qoşuldu.

Azərbaycanın çox zəngin qaz ehtiyatları vardır. Ancaq təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Proqnoz ehtiyatlar, yəni ehtimal olunan ehtiyatlar isə ondan 2 dəfə çoxdur. Bu resurs bazası bu gün «Cənub Qaz Dəhlizi»ni təmin edir. Ancaq qeyd etdiyim kimi, bizim digər yataqlarımız da var. İndi o yataqlar üzrə iş gedir. Əminəm ki, Azərbaycan qazı qonşu ölkələrə və Avropaya böyük həcmdə nəql ediləcək.

«Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti eyni zamanda, ondan ibarətdir ki, bu gün bizim regionumuzda – Avrasiyada yeni bir əməkdaşlıq formatı yaranır. Biz ilk mərhələdə üçtərəfli formatı yaratdıq – Türkiyə–Gürcüstan–Azərbaycan enerji, nəqliyyat, siyasi, iqtisadi, strateji tərəfdaşlıq formatı. Bu gün bu, real bir regional amil kimi özünü göstərir. Amma bu gün biz bu formatı genişləndiririk. Digər ölkələr bizim işlərimizə qoşulur – Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya. Balkan ölkələri gələcəkdə Azərbaycan qazını ala biləcək. Mən buna əminəm. Eyni zamanda, Nabukko layihəsinin üzvləri – Bolqarıstan artıq bizim layihədə iştirak edir. Rumıniya, Macarıstan da əminəm ki, bu layihələrə qoşula bilər və qoşulmalıdırlar. Çünki bir daha demək istəyirəm ki, qaz resurs bazası kifayət qədər böyükdür.

«Cənub Qaz Dəhlizi»nin ötürmə qabiliyyəti kifayət qədər böyükdür və gələcəkdə lazım olarsa bu imkanlar daha da genişlənə bilər. Biz çalışmalıyıq ki, qonşu və dost ölkələri maksimum dərəcədə öz təbii qazımızla təmin edək. Beləliklə, yeni bir əməkdaşlıq formatı yaranır. Bu işlərdə iştirak edən ölkələr təbii müttəfiqlərə çevrilirlər. Bu gün Avrasiya bölgəsində çox ciddi və yeni bir müttəfiqlik formatı yaranır. Bunun həm siyasi, həm iqtisadi təsiri çox böyük olacaqdır. Bu ölkələrin tarixi, mədəniyyəti fərqlidir, biz fərqli sivilizasiyalara mənsubuq. Ancaq bizi birləşdirən xoş niyyətimizdir, konkret layihələrdir. Ona görə «Cənub Qaz Dəhlizi» sadəcə olaraq, enerji layihəsi, boru kəməri deyil, bu, ciddi siyasi təşəbbüsdür. Bu, iqtisadi mənfəət gətirən bir

layihədir və bu layihədə iştirak edən bütün ölkələr mənfəət götürəcək.

Bizim əsas istəyimiz ondan ibarət idi ki, bütün ölkələr qazansın. Hasil edən ölkə, tranzit ölkələr, istehlakçı ölkələr – onların maraqları birləşməlidir. Maraqlar balansı yarandı. Ancaq o təqdirdə biz uğura nail ola bilərik. Bu məqsədlə biz keçən ay Bakıda «Cənub Qaz Dəhlizi»nin I Məşvərət Şurasını çox böyük uğurla keçirdik. Çox şadam ki, Avropa İttifaqının vitse-prezidenti, ABŞ Dövlət Departamentinin yüksəkvəzifəli nümayəndəsi «Cənub Qaz Dəhlizi»nin bütün üzv ölkələrinin nümayəndələri orada iştirak etdilər. Bu, geniş beynəlxalq formatdır. Növbəti dövr ərzində qarşılıqlı anlaşma, işlərin əlaqələndirilməsi və qarşılıqlı inam bizim işimizi sürətləndirəcək. Çünki biz bir-birimizə daha da çox inanmalıyıq. Qeyd etməliyəm ki, Azərbaycan bu işlərdə bəlkə də ən böyük təcrübəsi olan bir ölkə kimi, əlbəttə, öz xidmətlərini bundan sonra da göstərəcək.

Bizim bu günə qədər Türkiyə və Gürcüstan ilə bərabər təşəbbüs kimi irəli sürdüyümüz bütün layihələr uğurla nəticələndi – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum. Bakı–Tbilisi–Qars da uğurla nəticələnir. Ona görə də məndə heç bir şübhə yoxdur ki, «Cənub Qaz Dəhlizi» və onun önəmli hissəsi olan TANAP da uğurla nəticələnəcək. Bu, şaxələndirmə layihəsidir. Avropaya və Türkiyəyə yeni mənbədən böyük həcmdə əlavə qaz nəql ediləcəkdir. Hazırda Avropa üçün yeganə mövcud olan yeni qaz mənbəyi «Şahdəniz» qazıdır, Azərbaycan qazıdır. Gələcəkdə başqa mənbələr də olacaqdır, amma hazırda budur. Mənbələrin şaxələndirilməsi çox önəmlidir. Yolların şaxələndirilməsi də önəmlidir. Biz hamımız şaxələndirmə haqqında danışırıq, amma ilk növbədə, yeni mənbələrin mövcudluğu önəmlidir. Çünki burada da qeyd edildi, dünyada və xüsusilə də Avropada qaza olan tələbat getdikcə artacaq. Ənənəvi mənbələr də təbii olaraq tükənir. Yeni resurs bazası olmalıdır, hazırda bu resurs baza Azərbaycandır.

Mən əminəm ki, biz gələcəkdə də bütün işləri lazımi səviyyədə aparacağıq. Bizə lazım olan bütün əlaqələndirmə işləri aparılır.

Əsas məsələ ondan ibarətdir ki, bizim aramızda qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, bir-birimizə inam var.

Mən TANAP layihəsinin Novruz bayramı ərəfəsində – İlaxır çərşənbə günündə təməl daşının qoyulmasında böyük rəmzi məna görürəm. Biz milli ənənələrimizə bağlıyıq, sadiqik, öz gələcəyimizi milli dəyərlər üzərində qururuq. Biz bütün dünyaya da açığıq. Bu gün burada toplaşan, müxtəlif ölkələrdən gəlmiş qonaqlar bizim dəyərli dostlarımızdır. Bu işi biz bərabər görürük və görəcəyik.

TANAP-a uğurlar və inşallah, 3 ildən sonra TANAP-ın açılışında bərabər olacağıq. Sağ olun.

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli Azərbaycan Prezidenti!

Hörmətli Gürcüstan Prezidenti!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi sevgi və ehtiramla salamlayır, «Cənub Qaz Dəhlizi» layihəsinin onurğa sütununu təşkil edən Trans–Anadolu təbii qaz boru kəmərinin – TANAP-ın təməlqoyma mərasiminin ölkələrimiz, xalqlarımız, bölgəmiz üçün xeyirli olmasını diləyirəm. Bu mərasim münasibətilə ölkəmizi şərəfləndirdiyiniz, qarslı qardaşlarımızla bir yerdə olduğunuz üçün hər birinizə ayrı-ayrılıqda təşəkkür edirəm. Qaz nəqlinin başlanacağı 2018-ci ildə də bu xoşbəxtliyi, inşallah, birlikdə paylaşmağı arzu edirəm.

Dünyada neft və təbii qaz layihələri təəssüf ki, əksər hallarda münaqişələrlə, problemlərlə, müharibələrlə, müstəmləkə ilə xatırlanır. Mən bu layihənin sülhlə, rifahla, əmin-amanlıqla birlikdə xatırlanacağına inanıram. Biz heç vaxt başqa cəmiyyətlərin və ölkələrin bədbəxtliyi üzərində xoşbəxtliyimizi qurmaq məqsədi güdmədik. Belə bir düşüncəni əsla qəbul etmədik. Siz, hörmətli prezidentlərin də eyni yanaşmaya sahib olduğunu çox yaxşı bilirəm. Dünyanı daha ədalətli, yaşana bilən, əmin bir yerə çevirmək məsələsində hamımız məsuliyyətimizi dərk edirik. Bu

layihə ilə hamımız birlikdə təbii sərvətlərin istifadəsi ilə bağlı yeni bir yanaşmanı bütün dünyaya göstərə biləcəyimizi düşünürəm. Türkiyənin şərq sərhədindən başlayıb qərb sərhədində başa çatacaq və «Şahdəniz» qazını Avropaya daşıyacaq bu boru kəmərinin təbii qaz ilə yanaşı, sülh və əmin-amanlığın da daşıyıcısı olmasını ürəkdən arzu edirəm.

Məlum olduğu kimi, təbii qazın tədarükçüsü, tranzitçisi və istehlakçısı var. Təbii ki, burada əsasən Azərbaycan bu işin tədarükçüsüdür. Digər tərəfdən, Gürcüstan və biz bu işin həm tranzitçisi, həm də istehlakçısıyıq. Avropa isə bu işin istehlakçısı olacaqdır. Belə bir vəziyyət gündəmdədir. İqtisadi resurslar əgər insanlığın xidmətində deyilsə, fəlakətin – yaşadığımız iki böyük dünya müharibəsinin, irili-xırdalı saysız-hesabsız müharibələrin, münaqişələrin səbəbi olduğunu gördük.

Biz bu layihə ilə eyni zamanda, sahib olduğumuz sərvətləri öz vətəndaşlarımızın, onlarla birlikdə bütün bölgə xalqlarının, bütün insanlığın xidmətinə təqdim etmək iradəmizi də ifadə etmiş oluruq. Bu yola birlikdə çıxdığımız, bu yolda birlikdə irəlilədiyimiz üçün hər birinizə ayrı-ayrılıqda təşəkkür edirəm.

Hörmətli prezidentlər, əziz qonaqlar! Türkiyə son 12 ildə həyata keçirdiyi böyük islahatlarla həm demokratiya, həm də iqtisadiyyat sahələrində çox böyük irəliləyişlər əldə edib. Bu prosesdə ölkəmizi hər sahədə 3 dəfə böyüdərək, əsas infrastruktur layihələrini reallaşdıraraq, investisiya mühitini yaxşılaşdıraraq keçmişin çətinliklərini aradan qaldırmağa səy göstərdik. Bu dövrdə, bildiyiniz kimi, adambaşına milli gəlirimiz 3500 dollardan 11000 dollara çatdı. İxracatımızı 36 milyard dollardan 158 milyard dollara qədər çatdırdıq. Turizm sahəsində gəlirlərimizi 12,5 milyard dollardan 34,5 milyard dollara çatdırdıq. Təhvil aldığımız 6100 kilometr uzunluğunda magistral yollara 17 min 590 kilometr yol əlavə etdik. Sürətli dəmir yolu xətti, hava limanları ilə ölkəmizin hər bir bölgəsini sürətlə və etibarlı şəkildə səyahət ediləcək səviyyəyə gətirdik. Buraya da gələrkən bu şəhərimizin də tikinti meydançasına çevrildiyini gördünüz. Yaşayış kompleksləri layihələri ilə bütün

dünyada nümunə göstərilən şəhərləşmə kampaniyasını başlatdıq. Su anbarları, suvarma və sutəmizləmə təsisləri, kənd təsərrüfatı sahəsində inkişaf layihələri, bütün sahələrdə infrastruktur sərmayələri ilə ölkəmizin, necə deyərlər, simasını dəyişdirdik.

İndi də əsl hədəflərimizə – 2023-cü il hədəflərinə hazırlaşırıq. Məqsədimiz 500 milyard dollarlıq ixracat, 2 trilyon dollarlıq milli gəlir, birrəqəmli işsizlik və inflyasiya səviyyəsi ilə gənc, təhsilli əhalimizi maksimum şəkildə dəyərləndirərək, dünyanın ilk 10 iqtisadiyyatından biri olmaqdır. Bu baxımdan Türkiyəni bölgənin enerji paylama mərkəzinə çevirməyi də planlaşdırırıq. Ceyhan artıq dünyanın ən mühüm neftpaylama mərkəzlərindən birinə çevrilib. İraq və Suriyada vəziyyətin normallaşması ilə Ceyhanın bu mövqeyi daha da güclənəcək, qabiliyyəti daha da artacaqdır. Digər ölkələrlə də təbii qaz və neft boru kəmərləri layihələrimiz davam edir.

TANAP bütün bu layihələrin arasında marşrutu və hədəfləri ilə xüsusi bir yerə, önəmə sahibdir. Bu layihə başqa heç bir layihənin alternativi olmadığı kimi, bu layihəyə alternativ başqa bir layihə də yoxdur. Bu baxımdan həqiqətən də özünəməxsus bir layihə olan «Cənub Qaz Dəhlizi»ni bütün mərhələləri ilə tamamilə həyata keçirdikdə Avropa ilə Xəzər bölgəsi arasında güclü bir əlaqə qurmuş olacağıq.

Bu layihəyə Azərbaycan, Gürcüstan və Türkiyə ilə yanaşı, bütün Avrasiya coğrafiyasının ehtiyacı var. Bir az əvvəl Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini çıxışına türkcə sözlərlə başladı və məni xeyli məmnun etdi. Bunu xatırlatmaq istəyirəm ki, hətta bu səviyyədə türkcəsi ilə Adriatikdən Çin səddinə qədər heç bir çətinlik çəkmədən gedə bilər. Bu məsələdə arxayın olsun. Bir az əvvəl də dediyim kimi, bu layihənin iqtisadi funksiyası ilə yanaşı, sülhə və əmin-amanlığa verəcəyi töhfə də maraqla qarşılanacaq.

Təməlini qoyduğumuz TANAP 1850 kilometr uzunluğu və dostlarımın da söylədiyi kimi, 10 milyard dollar maliyyəsi ilə bu missiyaya artıqlaması ilə layiq olan layihədir. 16 milyard kubmetrdən başlayıb mərhələli olaraq 22 milyard kubmetrə və

31 milyard kubmetrə qədər çatdırılacaq qabiliyyəti ilə bu layihədə təbii qaz nəqlinin, inşallah, nəzərdə tutduğumuz tarixdə – 2018-ci ildə başlanmasını arzu edirik. Planımız budur.

TANAP layihəsinin bu kəmərin keçdiyi Ərdəhan, Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşxana, Giresun, Sivas, Yozqat, Kırşehir, Qırıqqala, Ankara, Əskişəhər, Bilecik, Kütahya, Bursa, Balıkesir, Çanaqqala, Tekirdağ, Ədirnə vilayətlərimizə də xeyirli olmasını diləyirəm. Ölkəmizi şərqdən qərbə qədər qət edəcək, 20 vilayətimizdən, 67 qəsəbəmizdən və 600 kəndimizdən keçəcək 1850 kilometr uzunluğundakı kəmərin sürətlə tamamlanaraq istifadəyə verilməsini arzu edirik.

Hörmətli prezidentlərə və hörmətli qonaqlarımıza bu münasibətlə ölkəmizə təşrif buyurduqları üçün bir daha təşəkkür edirəm. Fəaliyyəti davam etdirəcək firmalara, mühəndislərə, texniklərə, işçilərə uğurlar diləyirəm. Layihənin bu günə qədər gəlməsində əməyi və töhfəsi olan hər kəsə təşəkkür edirəm.

Bir daha Trans–Anadolu təbii qaz boru kəmərinin – TANAP-ın təməlqoyma mərasiminin xeyirli olmasını diləyir, «Allah qəzadan-bəladan hifz etsin» – deyir, sizi sevgi və hörmətlə salamlayıram.

* * *

*Sonra TANAP boru kəmərinin təməli qoyuldu.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin Qars şəhərinə işgüzar səfəri martın 17-də başa çatmışdır.*

*Dövlətimizin başçısı İlaxır çərşənbə münasibətilə Türkiyə Prezidentini təyyarəyə çay süfrəsinə dəvət etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan təyyarədə çay süfrəsi arxasında söhbət etdilər.*

*Qars şəhərinin Beynəlxalq Hava Limanında dövlətimizin başçısı İlham Əliyevi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yola saldı.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar arzulayıram.

Novruz bayramı mənşəyini uzaq keçmişimizin ən dərin qatlarından alıb Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək layiqincə yaşadır. Tanrının misilsiz hikmətlə yaratdığı təbiətə sonsuz sevgi və yüksək ehtiramın parlaq təzahürü olan bu bayramda ulu babalarımızın minilliklərin sınağından çıxmış həyat fəlsəfəsi dolğun təcəssümünü tapmışdır. Odlar diyarını sivilizasiyaların qovuşuğundakı qədim mərkəz olaraq tanıdıb şöhrətləndirmiş mədəni sərvətlər xəzinəmizdə Novruz mərasimləri müstəsna mövqeyə malikdir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı Bahar bayramının dünya irsinin şah əsərləri sırasında olması hər bir azərbaycanlıya qürur verir.

Yaz bayramı özündə qoruyub saxladığı misilsiz mənəvi qüvvət sayəsində tariximizin ən çətin və mürəkkəb dövrlərində belə, gələcəyə nikbin baxmağımızı təmin etmişdir. Ötən əsrin sonlarına doğru müstəqil dövlətçilik idealımıza yenidən qovuşduqdan sonra o, rəsmi milli bayram statusunu qazanmışdır. Builki Novruz bayramını I Avropa oyunları ərəfəsində qeyd edirik. Yeniləşən, müasirləşən Azərbaycan müxtəlif ölkələrdən çoxsaylı iştirakçıları Novruz günlərində xüsusən aydın ifadəsini tapan ənənələrimizə uyğun böyük qonaqpərvərliklə qəbul etməyə hazırlaşır. Ümidvaram ki, xalqımıza xas ürək açıqlığı bu oyunları mühüm idman və mədəniyyət bayramına çevirəcək, onun insanların yaddaşlarında unudulmaz hadisə kimi həkk olunmasına xidmət göstərəcəkdir.

Novruz bayramını ölkəmizin hüdudlarından uzaqlarda bütün soydaşlarımız azərbaycançılıq məfkurəsi işığında bizimlə birgə

qarşılayırlar. Bu ümumxalq bayramı qoy hər ocağa, hər ailəyə bol sevinc, firavanlıq və ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2015-ci il*

## SUDAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ƏHMƏD KARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Sudan Respublikasının Xarici İşlər naziri Əli Əhməd Kartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Əli Əhməd Kartinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin məhsuldar olacağına və ölkələrimiz arasında dostluq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi. İki ölkə arasında mövcud olan tərəfdaşlıq əlaqələrini və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı yüksək dəyərləndirən dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq Sudanın bu münaqişənin həllində və eləcə də Xocalı faciəsinin soyqırımı kimi tanınmasında tutduğu ədalətli mövqeyinə görə minnətdarlığını ifadə etdi.*

*Nazir Əli Əhməd Karti Sudan prezidenti Ömər Həsən Əhməd əl Bəşirin salamlarını dövlətimizin başçısına çatdırdı. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın önəmini qeyd edən nazir Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı da ölkəsinin tutduğu ədalətli mövqenin dəyişməz olaraq qalacağını bir daha vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr, iqtisadi sahədə, o cümlədən enerji sektorunda əməkdaşlıq və bu sahədə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olundu.*

*Dövlətimizin başçısı prezident Ömər Həsən Əhməd əl-Bəşirin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sudan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BAKI OLİMPİYA STADİONUNUN AÇILIŞI MƏRASİMİ

*18 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva martın 18-də Bakı Olimpiya stadionunun açılışı mərasimində iştirak etmişlər.*

*Bakı Olimpiya stadionunun təməli 2011-ci il iyunun 6-da qoyulub. Mərasimdə prezident İlham Əliyev, FİFA prezidenti Yozef Blatter və UEFA prezidenti Mişel Platini, eləcə də dünya futbol ictimaiyyətinin görkəmli nümayəndələri, federasiya rəhbərləri və futbol veteranları iştirak edirdilər. Ətrafında ümumilikdə 82 min kvadratmetrlik yaşıllıq sahəsinin salındığı Bakı Olimpiya stadionu yüksək keyfiyyətlə inşa olunub və artıq istifadəyə hazırdır.*

*Dövlətimizin başçısı stadionun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, təxminən 50 hektar ərazidə tikilən stadionun hündürlüyü 62 metrdir və 6 mərtəbədən ibarətdir. Stadionun sahəsinə 4, tribunalara isə 26 qapıdan giriş var. 68 min tamaşaçı tutumlu stadiona olimpiya normativlərinə əsasən, insanların daha çox piyada və ictimai nəqliyyatla gəlməsi nəzərdə tutulub ki, bunun üçün də ərazidə 3 min 100 yerlik avtomobil parkı inşa edilib.*

*Sonra prezident İlham Əliyevə və xanımına Bakı Olimpiya stadionunun interyerində həyata keçirilən işlərlə bağlı məlumat verildi.*

*Bildirildi ki, burada işlər artıq başa çatdırılıb. Tikintidə ən müasir avadanlıq və inşaat materiallarından istifadə olunub.*

*Bakı Olimpiya stadionunda inşaat işlərinin gedişi ilə dəfələrlə tanış olan, tikintinin keyfiyyətlə həyata keçirilməsini diqqət mərkəzində saxlayan prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq bu nəhəng idman qurğusu müasir arxitektura üslubu, xüsusi gözəlliyi ilə seçilir və şəhərimizdə aparılan quruculuq işlərinə bir töhfədir. İlk Avropa oyunlarına hazırlıq, o cümlədən Bakı Olimpiya stadionunda inşaat işlərinin gedişi ilə bağlı I Avropa oyunları Təşkilat Komitəsi fəal iş aparır. Komitə tərəfindən təşkilati işlər yüksək səviyyədə həyata keçirilir. İlk Avropa oyunlarına hazırlıqla bağlı işlərin beynəlxalq standartlara uyğun şəkildə vaxtında və yüksək keyfiyyətlə aparılması I Avropa oyunları Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Avropa oyunlarının Koordinasiya Komissiyasının müxtəlif vaxtlarda keçirilən iclasları hazırlıq işlərinin yüksək səviyyədə aparılmasında xüsusi önəm daşıyır. İlk Avropa oyunlarının xaricdə təbliğ olunması işinə də böyük əhəmiyyət verilir. Bununla bağlı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Avropanın bir sıra ölkələrində keçirilən təntənəli tanıtım mərasimlərinin əhəmiyyəti xüsusi önəm daşıyır.*

*Diqqətə çatdırıldı ki, beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri inşa olunub. Burada qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Bu stadionda yaradılan şərait təsdiqləyir ki, dünyada idman ölkəsi kimi tanınan, idmana, olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanda bu cür infrastruktur layihələrinin icrası ölkəmizin gücünü göstərir. İlk Avropa oyunlarına hazırlığın mühüm mərhələsi olan Bakı Olimpiya stadionunun inşası bir daha bu mötəbər beynəlxalq idman tədbirinin yüksək səviyyədə baş tutacağına əminlik yaradır.*

*2015-ci ildə* Odlar Yurdu *Azərbaycandan* start *götürəcək* Avropa *oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar* Avropa Olimpiya *Komitəsinin Baş Assambleyasının 41-ci* sessiyasında *qəbul* olunub. *Ölkəmizin* namizədliyi *38 dövlət tərəfindən dəstəklənib.* Bu *oyunların Bakıda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan, dünyada* formalaş-*dırdığı müsbət imicdən qaynaqlanır. I* Avropa *oyunlarının* ke-*çirilməsinə* az vaxt *qalmasına* baxmayaraq, *Azər*baycanda bu *mötəbər tədbirə hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Müxtəlif* idman *yarışlarının keçirilməsi üçün nəzərdə* tutulan *Bakı* Olimpiya stadionunun *inşası* da bu *istiqamətdə görülən tədbirlərdən* biridir. *Çox qısa müddətdə görülən işlər* bir daha *təsdiqləyir ki, ilk* Avropa *oyunlarının Bakıda keçi-rilməsi ölkəmizdə yaşanan* olimpiya *hərəkatına verilən dəyərin təzahürüdür.* Bu *hadisə həm də Azərbaycanda* idman *sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq* miqyasda *göstərilən marağın nümunəsidir.* Son *dərəcə* maraqlı, *qədim* tarixi *və zəngin mədəni dəyərləri* olan *Azərbaycanın* Avropanın *həyatında baş verəcək* ilk *belə hadisəyə* ev sahibliyi *etməsi təbii ki, həm də ölkəmizin* son *illərdə* idman *sahəsində* qazandığı *uğurlardan qaynaqlanır. Təsadüfi* deyil ki, *22 illik müstəqilliyi dövründə Azərbaycan atletləri* olimpiadalarda *26,* Avropa *və dünya çempionatlarında isə 2 minə qədər* medal *qazanıblar. 2015-ci il* iyunun *12-dən 28-dək keçiriləcək* ilk Avropa *oyunlarında isə 49 ölkədən 6 mindən artıq* atlet *idmanın 20 növü üzrə mübarizə* aparacaq. *İlk* Avropa *oyunları Bakıda 21 məkanda keçiriləcək və oyunlarını açılış və bağlanış mərasimlərinin keçiriləcəyi Bakı* Olimpiya stadionunda *yara-dılan şərait isə* bir daha bu idman *tədbirinin yüksək səviyyədə təşkil* olunacağına *təminat* verir.

## BAKI OLİMPİYA STADİONU ƏTRAFINDA YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*18 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Bakı Olimpiya stadionu ətrafında*

*+yol-nəqliyyat infrastrukturunun tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Həsən Əliyev küçəsi – Ziya Bünyadov prospekti–Olimpiya stadionu avtomobil yolunun birinci hissəsində tikinti işləri qrafik üzrə davam etdirilir. Layihə çərçivəsində işlərin böyük hissəsi görülüb. Çəkilən ikinci yolun ümumi uzunluğu 1 kilometrdir və onun hərəkət hissəsi 2–6 zolaqlıdır. Yol boyunca 3 körpü inşa olunub. Birinci körpünün uzunluğu 205 metr, ikinci körpünün uzunluğu 176 metr, piyadalar üçün nəzərdə tutulan üçüncü körpünün uzunluğu isə 143 metrdir. Bundan başqa, uzunluğu 900 metrə yaxın olan piyada keçidi də inşa edilib, 2 tunel tikilib.*

*Azərbaycan Prezidentinə Həsən Əliyev küçəsi – Ziya Bünyadov prospekti–Olimpiya stadionu avtomobil yolunun ikinci hissəsində görülən işlərlə də bağlı məlumat verildi.*

*Diqqətə çatdırıldı ki, layihə çərçivəsində ümumi uzunluğu 5 kilometrə yaxın yol çəkilib. Bu yol boyunca da 1 körpü və 2 tunel tikilib. Tuneldən keçən yollar Bakı Olimpiya stadionu ilə Olimpiya şəhərciyini birləşdirib.*

*Prezident İlham Əliyev inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Pakistan Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Pakistan münasibətləri xalqlarımızın iradəsindən qaynaqlanır. İnanıram ki, zamanın sınaqlarından çıxmış, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin daim qorunub saxlanması, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da dərinləşməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizin Azərbaycana səfərinizi, keçirdiyimiz görüşləri, apardığımız fikir mübadiləsini məmnunluqla xatırlayıram. Əminəm ki, səfəriniz münasibətlərimizin yeni mərhələyə yüksəlməsinə güclü təkan verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *19 mart 2015-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Yunanıstan arasındakı dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi və əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində atdığımız addımlar bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *19 mart 2015-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MD. ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Banqladeş arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Banqladeş xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *19 mart 2015-ci il*

# NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2015-ci il*

*Azərbaycan xalqının milli bayramı – Novruz bayramı münasibətilə martın 19-da Bakıda ümumxalq şənliyi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, dövlət və hökumət nümayəndələri şənlikdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı, xanımı və ailə üzvləri əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.*

*Milli geyimli qızlar və oğlanlar prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.*

*Bahar qız dövlətimizin başçısına səməni təqdim etdi.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Milli geyimli qızlar və oğlanlar meydanda rəqs edirdilər. Musiqi sədası ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək

istəyirəm. Hər bir Azərbaycan vətəndaşına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bizim əziz, sevimli bayramımızdır, milli sərvətimizdir. Xalqımız əsrlərboyu Novruzu əziz bayram kimi qeyd edir. Ancaq müstəqillik dövründə biz bu bayramı rəsmi bayram kimi qeyd etməyə başlamışıq və sabahdan 9 gün istirahət günüdür. Bizim müstəqilliyimiz də milli dəyərlər, ənənələr üzərində qurulubdur. Müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür. 24 ilə yaxındır ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdi. Vətəndaş qarşıdurması, vətəndaş müharibəsi təhlükəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi və siyasi böhran, əlbəttə ki, müstəqilliyimizə çox böyük zərbə vurmuşdu. Ancaq ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi. Azərbaycanda siyasi və iqtisadi islahatlar aparılmağa başlandı və ölkəmiz inkişaf yoluna qədəm qoydu. O vaxtdan – keçən əsrin 90-cı illərinin ortalarından bu günə qədər 20 il ərzində Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, müstəqilliyimiz möhkəmlənir, güclənir və Azərbaycan bu gün dünya miqyasında çox dəyərli ölkə, tərəfdaş kimi tanınır.

Biz müstəqil siyasət aparırıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Əsrlərboyu xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamış, ancaq öz milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. İlk növbədə, biz milli dəyərlərimizi, bayramlarımızı, ədəbiyyatımızı, incəsənətimizi, ana dilimizi, xalq kimi, özümüzü qoruya bilmişik. Bu gün isə biz azadıq, Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu günün reallıqları göstərir ki, ancaq müstəqillik dövründə bizim xalqımız yüksək zirvələrə çata bilər. Bugünkü dövr, əgər bizim bütün tariximizi nəzərə alsaq, ən sürətli inkişaf dövrüdür. Biz bundan sonra da müstəqil həyatımızı, xalqımızın rahat yaşamasını təmin edəcəyik. Ancaq o da təbiidir ki, Azərbaycan gücləndikcə bizə təzyiqlər də artır. Bizim müstəqil siyasətimiz heç də hamıya xoş gəlmir. Belə olan halda bizə qarşı

təzyiqlər də artır və təzyiq mexanizmləri də işə salınır. Bunun nəticəsidir ki, bu gün bəzi xarici dairələr Azərbaycana qarşı açıq antikampaniya aparırlar. Biz buna hazırıq, bu kampaniya əslində heç vaxt dayanmayıb. Sadəcə olaraq, önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da eybəcər formalar alır. Biz bunu 3 il bundan əvvəl – 2012-ci ildə «Eurovision» müsabiqəsi ərəfəsində görmüşük. Bu gün də I Avropa oyunları ərəfəsində bunu görürük. Bu, koordinasiya şəklində təşkil edilmiş, bir və ya bir neçə mərkəzdən idarə olunan antiazərbaycan kampaniyasıdır ki, bunun məqsədi ölkəmizi ləkələmək, qaralamaq, işlərimizə kölgə salmaq və Azərbaycanı geridə qalmış, qeyri-demokratik, azad olmayan ölkə kimi təqdim etməkdir. Bütün bunlar təbii ki, yalan üzərində qurulur. Ona görə nə Azərbaycan xalqı, nə dünya ictimaiyyəti buna inanmır. Azərbaycan xalqı hər şeyi öz gözü ilə görür. Son illərin inkişafı, şəhərlərimizin abadlaşdırılması, ölkəmizin iqtisadi, sosial inkişafı, beynəlxalq nüfuzumuzun artırılması göz qabağındadır. Bizim işlərimiz dünya ictimaiyyəti üçün də artıq sirr deyil. Çoxsaylı tədbirlər, sərgilər, konfranslar, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təqdimatı artıq beynəlxalq ictimaiyyətə də Azərbaycan haqqında kifayət qədər dolğun məlumatın çatdırılması üçün şərait yaradır.

Ancaq buna baxmayaraq, biz görürük ki, dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları sanki Azərbaycana qarşı soyuq müharibə elan ediblər. Bir daha demək istəyirəm ki, bütün bu səylərin heç bir nəticəsi yoxdur, ola da bilməz. Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin.

Azərbaycanda bütün azadlıqlar təmin edilib. Azərbaycanda azad cəmiyyət formalaşıb. Hər kəs azaddır. Azad mətbuat təmin edilib. İnternetə heç bir məhdudiyyət qoyulmur, azad internet var. Sərbəst toplaşmaq azadlığı təmin edilib. Vicdan, din azadlığı bəzi ölkələrdən fərqli olaraq tam şəkildə təmin edilibdir. Ancaq bizi ittiham etmək istəyən dairələrin öz ölkələrindəki vəziyyətə baxın. Bax, elə dünən Avropanın mərkəzində yüzlərlə nümayişçi döyülərək, söyülərək həbs

edilibdir. Başqa yerlərdə insanlar boğularaq, güllələnərək öldürülürlər. Heç kim də buna görə məsuliyyət daşımır. Haradadır o qeyri-hökumət təşkilatları ki, bizi ittiham edirlər? Niyə susurlar? Niyə öz səslərini ucaltmırlar? Niyə o ölkələri ittiham etmirlər? Cürətlərimi çatmır? Yoxsa bu, ikili standartlar siyasətidir?! Yəqin ki, hər ikisidir. Nə üçün beynəlxalq qurumlar bəyanatlar yaymırlar, vermirlər? Nə üçün qətnamələr qəbul edilmir? Bax, bu suallara cavab almaq çox çətindir. Mən həm xarici həmkarlarımla, həm beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu sualları açıq şəkildə onlara verirəm. Bəlkə buna görə də Azərbaycana qarşı təzyiqlər daha da kəskinləşir. Əfsuslar olsun ki, bu gün dünya siyasətində beynəlxalq hüquq yox, riyakarlıq, ikili standartlar, ayrı-seçkilik, irqçilik, islamofobiya, ksenofobiya hökm sürür. Budur bugünkü reallıqlar. Ona görə biz buna hazır olmalıyıq və biz hazırıq. Biz ölkəmizi gücləndiririk, ölkəmizi inkişaf etdiririk. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün azadlıqlar mövcuddur – siyasi azadlıqlar, vicdan azadlıqları, iqtisadi sərbəstlik. Bu gün Azərbaycan istər iqtisadi inkişaf, istər dinlərarası dialoq baxımından nümunəvi bir ölkədir.

Bu gün hər tərəf alovlanır, Yaxın Şərq, Avropa, MDB məkanı, ya qanlı toqquşmalar, yaxud da ki, etnik, dini zəmində qarşıdurmalar, qarşılıqlı ittihamlar. Baxın, Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu bizim siyasətimizdir, xalqın da sifarişidir. Azərbaycan bu gün dünya üçün əhəmiyyətli ölkəyə çevrilibdir. Bizi beynəlxalq aləmdə dəstəkləyən ölkələrin sayı durmadan artır. Dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik. Qoy bizi ittiham etməyə çalışan ölkələr 155 ölkənin dəstəyi ilə seçilsinlər, görək necə seçilirlər. Bax, budur reallıq. Ona görə, əlbəttə ki, Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu bizim iradəmizə heç vaxt təsir edə bilməz.

Avropa oyunları isə sadəcə olaraq, bir bəhanədir. Sanki bəzi xarici qüvvələr var ki, bunu bizə çox görürlər. Baxmayaraq ki, biz

öz üzərimizə böyük məsuliyyət götürmüşük. Yəni bu oyunları 2 il yarım ərzində hazırlamaq çox çətin məsələdir. Bu oyunlar Olimpiya oyunlarının səviyyəsində keçiriləcək. Olimpiya oyunlarını keçirmək üçün 7 il vaxt verilir. Biz isə cəmi 2 il yarıma bunu edirik və ən aşağı büdcə ilə bunu edirik. Dünən Avropanın mərkəzində nümayişçilərin etirazına səbəb bir binanın inşası oldu. Bizim bütün Avropa oyunlarına hazırlıq işlərinə xərclədiyimiz vəsait bir binaya xərclənib. Bəs haradadır «Transparency International»? Niyə bu işlərdə öz sözünü demir? Avropada nəqliyyatla bağlı bir infrastruktur obyekti var. 10 ildir inşa edilir. Bizim Avropa oyunlarının hazırlanmasına xərclədiyimizin ikiqatı qədər oraya pul xərclənib, hələ ki, tikintisi qurtarmayıb. Bəs niyə bu barədə danışmırlar? Niyə bu barədə yazmırlar? Bu, ritorik suallardır. Ancaq biz bu sualları verməliyik və veririk. Çünki biz ədalətin tərəfdarıyıq. Hər yerdə ədalət olmalıdır – cəmiyyətdə, ailədə, beynəlxalq münasibətlərdə. Ədalət pozulduqda hər şey pozulur, inam pozulur. Sanki dünyada yeni bir dəyərlər sistemi formalaşır. Ədalət əvəzinə qeyri-ədalətli yanaşma, bərabərlik əvəzinə qeyri-bərabərlik, düzgünlük əvəzinə riyakarlıq, yalan. Bax, biz buna qarşı mübarizə aparırıq. Əlbəttə, Azərbaycan böyük dövlət deyil, amma bizim də kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək.

Bizim əsas problemimiz – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemi əfsuslar olsun ki, həll olunmur. Keçən il vasitəçilər tərəfindən səylər göstərildi. Bilirsiniz ki, avqust, sentyabr, oktyabr aylarında Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları, yüksəkvəzifəli şəxslər səylər göstərdilər, 3 görüş keçirildi. Sonuncu görüş Parisdə hər 2 tərəfin fikrinə görə uğurlu keçdi. Ancaq o görüşdən 1 həftə keçməmiş Ermənistan növbəti təxribata əl atdı. Ağdamda, işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başladı ki, bizi yenə də təxribata çəksin. Biz təxribata getmək istəmirdik. Çünki öz beynəlxalq öhdəliklərimizə sadiqik. Bir daha bildirmək istəyirəm ki, oktyabrın sonunda Parisdə keçirilən görüşdə demişdik ki, biz gərək təmas xəttindəki gərginliyi azaldaq, sülh danışıqlarının mahiyyətinə daha

da çox fikir verək. Ona görə özümüzü çox təmkinli aparmışıq. Amma düşmən bizim bu davranışımızı başqa cür yozub və mövqelərimizə hücum çəkib. Belə olan halda təbii ki, Azərbaycan əsgəri rəşadət göstərərək, düşmənin helikopterini məhv edib. Ondan sonra bizdən qisas almağa çalışdılar. Hətta Ermənistanın ən yüksəkrütbəli, vəzifəli şəxsləri demişdilər ki, biz qisas alacağıq. O faşist ideologiyasının nəticəsində onlarla erməni əsgəri təmas xəttində həlak oldu. Mən demişəm və bir daha demək istəyirəm ki, ölmək istəmirsinizsə Ağdama, Füzuliyə getməyin, oturun öz yerinizdə. Qisasa gəldikdə isə qisası biz almalıyıq və alırıq da. Biz Xocalı qurbanlarının qisasını alırıq və alacağıq. Şəhidlərimizin qanı yerdə qalmamalıdır və qalmır.

Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir. Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar. Biz tam üstünlüyü əldə etmişik. Mən tam əminəm ki, biz istədiyimizə nail olacağıq, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ondan sonra biz azərbaycanlılar, əlbəttə ki, bütün qədim torpaqlarımıza qayıdacağıq – İrəvana da, Göyçəyə, Zəngəzur mahalına da. Bütün bunlar bizim qədim torpaqlarımızdır. Gənc nəsil də bunu bilməlidir ki, bizim torpaqlarımız sadəcə olaraq, bugünkü müstəqil Azərbaycan torpaqları deyil. Biz o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq. Biz hər gün çalışmalıyıq ki, o günü yaxınlaşdıraq.

Ona görə biz daha güclü olmalıyıq, daha da güclü orduya sahib olmalıyıq. Ordu quruculuğu bizim üçün indi əsas vəzifədir və bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılır. Bu gün Azərbaycan Ordusu həm hazırlıq, həm də texniki təchizat, silah baxımından dünyanın ən qabaqcıl orduları sırasındadır. Bunu biz yaratdıq. Çünki başqa cür mümkün deyil.

Bu gün dünyada beynəlxalq hüquq işləmir, beynəlxalq müqavilələr sadəcə olaraq, kağız parçasıdır, heç bir dəyəri yoxdur. Kimin gücü var, o müqavilələrə məhəl qoymur. Yəni dünyada yeni bir dövr başlayıbdır, bunu biz bilməliyik. Bu

dövrü biz başlamamışıq. Biz həmişə beynəlxalq hüquqa əsaslanmışıq və bütün siyasətimizi belə qurmuşuq. Öz səsimizi ucaltdıq ki, nə üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir?! Orada birbaşa yazılıb ki, Azərbaycan torpaqları işğaldan qeyd-şərtsiz və dərhal azad edilməlidir. Yəni beynəlxalq hüquq sadəcə olaraq, güclü dövlətlər üçün bir alətdir ki, güclü olmayan dövlətləri nəyə isə məcbur etsin. Amma onların özləri üçün beynəlxalq hüquq heç bir şeydir. Bunu biz görürük, bunu görməyən yoxdur. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür, o da haqlıdır. Bu nəyi göstərir? Onu göstərir ki, güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət.

Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, xalqla iqtidar arasında birlik möhkəmdir. Bizim islahatlarımız, siyasi addımlarımız, beynəlxalq səviyyədə apardığımız işlər xalq tərəfindən dəstəklənir və bugünkü Azərbaycan reallıqları bunu göstərir. Son illər ərzində Azərbaycan kimi sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Bu yaxınlarda – 2 gün əvvəl biz qədim türk torpağı olan Qars şəhərində TANAP layihəsinə start verdik. Bu, tarixi layihədir. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin bir hissəsidir, önəmli hissəsidir. Amma «Cənub Qaz Dəhlizi» 4 hissədən ibarətdir: «Şahdəniz» yatağı, «Cənubi Qafqaz» qaz kəməri, TANAP və TAP layihələri. Azərbaycan bütün bu layihələrdə fəal iştirakçıdır və bu gün biz yeni reallığı yaradırıq. Çünki enerji təhlükəsizliyi bu gün milli təhlükəsizlik qədər önəmlidir. Heç bir ölkə öz milli təhlükəsizliyini enerji təhlükəsizliyini təmin etmədən sığortalaya bilməz. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib. Görün Azərbaycan qazı bu gün Avropa üçün, Avrasiya üçün, bu bölgə üçün nə qədər böyük əhəmiyyət daşıyır. Yeni enerji xəritəsi yaradılır. Bunu biz öz tərəfdaşlarımızla birlikdə yaradırıq. Ona görə təbii ki, görülən bu işlər Azərbaycanın geosiyasi əhəmiyyətini və bizim gücümüzü, təsir imkanlarımızı da artıracaq. Bu gün ölkəmiz kifayət qədər güclüdür, bölgədə nə

iqtisadi, nə siyasi, nə də başqa sahələrdə heç bir layihə bizim razılığımız olmadan icra edilə bilməz, bunu yaxın tarix göstərib.

Azərbaycan bu gün bölgənin aparıcı ölkələrindən biridir və bizim siyasət ədalətli siyasətdir. Biz bütün ölkələrlə bərabərhüquqlu, qonşularla mehriban münasibətlərin tərəfdarıyıq. Biz bərabərliyin tərəfdarıyıq. Biz hesab edirik ki, dünyada böyük-kiçik ölkə anlayışı olmamalıdır. Bütün ölkələr bərabər hüquqa malikdir. Ona görə biz bütün ölkələrlə öz siyasətimizi bu prinsiplər əsasında qururuq. Heç bir ölkə qarşısında öhdəlik götürməmişik və bu, mümkün deyil. Beynəlxalq təşkilatlarda ki biz üzvük, o öhdəlikləri biz yerinə yetiririk, onlara hörmətlə yanaşırıq, vəssalam. Bizim başqa heç bir öhdəliyimiz yoxdur. Əgər kimsə hesab edir ki, Azərbaycanı nəyə isə təhrik etmək, sövq etmək, məcbur etmək mümkündür, səhv edir və bu səhv siyasətindən əl çəkməlidir. Son illərin tarixi bunu göstərir. Biz öz yolumuzla gedirik. Bu yol tərəqqi, inkişaf yoludur. Bu yol azadlıq, müstəqillik yoludur və biz bu uğurları bu yolda əldə etmişik.

Bizim şəhərlərimiz abadlaşır, insanların rifah halı yaxşılaşır. Azərbaycan bu gün dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Bakımız gözəlləşir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakının qədim tarixi, bizim milli sərvətimiz olan Qız qalası, Şirvanşahlar sarayı, İçərişəhər – bu, dünya miqyaslı sərvətdir. Eyni zamanda, Bakının yeni simvolları, yeni rəmzləri yaradılır – Bayraq Meydanı, Heydər Əliyev Mərkəzi, Alov qüllələri, «Ağ şəhər», Xalça Muzeyi, bu yaxınlarda açılan bulvar. Onun uzunluğu artıq 16 kilometrə çatır. Budur bu gün bizim ölkəmiz. Azərbaycana gələn hər bir qonaq, əgər o, qərəzli deyilsə, bunu görür, etiraf edir. Dostlarımız sevinir, düşmənlərimiz peşman olurlar.

Biz öz yolumuzla gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik və ölkəmizi daha da gücləndirəcəyik.

Bayramınız mübarək olsun!

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və ailə üzvləri Dənizkənarı Milli Parka gəldilər.*

*Burada Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin üzvləri, rəqs və mahnı qrupları çıxış edirdilər.*

*Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan «Kosa» və «Keçəl» qarşıladılar.*

*«Kosa» və «Keçəl» Prezidenti və ailə üzvlərini bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.*

*Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.*

*Dövlətimizin başçısı və ailə üzvləri bərəkətli Azərbaycan torpağında yetişdirilən məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri şənlik iştirakçılarında maraq doğururdu. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.*

*Xatırladaq ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olunub. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani*

dəyərləri tərənnüm edir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlərboyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə aparıb. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Prezident İlham Əliyev və ailə üzvləri pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, aşıqların ifalarını dinlədilər.

Burada çay süfrəsinə qonaq olan dövlətimizin başçısı və ailə üzvləri daha sonra Azərbaycan xalçalarının nümunələrinə və kəlağayılara baxdılar.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya bayram hədiyyəsi edildi.

İndi Azərbaycan dünya idman tarixində mühüm hadisə kimi qalacaq ilk Avropa oyunlarına hazırlaşır. Bununla bağlı builki Novruz mərasiminin təşkil olunduğu Dənizkənarı Milli Parkda xüsusi guşələr yaradılıb.

Burada prezident İlham Əliyevə I Avropa oyunlarına ilk onlayn bilet təqdim olundu.

Avropa oyunlarının Bakıda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan, dünyada formalaşdırdığı müsbət imicdən qaynaqlanır. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ilk Avropa oyunlarının Təşkilat Komitəsinə sədr təyin olunması ölkəmizin bu sınaqdan da uğurla çıxacağına əminlik yaradır. Təbii ki, Avropa idman ailəsinin bu qərarı Azərbaycandakı ictimai-siyasi sabitlikdən, son illərdə əldə olunan yüksək iqtisadi nailiyyətlərdən irəli gəlir. Digər tərəfdən, ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, coğrafi mövqeyi, güclü idman infrastrukturu, ən başlıcası beynəlxalq yarışları keçirmək təcrübəsi Avropa Olimpiya Komitəsinin qərarını şərtləndirən mühüm amillər sırasında olub.

Ötən dövrdə Təşkilat Komitəsi fəal iş aparıb. Avropa oyunlarının Koordinasiya Komissiyasının müxtəlif vaxtlarda

*keçirilən iclasları da hazırlıq işlərinin yüksək səviyyədə aparılmasına geniş imkanlar açıb, infrastruktur layihələrinin icrası təmin olunub. İlk Avropa oyunlarının keçiriləcəyi əsas arenada – Bakı Olimpiya stadionunda artıq tikinti işləri başa çatıb və prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə açılışı olub. İlk Avropa oyunlarının xaricdə təbliğinə də xüsusi əhəmiyyət verilir. Bununla bağlı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Avropanın iri şəhərlərində təntənəli təqdimat mərasimləri təşkil olunub. İyunun 12-dən 28-dək keçiriləcək I Avropa oyunları 20 idman növünü əhatə edəcək. Buraya olimpiya və qeyri-olimpiya idman növləri daxildir. 6 mindən çox idmançının mübarizə aparacağı ilk Avropa oyunlarının əhəmiyyətini artıran mühüm amil onun 8 idman növü üzrə Rio-de-Janeyro Yay Olimpiya oyunları üçün təsnifat xarakteri daşımasıdır. Çox qısa müddətdə görülən işlər bir daha təsdiqləyir ki, ilk Avropa oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan olimpiya hərəkatına verilən dəyərin təzahürüdür. Bu hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Heç şübhəsiz ki, bu mötəbər idman yarışı Azərbaycan idmançılarının parlaq qələbəsi ilə yadda qalacaq və ölkəmizin idman tarixinə şanlı səhifə kimi həkk olunacaq.*

*Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram şənliyində «Bakı–2015» I Avropa oyunlarına həsr olunmuş stendlərin qarşısında idmançıların çıxışlarını izlədilər.*

*«Bakı–2015» I Avropa oyunlarının rəmzləri olan «Ceyran» və «Nar» dövlətimizin başçısına və xanımına hədiyyələr təqdim etdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilk Avropa oyunlarının könüllüləri ilə xatirə şəkli çəkdirdilər.*

*Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.*

## GƏNCƏNİN 11 YAŞLI SAKİNİ ÜMİD HƏBİBOVLA GÖRÜŞ

*19 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri martın 19-da Gəncənin 11 yaşlı sakini Ümid Həbibovla görüşmüşdülər.*

*Xatırladaq ki, 2014-cü il oktyabrın 18-də Gəncədə səfərdə olarkən prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva şəhərin gənc sakini Ümid Həbibovla görüşmüşlər. Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 19-da ad günü münasibətilə Ümid Həbibovu Prezident sarayına çay süfrəsinə dəvət ediblər.*

**İlham Əliyev:** Salam.

**Mehriban Əliyeva:** Salam. Təbrik edirəm. Necəsən?

**Ümid Həbibov:** Sağ olun, yaxşıyam.

**Mehriban Əliyeva:** Gəlin şəkil çəkdirək.

**İlham Əliyev:** Biz səninlə keçən il Gəncədə görüşmüşdük. Sən də bizi ad gününə dəvət etdin. Mən də dedim ki, çalışacağam gəlim. Amma görürsən, bu gün biz Novruz bayramını qeyd edirik, ona görə gələ bilmədim. İndi isə səni Bakıya dəvət etmişəm, sən də gəlmisən.

**Ümid Həbibov:** Mən də Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm. Daim ölkəmizin başında olasınız.

**İlham Əliyev:** Sağ ol. Mən də səni təbrik edirəm. Xahiş edirəm mənim təbriklərimi bütün Gəncə sakinlərinə çatdırasan. Sən çox gözəl oğlansan. Eşitmişəm ki, yaxşı oxuyursan. Çox şadam ki, gözəl gənclər, uşaqlar yetişir. Gələcəkdə sənin kimi uşaqlar ölkəmizi idarə edəcəklər. Doğum günün münasibətilə bəzi hədiyyələrimiz də var. Mən bu saatı öz adımdan sənə bağışlayıram.

**M e h r i b a n   Ə l i y e v a:** Bu saat səndə yadigar qalacaq. Burada «Ad günün münasibətilə» sözləri yazılıb.

**İ l h a m   Ə l i y e v:** *Təxminən mənim saatıma oxşayır. Eyni olmasa da, oxşayır.*

**Ü m i d   H ə b i b o v:** Sizin məni Prezident sarayına dəvət etməyinizin, mənimlə görüşməyiniz özü  çox böyük hədiyyədir.

*Leyla Əliyeva və Arzu Əliyeva da Ümid Həbibova hədiyyələr təqdim etdilər. Sonra dövlətimizin başçısı və ailə üzvləri Ümid Həbibovla çay süfrəsi arxasında söhbət etdilər.*

**Ü m i d   H ə b i b o v:** Təşəkkür edirəm. Cənab Prezident, səhv etmirəmsə, Siz bu il martın 17-də Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməlini qoydunuz. Mən Sizə, ölkəmizə uğurlar arzu edirəm. Mehriban xanım, siz də dünən cənab Prezident ilə bərabər Bakı Olimpiya stadionunun açılışında iştirak etdiniz. Mən sizi televiziya vasitəsilə izlədim. Sizi I Avropa oyunları münasibətilə təbrik edirəm. Bu oyunlar ilk dəfə bizdə keçirilir. Ölkəmizin idmançılarını təbrik edir, onlara uğurlar arzulayıram.

**İ l h a m   Ə l i y e v:** Sən də oyunlara gəl.

**M e h r i b a n   Ə l i y e v a:** Biz də səni oyunlara dəvət edirik. Oyunların açılışını və bütün yarışları izləyərsən.

**İ l h a m   Ə l i y e v:** Görürəm, sən də bizim fəaliyyətimizi izləyirsən. TANAP-dan danışdın, bütün Azərbaycan xalqı, sənin kimi uşaqlar gələcəkdə bu layihədən bəhrələnəcəklər.

**M e h r i b a n   Ə l i y e v a:** Sən indi neçənci sinifdə oxuyursan?

**Ü m i d   H ə b i b o v:** Beşinci sinifdə.

**M e h r i b a n   Ə l i y e v a:** Beşinci sinfi bitirib, altıncı sinfə keçirsən. Xarici dilləri öyrənirsən?

**Ü m i d   H ə b i b o v:** Bəli. Bildiyiniz kimi, mən Gəncə şəhər 27 saylı məktəb-liseydə xüsusi istedadlıların sinfinə imtahan verərək, dördüncü sinifdə oraya qəbul olunmuşam. Dördüncü sinfi bitirəndən sonra indi orada oxuyuram.

**M e h r i b a n   Ə l i y e v a:** Orada ingilis dili keçirsiniz?

**Ü m i d   H ə b i b o v:** Bu ildən ingilis dilinə, rus dilinə başlayırıq.

**M e h r i b a n Ə l i y e v a:** Əla, rus dilini də öyrənirsən.

**İ l h a m Ə l i y e v:** Rus dilini öyrənirsən, çox yaxşı. Bəs ümumiyyətlə, necə oxuyursan?

**Ü m i d H ə b i b o v:** Dərslərimiz yüksək səviyyədə keçirilir.

**İ l h a m Ə l i y e v:** Sənin üçün tort bişiriblər.

**M e h r i b a n Ə l i y e v a:** Ad günü tortunu sən gərək özün kəsəsən. *Ümid Həbibov və Mehriban xanım Əliyeva tortu kəsdilər.*

**İ l h a m Ə l i y e v:** Gəncədə işlər necədir, yaxşıdır?

**Ü m i d H ə b i b o v:** Bəli, çox yaxşıdır. Şəhərimiz gündən-günə gözəlləşir.

**İ l h a m Ə l i y e v:** Çox gözəl. Mən hər il Gəncədə oluram. Keçən il orada təsadüfən səninlə görüşdük və çox yaxşı bir görüş oldu. Dərhal gördüm ki, sən çox istedadlı, Vətənə bağlı və bilikli uşaqsan. Mənim fəaliyyətimi də izləyirsən.

**Ü m i d H ə b i b o v:** Atam daim xəbərləri izləyir. Mən də onunla bərabər izləyirəm.

**İ l h a m Ə l i y e v:** Bakıda olmusan?

**Ü m i d H ə b i b o v:** Bəli, bir neçə dəfə olmuşam. Hətta İçərişəhərə də getmişəm. Qız qalasına girə bilməsəm də, görmüşəm.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. İndi Qız qalası təmirdən sona açılıb, gedib baxa bilərsən. Bakıda görməli yerlər çoxdur.

**Ü m i d H ə b i b o v:** Bəli, Heydər Əliyev Mərkəzi ilə də tanış oldum.

**M e h r i b a n Ə l i y e v a:** Orada yaxşı maşın sərgisi var, ona baxdın? Maraqlıdır.

**Ü m i d H ə b i b o v:** Bəli, gördüm. Ulu öndər Heydər Əliyevin istifadə etdiyi maşınları da gördüm.

**İ l h a m Ə l i y e v:** Gəncədə də görməli yerlər, tarixi abidələr çoxdur. Gəncə indi çox sürətlə inkişaf edir.

**Ü m i d H ə b i b o v:** Elə bizim məktəbin yanında da çoxlu sayda tarixi abidələr var. *Sonda prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ümidlə şəkil çəkdirdilər.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ananız Səkinə Peyvəndinin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 mart 2015-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının birinci Baş naziri, görkəmli dövlət xadimi Li Kuan Yunun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, mərhumun ailəsinə və bütün Sinqapur xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 mart 2015-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

«Germanwings» şirkətinə məxsus «A320» təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Almaniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 mart 2015-ci il*

# İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

Əlahəzrət!

«Germanwings» şirkətinə məxsus «A320» təyyarəsinin Fransanın cənub-şərqində qəzaya uğraması nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 mart 2015-ci il*

## SEYŞEL ADALARI RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DİK ESPARON İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Seyşel Adaları Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Dik Esparonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Dik Esparon Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dik Esparon etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Seyşel Adaları Respublikasının Prezidenti Ceyms Aleks Mişelin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin prezidentinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə nizama salınması ilə bağlı verdiyi dəstəyi də prezident İlham Əliyevin diqqətinə çatdırdı.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə nizama salınması ilə bağlı ədalətli mövqeyinə görə Seyşel Adaları Respublikasının Prezidentinə təşəkkürünü bildirdi. Beynəlxalq hüquq normalarının Ermənistan tərəfindən kobud şəkildə pozulması nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğala məruz qaldığını vurğulayan prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi 4 qətnamənin*

*20 ildən artıq vaxt keçməsinə baxmayaraq hələ də yerinə yetirilmədiyini təəssüflə qeyd etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu, enerji, balıqçılıq, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Ceyms Aleks Mişelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Seyşel Adaları Respublikası dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## QEYDLƏR

**1. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 5–35.

**2. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 5– 35, 225.

**3. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 6, 67, 97, 117, 155–156, 345.

**4. Simonetta Sommaruqa** (d.1960) – İsveçrə siyasətçisi. 2013–2014-cü illərdə İsveçrənin vitse-prezidenti, 2015-ci ildə isə prezidenti olmuşdur. – 7.

**5. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına

məxsusdur. Paytaxtı Paris şəhəridir. – 8, 32, 101, 107, 111, 130, 159, 237, 348.

**6. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 9, 135, 138, 141, 144, 214, 215, 304–306.

**7. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 11, 20, 86–93, 97, 107, 109, 110, 111, 115, 116, 123–124, 125, 159, 200, 219, 233.

**8. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 16, 67.

**9. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 16, 22, 23, 51, 97, 98, 135–154, 209, 212, 213, 215, 216, 224, 289, 303, 305, 306, 309, 312, 313, 314, 336.

**10. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 17, 107, 227.

**11. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 18, 88.

**12. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 18, 135, 144.

**13. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ

üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 20, 98, 108, 143, 144, 150, 174, 194, 206, 217, 218, 220, 224, 226.

**14. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmış, 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 20, 52, 212, 295, 311, 314.

**15. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 21, 94, 97, 98, 138, 145–146, 187–189, 287–319.

**16. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 24–29, 42, 184, 231, 249–251.

**17. Monako,** M o n a k o K n y a z l ı ğ ı – Cənubi Avropada, Aralıq dənizi sahilində dövlət. Sahəsi 2,02 km$^2$, əhalisi 37,3 min nəfərdir. İnzibati cəhətdən 3 mahal – şəhərdən ibarətdir.

Monako Knyazlığı konstitusiyalı monarxiyadır. Dövlət başçısı knyazdır. Qanunverici hakimiyyət knyaza və Milli Şuraya (parlamentə) məxsusdur. Paytaxtı Monako şəhəridir. – 27, 30.

**18. II Albert** (d.1958) – 2005-ci ildən Monako şahzadəsi. – 27, 30.

**19. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 31, 88, 97, 98, 110–116, 146, 291–319.

**20. GDF de FRANCE Suez** – Fransada ən böyük enerji və qaz şirkəti 2008-ci ildə Gaz de France və Suez şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır və əsasən Fransa hökumətinə (35,7% səhmlərinə) məxsusdur. Şirkət elektrik enerjisinin ötürülməsi, neftin çıxarılması, təbii qazın nəqli ilə alternativ enerji mənbələrinin fəaliyyətini həyata keçirir. Hal-hazırda şirkət Engie SA adlanır. – 32.

**21. Avstraliya,** Avstraliya İttifaqı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 24 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və 2 əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 33.

**22. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2

müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 36, 37.

**23. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı Kralı. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğlu. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. – 36, 37.

**24. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 68, 74, 80, 82, 83, 86, 95, 106, 184, 185, 192, 231, 232, 234, 249–251, 252, 323, 324, 330, 339, 342.

**25. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 75, 98, 99, 145, 148, 193, 201–227..

**26. Rosen Plevneliev** (d.1964) –Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 75, 193, 202–207, 223–227.

**27. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 77, 98.

**28. Sercio Mattarella** (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 77.

**29. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat

və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 79, 107, 111, 113, 115, 116, 149–150, 157, 159, 160, 161, 296, 303.

**30. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m- m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. – 87.

**31. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 86–93.

**32. İosif Kobzon** (d.1937) – SSRİ və Rusiya Federasiyasının Xalq artisti, estrada müğənnisi, ictimai xadim, pedaqoq, Rusiya Federasiyası Dövlət Dumasının (2–7-ci çağırışlar) deputatı.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 88–89.

**33. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya

hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 89, 115.

**34. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi, Türkiyə Cümhuriyyətinin Prezidenti. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 94, 188, 189, 290–319.

**35. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 95–116, 347.

**36. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 98, 136, 219, 225, 309, 312, 336.

**37. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assamble-

yası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 103.

**38. Torbyorn Yaqland** (d.1950) – Norveçin dövlət və siyasi xadimi. 2009-cu ildən Avropa Şurasının Baş katibidir. O həmçinin Norveç Nobel Komitəsinin sədridir. – 103.

**39. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 103, 106, 109, 110, 111, 112, 113, 114, 159, 160, 226, 227, 232, 241, 244, 275, 298, 322, 334.

**40. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 34,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 105, 197, 260.

**41. Füzuli** (1959-cu lədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 115.

**42. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 106, 108, 114, 219.

**43. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 107, 110, 111, 113, 159, 334.

**44. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 108, 115, 227.

**45. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 112, 113, 115, 190–192, 241, 244, 322.

**46. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə

aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 112.

**47. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 113.

**48. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 113, 115, 334.

**49. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 115, 130, 237.

**50. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını gös-

tərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 123, 135, 175, 192, 223, 263, 264, 269, 288, 291–299, 308, 331.

**51. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 125.

**52. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 126, 129.

**53. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 133.

**54. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 133.

**55. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 135, 137, 311.

**56. Azəri–Çıraq–Günəşli –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən

bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 137, 311.

**57. Tanər Yıldız** (d.1962) – Türkiyə siyasətçisi, mühəndis. 2009–2015-ci illərdə Türkiyə Cümhuriyyətinin Energetika və Təbii Sərvətlər naziri olmuşdur. – 145–146, 153, 303, 306–307.

**58. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 150–151, 195.

**59. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 155–156.

**60. Küveyt,** Küveyt dövləti – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 172.

**61. Əl-Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 172.

**62. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014–2015 və 2015-ci ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 188–189, 190.

**63. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 188, 189.

**64. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 192.

**65. Pakistan,** P a k i s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 192, 238–262, 327.

**66. AŞPA-nın Monitorinq Komitəsi** – 1993-cü ildə yaradılmışdır. Avropa Şurası Parlament Assambleyasının Hüquq siyasəti və İnsan hüquqları komissiyaları AŞ-a qəbul edilmiş yeni dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri necə yerinə yetirmələrini yoxlayır və hesabat verirlər. Təqdim olunan məruzələr parlament üzvləri tərəfindən müzakirə edilir. – 196.

**67. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi

idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 225.

**68. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 227, 244, 255.

**69. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 228–229.

**70. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 230–232, 284.

**71. Roma katolik kilsəsi –** Roma Papasının rəhbərlik etdiyi dünyanın ən böyük xristian kilsəsi. Dünya katolik kilsəsi – 1 Latın mərasim kilsəsindən və 22 Şərqi katolik kilsədən ibarətdir. Bu kilsələrin hamısı Roma Papasına tabedir. Kilsə keşişlərini həvariyinlərin varisləri kimi, Roma Papasını isə müqəddəs Pyotrun varisi kimi tanıyırlar. 1054-cü ildə İstanbul pat-

riarxı və Roma Papasının nümayəndələri arasında ayrılma baş verdi. Bundan sonra birinci kilsə Pravoslav kilsəsi, yaxud Şərqi pravoslav kilsəsi, ikinci isə Katolik kilsəsi adlanır. – 231.

**72. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013-cü ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 238–262, 327.

**73. Kəşmir problemi** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərb hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 241, 244, 247.

**74. Hafiz Paşayev,** Hafiz Mir Cəlal oğlu (d.1941) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Xarici İşlər nazirinin müavini, diplomat, ADA Universitetinin rektoru. 1993–2006-cı illərdə ABŞ-da (eyni zamanda, Meksika və Kanadada) Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 242.

**75. Azərbaycan Diplomatik Akademiyası** (ADA Universiteti), Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc

alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 242.

**76. Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri – XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Möminə xatun türbəsini, böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldənizlər sarayını yaratmışdır. – 276.

**77. Bərdə türbəsi** – Bərdə şəhərində tarixi memarlıq abidəsi. 1322-ci ildə tikilmiş türbənin memarı Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvanidir. Hündürlüyü 12,5 m olan Bərdə türbəsi gövdədən və konusvari günbəzdən ibarətdir.

Bərdə türbəsinin bütün səthi füruzəyi kərpiclə naxışlanmışdır. Hörgünün kərpic naxışlarında «Allah» sözü mütənasib şəkildə təkrarlanır. Türbənin Elxanilər sülaləsindən bir nəfər üçün tikildiyi ehtimal olunur. – 276.

**78. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 282.

**79. Maykl Higgins** (d.1941) – İrlandiya siyasətçisi, şair, yazıçı, sosioloq. 2011-ci ildən İrlandiya Respublikasının Prezidentidir. – 282.

**80. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 286.

**81.** ***bp,*** «B r i t i s h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 289, 312, 313.

**82. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 291–319.

**83. Bəxtiyar Vahabzadə,** B ə x t i y a r M a h m u d o ğ l u (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 297.

**84. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 302–303.

**85. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdılar. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni «Beynəlxalq Novruz Günü» elan etmişdir. – 297, 320–321, 330–341.

**86. Sudan,** S u d a n R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 40,2 milyon

nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartum şəhəridir. – 322.

**87. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudanın hərbi və dövlət xadimi, 1993-cü ildən Sudan Respublikasının Prezidentidir. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 322.

**88. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 329.

**89. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1487–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14 354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri

soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 335.

**90. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 335.

**91. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 $km^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 346.

**92. Toni Yam** (d.1940) – Sinqapur siyasətçisi, bankir və riyaziyyatçı. 2011–2017-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. –346.

**93. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 347.

**94. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min $km^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament – Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 348.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Rövnəq** – 302–303
**Abutalıbov Hacıbala** – 85
**Ağa Rabiya** – 262
**Al Səud Abdullah** – 36,37
**Al Səud Salman** – 36, 37
**Alibasov Bari** – 89
**Aqramunt Pedro** – 196
**II Albert** – 27, 30
**Atambayev Almazbek** – 129
**Aytjanova Janar** – 18
**Babar İftixar** – 262
**Barrozu Joze** – 18,135,144
**Bayramov Niyazi** – 175
**Bervar Mitya** – 198
**Birrell Qordan** – 151
**Bokel Jan-Mari** – 130
**Borisov Boyko** – 208–221
**Bolkiah Hacı Həssənal** – 163
**Botev Xristo** – 225
**Buranov Aycigit** – 126
**Buteflika Əbdüləziz** – 131
**Bülbül** – 87
**Bülbüloğlu Polad** – 86–93
**Çakrabarti Suma** – 18
**Çavuşoğlu Mövlud** – 188–189, 190
**Dadli Robert** – 23, 289
**Damen Kommer** – 12
**Davudoğlu Əhməd** – 188, 189
**Dementyev Andrey** – 90

**Doqa Yevgeni** – 89
**Dvorkoviç Arkadi** – 125
**Dialuse Gilberto** – 148–149
**Endryu Pyer** – 159
**Əl-Bəşir Ömər** – 322
**Əl-Tani Təmim** – 38–39
**Əliyev Heydər** – 123, 135, 175, 192, 223, 263, 264, 269, 288, 291–299, 308, 331
**Əliyev Natiq** – 141,144
**Əliyeva Leyla** – 192
**Əliyeva Mehriban** – 68, 74, 80, 82, 83, 86, 95, 106, 184, 185, 192, 231, 232, 234, 249–251, 252, 323, 324, 330, 339, 342
**Əlizadə Niyaz** – 262
**Ərdoğan Rəcəb Tayyib** – 94, 188, 189, 290–319
**Əs-Sabah əl-Cabir** – 172
**Əs-Sebsi Beji** – 286
**Əs-Sulaiti Cassim** – 285
**Əsədov Oqtay** – 190
**VI Felipe** – 348
**Fransisk** *(papa)* – 231, 284
**Fuelster Karsten** – 152
**Gəncəvi Nizami** – 225
**Hokstayn Amos** – 149–150, 157, 303
**Harris Devid** – 79
**Həbibov Ümid** – 342–344
**Hendri Çarlz** – 195
**Higgins Maykl** – 282
**Hikki Patrik** – 27–29
**Hüseyn Məmnun** – 238–262, 327
**Hüseynov Rafiq** – 168–169
**İlves Toomas** – 164
**İsayev Vidadi** – 263

**İşinger Volfqanq** – 96
**İvanov George** – 102
**Kaladze Kaxa** – 146
**Karti Əli** – 322
**Kasprşik Anji** – 159
**Kərimov Emil** – 210
**Kerri Con** – 115, 303
**Kobzon İosif** – 88–89
**Komorovski Bronislav** – 194
**I Konstantin** – 222
**Kramer Ronald** – 122
**Kostin Andrey** – 200
**Kosqrou Piter** – 33
**Kudayberdiyev Abibilla** – 129
**Kumar Vinod** – 40
**Qani Məhəmməd** – 105, 197
**Qaribaşvili İrakli** – 31, 116
**Qref German** – 11
**Qribauskayte Dalya** – 133
**Ojiknuri Damian** – 147–148
**Lafazanis Panagiotis** – 146–149, 158
**Lambrinidis Stavros** – 174
**Levitin İqor** – 233
**Li Kuan Yun** – 346
**Lö Drian Jan-İv** – 101
**Marqvelaşvili Giorgi** – 291–319
**Mattarella Sercio** – 77
**Medina Danilo** – 173
**Medvedev Dmitri** – 125
**Merkel Angela** – 347
**Məmmədov Rüfət** – 262
**Məmnun Mehmuda** – 252
**Mladek Yan** – 199
**Moskovski İvaylo** – 210
**Muffa Kamil** – 237

**M.D. Əbdül Həmid** – 329
**Murodov Curabek** – 90
**Naxçıvani Əcəmi** – 276
**Naxçıvani Əhməd** – 276
**Nalberştad Viktor** – 15–17
**Niinistö Sauli** – 104
**Nəhavəndian Məhəmməd** – 6
**Nikoliç Tomislav** – 132
**Nuland Viktoriya** – 160
**Obama Barak** – 303
**Olland Fransua** – 115, 130, 237
**Özdəmir Günay** – 300
**Pahor Borut** – 106–116, 198
**Palanza Flavia** – 151
**Parker Martin** – 10
**Parolin Pietro** – 232
**Paşayev Hafiz** – 242
**Pavlopulos Prokopis** – 162, 328
**Petkova Temenujka** – 148
**Peres Şimon** – 13
**Plevneliev Rosen** – 75, 193, 202–207, 223–227
**Popov İqor** – 159
**Putin Vladimir** – 89, 115
**Rəcəbov Nurəddin** – 169–170
**Rəhimov Azad** – 187, 284
**Ruhani Həsən** – 67, 117, 155–156, 345
**Rzayev Baba** – 118
**Sekuta Robert** – 161
**Sereteli Zurab** – 89
**Siddiq İrfan** – 150–151
**Sirisena Maytripala** – 78
**Sial Amcad** – 242
**Smirnov Vitali** – 134
**Sommaruqa Simonetta** – 7
**Soros Corc** – 14

**Şevçoviç Maroş** – 9,141–144,152–153, 304–306
**Şərifov Samir** – 80
**Şossad Jan-Lui** – 32
**Şvab Klaus** – 35
**Şvidkoy Mixail** – 89
**Şikarov Daşqın** – 242
**Talamoni Jan-Pyer** – 8
**Tayebnia Əli** – 67
**Tsipras Aleksis** – 76
**Uolter Robert** – 283
**Uorlik Ceyms** – 159
**Usubov Ramil** – 127
**Vahabzadə Bəxtiyar** – 297
**Yaqland Torbyorn** – 103
**Vuçiç Aleksandr** – 100, 116
**Yam Toni** – 346
**Yazov İvan** – 225
**Yıldız Tanər** – 145–146, 153, 303, 306–307
**Yusfi Yosef** – 131
**I Yustinian** – 222
**Zeybəkçi Nihat** – 94
**Zərif Məhəmməd** – 155–156
**Züqanov Gennadi** – 123–124

## Coğrafi adlar göstəricisi


**Afrika** – 27
**Ağdam** – 113,115, 334
**Albaniya** – 98, 147–148
**Almaniya** – 95–116, 347
**Amerika Birləşmiş Ştatları** – 79, 107, 111, 113, 115, 116, 149–150, 157, 159, 160, 161, 192, 296, 303
**Anadolu** – 296, 298
**Ankara** – 294, 298
**Antalya** – 298
**Aralıq dənizi** – 97, 138
**Asiya** – 27, 212
**Avrasiya** – 160
**Avropa** – 16, 20, 21, 22, 23, 27, 43, 92, 97, 98, 106, 112, 113, 143, 160, 206, 212, 296, 298
**Avstraliya** – 33
**Avstriya** – 99
**Balkan** (*yarımada)* – 297, 313
**Banqladeş** – 329
**Bərdə** – 263–281
**Bolqarıstan** – 75, 98, 99, 145, 148, 193, 201–227
**Bosniya və Herseqovina** – 112, 192, 219
**Böyük Britaniya** – 150–151, 195
**Bruney-Darüssalam** – 163
**Cəmmu** – 241, 244, 247
**Ceyhan** – 294, 296

**Cənub-Şərqi Avropa** – 224
**Cənubi Qafqaz** – 57, 98, 110, 192
**Çexiya** – 192, 199
**Çin** – 20
**Dağıstan** – 298
**Dağlıq Qarabağ** – 103, 106, 109, 110, 111, 112, 113, 114, 159, 160, 226, 227, 232, 241, 244, 275, 298, 322, 334
**Davos** – 5–35
**Dərbənd** – 298
**Dominikan** – 173
**Estoniya** – 164
**Əfqanıstan** – 105, 197, 260
**Əlcəzair** – 131
**Əliağa** – 294
**Ərzurum** – 138, 298
**Finlandiya** – 104
**Fransa** – 8, 32, 101, 107, 111, 130, 159, 237, 348
**Füzuli** – 115
**Gəncə** – 57, 298, 342–344
**Göyçə** – 335
**Gümrü** – 115
**Gürcüstan** – 21, 31, 88, 97, 98, 110, 116, 146, 291–319
**Hindistan** – 40, 247, 260
**Honduras** – 192
**Xankəndi** – 190
**Xəzər dənizi** – 26, 97, 138, 312
**Xocalı** – 112, 113, 115, 190–192, 241, 244, 322
**Xorvatiya** – 98, 116, 219
**İordaniya** – 192
**İran** – 6, 67, 97, 117, 155–156, 345

**İrəvan** – 115, 335
**İrlandiya** – 282
**İspaniya** – 348
**İsrail** – 13
**İsveçrə** – 5–35
**İtaliya** – 77, 98
**Kanada** – 192
**Kəşmir** – 241, 244, 247
**Kolumbiya** – 192
**Kocaeli** – 294
**Krım** – 113
**Küveyt** – 172
**Qafqaz** – 110
**Qara dəniz** – 97, 138
**Qars** – 287–319
**Qazaxıstan** – 18, 88
**Qətər** – 38–39, 285
**Qırğız Respublikası** – 126, 129
**Qusar** – 68–74
**Lerik** – 72
**Litva** – 133
**Macarıstan** – 99, 219
**Makedoniya** – 102
**Meksika** – 192
**Mingəçevir** – 57, 175–187
**Münhen** – 95–116
**Moldova** – 88
**Monako** – 27, 30
**Monteneqro** – 98, 219
**Moskva** – 86–93
**Naxçıvan Muxtar Respublikası**– 42
**Niderland** – 12
**Orta Asiya** – 297
**Özbəkistan** – 88
**Pakistan** – 192, 238–262, 327

**Paris** – 115
**Peru** – 192
**Polşa** – 194
**Rumıniya** – 92
**Rusiya** – 11, 20, 86–93, 97, 107, 109, 110, 111, 115, 116, 123–124, 125, 159, 200, 219, 233
**Serbiya** – 100, 116, 132
**Seyşel Adaları Respublikası** – 349–350
**Səudiyyə Ərəbistanı** – 36, 37
**Sinqapur** – 346
**Sloveniya** – 198
**Sofiya** – 201–227
**Sudan** – 322
**Şri-Lanka** – 78
**Şuşa** – 113
**Tacikistan** – 88
**Tbilisi** – 138
**Tunis** – 286
**Türkiyə** – 21, 94, 97, 98, 128, 145–146, 187–189, 287–319
**Türkmənistan** – 260
**Ukrayna** – 43, 106, 108, 114, 219
**Vatikan** – 230–232, 284
**Yaxın Şərq** – 43, 92
**Yunanıstan** – 76, 98, 146–147, 158, 162, 219, 328
**Zəngəzur** – 335

# MÜNDƏRİCAT

İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*21 yanvar 2015-ci il*.........................................................................*5*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ MƏHƏMMƏD NƏHAVƏNDİAN İLƏ GÖRÜŞ

*21 yanvar 2015-ci il*.........................................................................*6*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM SİMONETTA SOMMARUQA İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il*.........................................................................*7*

«AİRBUS GROUP INTERNATİONAL» ŞİRKƏTİNİN DİREKTORU JAN-PYER TALAMONİ İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il*.........................................................................*8*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il*.........................................................................*9*

«SWİSS RE GLOBAL PARTNERSHİPS» ŞİRKƏTİNİN SƏDRİ MARTİN PARKER İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il*.......................................................................*10*

«SBERBANK»IN SƏDRİ GERMAN QREF İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il*.......................................................................*11*

NİDERLANDIN «DAMEN SHİPYARDS GROUP» ŞİRKƏTİNİN SƏDRİ KOMMER DAMEN İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.........................................................................12*

İSRAİL DÖVLƏTİNİN SABİQ PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.........................................................................13*

SOROS FONDUNUN TƏSİSÇİSİ CORC SOROS İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.........................................................................14*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «REGİONLARIN TRANSFORMASİYASI: AVRASİYA» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*22 yanvar 2015-ci il.........................................................................15*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «DÜNYA İQTİSADİ LİDERLƏRİNİN QEYRİ-FORMAL TOPLANTISI: ENERJİ GEOSİYASƏTİ ÜZRƏ YENİ QLOBAL KONTEKST» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*22 yanvar 2015-ci il.........................................................................22*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.........................................................................23*

«BAKI–2015» İLK AVROPA OYUNLARININ TƏQDİMATI MƏRASİMİNDƏ İŞTİRAK

*22 yanvar 2015-ci il.........................................................................24*

MONAKO ŞAHZADƏSİ II ALBERT İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.........................................................................30*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.............................................................................31*

«GAZ DE FRANCE SUEZ» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JAN-LUİ ŞOSSAD İLƏ GÖRÜŞ

*22 yanvar 2015-ci il.............................................................................32*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROUNA

*22 yanvar 2015-ci il.............................................................................33*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «ZORAKI EKSTREMİZMİN ÖHDƏSİNDƏN GƏLİNMƏSİ» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*23 yanvar 2015-ci il.............................................................................34*

DÜNYA İQTİSADİ FORUMUNUN SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*23 yanvar 2015-ci il.............................................................................35*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*23 yanvar 2015-ci il ............................................................................36*

SƏUDİYYƏ ƏRƏBİSTANININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ KRAL ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*24 yanvar 2015-ci il.............................................................................37*

QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SƏYYAR BİN ƏBDÜRRƏHMAN CƏSİM ƏL-MÜAVİDƏ İLƏ GÖRÜŞ

*24 yanvar 2015-ci il.............................................................................38*

HİNDİSTAN RESPUBLİKASININ AZƏRBAYCAN-
DAKI SƏFİRİ VİNOD KUMAR İLƏ GÖRÜŞ

*24 yanvar 2015-ci il*......................................................................................*40*

«AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*27 yanvar 2015-ci il..........................................................................41*

YEKUN NİTQİ

*27 yanvar 2015-ci il..........................................................................52*

İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ MƏSƏLƏLƏR VƏ MALİYYƏ NAZİRİ ƏLİ TAYEBNİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 yanvar 2015-ci il..........................................................................67*

QUSAR RAYONUNA SƏFƏR

*29 yanvar 2015-ci il..........................................................................68*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİEVƏ

*31 yanvar 2015-ci il..........................................................................75*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSİS TSİPRASA

*2 fevral 2015-ci il ............................................................................76*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*2 fevral 2015-ci il ............................................................................77*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA

*2 fevral 2015-ci il ............................................................................78*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 fevral 2015-ci il* ........................................................................................ *79*

I AVROPA OYUNLARI ÜÇÜN YARADILAN AVTOBUS DEPOSU VƏ TƏLİM MƏRKƏZİNDƏ GÖRÜLƏN İŞLƏRLƏ, ZIĞ GÖLÜNÜN KOMPLEKS BƏRPASI LAYİHƏSİ İLƏ TANIŞLIQ

*3 fevral 2015-ci il* ........................................................................................ *80*

BAKI İDMAN SARAYINDA YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 fevral 2015-ci il* ........................................................................................ *83*

XƏTAİ RAYONU ƏRAZİSİNDƏ YENİ YARADILAN FƏVVARƏLƏR VƏ ŞƏLALƏLƏR KOMPLEKSİ İLƏ TANIŞLIQ

*4 fevral 2015-ci il* ........................................................................................ *85*

POLAD BÜLBÜLOĞLUNUN 70 İLLİK YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLƏN BİR QRUP TANINMIŞ MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMİ İLƏ GÖRÜŞ

*4 fevral 2015-ci il* ........................................................................................ *86*

TÜRKİYƏ RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRİ NİHAT ZEYBƏKÇİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 fevral 2015-ci il* ........................................................................................ *94*

ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*5 fevral 2015-ci il* ........................................................................................ *95*

TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ «ŞAXƏLƏNDİRMƏ STRATEGİYALARI» MÖVZUSUNDA «DƏYİRMİ MASA»DA İŞTİRAK

*6 fevral 2015-ci il .......................................................................................96*

SERBİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ALEKSANDR VUÇİÇ İLƏ GÖRÜŞ

*6 fevral 2015-ci il .....................................................................................100*

FRANSA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ JAN-İV LÖ DRİAN İLƏ GÖRÜŞ

*6 fevral 2015-ci il .....................................................................................101*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*6 fevral 2015-ci il .....................................................................................102*

AVROPA ŞURASININ BAŞ KATİBİ TORBYORN YAQLAND İLƏ GÖRÜŞ

*6 fevral 2015-ci il .....................................................................................103*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ SAULİ NİİNİSTÖ İLƏ GÖRÜŞ

*7 fevral 2015-ci il .....................................................................................104*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*7 fevral 2015-ci il .....................................................................................105*

TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ «UKRAYNADAN ƏLAVƏ – AVROPADA HƏLL OLUNMAMIŞ MÜNAQİŞƏLƏR» MÖVZUSUNDA PANEL MÜZAKİRƏSİNDƏ İŞTİRAK

*7 fevral 2015-ci il .....................................................................................106*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*9 fevral 2015-ci il* ........................................................................... *117*

110 KİLOVOLTLUQ «AĞ ŞƏHƏR -1», «HƏZİ ASLANOV», «KÜRDƏXANI» ELEKTRİK YARIMSTANSİYALARININ VƏ 35 KİLOVOLTLUQ 7 YARIMSTANSİYANIN AÇILIŞI MƏRASİMİ

*9 fevral 2015-ci il* ........................................................................... *118*

AVROPA STOLÜSTÜ TENNİS BİRLİYİNİN PREZİDENTİ
RONALD KRAMER İLƏ GÖRÜŞ

*9 fevral 2015-ci il* ........................................................................... *122*

RUSİYA DÖVLƏT DUMASINDA KOMMUNİST PARTİYASI FRAKSİYASININ SƏDRİ GENNADİ ZÜQANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 fevral 2015-ci il* ........................................................................... *123*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ
ARKADİ DVORKOVİÇ İLƏ GÖRÜŞ

*10 fevral 2015-ci il* ......................................................................... *125*

QIRĞIZ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AYCİGİT BURANOV İLƏ GÖRÜŞ

*10 fevral 2015-ci il* ......................................................................... *126*

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MÜXTƏLİF QURUMLARI, O CÜMLƏDƏN YOL POLİSİ ƏMƏKDAŞLARI ÜÇÜN YENİ ALINAN AVTOMOBİLLƏRİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*10 fevral 2015-ci il* ......................................................................... *127*

QIRĞIZ RESPUBLİKASININ MÜDAFİƏ
NAZİRİ ABİBİLLA KUDAYBERDİYEV İLƏ GÖRÜŞ

*10 fevral 2015-ci il* ......................................................................... *129*

FRANSA SENATININ ÜZVÜ JAN-MARİ BOKELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 fevral 2015-ci il* ........................................................................... *130*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ ENERGETİKA NAZİRİ YOSEF YUSFİ İLƏ GÖRÜŞ

*11 fevral 2015-ci il* ........................................................................... *131*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMİSLAV NİKOLİÇƏ

*12 fevral 2015-ci il* ........................................................................... *132*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*12 fevral 2015-ci il* ........................................................................... *133*

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN ZVÜ, RUSİYA OLİMPİYA KOMİTƏSİNİN FƏXRİ PREZİDENTİ VİTALİ GEORGİYEVİÇ SMİRNOVA

*12 fevral 2015-ci il* ........................................................................... *134*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN GÖRÜŞÜNDƏ İŞTİRAK

*12 fevral 2015-ci il* ........................................................................... *135*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 fevral 2015-ci il* ........................................................................... *155*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XÜSUSİ ELÇİSİ VƏ ƏLAQƏLƏNDİRİCİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 fevral 2015-ci il* ........................................................................... *157*

YUNANISTAN RESPUBLİKASININ MƏHSULDAR İSTEHSAL, ƏTRAF MÜHİT VƏ ENERGETİKA NAZİRİ PANAGİOTİS LAFAZANİS İLƏ GÖRÜŞ

*12 fevral 2015-ci il* ......................................................................... *158*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*16 fevral 2015-ci il* ......................................................................... *159*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ VİKTORİYA NULANDIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 fevral 2015-ci il* ......................................................................... *160*

ABŞ-ın AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ROBERT SEKUTA İLƏ GÖRÜŞ

*19 fevral 2015-ci il* ......................................................................... *161*

YUNANISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*20 fevral 2015-ci il* .......................................................................... *162*

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*20 fevral 2015-ci il* .......................................................................... *163*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*20 fevral 2015-ci il* .......................................................................... *164*

YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ DÜNYA KUBOKU YARIŞLARINDA QALİB GƏLMİŞ MİLLİ KOMANDAMIZIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*23 fevral 2015-ci il ....................................................................................165*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*23 fevral 2015-ci il ....................................................................................172*

DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO MEDİNAYA

*24 fevral 2015-ci il ....................................................................................173*

AVROPA İTTİFAQININ XÜSUSİ NÜMAYƏNDƏSİ STAVROS LAMBRİNİDİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2015-ci il ....................................................................................174*

MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*24 fevral 2015-ci il ....................................................................................175*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 fevral 2015-ci il ....................................................................................188*

XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2015-ci il ....................................................................................190*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİEVƏ

*27 fevral 2015-ci il ....................................................................................193*

POLŞA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MAREK TSALKA İLƏ GÖRÜŞ

*27 fevral 2015-ci il* ............................................................................. *194*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİ İLƏ GÖRÜŞ

*2 mart 2015-ci il* ............................................................................. *195*

AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİSİ PEDRO AQRAMUNTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 mart 2015-ci il* ............................................................................. *196*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*3 mart 2015-ci il* ............................................................................. *197*

SLOVENİYA RESPUBLİKASI PARLAMENTİ MİLLİ ŞURASININ SƏDRİ MİTYA BERVARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2015-ci il* ............................................................................. *198*

ÇEX RESPUBLİKASININ SƏNAYE VƏ TİCARƏT NAZİRİ YAN MLADEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2015-ci il* ............................................................................. *199*

RUSİYA FEDERASİYASI «VTB» BANKININ PREZİDENTİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*3 mart 2015-ci il* ............................................................................. *200*

BOLQARISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*3 mart 2015-ci il* ............................................................................. *201*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*4 mart 2015-ci il*.........................................................................*202*

NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*4 mart 2015-ci il*.........................................................................*203*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*4 mart 2015-ci il*.........................................................................*204*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*4 mart 2015-ci il*.........................................................................*205*

«AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BOLQARISTAN RESPUBLİKASI ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏ»NİN İMZALANMASI MƏRASİMİ

*4 mart 2015-ci il*.........................................................................*207*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*4 mart 2015-ci il*.........................................................................*208*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*4 mart 2015-ci il*.........................................................................*209*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*4 mart 2015-ci il*.........................................................................*210*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*4 mart 2015-ci il*.........................................................................*211*

MÜQƏDDƏS SOFİYA KİLSƏSİNİ ZİYARƏT

*4 mart 2015-ci il*.......................................................................................*222*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*4 mart 2015-ci il*.......................................................................................*223*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*5 mart 2015-ci il*.......................................................................................*228*

MÜQƏDDƏS TAXT-TACA – VATİKANA RƏSMİ SƏFƏR

*5 mart 2015-ci il*.......................................................................................*230*

KATOLİK KİLSƏSİNİN RƏHBƏRİ PAPA FRANSİSK İLƏ GÖRÜŞ

*6 mart 2015-ci il*.......................................................................................*231*

MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ KARDİNAL PİETRO PAROLİN İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*6 mart 2015-ci il*.......................................................................................*232*

RUSİYA PREZİDENTİNİN KÖMƏKÇİSİ, OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ İQOR LEVİTİN İLƏ GÖRÜŞ

*9 mart 2015-ci il*.......................................................................................*233*

BAKI ATICILIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*9 mart 2015-ci il*.......................................................................................*234*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*10 mart 2015-ci il*.....................................................................................*237*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
MƏMNUN HÜSEYNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 mart 2015-ci il*..........................................................................*238*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
MƏMNUN HÜSEYN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*11 mart 2015-ci il*..........................................................................*239*

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*11 mart 2015-ci il*..........................................................................*240*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*11 mart 2015-ci il*..........................................................................*242*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
MƏMNUN HÜSEYN İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*11 mart 2015-ci il*..........................................................................*243*

AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI
MEHRİBAN ƏLİYEVAYA PAKİSTANIN
«HİLAL-E-PAKİSTAN» ORDENİNİN TƏQDİM EDİLMƏSİ
MƏRASİMİNDƏ İŞTİRAK

*11 mart 2015-ci il*..........................................................................*249*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*11 mart 2015-ci il*..........................................................................*252*

AZƏRBAYCAN–PAKİSTAN BİZNES- FORUMUNDA İŞTİRAK

*12 mart 2015-ci il*..........................................................................*253*

BƏRDƏ RAYONUNA SƏFƏR

*12 mart 2015-ci il*..........................................................................*263*

REGİONAL «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ BƏRDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 mart 2015-ci il*..........................................................................*268*

İRLANDİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*13 mart 2015-ci il*..........................................................................*282*

AŞPA-nın SİYASİ İŞLƏR VƏ DEMOKRATİYA KOMİTƏSİNİN MƏRUZƏÇİSİ ROBERT UOLTER İLƏ GÖRÜŞ

*13 mart 2015-ci il*..........................................................................*283*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*16 mart 2015-ci il*..........................................................................*284*

QƏTƏR DÖVLƏTİNİN NƏQLİYYAT NAZİRİ CASSİM SAİF ƏHMƏD ƏS-SULAİTİ İLƏ GÖRÜŞ

*16 mart 2015-ci il*..........................................................................*285*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ

*17 mart 2015-ci il*..........................................................................*286*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*17 mart 2015-ci il*..........................................................................*287*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*17 mart 2015-ci il*..........................................................................*288*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*17 mart 2015-ci il*..........................................................................*289*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*17 mart 2015-ci il............................................................................290*

HEYDƏR ƏLİYEV ADINA ANADOLU TEXNİKİ-PEŞƏ LİSEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*17 mart 2015-ci il............................................................................291*

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*17 mart 2015-ci il............................................................................300*

TRANS–ANADOLU QAZ BORU KƏMƏRİ–TANAP-ın TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*17 mart 2015-ci il............................................................................301*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2015-ci il............................................................................320*

SUDAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ƏHMƏD KARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 mart 2015-ci il............................................................................322*

BAKI OLİMPİYA STADİONUNUN AÇILIŞI MƏRASİMİ

*18 mart 2015-ci il............................................................................323*

BAKI OLİMPİYA STADİONU ƏTRAFINDA YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*18 mart 2015-ci il............................................................................326*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*19 mart 2015-ci il............................................................................327*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*19 mart 2015-ci il............................................................................328*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MD. ƏBDÜL HƏMİDƏ

*19 mart 2015-ci il............................................................................329*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2015-ci il............................................................................330*

GƏNCƏNİN 11 YAŞLI SAKİNİ ÜMİD HƏBİBOVLA GÖRÜŞ

*19 mart 2015-ci il............................................................................342*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*20 mart 2015-ci il............................................................................345*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA

*23 mart 2015-ci il............................................................................346*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ

*24 mart 2015-ci il............................................................................347*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*24 mart 2015-ci il............................................................................348*

SEYŞEL ADALARI RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DİK ESPARON İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*..........*349*

QEYDLƏR..........*351*

*Şəxsi adlar göstəricisi*..........*374*

*Coğrafi adlar göstəricisi*..........*379*

---

**Texniki redaktor** ***Zoya Nəcəfova***

**Yığım üzrə operator** ***İlhamə Kərimova***

**Kompüter tərtibatı** ***Məhəbbət* Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.